Nazir Əhmədli

# Haqq-nahaqq seçilər Haqq divanında

**NAZİR ƏHMƏDLİ**

# HAQQ-NAHAQQ SEÇİLƏR HAQQ DİVANINDA

**Bakı-2017**

**Elmi redaktoru:**
Nizami Cəfərov,
*akademik, əməkdar elm xadimi*

**Rəyçi:**
Əli Şamil,
*tədqiqatçı-jurnalist,*
*AMEA Folklor İnstitutu*

**Nazir Əhmədli. Haqq-nahaqq seçilər Haqq divanında**
**Bakı, "NURLAR" Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2017, 288 səh.**

Kitabda XIX əsrdə yaşamış Azərbaycanın görkəmli söz ustadları Aşıq Ələsgər, Aşıq Alı, Ağ Aşıq, Aşıq Söyün Şəmkirli, Şair Məmmədhüseyn, Göyçəli Aşıq Musa və başqalarının doğum tarixləri yeni arxiv sənədlərinin əsasında müəyyənləşdirilmiş və folklorşünaslığımızdakı boşluqların aradan qaldırılması yolunda tarixi addım sayılacaq dəqiqləşdirmələr aparılmışdır. Müəyyən edilmişdir ki, yuxarıda adları çəkilən sənətkarların yaşları xeyli şişirdilmişdir.

Müəllif XIX əsrdə yaşamış və adları indiyə qədər elmi ictimaiyyətə məlum olmayan Aşıq Qara, Şair Mustafa və Aşıq Rüstəm kimi sənətkarları üzə çıxarmışdır.

**ISBN: 978-9952-507-20-1**

**© N.Əhmədli, 2017**

# HƏQİQƏTİN ARDINCA, YAXUD ELMİ REDAKTORDAN

Görkəmli tədqiqatçı-publisist Nazir Əhmədlinin "Haqq-nahaqq seçilər haqq divanında" kitabı, hər şeydən əvvəl ona görə dəyərlidir ki, müəllif yeni tapdığı mötəbər mənbələrə, tarixi sənədlərə əsaslanaraq indiyə qədər çox hallarda dəlilsiz-sübutsuz istinad edilmiş, fərqinə varılmadan kitabdan kitaba köçürülmüş və zehnimizdə əsassız olaraq qəlibləşmiş bir sıra "qələti-məşhur"ları müzakirə obyektinə çevirir. Və nəticə etibarilə tarixi həqiqətlərin bir-birilə sıx bağlı olan bütöv bir təkzibolunmaz mənzərəsini, sistemini təqdim edir.

Kitabın ikinci, birincisindən az olmayan dəyəri müəllifin ədəbi, tarixi faktlara dərindən bələdliyi, ciddi araşdırma texnologiyası, aydın peşəkar məntiqi, ümumiləşdirmə qabiliyyətidir.

Və nəhayət, üçüncü bir dəyər də unudulmamalıdır ki, bu da həqiqəti ortaya çıxarmaq, haqq-nahaqqı bir-birindən ayırmaq, nüfuzlu tədqiqatçılarla belə polemikaya girməkdən çəkinməmək, milli mənəvi irsimizə (onun həqiqətlərinə) təəssübkeş bir övlad ehtiramı ilə yanaşmaq enerjisi, istedadı və ehtirasıdır..

Etiraf edək ki, Azərbaycan söz sənətinin dühalarından Aşıq Ələsgərin həyatı, xüsusilə 22 mart 1821-ci ildə Göyçə mahalının Ağkilsə kəndində anadan olması ədəbiyyat tarixşünaslığında kəskin bir etiraz doğurmasa da, vaxtaşırı müəyyən mübahisələrin mövzusu olmuşdu. Lakin etibarlı sənədlərin yoxluğu (və bir sıra tədqiqatların bu "yoxluq"-dan istifadə, əslində sui-istifadə edərək müxtəlif şayiələrə əsaslanmaları) həmin mübahisələrin, prinsip etibarilə, bir yekuna varmadan nəticəsiz qurtarmasına gətirib çıxarır-

dı. Və bizim humanitar elmlərimiz üçün "səciyyəvi" olan "hərə öz fikrində qalır" kimi liberal (və məsuluyyətsiz) bir "metod" öz işini görmüşdür.

Nazir Əhmədli XIX əsrin 20-ci illərinin sonu və 30-cu illərinin əvvəllərindən başlayaraq Qafqaz canişinliyi tərəfindən xüsusi dəqiqliklə tərtib edilmiş İrəvan əyaləti "kameral təsvirləri"ni əldə edərək araşdırmışdır. Həmin "təsvirlər" bir də ona görə mötəbərdir ki, müxtəlif illəri (1831, 1842, 1852, 1859, 1873, 1886) əhatə etməklə onlarda əks olunmuş məlumatların müqayisəsinə imkan verir.

Müəllif yazır:

"2016-cı il oktyabr ayının 24-də 1873-cü ilə aid sənədi əldə etdim. Və hər şey bu gündən sonra gözümə başqa rəngdə görünməyə başladı. Məlum oldu ki, Ustad Ələsgərin yaşı indiyəcən düz 31 il böyük göstərilib, əmisi Allahverdini onun babası kimi təqdim ediblər, həyatı ilə bağlı faktlar ciddi şəkildə təhrif edilib. Hər bir tapıntıda, elmi uğurda olduğu kimi, bu tapıntı məni də hədsiz sevindirməli idi, amma sevinmədim"...

Niyə?..

Ona görə ki, indiyə qədər yazılanlar, deyilənlər, keçirilən təntənəli yubileylər, dərsliklər, akademik təsəvvürlər elə bir "fundamental" mühit yaratmışdır ki,onu şübhə altında qoymaq nə dərəcədə doğrudur?.. Aşıqələsgərşünaslığın patriarxı, Aşığın nəvəsi mərhum İslam Ələsgərovun əminliklə müdafiə etdiyi bir sıra mülahizələrin həqiqətə uyğun olmadığını necə demək olar?.. Çox da ki, danılmaz faktlar var.

İkisindən birini seçmək lazım gəlirdi: ya haqq, ya da nahaqq... "Haqq-nahaqq seçilər haqq divanında" müəllifi, nə qədər "ağır", çətin olsa da haqqı seçir.

Fikrimizcə, Nazir Əhmədlinin elmi dövriyyəyə daxil etdiyi yeni tarixi sənədlər, materiallar mövcud yanlışlıqla-

ra son qoyur, bir sıra "qələti-məşhur"ları təkzib edir. Aşıq Ələsgər ailəsinin demək olar ki, bütün üzvlərinin, bu ailə ilə əlaqədar şəxslərin tərcümeyi-hal tarixlərini dəqiqləşdirir, dahi sənətkarın yazı-pozu bilməməsi barəsindəki "qənaət"in tamamilə yanlış olduğunu əsaslı dəlillərlə sübut edir, bir sıra məlum şeirlərin həqiqi müəlliflərinin kim olduğunu ortaya çıxarır...Ümumiyyətlə Göyçə mahalının yeni dövrdəki etnik, sosial-mədəni, ədəbi mənzərəsi barədə müfəssəl təsəvvür yaradır.

Aşığın "Min iki yüz doxsan dörddə Ələsgər tapdı əsəri" misrasını ustadı Alı ilə deyişməsinin tarixi hesab edən tədqiqatçı bu tarixin miladi təqvimlə 1876-ci ilə düşdüyünü və deyişmə hadisəsinin də məhz həmin tarixdə baş verdiyini məntiqi mülahizələrlə əsaslandırır.

Kitabda Aşıq Alının özü ilə bağlı da xeyli yeni məlumatlar üzə çıxarılmışdır, məsələn, buradan öyrənirik ki, Aşıq Alının yaşı da Böyük Şəyirdi kimi şişirdilib, doğulduğu kənd heç də indiyə qədər yazıldığı kimi Qızılvənk kəndi deyilmiş. Nazir Əhmədli sənədlərlə sübut edir ki, Aşıq Alı 1835-cü ildə Göyçə mahalının Şişqaya kəndində anadan olub, onun ailəsi sonradan Qızılvənkə köçüb. Ən mühüm faktlardan biri isə hər iki ustadın milli mənsubiyyətinin müəyyənləşdirilməsidir. Son zamanlar xüsusilə Aşıq Alının milli mənsubiyyətini başqa yönlərə çəkmək istəsələr də, tədqiqatçı bu məsələyə də nöqtə qoyur-sübut edir ki, hər iki ustad türk oğlu türkdür-Aşıq Alı ayrımlı tayfasına, Aşıq Ələsgər isə qarapapaq türklərinin bosçalı/borçalı tayfasına mənsubdurlar.

Kitabdakı ciddi tapıntılardan biri də Aşıq Hüseyn Şəmkirlinin həyatı ilə bağlıdır. Tədqiqatçı müəyyən edib ki, Aşıq indiyə kimi yazıldığı kimi 1811-ci ildə deyil, 1838-ci ildə doğulub, aralarındakı 121 il yaş fərqinə görə bəzi tədqiqatçıların iddia etdikləri kimi Molla Pənah Vaqifin bacı-

sı oğlu və ya bacısı nəvəsi ola bilməz. Aşığın əsil adının isə Hüseyn yox, Söyün olması sənədlərlə sübut edilir.

Tədqiqatçının əldə etdiyi çox mühüm faktlardan Ağ Aşıq-Aşıq Allahverdinin, Şair Məmmədhüseynin və Göyçəli Aşıq Musanın doğum tarixlərinin müəyyənləşdirilməsidir.

Nazir Əhmədli elmi ictimaiyyətə indiyə qədər məlum olmayan daha üç sənətkarı-1842-ci ildə Şəmkirbasan nahiyəsinin Qaracaəmirli kəndində yaşayan Aşıq Qaranı, Aşıq Rüstəmi və Şair Mustafanı da üzə çıxarıb təqdim edir, tədqiqatçılar üçün yeni perspektiv mövzu təklif edir.

Kitabın "Son söz yerinə" bölməsində tədqiqatçı üzə çıxardığı elmi nəticələri təqdim edir. Onların hər birini Azərbaycan folklorşünaslığı üçün cddi elmi uğur saya bilərik. Etiraf etməliyik ki, bu yeni nəticələrin hər biri ciddi bir elmi məqalənin, elmi əsərin  mövzusunu təşkil edə bilərdi.

Və mən heç şübhə etmirəm ki, Nazir Əhmədlinin yeni tarixi sənədlərə dayanan bu miqyaslı (və mükəmməl) araşdırması ən azından aşıqələsgərşünaslığın, eləcə də XIX əsr Göyçə aşıq mühitinin araşdırılmasının  elmi əsaslar üzərində inkişafına əhəmiyyətli təkan verəcəkdir. Yerdə qalanına gəldikdə isə, onu gələcək göstərər...

***Nizami Cəfərov,***
*akademik, əməkdar elm xadimi*

## AŞIQLARIMIZIN ÖMÜR YOLUNA AYDINLIQ GƏTİRMƏYİN YENİ MƏRHƏLƏSİ BAŞLADI

Son dövrdə mətbuatda, saytlarda bəzən qarşı tərəfi suçlamaq üçün "o diletantdır", "onun baza təhsili yoxdur" və s. kimi ifadələr işlədirlər. Bu yaxınlarda 20-ci yüzil ədəbiyyatından iki dərslik, ona yaxın kitab çap etdirmiş, 150-dən çox elmi məqalə yazmış, 10-15 ölkədə məruzə oxumuş, xariçdə dərs demiş bir professoru peşə yoldaşının diletant adlandırdığını oxudum. Təəccüblənmədim, çünki cəmiyyətimiz elə bir duruma gəlib ki, haqsızların, korrupsioner, millətin qanını soran oğru və rüşvətxor yaltaqların səsi haqlılardan, doğrulardan daha gur çıxır.

Mətbuat və söz azadlığından, demokratiyadan sui-istifadə edənlər müəllifin ortaya qoyduğu məhsulu-məqaləni, kitabı, gördüyü işi təhlil etmək, qüsurlarını göstərmək əvəzinə rəqibi saydığı insanın təhsilinə və söy-kökünə hüçüma keçirlər.

Tarixə nəzər saldıqda isə bəzən mühəndisin də tibb sahəsində kəşflər etdiyini, kimyaçının tarix sahəsinə yenilik gətirdiyini, riyaziyyatçının biologiyada, coğrafiyada söz sahibi olduğunu görərik. Məşhur yazıçı və şairlərin bir çoxunun(məsələn, böyük şairimiz M.Arazın) filoloji təshili yoxdur. Lakin bu yeniliklər heç də asan başa gəlməyib. Yeniliklərə dirəniş göstərənlər də çox olub. Amma zaman öz işini görüb.

Nazir Əhmədli də peşəkar tarixçi deyil. Naxçıvan Dövlət Pedaqoji İnstitutunun (indiki Naxçıvan Dövlət Universitetinin) kimya-biologiya fakültəsini fərqlənmə diplomu ilə bitirib, kimya elmləri namizədidir. Bir müddət ixtisası üzrə orta məktəblərdə dərs də deyib. Vətənin başının üstünü qara buludlar alanda, Azərbacanda milli azadlıq mübarizəsi baş-

layanda “mən siyasətçi, dövlət xadimi deyiləm, müəllim babayam, millətimin uşaqlarına dərs deməklə kifayətlənəcəm”,- deyərək küncdə-bucaqda gizlənməyib, mübarizənin qaynar nöqtəsinə atılıb. Vətənin dərdlərindən, millətin düşdüyü ağır vəziyyətdən yazıb, xalqı ayağa qaldırmağa, səfərbər etməyə çalışıb. Publisist kimi püxtələşib. 1996-1998-ci illərdə “Millət” qəzetinin Baş redaktoru olub. Beləcə kimya müəllimi siyasətçiyə, publisistə, ictimai xadimə çevrilib.

2001-ci ildən günümüzədək Ataatürk Mərkəzində Beynəlxalq əlaqələr şöbəsinin müdiri vəzifəsində çalışır. 7 elmi-publisistik kitabın, ali məktəblər üçün bir dərsliyin müəllifidir. Həmin kitabların bir neçəsini oxumuşam. Fikrini inandırıcı və sərrast ifadə edən üslübu var. Faktları seçməyi bacarır. Onlardan hansını oxuçuya çatdırmağın gərəkli olduğunu yaxşı bilir. Bu üstün cəhətlərinə baxmayaraq, onun yaradıcılığını diqqətə və ardıcıllıqla izəməmişdim. Mənim nəzərimdə günümüzdəki onlarla publisistən biri idi.

2016-çi ildə “Orxan” nəşriyyatında çap olunmuş “Gabud və gabudlular” kitabı məndə Nazir Əmədlinin yaradıcılığına ciddi maraq oyatdı. O, bu kitabında doğulub boya-başa çatdığı kənddən yazıb. Sovetlər Birliyi çökdükdən sonra nəsli-nəcabəti, kəndi haqqında kitab yazanların və yazdıranların sayı artıb. Bu kitabların hamısı yüksək bədii dəyərli, elmi əsaslı olmasa da, mən onları sevir və təqdir edirdim. Düşünürdüm ki, yaxın tarıximizin öyrənilməsində, gənclərin milli-vətənpərvərlik ruhunda tərbiyə olunmasında belə kitabların əhəmiyyəti böyükdür. Peşəkar tarixçilərimiz belə kitablardan bir fakt, bir cümlə götürsə qənimətdir. Kəndlərimiz və şəçərələrimiz haqqında yazılanlar son iki yüz illik tariximizə işıq salmağa xidmət edir.

Bu kitablar alışdığımız qəlibləri də dağıdıb. Belə ki, orada həm tarix var, həm bölgənin çoğrafiyası. Həm şair və yazıçıların əsərlərindən parçalar var, həm də etnoqrafik

materiallar. Bu kitablarda kəndlərimizdə yaşayan insanların ömür yolu haqqında da bilgi verilir. Lakin onlar ensiklopediya da deyil. Yazı üslubu baxımından da kəndlərimiz haqqında yazılan kitablarda bir fərqlilik var. Burada elmi üsluba da rast gəlinir, bədii üsluba da. Siyası üsluba da rast gəlinir rəsmi üsluba da. Xatirə janrında yazılar da var, şeirlər də. Çox təəssüf ki, kəndlərimiz haqqında yazılmış kitablar haqqında, onların janrı, üslubu haqqında ciddi elmi-nəzəri ədəbiyyat görməmişəm. Bu sahədə hələ bir susqunluq var.

Kəndlərimiz haqqında yazılan kitablarda xatirələr, ağızdan-ağıza keçən söhətlər tarixi sənədləri üstələyib.

Nazir Əhmədli isə bu qəlibdən çıxmağa can atdı və istədiyinə nail olub. O "Gabud və gabudlular" kitabında Qafqaz canişinliyi tərəfindən İrəvan və Naxçıvan əyalətləri üzrə hazırlanmış kameral təsvirlərdən istifadə etməklə yeni bir iz açdı. Ata-babaları haqqında şifahi şəkildə dövrümüzə gəlib çatan hadisələrə, rəvayətlərə sənədlər əsasında aydınlıq gətirib. Nəvə-nəticənin doğmaca babası, onun ömür yolu haqqında bildiklərinin yanlışlıqlarını ortaya qoydu. Belə sənədlərə ağız büzənləri də çox görmüşəm. Onlar zəhmətə qatlaşıb arxivlərə getmək, qalaq-qalaq sənədlərlə tanış olmaq, cild-cild kitab oxumaq əvəzinə "Yəni mən dədəmi, babamı tanımıram?!" deyərək başqasının da əməyini heçə endirməyə çalışıblar. Sənədlər və faktlar isə göstərdi ki, biz yaxın keçmişdə yaşamış babalarımız haqqında çox az şey bilirik və bildiklərimizin də bir qismi yanlışdır.

"Gabud və gabudlular" kitabının uğuru Nazir Əhmədlini yeni kitab yazmağa həvəsləndirdi. Bu gün inzibati-ərazi vahidi kimi yox olan Dərələyəzdən yazdı. Sovet dövründə Dərələyəz mahalının adı təkəm-seyrək çəkilirdi. Rusiyanın planlı siyasəti sayəsində özlərini millətçi adlandıran, əslində isə öz millətinə ağır zərbə vuranlar Ermənsitanda yaşayan müsəlmanları qısa bir zamanda vətənlərini tərk et-

məyə məcbur etdilər. Bu ağır itkidən sonra dərələyəzlilər də ata-baba yurdları haqqında çoxsaylı kitablar nəşr etdilər. Onlarda tarixə geniş yer verilsə də Nazir Əhmədlinin 2017-ci ilin ilk aylarında “Elm və təhsil” nəşriyyatında çap etdirdiyi “D**ərələyəz mahalinin kameral təsviri (1831-ci və 1842-ci illər)” kitabındakı qədər sənədlilik yoxdur. Çünki bu kitabların bir qismi şöhrət, bir qismi elmi ad almaq üçün, bir qismi də təbliğat üçün yazılıb.**

Nazir Əhmədli isə ağır zəhmətin bəhrəsi olan ciddi bir tarixi əsər ortaya qoyub. O,  yalnız D**ərələyəz mahalinin kameral təsvirini rus dilindən çevirməklə kifayətlənmyib. Sənədlərə geniş şərhlər yazıb, tarixi qaynaqlara dayanaraq bölgə haqqında olduqca dəyərli bilgilər verib.**

Bu işin ağırlığını bir faktla oxucuya çatdırım. Uzun illər kəndimizin ağsaqqallarını, ağbirçəklərini söhbətə tutub qeydlər aparmışdım. Məqsədim bir kitab hazırlamaq idi. Əlimin altında xeyli material vardı. Nəsillərin təxmini səcərəsini də hazırlamışdım. Uzun illər həmin materiallar arxivimdə yatıb qalırdı, yaxud da növbə gözləyirdi.  Nazir Əhmədlinin “Gabud və gabudlular” kitabını oxuyandan sonra Göyçə mahalının sənədləri ilə tanış olub-olmadığını soruşdum. Öyrəndim ki, nəinki Göyçə mahalının, İrəvan, Qarabağ, Gəncə və b. xanlıqların da Rusiya işğalından sonra tərtib edilmiş kameral təsviri onda var. Bizim kəndlə bağlı sənədlərin surətini mənə göndərməsini xahiş etdim. “Yox” demədi, göndərdi. Sənədləri bir neçə dəfə gözdən keçirdim. 19-cu yüzilin milliyətcə rus olan məmurlarının rus dilində yazdığı bəzi yerlərini oxuya bilmədim. Sənəddəki adların çoxu mənə tanış idi. Buna baxmayaraq əlyazmadakı hərfləri dəqiqləşdirə bilmirdim, ölçülər, çəkilər və s. terminlər haqqında neçə-neçə kitaba baxmalı oldum. Sonda yanlışlığa yol verəcəyimdən ehtiyatlanaraq üç gün üzərində işlədiyim sənədləri Nazir Əhmədliyə  göndərib mənə kömək etməsi-

ni xahiş etdim. 2-3 saat sonra Nazir bəydən məktub aldım. Orada nəinki əlyazmadakı adları oxuyub latın qrafikasına çevirmişdi, həm də kimin nə qədər əkin sahəsi olduğunu, həmin sahələrə hansı bitkilər əkdiklərini, onlardan nə qədər vergi alındığın, hər ailənin nə qədər mal-qaralası olduğunu, mal varlığına görə dövlətə nə qədər vergi verdiyini yazmışdı. Yəni bunu deməkdə məqsədim odur ki, Nazir Əhmədli o qədər işin içərisinə girib, bu sahədə o qədər püxtələşib ki, ona həsəd aparmamaq olmur.

Dərələyəz haqqında yazanlar arasında tarix elmlər doktorları, filologiya elmləri doktorları, nüfuzlu alimlər, bu mövzuda araşdırmalar aparıb elmi ad alanlar çoxdur. Amma Nazir Əhmədlinin hazırladığı kitab sənədlərin zənginliyi ilə, oradakı sənədlərə verilən izahlarla, məntiqli təhlillərlə öncə yazılanlardan tamamilə fərqlənir. O, kitabı hazırlayarkən həm tarixçilik, həm coğrafiyaşünaslıq, həm şərqşunaslıq, həmi vergi müfəttişliyi, iqtisadçılıq edib, həm təqvimlər arasındakı fərqlərə aydınlıq gətirib, həm də o dövrdə işlədilən ölçü və çəki vahidləri, vergi sistemi haqqında oxucusuna geniş bilgi verib.

Müstəqillik illərdində millətimizin övladlarının bir-birinə məhbbətlə yanaşması əvəzinə düşmənçilik, qəzəb, nifrəti daha da artıb. İnsanların soy-kökünə şübhə ilə yanaşmaq, başqasının ata-babasına, nəslinə böhtan atmaq yoluxucu xəstəlik kimi yayılıb. Azərbaycan çoxmillətli bir ölkədir. Burada nəinki millətlər, hətta kiçik etnik qruplar belə minillərdir dost və mehriban yaşayır. Millətimlə ona görə fəxr edirəm ki, xınalıq, qırız, buduq, udin, saxur və b. etnik qrupları assimilə etməyib, onlara qardaş kimi baxıb. Təəssüf ki, bu gün kimin kimdən xoşu gəlmirsə onun başqa millətdən olduğunu söyləyir. Bəzən bu təhqir anlamında işlədilir. İş məhkəməyə də daşınır. Məhkəmələr də əllərində tutarlı qaynaq olmadığından çıxılmaz vəziyyətdə qalırlar.

Hər bir insanın milli kimliyi ilə qürur duyması onun təbii haqqıdır. Birisinin soy-kökü haqqında yanlış şayi**ələr yaymaq da nəinki etik qaydalara sığmır, həm də qanunvericiliyimizə ziddir. Bəzən isə məşhur, tanınmış insanlara sahib çıxmaq xəstəliyinə tutulanlara da rast** gəlirik. Onlar da fakta, sənədə dayanmadan təbliğat aparır, sonra da onların haqqının tapdalandıqları haqqında haray-həşir salırlar. Qəribədir ki, belələrinin hay-harayına inananlar da olur.

Məşhur elm, mədəniyyət, sənət və siyasət adamlarına sahiblənmək hərisliyi də, rəhbər vəzifədə işləyənlərin söy-kökü haqqında böhtanlar yaymaq da cəmiyyətdəki bərabərsizlikdən doğan bir bəladır. Nazir Əhmədlinin hazırladığı kitaplarda belə dedi-qodu yayanlara, qaragühuçulara sənədlərin dililə verilmiş sərt çavablar var. Bu kitablardan məhkəmələrdə sübut kimi istifadə etmək mümkündür.

Yeniyetməlik və gənclik illərimdə kitablarda, qəzet və jurnallarda yazılanlara, radio və televizyada deyilənlərə inananların sayı hadisənin iştirakçısının söylədiklərinə inananlardan çox idi. Doğulduğum kənddə yaşayanların sayı 500-ü keçirdi. Bu kiçik kənddə Aşıq Ələsgəri görənlər, onun məclislərində iştirak edənlər də az deyildi. Aşığın şəninə şeir qoşduğu Kəklik də bizim kənddə yaşayırdı. Qocalıb əldən düşmüş qadın məktəbimizin yanında, oğlu Qulunun ailəsində yaşayırdı. Az qala hər gün görür və söhbətlərini dinləyirdik. Deyilənlərlə yazılanlar arasında bir uyğunsuzluğun olduğunu tez-tez eşidirdik. Mən də yazılanlara daha çox inanlardan olduğumdan, yaşlı nəsilin dediklərinə o qədər əhəmiyyət vermirdim, amma onların dediklərini də yadımda saxlayırdım. Orta məktəbin son siniflərini Zodda oxudum. Aşıq Ələsgərin nəvəsi İslam Ələsgərov bizim ədəbiyyat müəllimiz idi. Məndə ədəbiyyata maraq oyadan da İslam Talıb oğlu oldu. Ona bir insan, gözəl pedaqoq kimi həmişə yüksək sayğım olub. Bizə dərs dediyi zaman baba-

sının həyat və yaradıcılığından dissertasiya yazırdı. Aşığın şeirlər toplusunu çapa hazırlayır, hərdən də təkidli xahişimizlə yazdığı dissertasiyadan parçalar oxuyurdu.

**Şagird-müəllim arasında səmimi bir münasibət yaratdığından fikirlərimizi ona rahat söyləyə bilirdik. Ondan Aşıq Ələsgərin şeirlər kitabına başqalarının da şeirlərinnin nədən daxil edildiyini soruşduqda, kitabın tərtibçilərindən, nəşriyyatlardan gileylənirdi.**

Aşıqların İmanın, Musanın, Bəşirin, Məhəmmədin və başqalarının adı ilə oxuduqları şeirlərin “Aşıq Ələsgər” kitabına düşməsi haqlı narazılıq yaradırdı. Sonralar mən unversitetdə oxuyanda (1968-1973) və “Şərq qapısı” qəzetində işləyəndə də gördüm ki, aşıqların, sinədəftər şeir həvəskarlarının nəinki İslam Ələsgərovdan, folklor toplayanlardan bir inciklikləri var. Onlar bu incikliyi “çap etdirdiyi o şeirləri məndən topladı, amma mənim adımı bir dəfə də olsun çəkmədi”, “məndən topladığı şeiri başqa aşığın adına çap etdirdi”, “mən söylədiyim şeirin üzərində düzəlişlər apardı” və s. şəkildə bildirirdilər. Onların dediklərində böyük həqiqət olsa da, bir məsələ də vardı ki, hər bir söyləyici, aşıq özünün bildiyini doğru sanırdı. Onlar folklordakı çoxvariantlılıqla razılaşmaq istəmirdilər.

Bir məsələ də vardı. Cəmiyyətdə bir böyüklük, nəhənglik sindiromu mövcud idi. “İnqilabı kim etdi?” sualına düşünmədən “Lenin”, “Sovet hökümətini kim qurdu və möhkəmləti?” sualına “Stalin!” cavabı verilirdi. Sov. İKP. MK-nın 10-dən çox büro üzvü olsa da, yalnız Baş və birnci katiblərin adları hallanırdı. Yuxarıdan başlayan bu proses aşağılaradak davam edirdi. Belə ki, rayonda hamı dərdini, şikayətini birinci katibə, kənddə kolxoz sədirinə, sovxoz direktoruna demək istəyir, əsasən onları tanıyırdılar. Rayon İcraiyyə Komitəsinin sədri, büro üzvləri, rayon prokuroru, kənd sovetinin sədri və başqaları “nəhənglərin” kölgəsin-

də qalırdı. Bu, özünü bütün təşkilatlarda göstərirdi. Aşıq şeirlərini toplayan araşdırıcılar da bir "böyük", "məşhur" sənətkar yaratmaq istəyirdilər. Başqalarının, yəni Alının, Bəşirin, İmanın, Musanın haqqının tapdanması önəmli deyildi.

Bolşeviklərin hakimiyyətə gəldiyi ilk illərdən başlayan bu proses 1980-ci illərədək davam etdi.

Belə ki, yeni bolşevik hökuməti keçmişi inkar edir, yeni proletar mədəniyyəti və ədəbiyyatı yaradıcaqlarını vəd edirdilər. Keçmişdə yazılanları, saray ədəbiyyatı, burjua-m**ü**lk**ə**dar, tacir sinifinin ədəbiyyatı adlandırır, kasıb-kusub içindən çıxanların yaradıcılığından yeni ədəbiyyat yaratmağa çan atırdılar. Qazaxıstanda Cambul Cabayevi(1846-1945), Dağıstanda avar Həmzət Sadasanı(1877-1951), ləzgi Suleyman Stalskini(Həsənbəyov) (1869-1937), balkar Kazım Meçiyevi (1849-1945) və b. beləcə parlatdılar. Oxuma-yazma bilməyən, vəzn, qafiyə haqqında aydın təsəvvürü olmayan, söylədikləri bədiyyatdan uzaq olan bu insanları ictimai mənşəyinə görə məşhur şair kim təbliğ etdilər, əsərlərini rus dilinə və b. dillərə çevirib böyük tirajla yaydılar. Onlara yüksək dövlət mükafatları, fəxri adlar verdilər.

Fəhlə-kəndlidən yeni proletar ədəbiyyatı yaratmaq istəyənlər qaraçay Qasbot Qoçqarovdan da (Qoçqarlanı) (1834-1940) istifadə etməyə çalışırlar. Lakin o, Sovet quruluşuna xoş münasibət bəsləmədiyindən səfil bir ömür sürdü, at belində gəzərək Sovet rəhbər işçiləri, xoşu gəlməyən adamlar haqqında həcvlər söylədi.

Xatirələrdə Aşıq Ələsgərin Sovet dövründə İrəvana dəvət edildiyindən söz açılır. Qoca və xəstə olduğunu səbəb gətirən Aşığın getmədiyi söylənilir. Bu, yuxarıda adını çəkdiyimiz kəndli şairlərin dəvəti ilə eyni vaxta təsadüf edir. Aşıq Ələsgər yeni hökümətdən xoşu gəlmədiyinə görəmi İrəvana getməyib, yoxsa həqiqətən də xəstəlik və qocalıq

belə bir səfərə çıxmasını əngəlləyib? Fikrimizcə, o, yeni quruluşu bəyənməyib, qocalığı və xəstəliyi bəhanə gətirərək getməyib. Və yaxşı ki, getməyib!

Bunları deməkdə məqsədimiz odur ki, araşdırıcılarımız yaşadıqları mühitin övladı olduqlarından aşıqların yaşını böyütməyə, onları çox yaşayan, uzunömürlü göstərməyə çalışmaları danılmazdır. Onu da nəzərə almalıyıq ki, həmin dövrdə tədqiqatçıların əlinin çatacağı sənədlər də olmamışdır, çünki sovet dövründə arxivlərdə sərt bir qapalılıq, senzura nəzarəti vardı. "Məxvi" qrifi altında olan minlərlə sənədi ən məşhur, sovet hökumətinə sədaqəti ilə seçilən, inanılmış alimlərə, yazıçı və şairlərə də vermirdilər. Qafqaz canişinliyi tərəfindən tərtib edilmiş kameral təsvirlər də belə sənədlərdən idi.

Elə faktlar vardı ki, alimlərimiz onlardan yanlışlığı çözmək üçün ipucu  kimi istifadə edə bilərdi. Lakin onlar da bunu etmək istəmir, qəlibləşmiş formulları dağıtmağa cürət etmirdilər. Aşıq Ələsgərin ömür yolu haqqında ən etibarlı məlumatlar ailə üzvlərinin hazırladığı şəcərə sayılırdı. İstər bu şəcərədəki fərq, istərsə Aşıq Ələsgərdən yazan tədqiqatçıların sənəktarın doğumu haqqında yazdıqlarındakı yanlışlıq göz qabağında idi. Söz-söhbətlərdə bunlar deyilsə də, rəsmişəşdirilmirdi. Belə ki, Aşıq Ələsgərin 1821-ci ildə doğulduğunu yazanlar sənətkarla qardaşları arasındakı 30 ildən çox yaş fərqi haqqında deyilənləri eşitmək belə istəmirdilər. Aşıq Ələsgərin 1821-ci ildə doğulduğunu "Quran" ayəsi kimi qəbul edən İslam müəllim onun qardaşı Məhəmmədin 1857-ci ildə doğulduğunu yazır, Məşədi Saleh, Xəlil və Məhəmməd arasındakı yaş fərqini 3-5 il göstərirdi. Bu yaş fərqindəki uyğunsuzluq Aşıq Ələsgərin qardaşı Məşədi Salahın ailəsində də vardı. Belə ki, Məşədi Salahın böyük oğlu Aşıq Qurbanın 1870-ci ildə, ondan sonra doğulan oğlanları Növrəs İmanın 1903-cü ildə, Aşıq Musanın 1909-cu

ildə doğulduğu göstərilirdi. Ələsgərlə qardaş-bacıları arasında, eləcə də Məşədi Salahın övladları arasında ögeylik yoxdu. Onda sual doğurdu ki, neçə olur bir qadın bir övlad doğduqdan sonra 33 il(!) fasilə verib sonra bir neçə il fərqlə o biri övladlarını doğur?

Mən 1980-ci illərdə Axısqalı Xəstə Hasanla bağlı İslam müəllimə məktub yazanda bu məsələyə də aydınlıq gətirməsini istəmişdim. O isə belə söhbətləri eşitmək belə istəmirdi. Hətta 2000-ci ildən sonra İslam müəllimlə bir yerdə, Folklor İnstitutunda işləyəndə İ.Şopenə istinad edərək 1821-ci ildə Ağkilsədə yaşayış olmadığını yazmışdım. Məqaləni hörmət əlaməti olaraq müəllimim və Ələsgər ocağının alim oğlu, bu sahənin bilicisi sayılan İslam Ələsgərova oxumağa vermişdim. İslam müəllim məqaləni oxuyanda bərk əsəbləşmiş, yazını çırıb zibil yeşiyinə atmışdı. Mənə də incikliyini sərt şəkildə bildirdi, narahat olmuşdu ki, mən ondan xəbərsiz məqaləni haradasa çap etdirərəm. İnstitutun direktoru Hüseyin İsmayılova da məndən şikayət etmiş, xahiş etmişdi ki, məqalənin çapına mane olsun. Göycə aşıq məktəbinin yaşını böyütmək istəyən, bu mövzuda dəfələrlə mənimlə mübahisə edən Hüseyn İsmayılov sakit və mülayimliklə xahiş etdi ki, İslam Ələsgərov sənin müəllimin olub, ağsaqqal adamdır, hirslənər, başına bir iş gələr, sən gəl bu məsələni qapat. Mən bu mövzudan əl çəkimək fikirində deyildim, lakin əlimdə də ciddi tarixi sənədlər yox idi. Ona görə də bu məsələni gündən-günə, aydan-aya, ildən ilə ötürürdüm.

Nazir Əhmədlinin qarşımızdakı kitabı isə mənim bu mövzuya müraciət etməyimə son qoydu. O, elmi ictimaiyyətə elə sənədlər təqdim etdi ki, burada daha mübahisəyə, inciməyə yer qalmadı. Bu sənədlər həm də Xəstə Hasanın Aşıq Ələsgərə bağlama göndərib-göndərmədiyi məsələləsinə nöqtə qoymuş oldu.

Bir yanlışlıq başqa yanlışlığa da yol açır. Ələsgərin yaşının böyüdülməsi yeni bir problem-Aşığın övladlarının yaşı məsəlsini ortaya çıxarırdı. Onların yaşını artıra bilmədiklərindən, məcbur olmuşdular Ələsgərin 40 yaşında evləndiyi rəvayətini ortaya atsınlar.

Kəndimizdən Aşıq Ələsgəri görən adamlar və Göyçədə tanıdığım, söhbət etdiyim aşıqlar ustad sənətkarın 40 yaşında evlənməsinə, onun ilk eşq məcarəsi ilə bağlı yaranan poemaya, radio verlişinə, xüsusən Pullu Məhərrəm haqqında deyilənlərə istehza ilə yanaşır, bu uydurmaları Aşıq Ələsgərə yaraşmayan cəfəngiyat adlandırırdılar. Çoxları kimi Ələsgərin də gəncliyində bir qıza aşiq olduğunu, onun şəninə şeirlər söylədiyini normal qarşılayırdılar. Aşığı gözü tox, oturub-durmağını, sözünün yerini bilən, namuslu bir insan kimi xatırlayırdılar. Onun gözəllərə yazdığı şeiriləri isə o dövrün ab-havasının məhsulu kimi dəyərləndirdilər. Toyun sonunda aşığın bəyə və gəlinə tərif deməsi vacib şərtlərdən biri sayılırmış. Aşıq Ələsgər də bütün aşıqlar kimi bu ənənəyə əməl edirmiş. Yəni musiqi ilə sözün vəhdətindən ibarət xoş sözlər, arzu-diləklər olurmuş. Onlar içərisində yüksək sənətkarlıq nümunələri yaşayır və ağızdan-ağıza keçərək yayılırmış. Bəzən də toyda bir nəfər irəli çıxıb "aşıq, mənim məclisdə iştirak edən qızıma və ya gəlnimə bir tərif de, sənə bir quzu, və ya başa bir nəmər verəcəm" deyərmiş. Aşıq da bunu məmnunluqla yerinə yetirərmiş. Aşıq Ələsgərin gözəllər haqqında söylədiyi şeirlərin bir qismi belə yaranıbsa, bir qismi də müəyyən hadisələrlə bağıldır.

Aşıq Alının anadan olmasının 180 illiyinin təntənə ilə qeyd edilməsi haqqında Azərbaycan KP MK-nın qərarı qəzet və jurnalların bu mövzuda məqalələr verməsinə imkan yaratdı. Həmin günlərdə mən də işlədiyim "Sovet Naxçıvanı" qəzetində Aşıq Alı və onun ustadı, Ağ Aşıq ləqəbli

Allahverdi haqqında bir neçə məqalə yazdım. O dövrdə Ağ Aşıqdan söz açan bütün müəlliflər onun Kosacan kəndində doğulduğunu, sonra Göyçənin Kərkibaş kəndinə getdiyini yazırdılar. Mən də aşıqla bağlı material toplamaq üçün Kosacana getdim. Orada aşığın qızı Zülfünaz qarı ilə görüşdüm. Yaşının 80-i keçdiyi deyilən Zülfünazdan aldığım bilgidən bu qənaətə gəldim ki, Kosacandakı Allahverdi ilə Kərkibaşdakı Allahverdi ayrı-ayrı adamlardır. Yaşadıqları dövrlər arasında azından 50-60 il fərq  var. Atalarının adı da fərqlidir. Bu haqda 1982-ci ildə "Sovet Naxçıvanı"na məqalə yazdım, radioya verliş hazırladım. Lakin mən məşhur alim olmadığım üçün yazdıqlarım heç kimin diqqətini çəkmədi. 1993-cü ildə "Bir daha Ağ Aşıq haqqında" adlı məqalə yazıb "Oğuz eli" qəzetində (14 yanvar,sayı 1 (30), səh.8) və "Ağ Aşıq təxəllüslü Allahverdi Sulduzludurmu?" məqaləsini Tehrandakı "Vaqlıq" jurnalınada (1998 (1376), 105-2, 106-3, səh.44) çap etdirdim. Əlimdə aşığın doğumu ilə bağlı rəsmi sənədlər olmadığından mən də yanlışlıqlara yol vermişdim. Nazir Əhmədli bu kitabı ilə mənim də yanlışlıqlarımı düzəltmiş oldu.

Nazir Əhmədli 19-cu yüzildə yaşamış aşıqlarımızın ömür yolları haqqındakı yanlışlığa son qoydu. Ağ Aşıq ləqəbli Allahverdilərin, Aşıq Alının, Aşıq Ələsgərin, Aşıq Musanın, Şair Məhəmmədin, **Şəmkirli Aşıq Söyünün(Hüsey**nin) və başqalarının haqqında elə dəqiq bilgilər verdi ki, ensklopediyalara məqalə hazırlayanlar, aşıq yaradıcılığından məqalə və kitab yazanlar gərək Nazir Əhmədlinin kitabını daim masalarının üstündə saxlasınlar, araşdırıcılarımız Qaracəmirlidə yaşamış, indiydək adı, bəhsi çəkilməyən sənətkarlar haqqında Nazir Əhmədlinin verdiyi bilgilər əsasında yeni axtarışlara başlasınlar.

**Nazir Əhmədli tədqiqatçıların nəzərini kameral təsvir sənədlərinə cəlb etdiyi bu kitabı ilə yeni bir mər-**

**hələyə yol açmış oldu. Onun açdığı yolla gedənlər təkçə aşıqlarımızın deyil, qaçaqlarımızın, ictimai xadimlərimizin, alimlərimizin, yazıçı və şairlərimizin də ömür yollarına aydınlıq gətirə biləcəklər.**

Sonda bir məsələyə toxunmaq istəyirəm. Dünyanın hər yerində (keçmiş SSRİ-ni və onun indiki davamçılarını çıxmaqla) elmə yenilik gətirənlərə doktor adı verilir. Keçmiş Sovetlər Birliyində olduğu kimi indi də Rusiya və ona bağlılıqdan qurtara bilməyən respublikalarda-müstəqil dövlətlərdə isə bir qəlib müəyyənləşdirilib. Dissertasiyanın həcmi filan səhifə, formatı filan cür, tərtibi filan səviyyədə olmalı, müdafiə **şurasınadək üç mərhələrəli müzakirə təşkil edilməli, bu müzakirələrin gedişi vid**eoya çəkilməli və protokolları yazılmalıdır. Sonda böyük bir çamadan dolusu sənədlər Ali Attestassiya Komissiyasına gördərilməldir. Orada azı bir-iki il saf-cürük edildikdən sonra cavab verilir ki, dissertasiya təsdiq edilir, ya yox. (İndiyədək oradan onlarla dissertasiya geri qaytarıl**ıb. Lakin buna görə** Müdafiə Şurası üzvlərinin birinə də "gözün üstə qaşın var" deyən olmayıb). Hazırlanan dissertasiyaların da önündə mövzunun aktuallığı, elmi yeniliyi və s. kimi yarımbaşlıqlar var. Amma bunlar formal xarakter daşıyır.

Dahi alman filosofu Fridrix Nitşenin həyatında maraqlı bir hadisə var. Leypsiq Universitetinin tələbəsi olarkən antik yunan ədəbiyyatı ilə bağlı yazdığı iki məqaləsini oxuyan İsveçrənin Bazel Universitetinin klassik filologiya kafedrasının **müdiri Nitşenin təhsil aldığı universitetə məktub göndərir. Məktubda yazır ki, əgər etirazınız yoxdursa, biz sizin tələbəniz Nitsşeni təhsilini başa vurduqdan sonra kafedramıza professor vəzifəsinə dəvət edirik. Nitsşenin müəllimləri, əlbəttə etiraz etmir. Hər bir məsələdə punktuallıq, intizam göstərən almanlar bəlkə də öz tarixlərində ilk dəfə olaraq nadir bir hərəkət də edirlər.**

**Deyirlər bir halda ki, bu tələbəni nüfuzlu bir universitet professor vəzifəsinə dəvət edir, bizim ondan dövlət imtahanı götürməyimiz etik baxımdan düzgün olmaz. Nitsşedən dövlət imtahanı götürmədən ona diplom verirlər və** 24 yaşlı **gənc məzun dəvət aldığı Bazel Universitetinə yollanır...**

Nazir Əhmədlinin kitabları, xüsusilə qarşımızdakı bu son kitabı da elmi yeniliyi olan, millətimizə və Vətənimizə xeyir verən kitablardır. Onlardan yüzlərlə alim, tələbə, ziyalı, yazıçı və şair, öz soy-kökünü **öyrənmək istəyən sadə insan**lar istifadə edəcəklər. Lakin ona filologiya üzrə elmi dərəcə vermək heç kimin yadına düşməyəcək. Çünki elmi dərəcə üçün müəyyənləşdirilmiş qəliblərdə hazırlanmayıb, oxucuya, alimə, tarixi mövzuda əsər yaradan yazıçı və şairlərə, soy-kökü ilə maraqlananlara lazım olan səviyyədə hazırlanıb. Avropada, Amerikada, Asiyada, hətta Afrikada və Avstraliyada nəşrlərin bu cür hazırlanması normal sayılır. Keçmişdən dördəlli yapışıb ondan əl çəkmək istəməyən bizlərdən başqa.

Ola bilsin ki, hələ Nazir Əhmədlini diletantlıqda, qeyri-peşəkarlıqda, başqalarının işinə qarışmaqda da suçlasınlar. Buna da dözmək lazımdır. Çünki cəmiyyətimiz belə formalaşdırılıb.

***Əli Şamil,***
***tədqiqatcı jurnalist, folklorşünas***

# MÜƏLLİFDƏN

Adı Ustad Ələsgərə məxsus bir şeirdən götürülmüş bu kitabın meydana çıxmasının maraqlı tarixi var.

Təxminən bir il bundan əvvəl keçmiş çar Rusiyasında tərtib olunmuş kameral təsvir sənədləri ilə 2009-cu ildən başlamış işimi intensiv şəkildə davam etdirməyə başladım.1988-ci ildən erməni əsirliyində qalmış kəndimiz-Dərələyəz mahalının Gabud kəndi haqqında **“Gabud və gabudlular”** adlı kitabıma tarixi sənədlərlə cidddi elmi məzmun vermək istəyirdim. Çünki yaddaşlarda yaşayaraq bizə gəlib çatmış tarix ən müxtəlif yorumlarda mövcud olduğuna görə, bu müxtəlifliklərə son qoymaq və ortaya ciddi bir kitab çıxarmaq lazım idi. Bir daha görməyə ümidlərimizin olmadığı Gabud kəndi haqqında övlad borcumu yerinə yetirmək istəyirdim. Adı çəkilən kitab 2016-cı ildə işıq üzü gördü və güman edirəm ki, qarşıya qoyduğum işin öhdəsindən gələ bildim.

Bu iş məni elə cəlb etmişdi ki, artıq ondan ayrıla bilmirdim, fikirləşirdim ki, mənə nə qədər doğma olsa da, Gabud bir kənddir və onun daxil olduğu və onun kimi əsirlikdə qalan Dərələyəz  mahalının Kameral siyahısını da hazırlayım. Dərələyəz mahalının 1831-ci və 1842-ci illərə aid kameral təsvir sənədlərini də hazırladım**(bu yaxınlarda həmin kitab işıq üzü gördü),** amma məndə növbəti arzu və vətəndaşlıq borcu hissi oyandı, fikirləşdim ki, tədqiqatlarımı Dərələyəz mahalı ilə məhdudlaşdırsam, bu iş başa çatmamış qalacaq. Axı təkcə Dərələyəz mahalı deyil, bütün Qərbi Azərbaycan düşmən işğalı altındadır, əsrlər boyunca üzərində gəzdiyimiz, həyat sürdüyümüz digər ellərimizi də

bir növ "işğaldan azad edim". Seçim və hərəkət imkanımın məhdudluğunu nəzərə alaraq məsələyə Göyçə mahalından başlamaq qərarına gəldim, çünki hər an yarıda kəsilə biləcək bu işdə başqa həmyerlilərim inciməsin, Azərbaycan xalqına Ələsgər kimi bir nəhəngi bəxş etdiyinə görə Göyçə mahalını daha əhəmiyyətli sayırdım...

Göyçə mahalının Kameral təsvirini (buraya kameral siyahılar da daxildir) əldə edəndən sonra, təbii ki, ilk növbədə Ağkilsə kəndini və Ustad Ələsgəri axtarmağa başladım, amma bəri başdan deyim ki, ilk tanışlıq məyusluqla əvəz olundu. Axı indiyə qədər bütün folklorşünaslar, ədəbiyyat tarixçiləri, aşığın nəvəsi, onun irsinin yorulmaz tədqiqatçısı və təbliğatçısı, Aşıq Ələsgər yaradıcılığından fəlsəfə doktoru alimlik dərəcəsi elmi adını almış mərhum İslam Talıb oğlu Ələsgər(1925-2014) təkidlə Aşıq Ələsgərin 1821-ci ildə (hətta məsələni daha konkret qoyaraq aşığın doğum gününü də göstərirdilər-22 martda, Novruz bayramında!) Göyçə mahalının Ağkilsə kəndində anadan olduğunu, 1926-cı il mart ayının 7-də, elə həmin Ağkilsə kəndində də vəfat etdiyini bildirirdilər. Aşığın vəfat tarixi ilə bağlı heç nə deyə bilmərəm, axı onun kiçik oğlu Aşıq Talıb 1979-cu ilə kimi yaşayıb və ona görə də atasının vəfatı tarixində səhv etməyəcəyini qəbul etməliyik. Doğum tarixinə gəldikdə isə...

Sənədlərlə ilk tanışlıq göstərdi ki, **Aşıq Ələsgər 1821-ci ildə Ağkilsə kəndində anadan olmayıb.** Çünki nəinki 1821-ci ildə, hətta 1831-ci ildə də Ağkilsə kəndində heç kim yaşamırdı və bu kənd boş idi!

Bizim hansı sənədlərə əsaslanaraq belə ciddi və bəzi adamlara iddialı görünə biləcək mülahizə yürütməyimizə toxunmaq istəyirəm ki, oxucuda ciddi təsəvvür yaransın: bu sənədlərə inanmaq olar, yoxsa yox?

XVIII əsrin sonlarından başlayaraq Rusiya İmperiyası çoxdan göz dikdiyi Cənubi Qafqaz regionuna fəal mü-

daxilələrə başladı. Gürcüstanın, Gəncəbasarın, Qarabağın işğalından sonra növbə Naxçıvan və İrəvan xanlıqlarına çatmışdı. Bu işdə sözsüz ki, feodal pərakəndəliyi, Nadir şahın öldürülməsindən sonra cırtdan dövlətlər-xanlıqların əmələ gəlməsi səbəbindən onların işğalının daha da asanlaşması faktoru həlledici rol oynadı. İrandakı hakimiyyət boşluğundan istifadə edən bu xanlıqlar hakimiyyətin dadını duyandan sonra Rusiyanın təhriki ilə əvvəlki status-kvoya qayıtmaq istəmirdilər.Bu işdə Rusiya dövləti onları hər cür yağlı vədlərlə qızışdırır və separatçılıq fəaliyyətlərini gücləndirirdi. Sözsüz ki, İranda baş verən iştişaşlar, ara müharibələri, Tehranda hakimiyyəti ələ alan yeni sülalələrin öz maliyyə dayaqlarını möhkəmləndirmək üçün soyğunçuluq etmələri də mərkəzdənqaçma qüvvələrini gücləndirirdi və 1828-ci ilin Türkmənçay müqaviləsi ilə başa çatan müharibələrin nəticəsində Rusiya Naxçıvan və İrəvan xanlIqlarını da ilhaq etdi. Türkmənçay müqaviləsi ilə bu əraziləri ilhaq etməklə gözü doymayan Rusiya İran hökumətinin üzərinə gümüş pulla 20 milyon rubl təzminat da yükləmiş və gələcəkdə bu torpaqlarda toplayacağı vergilər haqqında aydın təsəvvürlərə malik olmaq istəyirdi.

İrəvan və Naxçıvan xanlıqlarının ilhaqından cəmi bir ay keçməmiş çar I Nikolayın fərmanı ilə bu iki xanlıq ləğv edilərək onların yerində Erməni Vilayəti yaradıldı. İmperiyanın buradakı dayaqları, sadiq nökərləri olan ermənilərin miladdan sonra IV əsrdən sonra 1500 illik arzularının həyata keçməsində birinci addım atılmış, bu torpaqlar xristian dövlətinin protektoratına keçmişdi, indi onun II mərhələsi-Erməni Vilayətinin erməniləşdirilməsi dururdu. Erməni Vilayətinin yaradılması haqqında **I Nikolayın** fərmanından sonra bu proses də başlandı-erməni zabiti Lazarevin başçılığı ilə İranın Salmas, Xoy, Maku və digər vilayətlərindən, eləcə də Türkiyədən buralara-keçmiş Naxçıvan və İrəvan

xanlıqlarının ərazisinə ermənilərin köçü başlandı. Təbliğat və təşviqatın kifayət etmədiyini görən Rusiya hökuməti köçənlər üçün maddi yardım göstərməkdən başqa, yeni məskunlaşdıqları yerlərdə ermənilərin 6 il vergidən azad olunması haqqında güzəşt də vermişdi.

Əgər işğaldan qabaq Erməni Vilayətini təşkil edən Naxçıvan və İrəvan xanlıqlarında 11.251 müsəlman ailəsi və 60.026 nəfər yaşayırdsa (müsəlmanlar 73,1 % təşkil edirdi), işğaldan sonra qısa müddət ərzində İrandan 6.279 ailə (32.553 nəfər) və Türkiyədən 3.671 ailə(21.618) nəfər, cəmi 9.950 ailə(54.174 nəfər) erməni köçürməklə, milli tərkibi dəyişməyə nail oldular. Bu köçürmələrdən sonra artıq müsəlmanlar vilayətin cəmi 44 %-ni təşkil edirdilər(vilayətin ümumi əhalisi 136.260 nəfər idi). Qeyd etmək lazımdır ki, erməni köçü 1828-ci ildən sonra da davam etmişdir.

Bu iki xanlığın, eləcə də Qarabağın, Zəngəzurun taleyində məşum rol oynayan tarixlərin biri də birinci dünya müharibəsinin gətirdiyi fəlakətlərin bir parçası olaraq qəddar və quldur Andranikin və onun kimi digər erməni silahlı dəstələrinin Qafqazda törətdiyi yanğın və qırğınlarla bağlıdır.

Qafqaz türklərinin həyatındakı növbəti faciə 1948-ci ildə baş verdi-o vaxt Sovetlər İttifaqının rəhbərliyində təmsil olunan A.Mikoyanın dövlət rəhbərliyinə yarınması və fitnə-fəsadları nəticəsində Ermənistan SSR adlanan ərazidə yaşayan azərbaycanlıların xaricdən Ermənistana gətiriləcək ermənilərə yer açmaq üçün Azərbaycana köçürülməsi baş verdi. 1953-cü ildə İ.Stalinin ölümündən sonra rejimdə baş verən yumşalmadan istifadə edərək, bu insanların xeyli hissəsi yenidən öz doğma yurd-yuvalarına qayıtdılar.

1988-ci ildə Dağlıq Qarabağ ətrafında baş verən münaqişələrin nəticəsi olaraq bütün türklər bu dəfə son nəfərinə qədər doğma yurdlarından məhrum edildilər.

**Taleyin istehzasına bax ki, bu insanların həyatındakı məşum tarixlərin hamısı 8 rəqəmi ilə bitir-1828, 1918, 1948, 1988...**

O vaxt Erməni Vilayəti üzrə İdarədə müşavir vəzifəsində çalışan İ.Şopen yazır ki, bu əraziləri fəth edən və Erməni vilayəti üzrə İnzibati İdarənin başçısı təyin olunan Paskeviç məni yanına çağırıb təklif etdi ki, yeni yaradılan Erməni Vilayətini inventarlaşdırım: burada yaşayan bütün əhalini siyahıya alım, onun coğrafiyasını, tarixi abidələrini, ümumiyyətlə hər şeyini təsvir edim. Mən onun təklifini qəbul edib 1829-cu ilin aprel ayında işə başladım və 1832-ci ilin may ayında bitirdim.

Göründüyü kimi, çar hökuməti ələ keçirdiyi əraziləri bir daha itirməmək və ondan maksimum faydalanmaq üçün oralarda olan hər şeyi-hətta əhalinin mentalitetini də öyrənir və ondan yararlanırdı.

Əslində İ.Şopenin müəllifi olduğu 1831-ci ilin Kameral siyahısı Erməni Vilayətində bu tipdən tərtib edilən ilk belə sənəd deyildi. Türkmənçay Müqaviləsinin şərtlərinə görə İran hökuməti bu xanlıqlara aid bütün maliyyə-vergi sənədlərini 6 ay ərzində Rusiya hökumətinə təqdim etməli idi ki, yeni idarəçilər keçmiş xanlıqların ərazisində yığılan vergilər haqqında aydın təsəvvürə malik olsunlar və vergi yığanda həmin sənədə əsaslansınlar. İrəvan xanlığında tərtib olunan bu tipli əsas sənəd İrəvan xanının Vəziri(onu maliyyə naziri də adlandırırlar) **Mirzə İsmayılın** tərtib etdiyi sənədlər idi. Bu sənədlərin saxtalaşdırılacağından və vergiləri az göstərəcəyindən şübhələnən İrəvan Əyaləti İnzibati İdarəsi onu yoxlamış və ciddi olmasa da bəzi uyğunsuzluqlar aşkar etmişdi.

Naxçıvan əyaləti üzrə Şopendən əvvəl tərtib edilmiş sənədlərlə vəziyyət daha dolaşıq idi.Naxçıvan əyaləti üzrə vergi yığmaq üçün Paskeviçin tapşırığı ilə general Merli-

ni tərəfindən tərtib edilmiş Kameral təsvirlə(1828) yanaşı, başqa sənədlər də mövcud olsa da, onların heç biri İnzibati İdarəni və onun komandanı Paskeviçi qane etməmişdi. Bu cür sənədlərdən ikincisi Erməni Vilayəti üzrə İnzibati İdarənin müşaviri **Petrikov** tərəfindən tərtib olunmuş Raport, üçüncüsü **Polkovnik Voljinskinin** təqdim etdiyi məlumatlar, dördüncüsü **Naxçıvan Naibi Ehsan xanın** özündən alınan bilgilər, nəhayət, beşincisi isə rus məmurlarının əyalət sakinlərindən topladığı bilgilər idi. 5 mənbədən əldə edilən məlumatların müqayisəsi zamanı müxtəlf rəqəmlər və fərqlər aşkar edilmiş, Ehsan xanın məlumatları isə ən çox şübhə doğurmuşdu. Ona görə də **Feldmarşal Varşavski qraf Paskeviç İrəvanski** milliyətcə fransız olan İvan Şopeni dəvət edərək ona belə bir təklif etmiş, deməliyik ki, Şopen də onun etimadını doğrultmuş və indi heç bir tarixçinin və tarix kitabının onsuz ötüşə bilmədiyi adını çəkdiyimiz kameral siyahılar və onların təhlilindən ibarət olan kitabı ortaya çıxmışdır.

**Biz həmin Kameral təsvir sənədlərindən istifadə etməklə o qədər də uzaq olmayan tariximizi, əhalinin etnik tərkibini, yerdəyişmə dinamikasını, işğaldan sonra İrandan və Türkiyədən Qafqaza, xüsusilə Qarabağ, Naxçıvan və İrəvan xanlıqlarına köçürülən ermənilərin miqdarını və etnik tərkibin onların xeyrinə necə dəyişdirilməsinin də şahidi oluruq.**

İ.Şopen 3 il ərzində bu iki xanlığın ərazisini qarış-qarış gəzmiş və köməkçiləri ilə birlikdə bütün mahallar üsrə “kameral təsvir”lər tərtib etmişdir (həmin vaxt İrəvan əyaləti 15 mahaldan, Naxçıvan əyaləti isə 5 mahaldan ibarət idi). Bu sənədlər 3 hissədən ibarətdir: 1)əhalinin adbaad siyahısı; 2)mahaldakı boş kəndlərin siyahısı; 3)kameral təsvirə ümumi izahat yazısı; 3-cü hissədə-“izahat yazısında” isə mahalın yerləşdiyi ərazi, sərhədləri, dağları, su ehtiyatları,

bitki örtüyü, iqlimi, əkinləri və biçinləri, yolları, vergiləri, faydalı qazıntıları,burada yaşayan tayfalar haqqında məlumatlar, nəhayət daha yüksək gəlir əldə etmək üçün hökumətə edilən səmərələşdirici təkliflər vardır.

İ.Şopen 3 il ərzində topladığı bu zəngin material əsasında **"Erməni Vilayətinin Rusiya İmperiyasına birləşdirildiyi dövrdəki vəziyyətinə aid tarixi abidə"** adlı fundamental əsər yazmış və onu 1852-ci ildə Sankt-Peterburqda nəşr etdirmişdir. Bu qiymətli əsər hələ o dövrdə hökumətin diqqətini cəlb etmiş və onu **Demidov mükafatına** layiq görmüşdür. İ.Şopen gördüyü işin mahiyyətini sanki peyğəmbərcəsinə belə qiymətləndirir: **"Erməni vilayətinin Rusiya İmperiyasına birləşdirildiyi dövrün vəziyyətini təsvir edən bu kitab bir sıra inventarları özündə cəmləşdirib. Bu kitabın köməyi ilə gələcəkdə daim müqayisə edib deyəcəklər-nəyimiz var imiş, indi nəyimiz var. Qoy bu vilayətin sakinləri bu kitabı əllərində tutduqları vaxt daim öz keçmişlərini yaşadıqları dövrlə müqayisə etsinlər."**(Adı çəkilən əsər, səh.VI ).

Şopenin nəzərdə tutduğu həmin fərqi bu ərazilərin türk və erməni əhalisi indi yaxşı hiss edə bilər: buraların köklü sakinləri oradan tamamilə sıxışdırılıb çıxarıldıqları halda, 1500 il ərzində yalnız onun-bunun qapısında nökərçilik etməklə öz varlığını davam etdirən ermənilər bu ərazilərin sahiblərinə çevrildilər. Əlbəttə, burada Rusiyanın bu işğalına şərait yaradan zəif yerli hökumət də, ruslara satılmaq üçün növbəyə duran feodallar-xanlar da günahkardır.

İndi bu işğaldan əlimizdə qalan həmin sənədlərə müraciət etməklə, özümüzə təsəlli verir, tariximizi öyrənməyə çalışırıq...

## Adım Ələsgərdir, Göyçə mahalım

Yuxarıda qeyd etdiyimiz kimi, Göyçə mahalına aid 1831-ci ilin kameral siyahısında Aşıq Ələsgərin ailəsinin, atasının, qardaşlarının adının tapılmaması, həm də 1831-ci ildə Ağkilsə kəndində yaşayışın olmaması məni həm təəssüfləndirdi, həm də təəccübləndirdi. Doğrudanmı Aşığın indiyə qədərki bioqrafları, hətta onun nəvəsi səhv ediblər? Axtarışlarımı sonuncu kameral siyahılardan başlayaraq əvvələ doğru irəliləmək qərarına gəldim və ilk nəticə məni heyrətləndirdi!!

Oxucuya orasını da deyim ki, bu kameral siyahıların birincisi 1831-ci ildə, sonrakılar isə 1842-ci, 1852-ci, 1859-cu, 1873-cü və nəhayət, sonuncusu 1886-cı ildə tərtib edilib. Ağkilsə kəndinə aid 1886-ci ilin siyahısını aşkar etmək müyəssər olmadı, 2016-cı il oktyabr ayının 24-də 1873-cü ilə aid sənədi əldə etdim. Və hər şey bu gündən sonra gözümə başqa rəngdə görünməyə başladı. Məlum oldu ki, Ustad Ələsgərin yaşı indiyəcən düz 31 il böyük göstərilib, əmisi Allahverdini onun babası kimi təqdim ediblər, həyatı ilə bağlı faktlar ciddi şəkildə təhrif edilib. Hər bir tapıntıda, elmi uğurda olduğu kimi, bu tapıntı məni də hədsiz sevindirməli idi, amma sevinmədim...

İndiyə qədər Ustadın 1821-ci ildə doğulduğu əsas götürülərək onun dövlət səviyyəsində 150, 175, 190 illik yubileyləri keçirilmişdir, 200 illik yubileyinin təntənə ilə qeyd edilməsinə də bir şey qalmayıb-cəmi 4 il... Bəs necə olsun? Bu tapıntının gətirəcəyi diskomfort və tarixi ədalətin bərpası gözlərimin önündə canlandı. Hələ orasını demirəm ki, rəhmətlik atam Surxay Şahquliyev aşığın qardaşı Məşə-

di Salahın nəvəsi, çox istedadlı şair İsmixan Ələsgərovla yaxın dost olub, adını çəkdiyim İslam Ələsgərov və onun qardaşı Haxverdi müəllimlə yaxın münasibətlərdə olublar... Mən bu hisslərin arasında ümidsizcəsinə vurnuxarkən, qəti qərar qəbul etməyimə təkan verən başqa tapıntılar da baş verdi, məlum oldu ki, təkcə Aşıq Ələsgərin deyil, eləcə də Göyçənin başqa nəhəng sənətkarlarının-onun ustadı Aşıq Alının da, Alının ustadı Ağ Aşığın-Aşıq Allahverdinin də, Şair Məmmədhüseynin, Aşıq Musanın, hətta Aşıq Ələsgərlə görüşmək və onun qüvvəsini sınamaq üçün Göyçəyə gəlib çıxmış Aşıq Söyün Şəmkirlinin də indiyə qədərki tərcümeyi-halı uydurmadır.Ona görə də daha geri çəkilməyə yer qalmadı və qərarımı verdim.

Əvvəlcə 1873-cü ilə aid olan və aşkar etdiyim ilk rəsmi sənəd olan arxiv materialına baxaq:

"İrəvan quberniyası, Yeni Bəyazid qəzası,

**AĞKİLSƏ KƏNDİ. 1873-cü il.**
**Xəzinə torpaqlarında yaşayan vergi mükəlləfiyyətli kənd əhalisi.**

**1.1.Kərbəlayi Qurban Məşədi Məmmədalı oğlunun dul qalmış arvadı Yetər 36 yaşında; oğlu Həsən 8 y; onların qardaşı və bacısı oğlu Mustafa Məhərrəm oğlu 15 y(ailədə 6 qadın var).**

2.2. Qulu Abdulla oğlu 44 y; oğlu Xudaverdi 10 y; üç qardaşı var: Sadıq 39 y(onun iki oğlu: Alı 4 y; İsmayıl 2 y); Mustafa 36 y; Novruz 21 y.

3.1. Kərbəlayi İbrahim Məşədi Məmmədalı oğlu 44 y; onun qardaşı Kərim 38 y(onun oğlanları: Allahverən 5 y; Qasım 3 y); qardaşı oğlu Ələkbər İmirza oğlu 11 y.

4.3. Ocaqverdi İsmayıl oğlu 34 y; oğlu Ağakişi 3 y.

5.4. Məhəmməd Məşədi Xəbər oğlu 39 y; üç oğlu var: Oruc 10 y; Allahverdi 5 y; Qafar 1 y; qardaşı Həsənin oğlanları: Hüseyn 30 y; Mahmud 28 y; İsmayıl 18 y; Tanrıverdi 6 y.

6.4. Hümbət Məşədi Xəbər oğlu 34 y; iki oğlu var: Qasım 12 y; Mərdan 4 y.

**7.6. Allahverdi Haxverdi oğlu 59 y; üç oğlu var: Haxverdi 38 y(onun oğlu Mehdi 7 y); Kərim 34 y; Hüseyn 26 y(onun iki oğlu: Yolçu 6 y; Qərib 3 y). (Ailədə 2 qadın var).**

8.7. Nadir Məhəmməd oğlu 31 y; oğlu Məhəmməd 6 y; iki qardaşı: Allahverdi 16 y; Hacı 15 y; əmisi Mürsəlin oğlanları: Murtuza 20 y; Ağamirzə 4 y; Məhəmməd 2 y.

**9.6. Alməmməd Haxverdi oğlu 49 y; dörd oğlu var: Ələsgər 21 y; Salah 18 y; Xəlil 6 y; Məhəmməd 2 y; ailədə 3 qadın var).**

10.8. İbrahim Ağababa oğlu 44 y; oğlu Bəylər 1 y; qardaşı Həsən 40 y(onun oğlu Məhəmməd 2 y).

11.9. Aşur Yusif oğlu 74 y; səkkiz oğlu var: İsmayıl 41 y; Həsən 32 y; Namaz 34 y; Mahmud 31 y; Hüseyn 28 y; Məhərrəm 24 y; Qurban 22 y; Məsim 21 y.

12.10. Əhməd Əli oğlu 59 y; beş oğlu var: Əli 26 y; Murad 12 y; İmamverdi 9 y; Şərif 6y; Qasım 2 y.

13.10. Nəbi Əli oğlu 54 y; oğlu Yusif 7 y; qardaşı oğlu Əziz Məhəmməd oğlu 15 y.

14.10. Vəli Əli oğlu 50 y; iki oğlu var: Xəlil 8 y; Əli 4 y.

15.10. Hümbət Əli oğlu 47 y; üç oğlu var: Məhəmməd 6 y; Abbasəli 3 y; Ələkbər 2 y.

16.11. Məhəmməd Elləz oğlu 24 y; altı qardaşı var: İsmayıl 21 y; Qurban 10 y; Süleyman 7 y; Yusif 6 y. Alı 5 y; Məmməd 3 y.

17.12. Yusif Vəli oğlu 49 y; dörd oğlu var: Vəli 23 y; Namaz 20 y; Kazım 5 y; Süleyman 3 y.

18.12. Abbas Vəli oğlu 44 y; iki oğlu var: Rəhim 6 y; İsmayıl 3 y.

19.14. Məsim Kərbəlayi Baba oğlu 34 y; iki oğlu var: Allahverdi 5 y; Qasım 2 y.

20.15. Binnət Əli oğlu 64 y; altı oğlu var: Həsən 31 y; Məhərrəm 28 y; Ağa 22 y; Əli 17 y; Novruzəli 10 y; Ələkbər 3 y.

21.16. Hüseyn Mustafa oğlu 49 y; oğlu Əsgər 7 y.

22.17. Rüstəm Molla Məhəmməd oğlu 50 y; üç oğlu var: Mirzə 13 y; Həsən 5 y; Məsim 1 y. qardaşı İrza 30 y(onun oğlanları Cabbar 7 y; Qafar 2 y).

**23.17.** Əli Molla Məhəmməd oğlu 44 y; iki oğlu var: Paşa 8 y; Hüseyn 1 y.

**24.--.Səfər Mustafa oğlu 70 y(Qazax qəzasının Tatlı kəndindən buraya köçüb); iki oğlu var: Kərim 30 y(onun oğlanları: Rəhim 4 y; Şərif 2 y; Namaz 1 y); Musa 20 y.**

25.--.Mustafa Pənah oğlu 25 y**(Qazax qəzasının Çaxmaqlı kəndindən buraya köçüb);** qardaşları: Qurban 17 y; İsmayıl 12 y.

26.--. Baba Abbasağa oğlu 40 y; beş oğlu var: Dünyamalı 20 y; Nəcəf 15 y; Cabbar 10 y; Əmrah 5 y; Əmirəli 3 y; Babanın qardaşları: Süleyman 20 y; İsmayıl 17 y.

27.16. Qasım Hüseyn oğlu 31 y; oğlu Hüseyn 4 y; qardaşları: Ələsgər 28 y; Dünyamalı 26 y; Cəfər 23 y; Zeynalabdin 21 y.

28.12. Əli Balı oğlu 39 y; oğlu Allahverdi 7 y.

29.--.Məmmədhüseyn Oruc oğlu 25 y**(Novobəyazid qəzasının Ağzıbir kəndindən buraya köçub);** oğlu Qəhrəman 4 y.

30.12. Səfər Əli oğlunun dul qalmış arvadı Telli; oğlu Nağdəli 3 y.

**Bu siyahıyaalmadan sonra buraya əlavə edilənlər (1894-cü il):**

1.Əlmərdan Abdulla oğlu 40 y; qardaşları: İsmayıl 37 y; Əhməd 30 y; Əlmərdanın arvadı Pəri 32 y; qızı Gözəl 4 y.

***Kameral siyahını tərtib etdi: Novobəyazid qəza rəisi vəzifəsini icra edən Ostaşev".***

**(Erm.Milli Arxivi, F.227, siy.1, sax.vah.20)**

Dəqiqliyi şübhə doğurmayan bu sənədi qəza rəisi vəzifəsini tutan Ostaşev imzalamışdır.

Ələsgərin ailəsi 9-cu sıradadır. Burada onun atası Almәmməd Haxverdi oğlunun 49 yaşında olduğu göstərilir. Dörd oğlu var: Ələsgər 21, Salah 18, Xəlil 6, evin sonbeşik oğlu Məhəmməd isə 2 yaşındadır. Başqa sözlə, sənədin tərtib edildiyini göstərən 1873 rəqəmindən onların yaşlarını çıxsaq, məlum olur ki, Almәmməd kişi 1824-cü, Ələsgər 1852-ci, Salah 1855-ci, Xəlil 1867-ci, Məhəmməd isə 1871-ci ildə doğulmuşlar. Beləliklə, aydın olur ki, nəinki Ələsgər, hətta onun atası Almәmməd kişi də 1821-ci ildə hələ həyatda yox idil. Halbuki, Ələsgərin bioqrafları onun atasına da yaxşı bir doğum tarixi düzüb-qoşmuşdular, onu Ələsgərin ustadı Aşıq Alı kimi 1801-ci ildə "həyata gətirmişdilər".

İslam Ələsgərin yazdığına görə, Ələsgərin atası Almәmməd kişi əlinə saz götürüb aşıqlıq etməsə də, şair təbli adam imiş, hətta ona aid edilən "İnsan" rədifli gözəl bir qoşmanı da müəllifi İ.Əlsgər olan **"Sazlı-sözlü Göyçə" (Bakı, 2002)** kitabında oxumaq olar:

*" Axırı fikr eylə, qafil dolanma,*
*Qəlbini şeytandan yad elə, insan.*
*Elə iş tut, aqibətdə utanma,*
*Bacar könül yıxma, şad elə insan.*

*Bu dünya dediyin fanidir, fani,*
*Əvvəl Nuh gəlmişdi, qalmayıb, hanı?!*

*Puç eylədi İsgəndər tək xaqanı,*
*Bizə də əsəcək bad elə, insan.*

*Almәmməd dünyada hələ bihuşdu,*
*Bənadəm dediyin vətənsiz quşdu.*
*Səxasız dövlətin axırı puçdu,*
*Ye malın, dəhanda dad elə, insan"***(səh.22).**

(Amma orasını da qeyd etməliyik ki, professorlar P.Əfəndiyev, M.Həkimov, S.Paşayev bu şeiri Xəstə Qasıma aid hesab ediblər və İ.Ələsgər onlara etirazını bildirib **("Haqq** aşığı Ələsgər". Bakı, 1999, səh.**11).**

İ.Ələsgər müəllifliyini Almәmməd kişiyə aid etdiyi başqa bir şeir də təqdim edir:

*"Bir elə kişinin tut ətəyindən,*
*Aləmə imdadı ol eylər,eylər.*
*Zərrəcə üstündə olsa nəzəri,*
*Yerdən daş götürsən, ləl eylər,eylər.*

*Böhtan demə, böhtan tutar adamı,*
*Qul eylər, bazarda satar adamı.*
*Qiyamət odundan betər adamı*
*Yandırar kasıblıq, kül eylər, eylər.*

*Düz yoldan azanı tez tapar qada,*
*Doğruluq-nemətdi, həddən ziyada.*
*Məhəmməd də bir at minər üqbada,*
*Sualsız cənnətə yol eylər, eylər"*

**(Yenə orada, səh21).**

Sonra yazır ki, Alməmməd şeirlərində özünü "Əliməhəmməd", "Alməmməd" yox, "Məhəmməd" kimi təqdim etmişdir.

Bu şeirin də Alməmmədə aid olduğuna şübhə edən tərtibçilər **"Aşıqlar" (Bakı,2004, I cild)** kitabında onu da Xəstə Qasımın şeiri kimi veriblər.

Alməmmədin "Məhəmməd" imzası ilə şeirlər qoşması haqqındakı İ.Ələsgərin mülahizələri özünü doğrultmur. Əvvəla, şair niyə öz adını başqa cür deməlidir ki? Əgər təxəllüs götürsə, bu başqa məsələdir. İkincisi isə, **"Məhəmməd də bir at minər üqbada"** misrasında **"də"** ədatının həmin misranı 11 hecalı etmək üçün artırıldığı açıq-aydın görünür və bu gözəl şeirə xələl gətirir. Amma onu **"Xəstə Qasım bir at minər üqbada"** şəklində verdikdə hər şey yerinə oturur. Bu şeirin müəllifi Xəstə Qasım da olmaya bilər, amma deyə bilərik ki, Məhəmməd və ya Alməmməd onun müəllifi deyil.

İ.Ələsgər Alməmmədin 1800-cü ildə doğulduğunu və 1868-ci ildə öldüyünü yazır. Yuxarıdakı siyahıdan çıxaracağımız ikinci nəticə odur ki, o 1868-ci ildə ölməyib, çünki 1873-cü ildə hələ yaşayırdı və 49 yaşında idi. Göründüyü kimi, Alməmmədin doğum tarixi kimi, vəfat tarixi də səhvdir və nə vaxt öldüyünü mən də bilmirəm. Əgər bunu onun nəvəsi, İslam müəllimin atası Aşıq Talıb bilməyibsə, başqaları çətin ki, bilmiş olar. Alməmmədin 68 il yaşaması haqqındakı ailə versiyasına inansaq, qəbul edə bilərik ki, 1892-ci ildə ölüb.

Üçüncü məsələ doğum tarixlərindən daha ciddidir -məlum olur ki, Alməmmədin atasının adı da indiyə qədər səhv təqdim olunub. İndiyə qədər **yazıldığı kimi Allahverdi onun atası yox, ondan 10 yaş böyük qardaşıdır, hər ikisinin atası isə 1873-cü ildə həyatda olmayan Haxverdidir.** Yeri gəlmişkən, bu ad Aşıq Talıbın kiçik oğlu, 1930-cu ildə anadan olmuş və hazırda Daşkəsən rayonunun Bayan

kəndində yaşayan Haxverdi müəllimin üstündə yaşayır. Alməmmədin böyük qardaşı Allahverdi də atasının adını böyük oğluna qoyub və 1873-cü ildə onun 38 yaşı vardı, yəni Allahverdinin oğlu Haxverdi 1835-ci ildə doğulub. Adətən, yeni doğulan uşağa ölmüş babasının, əmisinin və ya başqa qohumunun adını qoyduqlarına görə, düşünə bilərik ki, Allahverdi ilə Alməmmədin atası Haxverdi 1835-ci ildən qabaq ölüb və bu zaman onun böyük oğlu Allahverdinin 21 yaşı vardı. Allahverdinin 21 yaşını nəzərə alsaq, Haxverdinin 45-50 yaşlarında, cavan rəhmətə getdiyi aydınlaşır.

Alməmmədin qardaşı Allahverdi bu siyahıda 7-ci ailə kimi qeyd edilib:

**7.6. Allahverdi Haxverdi oğlu 59 y; üç oğlu var: Haxverdi 38 y(onun oğlu Mehdi 7 y); Kərim 34 y; Hüseyn 26 y(onun iki oğlu: Yolçu 6 y; Qərib 3 y). (Ailədə 2 qadın var).**

Buradan göründüyü kimi, 1814-cü ildə anadan olan Allahverdinin Haxverdi, Kərim və Hüseyn adlı üç oğlu və üç nəvəsi var.

İ.Ələsgərin yazdığına görə, Allahverdinin də şairlik təbi varmış və aşağıdakı şeirin müəllifliyini ona aid etmişdir:

*“Bu gün seyraqubdan bir söz eşitdim,*
*Bu söz səndən deyil, ayə məndəndi.*
*Dedim: nədir, sədrin üstə bəslərsən?*
*Dedi ki, tifillər ay əməndəndi.*

*Sevdiciyim geyinibdir bu xara?!*
*Qönçə güllər layiqdirmi bu xara?!*
*Gəşt eylədim Bəsrə, Bağdad, Buxara,*
*İndi də gəlişim a Yəməndəndi.*

*Allahverdi qırxdan içdi nə camı?*
*Nə axunddu, nə molladı, nə cami.*
*Nə Firdovsi, nə Füzuli, nə Cami!*
*Təcnis sinədəftər, ayə məndəndi".*

İ.Ələsgərin etirazına səbəb olacaq bir şəkildə bəzi tədqiqatçılar bu şeirin müəllifliyini də gah Aşıq Alıya, gah da Aşıq Allahverdiyə-Ağ Aşığa aid edirlər.

Alməmmədin qardaşı Allahverdi Haxverdi oğlunun yazılı ədəbiyyatın nümayəndələri olan Firdovsi və Füzulini tanıdığına ciddi şəkildə şübhə edirəm, indinin özündə də çox adamın tanımadığı Əbdürrəhman Camini tanımasına isə inanmıram. Adı çəkilən iki məşhur aşıq arasında seçim etməkdən başqa çarəmiz qalmır. Təcnis janrı Aşıq Alının da, Aşıq Allahverdinin də yaradıcılığında ciddi yer tutur. Amma Aşıq Allahverdinin daha dərin təhsil aldığını və bir çox Şərq ölkələrinə səfər etdiyini nəzərə alsaq, Aşıq Allahverdini-Ağ Aşığı onun müəllifi saymalıyıq.

Beləliklə, şübhə yaranır ki, Allahverdi Haxverdi oğlunu da, Alməmmədi də "şair" etmiş, sonra isə, Ələsgərin atasının da, babasının da şair olduğu, **"ot kökü üstə bitər"** atalar sözünə uyğun olaraq Ələsgərin böyük şair olmasının nəsildən, kökdən gəlməsini əsaslandırmağa çalışmışlar. Ataları Haxverdi öləndə Allahverdinin maksimum 21 yaşında olduğunu dedik, ondan 10 yaş kiçik qardaşı Alməmmədin də 11 yaşında uşaq olduğunu, ailənin bütün yükünün Allahverdinin üzərinə düşdüyünü, Alməmmədi böyüdüb boya-başa çatdırdığını və evləndirdiyini nəzərə alsaq, Allahverdi doğrudan da qardaşı Alməmmədə atalıq etmişdir, amma Alməmmədin genetik atası Haxverdidir.

## Ələsgərlə Səkinəbanu

Məlum olduğu kimi, Ələsgərin həyatı haqqındakı məlumatlar **"Ələsgərlə Səhnəbanı"** dastanında öz poetik həllini tapmışdır. Dastanla Ələsgərin rəsmi bioqrafiyası o qədər iç-içə keçmişdir ki, dastanın bioqrafiyadan, yoxsa bioqrafiyanın dastandan təşəkkül tapmasını aydınlaşdırmaq qeyri-mümkün görünür, ən azı indiyə qədər belə görünürdü. Yuxarıdakı sənədin köməyi ilə əslində həmin dastanın motivlərini, onun həyatla nə qədər əlaqəli olub-olmadığını müəyyən edə bilirik.

Əvvəlcə dastanda yer alan hadisələri yığcam şəkildə ifadə etməyə çalışaq.

Dastanda da Ələsgərin bioqrafiyasındakı kimi deyilir ki, böyük külfət sahibi-4 oğul və iki qız atası olan Alməmməd kişi 14 yaşına çatmış böyük oğlu Ələsgəri Kərbəlayi Qurban adlı rəhmdil bir adama(İslam müəllim onu aşağılayaraq "Kərbəlayi Qurban adlı birisinə" yazır**."Haqq aşığı Ələsgər". Bakı, 1999, səh.14)** nökər verir, Qurban onunla mülayim davranır, Ələsgəri incitmir, öz doğma övladı kimi münasibət göstərir(sonrakı nəşrlərdə isə müəllif hadisəni başqa cür təqdim edir:"Ailənin böyük uşağı olan Ələsgər 14-15 yaşına çatanda kəndlərində Kərbəlayı Qurban adlı birisi Alməmmədin yanma gəlib, onu dilə tutmuş, köməksiz olduğundan şikayətlənmiş, bir neçə il Ələsgərin onlara kömək etməsini xahiş eləmişdi" (**Aşıq Ələsgər.** Əsərləri. Bakı, 2004, I c., səh.4). Onun evində 4 il qulluq edən Ələsgər Kərbəlayi Qurbanın gözünün ağı-qarası bircə qızı və yeganə övladı olan Səhnəbanı ilə sevişir, əslində bundan xəbər tutan Kərbəlayi Qurbanla onun arvadı da bu işə kö-

nüldən razı olurlar, amma onun qardaşı, **“Pullu Məhərrəm”** adlı zalım və əzazil bir nəfər bu işi pozur, Səhnəbanını zorla oğlu Mustafaya alır, nakam məhəbbətdən çox pərişan olan gənc Ələsgər dərdini misralara tökür, şairliyə başlayır, bunu görən Alməmməd onu Göyçənin məşhur aşığı Alının yanına aparıb şəyirdliyə qoyur(bəzi variantlarda Alının da Alməmməddən Ələsgəri şəyirdliyə götürmək üçün xahiş etdiyi uydurulur), Ələsgər ona beş il şəyirdlik edir, aşıq sənətinin sirlərinə mükəmməl yiyələnir, bədxah insanların təhriki ilə onunla deyişib məğlub edir və ondan ayrılaraq müstəqil aşıqlığa başlayır, bütün təkidlərə baxmayaraq, Kəlbəcərin Yanşaq kəndindən Nəbi adlı adamın qızı, Kərbəlayi Zeynalın gözəl bacısı Anaxanımı görüb sevənə qədər 41 yaşına qədər evlənmir.

İndi dastanda yer alan Səhnəbanı və ailəsinin real həyatla nə dərəcədə əlaqəli olub-olmadığına baxaq.

Səhnəbanının ailəsi sənəddə 1-ci ailə kimi qeyd edilib. Əvvəlcə ondan başlayaq ki, siyahıdakı yeri bu ailənin Ağkilsə kəndində tutduğu yüksək mənsəbdən xəbər verir. Həyatda olmayan Kərbəlayi Qurbanın dul qalmış arvadı 36 yaşlı Yetər indi bu ailənin başçısıdır.(Bu ailənin əhəmiyyətini sübut edən bir cəhət də Yetərin adının göstərilməsidir. Çünki bu cür sənədlərdə ailə başçısı ölmüş digər ailələr üçün ailədəki oğlan uşağını-yaşı kiçik olsa belə,-ailə başçısı kimi yazırdılar). Məhərrəmin oğlu Mustafa da bu ailənin üzvləri arasındadır və “kürəkən” kimi yox, **“onların (yəni Kərbəlayi Qurbanla Yetərin) qardaşı və bacısı oğlu”** kimi qeyd edilib (**rusca «их племянник»).** Bu isə o deməkdir ki, Mustafa təkcə Kərbəlayi Qurbanın qardaşı oğlu deyil, həm də Yetərin bacısı oğludur. Siyahıda Məhərrəmin ailəsinin yer almaması, eləcə də Kərbəlayi Qurbanın ailəsində 6 qadının olması göstərir ki, Kərbəlayi Qurban kimi Məhərrəm də həyatda yoxdur, hər iki qardaş hansısa səbəbdən vəfat

edib və onların ailələri, iki bacı oz uşaqları ilə Kərbəlayi Qurbanın evində yaşayırlar, Yetər də bu ailənin başçısıdır. 15 yaşlı Mustafa Məhərrəm oğlu ailədə ən böyük kişidir və hələ Səhnəbanı ilə evlənməyib. Əks halda "onların kürəkəni" yazılmalı idi. Yaşını bilmədiyimiz Səhnəbanı da həmin 6 qadından biridir. Əgər deyildiyi kimi Ələsgər 14-15 yaşında Kərbəlayi Qurbanın evində xidmətə başlayıb 4 ildən sonra, yəni 18-19 yaşlarında, sənədin tərtib edildiyi tarixdən 3 il qabaq o evdən ayrılıbsa, o vaxt Mustafanın cəmi 12 yaşı varmış və nə onun, nə də Səhnəbanının evlilik vaxtı deyilmiş. 1873-cü ildə Səhnəbanı da, Ələsgər də hələ subay olduqlarına görə, bu məhəbbət qarşılıqlı olmuşdusa, Ələsgərin onu götürüb qaçmaq imkanı da vardı. Amma mənim bu məhəbbətə kölgə salmaq niyyətim olmadığına görə, hesab edək ki, məhəbbətinin qarşılıqsız qalması səbəbindən deyil, yaranmış şəraitə görə Ələsgər Səhnəbanıya qovuşa bilməyib.

Məsələ burasındadır ki, sənəddən də göründüyü kimi, başsız qalmış iki ailənin idarə olunması üçün Mustafanın Kərbəlayi Qurbanın qızı Səhnəbanı (yaxud da başqa qızı vardısa, onunla) ilə evlənməsi yaranmış vəziyyətdə ən məntiqli yol idi.

Dastan variantında və Ələsgərin rəsmi bioqrafiyasında Kərbəlayi Qurbanla Yetərin oğlan övladının olmadığı və bu səbəbdən də Ələsgəri Səhnəbanı ilə evləndirib onu özlərinə oğul etmək niyyətlərindən bəhs edilir. Halbuki, siyahı bu versiyanı da təkzib edir-məlum olur ki, Ələsgər 7 il əvvəl o evə qədəm qoyanda Kərbəlayi Qurbanın Həsən adında 1 yaşlı oğlu var idi. Göründüyü kimi, Ələsgərin bioqrafiyasının əsasən "Əlsgərlə Səhnəbanı" dastanından qaynaqlandığı, buradan da xeyli yanlışlıqların, Böyük Ustadın həyatı haqqındakı məlumatların tamamilə təhrif edildiyi meydana çıxır.

Əlbəttə, dastan yaradıcılığı şifahi xalq ədəbiyyatına mənsub olduğuna və dastanı söyləyən hər bir aşıq onu öz variantında **danışdığına** görə**, ona ciddi** tələblə**r qoymaq olmaz, amma rəsmi bioqrafiya başqa məsələdir və aşığın həyat və yaradıcılığının araşdırıcılarının** məsələyə bu cür yanaşması təəssüf doğurmaya bilməz.

Burada Səhnəbanı ilə bağlı bir məsələni də qeyd etmədən keçmək olmaz. Məlum olduğu kimi, bir sıra sözlərin tələffüzündə "k" səsi başqa bir samitin qarşısında yumşalır və başqa cür təlffüz edilir. Məsələn, "təklə" sözü şəklini dəyişərək "təhlə", "təknə" sözü isə "təhnə" kimi tələffüz edildiyi kimi, Səkinə adı da həm "i" səsi atılaraq, həm də "k" səsi bəzən "y", bəzən də "h" kimi tələffüz edilir: "Səynə" və "Səhnə". Dilçilikdə bu hadisəyə **"assimilyasiya"** deyirlər. Ona görə də Səhnəbanı adındakı "Səhnə"-nin Səkinə olduğunu görmək çətin bir məsələ deyil. "Banı" isə "banu" sözünün təhrif edlmiş formasıdır. Beləliklə, Səhnəbanının əsil adının **Səkinəbanu** olduğu aydınlaşır, həm də adındakı "banu" sözü bu ailənin yüksək mənsəbindən xəbər verir.

**"Ələsgərlə Səhnəbanı"** dastanını diqqətlə tədqiq edərkən, orada Ələsgərin öz sevgilisinə qoşduğu gözəl şeirlərdə bu sevginin qarşılıqlı olduğuna aid bir misra da görmürük. Bu şeirlərin heç birində Ələsgər Səhnəbanının onu sevdiyini iddia etmir. Oxucuda aydın təsəvvür yaratmaq və dediklərimizi əsaslandırmaq üçün həmin dastandakı şeirlərə baxaq(şeirlərin dastan variantındakı üslubu saxlanmışdır):

### Köynəyinə

*Gülavatın qıyı tər sinən üstə,*
*Nə gözəl yaraşır, qız, köynəyinə.*
*Sinən Kəbə, köynək Kəbə örtüyü,*
*İzin versən, sürtəm üz köynəyinə.*

*Gözəl yaranıbsan qalu-bəladan,*
*Yanağın göyçəkdi güldən, laladan.*
*Zərgər gül doğrasın zərin tiladan,*
*Əlinnən gəldikcə düz köynəyinə.*

*Ələsgər də dost yolunda sürünür,*
*Sinən üstə dərdə dərman görünür.*
*O köynəyə nar məmələr bürünür,*
*Onçun qurban olluq biz köynəyinə.*

## İncimərəm

*İstər dara çəkdir, istər qul eylə,*
*Qoymuşam əmrinə qol, incimərəm.*
*Həsrətindən Məcnun oldum səhrada,*
*Alırsan canımı al, incimərəm.*

*Firqətinnən saralıban solanam,*
*İzin versən, yar, başına dolanam.*
*Əlli yol çapılam, yüz yol talanam,*
*Bir şey deyil dövlət-mal, incimərəm.*

*Ələsgərəm, yandım eşq ataşında,*
*Gözüm qaldı kirpiyində, qaşında.*
*Qazdır məzarımı çeşmə başında,*
*Sal sinəm üstünnən yol, incimərəm.*

## Öldürür

*Dərdim çoxdu, dindirməyin, həzarat!*
*Məni bir alagöz ceyran öldürür.*
*Qılıncsız, tüfəngsiz alır canımı,*
*Kimsə bilmir, pünhan-pünhan öldürür.*

*Heç bilmirəm neyləmişəm, neylərəm,*
*Xəncər alıb, qara bağrım teylərəm.*
*Bir canım var, yara qurban eylərəm,*
*El desin: "Aşiq də qurban öldürür".*

*Ələsgərəm, bir gözələ mehmanam,*
*Ölməyincə çətin dönəm, usanam.*
*Əzrayılı qannı tutmasın anam,*
*Məni bir kirpiyi peykan öldürür.*

## Gedibdi

*Eşidin, məclisdə arif olannar,*
*Sərrafam, gövhərim, kanım gedibdi.*
*Ah çəkibən yar yoluna baxmaqdan,*
*Yəqin bilin, yarı canım gedibdi.*

*Nazik barmaqlıdı, şümşad əllidi,*
*Ayna qabaqlıdı, siyah tellidi,*
*Şəkər söhbətlidi, şirin dillidi,*
*Tuti kimi xoş zəbanım gedibdi.*

*Müddətdi gözümnən olubdu iraq,*
*Əridib cismimi dərdü-qəm, fəraq.*
*Büllur buxaq, lala yanaq, ay qabaq,*
*Ala gözdü Səhnəbanım gedibdi.*

*İş sana agahdı, qadir ilahı,*
*Eşq əlindən itirmişəm irahı.*
*Ələsgərəm, budu sözün kütahı,*
*Yar gedəli din-imanım gedibdi.*

## Nişanəsi

*Ay ariflər, gəlin sizə söyləyim,*
*Kəsilib üstümdən yar nişanası.*
*Dost uzaq olmaqnan könül yad olmaz,*
*Ölüncə qəlbimdə var nişanası.*

*Nütfədən pak olan özü pak olar,*
*Möminnən törəyən xoş idrak olar.*
*Əndəlib qan ağlar, zəhri çak olar,*
*Görsə gül üstündə xar nişanası.*

*Ələsgərəm, qərq olmuşam bu qəmə,*
*Hədyan sözlər dağ çəkifdi sinəmə.*
*Nakəs müxənnətdən mətləb diləmə,*
*Yoxdu namus, qeyrət, ar nişanası.*

## Yetmədi

*Ömrüm ahı-vaynan keçdi dünyada,*
*Həsrət qaldım, əlim yara yetmədi.*
*Neçə namə yazdıım canan elinə,*
*Heç birisi o diyara yetmədi.*

*Nə doyunca nazdı yarı görmədim,*
*Nə dilimnən əhvalını sormadım.*
*Bağ bəslədim, qönçə gülün dərmədim,*
*Xəzan oldu, bağçam bara yetmədi.*

*Dağların köysündə qar nişanası,*
*Gül üstə görünür xar nişanası.*
*Ölürəm, qəlbimdə yar nişanası,*
*Gözü yolda, intizara yetmədi.*

*Gözü yaşdı, ey fıqarə Ələsgər,*
*İşi əysik, baxtı qara Ələsgər,*
*Olmadı dərdinə çara, Ələsgər,*
*Həsrət əlin o dildara yetmədi.*

## Yavaş get

*Bəzənib, qurşanıb seyrə çıxan yar,*
*Alagözlü Səhnəbanım, yavaş get!*
*Bir qıya baxanda evlər yıxan var,*
*Cəllad olub tökmə qanım yavaş get!*

*Mən sana aşiqəm, sən mana xata,*
*Dəhanın bənzəyir qəndə, nabata,*
*Ləbin tənə vurur abi-həyata,*
*Qoynu cənnət irizvanım yavaş get!*

*Ələsgərəm, oldum dəli-divana*
*At müjganın, sinəm durub nişana.*
*Sallanışın bənzər huri-qılmana,*
*Kəbəm, qibləm, din-imanım, yavaş get!*

## Üzün bürümə

*Ay bimürvət, həsrətini çəkməkdən*
*Yetişmişəm cana, üzün bürümə!*
*İllər ayrısıyıq, fürsət düşəndə*
*Çəkilib pünhana, üzün bürümə!*

*Yusif kimi məni saldın azara,*
*Təbibimsən, eylə dərdimə çara.*
*Ya buyur cəllada, ya çəkdir dara,*
*Ya yetir dərmana, üzün biirümə!*

*Yazıq Ələsgərəm, mən sana qurban,*
*Xəstəyəm, dərdimə gəl eylə dərman,*
*Sən mələkzadasan, ay huri, qılman,*
*Gəlmişəm qurbana, üzün bürümə!*

**Ola**

*Can qurban eyləsən, layıqdı, layıq,*
*Bir yar ki mətləbi tez qanan ola.*
*İşarətnən, qaş-gözünən annıya,*
*Nəinki deməknən söz qanan ola.*

*Canım qurban olsun o əhli-dilə,*
*Qaşdarın oynada, gözünnən gülə.*
*Dilin tərpənməmiş dərdini bilə,*
*Qurbanam gözünə, göz qanan ola.*

*Belə yar yetirə baxtın kövkəbi,*
*Dəsti qana ürəkdəki mətləbi.*
*Nə lazım dil deyib, tərpətmək ləbi,*
*Nə keçsə konlunnən düz qanan ola.*

*Ələsgər söylüyər söz müxtəsərin;*
*Ağlı kamil ola, kamalı dərin.*
*Eşidənlər deyə: "əhsən", "afərin",*
*Əgər məclisində yüz qanan ola.*
**("Aşıq Ələsgər". Əsərləri. Bakı, 2004).**

## Zöhrə və Paşa

Dastanda aşığın əmisi qızı kimi təqdim edilən Zöhrənin atasının, Ələsgərin əmisinin adının çəkilməməsi təsadüfdürmü? İnanmaq çətindir. Çünkü onun əmisi Allahverdini Ələsgərə baba etdiklərinə, Alməmmədin isə başqa qardaşının olmadığına görə, nə dastanda, nə də rəsmi bioqrafiyada Ələsgərin əmisinin haqqında bir kəlmə də yazılmır və deyilmir. Belə olan halda, Zöhrəni onun əmisi qızı kimi təqdim etmək həm dastanın, həm də bioqrafiyanın qüsuru kimi üzə çıxır. Yəqin Allahverdini Alməmmədin "ata"sına çevirəndə bunu nəzərə almayıblar.

Ələsgərin dostu kimi təqdim olunan Paşanı da Kameral siyahıda görürük. Bu, siyahıda **23 nömrəli ailə kimi qeyd olunan Əli Molla Məhəmməd oğlunun 8 yaşlı oğlu Paşadır,** kənddə başqa Paşa yoxdur və onu səhv salmaq mümkün deyil. Ona görə də Səkinəbanunu sevən vaxtlarda Ələsgərin Paşa ilə dostluğundan bəhs etmək doğru deyil. Ola bilsin ki, yetkinlik yaşlarında Paşa Ələsgərlə dostluq edib, amma dediyim kimi, dastanın əhatə etdiyi dövrdə Paşa sadəcə olaraq Ələsgərin buyuruqlarına yerinə yetirən üzüyola uşaq ola bilərdi. Ələsgər Kərbəlayi Qurbanın evindən 18 yaşında ayrılanda Paşanın cəmi 5 yaşı vardı. 18 yaşlı cavanla 5 yaşlı uşağın dostluğundan danışmaq, təbii ki, ciddi məsələ deyil.

İ.Ələsgər "Haqq aşığı Ələsgər" (Bakı,1999) kitabında yazır: "Ələsgər kiçik yaşlarından saza-sözə böyük maraq göstərmişdir. Bu barədə onun yaxın dostu və həmkəndlisi olan Məşədi Paşa deyirdi: --"Mən aşıq məclislərinə həmişə Ələsgərlə bərabər gedirdim. Aşıq məclislərinin birini də buraxmazdıq. Mən və qalan uşaqlar axşamdan aşığın

söhbətinə bir qədər qulaq asandan sonra yuxumuz gələrdi, yatardıq. Ələsgər məni oyadanda görərdim ki, aşıq söhbəti qurtarıb. Səhər tay-tuşlarımız bir yerə toplaşanda, xahiş edərdik ki, Ələsgər axşamkı nağılı(dastanı-İ.Ə.) danışsın. O bizim xahişimizi yerə salmazdı, danışardı. Ələsgər bir nağıla iki-üç dəfə qulaq asandan sonra sözlərini də yadında saxlayardı"(səh13-14).

İ.Ələsgər Məşəd Paşanın 1940-cı ildə 115-120 yaşlarında vəfat etdiyini yazır. Amma bizim təqdim etdiyimiz sənəddən aydın oldu ki, Paşa 1865-ci ildə doğulub və 1940-cı ildə vəfat edərkən 75 yaşında olub.

Məsələnin digər tərəfi isə bu aşıq dastanlarına dostların birgə qulaq asması haqqındakı uydurmadır, əgər bunu rəhmətlik Məşədi Paşa özü uydurubsa, öz əhəmiyyətini qabartmaq üçün belə edib. Ələsgər uşaq-yeniyetmə vaxtlarında-tutaq ki, 14-15 yaşlarında aşıqlara qulaq asmağa gedərkən, Paşanın 1-2 yaşı vardı və onlaın bu dastan gecələrinə birlikdə getməsinin uydurma olduğu göz qabağındadır. Paşanın özü 14 yaşına çatanda isə Ələsgərin artıq 27 yaşı vardı və özü məclis qurub dastan danışırdı... Paşanın dastanlara qulaq asarkən yuxuya getməsinə inanmaq olar: o vaxt 1-2 yaşında olan balaca Paşa aydındır ki, anasının qucağında yatırmış...

## Sənədlər nə deyir?

Qeyd edək ki, siyahıdakı 3-cü ailədəki Kərbəlayi İbrahim Məmmədalı oğlu və onun qardaşı Kərim də Kərbəlayi Qurbanın qardaşlarıdır. Burada onların qardaşı oğlu Ələkbər İmirza oğlunun adından onların İmirza adlı başqa bir qardaşlarının da adını öyrənirik, beləliklə, məlum olur ki, Kərbəlayi Qurbangil ən azı 5 qardaş imiş və onlardan üçü artıq rəhmətə gedib.

Əgər oxucu fikir verdisə, bu siyahıda ailələrin sıra nömrəsi iki rəqəmlə göstərilib. Buradakl birinci rəqəm həmin ailənin hazırkı siyahıdakı sıra nömrəsi, ikinci rəqəm isə daha əvvəlki kamaral siyahıdakı, yəni 1859-cu ilin siyahısındakı sıra nömrəsidir. Əgər ailə yalnız bir rəqəmlə işarələnibsə, bu o deməkdir ki, əvvəlki kameral siyahıda bu ailənin adı olmayıb.

İndi əvvəlki, 1859-cu ildəki Kameral siyahıya baxaq:

### "NOVOBƏYAZİD QƏZASININ AĞKİLSƏ KƏNDİ. 1859-CU İL.

**Xəzinə torpaqlarında yaşayan dövlət** kəndliləri

**1.4.Novruz Məşədi Məmmədalı oğlu 46 y; oğlu Məhəmməd 10 y; beş qardaşı var: Məhərrəm 40 y(onun oğlu Mustafa 1 y); Qurban 32 y; İbrahim 30 y; Mirzə 27 y; Kərəm 24 y. (Ailədə 12 qadın var).**

2.6. Abdulla Mustafa oğlu 50 y; dörd oğlu var: Qulu 30 y; Sadıx 25 y; Mustafa 22 y; Novruz 7 y.

3.10. Ramazan İsmayıl oğlu 50 y; qardaşı Ocaqqulu 20 y.

4.8. Məşədi Xəbər Həsən oğlu 65 y; üç oğlu var: Həsən 35 y(onun oğlanları Hüseyn 16 y; Mahmud 14 y; İsmayıl 11 y); Məhəmməd 25 y(onun oğlu Əli 6 aylıq); Hümbət 20 y.

5. 17. Molla Nağı Molla Məhəmməd oğlu 45 y.

**6.14.Allahverdi Haxverdi oğlu 45 y; iki oğlu var: Haxverdi 24 y; Kərim 20 y; qardaşı Alməmməd 35 y(əvvəlki siyahıda yaddan çıxıb; üç oğlu var: Məhəmməd 10 y(əvvəlki siyahıda yaddan çıxıb); Ələsgər 7 y; Salah 4 y). (Ailədə 6 qadın var).**

7.11. Məhəmməd Allahverdi oğlu 60 y; üç oğlu var: Nadir 17 y; Allahverdi 2 y; Hacı 5 y; qardaşı Mürsəl 20 y (onun oğlu Murtuza 6 y).

8.1. Ağababa İbrahim oğlu 80 y; iki oğlu var: İbrahim 30 y; Həsən 26 y; qardaşı Yusif 50 y(onun oğlu Amirza(?) 12 y(əvvəlki siyahıda yaddan çıxıb)).

9.2. Aşur Yusif oğlu 60 y; səkkiz oğlu var: İsmayıl 27 y; Həsən 25 y; Namaz 20 y; Mahmud 17 y; Hüseyn 14 y; Məhərrəm 10 y; Qurban 8 y; Məsim 7 y.

10.9. Məhəmməd Əli oğlu 50 y; oğlu Əziz 1 y; qardaşları: Əhməd 45 y(onun oğlu Əli 12 y); Nağı 40 y; Vəli 36 y; Hümbət 33 y.

11. 12. Elləz Məhəmməd oğlu 40 y; iki oğlu var: Məhəmməd 10 y; İsmayıl 7 y.

12.18. Yusif Vəli oğlu 35 y; iki oğlu var: Vəli 9 y; Namaz 6 y; qardaşlırı Abbas 30 y; Əli 25 y(əvvəlki siyahıda yaddan çıxıb).

13.7. Səfər Əli oğlu 50 y; oğlu Hüseyn 14 y.

14.15. Qasım Kərbəlayi Baba oğlu 25 y; oğlu Nəcəf 5 y; qardaşı Məsim 20 y.

15.16. Polad Əli oğlu 50 y; dörd oğlu var: Həsən 17 y; Məhərrəm 14 y; Ağa 8 y(əvvəlki siyahıda yaddan çıxıb); Əli 3 y.

16.5. Həsən Mustafa oğlu 35 y; beş qardaşı oğlu: Qasım Hüseyn oğlu 17 y; Ələsgər 14 y; Dünyamalı 12 y; Cəfər 9 y; Zeynalabdin 7 y.

17.13. Rüstəm Məşədi Məhəmməd oğlu 36 y; oğlu Əli 1 y; qardaşları: Əli 30 y; İrza 26 y.

18.5. Qəmbər Mustafa oğlu 77 y; oğlu Həsən 45 y.

19. --. Hüseyn Vəli oğlu 50 y(1859-cu ildə həmin mahalın Zarzebil kəndindən buraya köçüb).

***Yoxlamanı həyata keçirdi: kollejski assasör İvankeviç".***

**(Erm.Milli Arxivi, F.267, siy.1, saxlama vahidi 15).**

Bizi maraqlandıran buradakı birinci və altıncı ailələrdir-birinci ailə Səhnəbanının, 6-cı ailə isə Ələsgərin ailəsidir. Göründüyü kimi, burada ailənin başçısı Novruz Məmmədalı oğludur və beləliklə Qurbangilin daha bir, altıncı qardaşlarının da olduğu üzə çıxır. Səhnəbanının gələcək həyat yoldaşı Mustafa isə 1 yaşındadır. Amma İmirzanın adını məmur İvankeviç səhv olaraq Mirzə kimi yazıb. Bu ailənin yenə də birinci yerdə yazılması onun statusunun göstəricisi sayılmalıdır, bəlkə də Novruz Məşədi Məmmədalı oğlu kəndin kəndxudasıdır. Həm də bu ailənin mömünlüyü üzə çıxır: ataları məşədi, qardaşlardan bir neçəsi isə kərbəlayidir. Bu isə onların təkcə möminliyinün deyil, həm də maddi vəziyyətinin göstəricisi sayılmalıdır. Haqqında bəhs etdiyimiz İ.Şopenin verdiyi məlumata görə o vaxtlar Məkkə ziyarəti 600, Məşhəd 300, Kərbəla ziyarəti isə 200 gümüş rubla başa gəlirdi və bir qoyunun qiyməti 2 rubl, öküzün qiyməti 10-12 rubl idi.

Əgər kimsə Allahverdinin Alməmmədin qardaşı olduğuna şübhə edirdisə, bu sənəd həmin şübhəni tamamilə aradan qaldırmalıdır, çünki, qardaşlar bir ailədə siyahıya alınıblar və Alməmmədin Allahverdinin qardaşı olduğu da açıq-aşkar yazılıb. Amma burada diqqəti çəkən maraqlı bir fakt da var: **Ələsgər heç də Alməmmədin böyük oğlu de-**

**yilmiş,** 1859-cu ildə Alməmmədin 10 yaşında, Ələsgərdən 3 yaş böyük Məhəmməd adında bir oğlu da varmış. Görünür, Məhəmməd cavan ikən rəhmətə gedib və Alməmməd 1871-ci ildə doğulan sonbeşik oğluna Məhəmmədin adını qoyub, yaşadıb. Balaca Məhəmməd kimi, Xəlili də görmürük, çünki 1859-cu ildə o da hələ doğulmamışdı.

Alməmmədin adının qabağındakı məmur qeydində onun və oğlu Məhəmmədin əvvəlki, yəni 1852-ci ilin siyahısında yaddan çıxıb yazılmadığı deyilir. Həmin sənəddə doğrudan da onun adı yoxdur:

**“NOVOBƏYAZİD QƏZASI, 1852-Cİ İL.**
**№11. AĞKİLSƏ KƏNDİ**

**Xəzinə torpaqlarında yaşayan dövlət** kəndliləri

1.1.Ağababa İbrahim oğlu 60 y; Ağababanın oğlanları: İbrahim 22 y; Həsən 15 y; qardaşlıarı: (adı yoxdur-1842-ci ilin Kameral siyahında adı Abdulla gedib-N.Ə.) İbrahim oğlu 40 y; Yusif 35 y; Yusifin oğlu İbrahim 1 y. (6 kişi, 3 qadın).

2.2.Aşır Yusif oğlu 55 y; Aşıraın oğlanları: İsmayıl 20 y; Həsən 18 y; Namaz 14 y; Mahmud 13 y; Hüsən 4 y. (6 kişi, 1 qadın).

**3.4. Məhərrəm Məmmədalı oğlu 40 y; Məhərrəmin qardaşı Kərim 13 y. (ailədə 2 kişi və 1 qadın var).**

**4. --.Novruz Məmmədalı oğlu 35 y; Novruzun oğlu Məhəmməd 6 y; Novruzun qardaşları: İbrahim 22 y; İmirza 20 y; Qurban 29 y(5kişi,3 qadın).**

**(Qeyd:Novruzla Məhərrəm bir ailədir).**

5.5. Qəmbər Mustafa oğlu 70 y; Qəmbərin oğlanları: 1.Hüseyn 40 y(Hüseynin oğlanları: Qasım 13 y; Ələsgər 5 y); 2.Həsən 38 y( 5 kişi. 2 qadın). Yeni siyahıyalamadan qabaq Hüseyn vəfat edib).

6.--.Abdulla Mustafa oğlu 50 y; Abdullanın oğlanları: Qulu 16 y; Sadıq 14 y; Mustafa 12 y (4/2).

7.6. Səfər Alı oğlu 35 y; Səfərin oğlu Hüseyn 4 y. (2/1).

8.7. Xəbər Həsən oğlu 60 y; Xəbərin oğlanları: 1.Həsən (Həsənin oğlanları: Hüseyn 9 y; Mahmud 7 y; İsmayıl 4 y); 2.Məhəmməd 20 y; 3.Hümbət 16 y. (7/3).

9.8. Əhməd Alı oğlu 30 y; Əhmədin oğlu Alı 3 y; Əhmədin qardaşları: Məhəmməd 25 y; Nəbi 22 y; Vəli 21 y; Hümbət 18 y. (6/3).

10.10. Ramazan İsmayıl oğlu 28 y; Ramazanın qardaşı Ocaqverdi 15 y. (2/1).

11.11. Məhəmməd Allahverdi oğlu 35 y; Məhəmmədin oğlanları: Nadir 6 y; Allahverdi 4 y; Məhəmmədin qardaşı Mürsəl 25 y. (4/2).

12.12. Eliyaz Məhəmməd oğlu 35 y; Eliyazın oğlu Məhəmməd 3 y. (2/1).

13.13. Rüstəm Molla Məhəmməd oğlu 27 y; Rüstəmin oğlanları: Alı 18 y; İrza 16 y.(3/2).

**14.14. Allahverdi Haxverdi oğlu 40 y; Allahverdinin oğlanları: Haxverdi 16 y; Kərim 7 y; Vəli 7 y(yeni siyahıyalmadan qabaq ölüb). (4/2).**

15.16. Baba Gəncəli oğlu 60 y(yeni siyahıya almadan qabaq ölüb); Babanın oğlanları: Qasım 20 y; Müslüm 15 y. (3/2).

16.18.Alı Kürd oğlu 50 y**(yeni siyahıya almadan qabaq ölüb);** Alının oğlu: Polad 35 y; Poladın oğlanları: Həsən 4 y; Məhərrəm 2 y.(4/2).

**Yetimlər üçün tutulmuş ayrı siyahıdan yazılmışdır:**

17.49. Nağı Mamay oğlu 33 y. (1/2).

18.51. Yusif Vəli oğlu 39 y. (1/1).

19.--.Oruc Allahverdi oğlu 55 y; Orucun oğlu Allahverdi 17 y(1846-cı ildə Bakız kəndindən gəlmişdir); (2/1).

Ağkilsə kəndində 20 ailədə 69 kişi və 35 qadın yaşayır.

***Qeyd:***

1.1842-ci ilin kameral siyahısındakı 3 nömrəli ailə Zarzebil kəndinə, 16 nömrəli ailə isə Novobəyazid şəhərinə köçmüşlər. Xüsusi siyahıdakı 5 nömrəli ailə üzvlərinin hamısı ölüb. 50 nömrəli ailə haqqında isə sakinlər dedilər ki, kənddə belə bir ailə olmayıb.

2. Bu kəndin əhalisi buğda və arpa əkirlər, lakin buğda daha çoxdur. Bu əkinləri Ellicə çayından çəkilmiş bir arxın suyu ilə suvarırlar.

3.Burada iqlim sağlamdır, sakinlərin vəziyyəti yaxşıdır.

4. Zavod və fabrik yoxdur.

***Yoxlamanı həyata keçirdi: Quberniya katibi R.Ryazanov".***

**(Erm. Milli Arxivi, F.261, siy.1, sax.vah. 6).**

Bu siyahıda diqqəti çəkən fakt Allahverdinin Vəli adında 1859-cu ildən qabaq vəfat etmiş oğlunun olması, kəndin siyahısındakı 1-ci yerdə isə Ağababa İbrahim oğlunun olmasıdır. Görünür, kəndin kəndxudası da o imiş və məşhur qardaşlar hələ birinci sıraya qalxmayıblarmış.

Bu siyahıdakı ikinci rəqəmlər həmin ailənin daha əvvəlki, 1842-ci ildəki sıra nömrəsini göstərir və indi həmin siyahıya nəzər salaq:

## "İRƏVAN QƏZASI, GÖYÇƏ NAHİYƏSİNİN KAMERAL TƏSVİRİ. 1842-Cİ İL. №6. AĞKİLSƏ KƏNDİ.

**Qarapapaqların bosçalı icması.**

İslam dininin şiə məzhəbinə mənsubdurlar, köçəri həyat tərzi sürürlər.

**Sakinlər buraya Başkənddən gəliblər və kifayət qədər yaxşı yaşayırlar. Əsasən heyvandarlıqla məşğul olurlar.**

1.Ağababa İbrahim oğlu 50 y; oğlanları: 1) İbrahim 12 y; 2) Ağaxan 5 y; qardaşları: 1) Abdulla 30 y; 2) Yusif 25 y.

6,5 xalvar əkin yeri var, 1 xalvar buğda, 1,5 xalvar arpa əkini, 1 atı, 4 iribuynuzlu, 25 xırdabuynuzlu mal-qarası var.

2. Aşır Yusif oğlu 45 y; oğlanları: 1) İsmayıl 10 y; 2) Həsən 6 y; 3)Namaz 4 y; 4)Mahmud 3 y;

5 xalvar əkin yeri, 1 xalvar buğda, 1 xalvar arpa əkini, 1 atı, 8 iribuynuzlu, 10 baş xırdabuynuzlu mal-qarası var.

3. Həsən Vəli oğlu 50 y; oğlanları: 1)Xəlil 25 y; 2)Cəlil 16 y;

3 xalvar əkin yeri, 1,25 xalvar arpa əkini, 4 baş iribuynuzlu mal-qarası var.

**4.Məmmədalı Novruz oğlu 50 y; oğlanları: 1)Məhərrəm 30 y; 2)Novruz 25 y; 3)İbrahim 12 y; 4)İmirza 10 y; 5)Qurban 9 y; 6)Qasım 5 y; 7)Kərim 3 y;**

10 xalvar əkin yeri, 2 xalvar buğda, 2 xalvar arpa əkini, 2 atı, 15 baş iribuynuzlu, 40 baş kiçikbuynuzlu mal-qarası var.

5. Qəmbər Mustafa oğlu 60 y; oğlanları: 1)Hüseyn 30 y; onun oğlu Qasım 3 y; 2)Həsən 28 y; qardaşı Abdulla 40 y; onun oğlanları: 1)Qulu 6 y; 2)Sadıq 4 y; 3)Mustafa 2 y;

20 xalvar əkin yeri, 3 xalvar buğda, 5 xalvar arpa əkini, 3 atı, 35 iribuynuzlu, 150 xırdabuynuzlu heyvanı var.

6. Səfər Alı oğlu 25 y.

7. Xəbər Həsən oğlu 50 y; oğlanları: 1)Həsən 20 y; 2) Məhəmməd 10 y; 3)Hümbət 6 y;

10 xalvar əkin yeri, 1 xalvar buğda, 3 xalvar arpa əkini, 1 atı, 15 baş iribuynuzlu, 25 baş xırdabuynuzlu heyvanı var.

8. Əhməd Alı oğlu 20 y; qardaşları: 1)Məhəmməd 15 y; 2)Nəbi 12 y; 3)Vəli 11 y; 4)Hümbət 8 y.

6,5 xalvar əkin yeri, 1 xalvar buğda, 1,75 xalvar arpa əkini, 2 atı, 8 baş iribuynuzlu, 50 baş xırdabuynuzlu mal-qarası var.

9. Vəli Bədəl oğlu 80 y;

5 xalvar əkin yeri, 1 xalvar buğda, 1 xalvar arpa əkini, 1 atı, 8 baş iribuynuzlu mal-qarası var.

10. Ramazan İsmayıl oğlu 18 y; qardaşı Ocaqverdi 5 y. 5,5 xalvar əkin yeri, 1 xalvar buğda, 0,07 xalvar arpa əkini, 1 atı, 16 baş iribuynuzlu, 60 baş xırdabuynuzlu mal-qarası var.

11.Məhəmməd Allahverdi oğlu 35 y; qardaşı Mirzalı 15 y;

5 xalvar əkin yeri, 1 xalvar buğda, 1 xalvar arpa əkini, 1 atı, 4 baş iribuynuzlu mal-qarası var.

12. Elləz Məhəmməd oğlu 25 y;

5 xalvar əkin yeri, 1 xalvar buğda, 1 xalvar arpa əkini, 1 atı və 4 baş iribuynuzlu mal-qarası var.

13. Rüstəm Molla Məhəmməd oğlu 17 y; qardaşları: 1) Alı 8 y; İrza 6 y;

5 xalvar əkin yeri, 2 xalvar arpa əkini, 2 atı, 25 baş iribuynuzlu, 50 baş xırdabuynuzlu mal-qarası var.

**14.Allahverdi Haxverdi oğlu 30 y; oğlanları: 1)Haxverdi 6 y; 2)Vəli 3 y;**

5 xalvar əkin yeri, 2 xalvar arpa əkini, 6 baş iribuynuzlu mal-qarası var.

15. Namazəli Saraməli oğlu 60 y.

8 baş iribuynuzlu mal-qarası var.

16. Baba Gəncəli oğlu 50 y; oğlanları: 1)Dumo 10 y; Məsim 5 y;

5 xalvar əkin yeri, 1 xalvar buğda, 1 xalvar arpa əkini, 1 atı, 18 baş iribuynuzlu, 40 baş xırdabuynuzlu mal-qarası var.

17. Yusif Vəli oğlu 12 y; qardaşları: 1)Abbas 8 y; 2) Alı 6 y.

10 baş iribuynuzlu mal-qarası var.

18.Alı Kürd oğlu 40 y; oğlanları: 1)Polad 25 y; 2)Novruz 6 y;

6 xalvar əkin yeri, 1 xalvar buğda, 1,5 xalvar arpa əkini, 6 baş iribuynuzlu mal-qarası var.

19. Polad Alı oğlu 30 y; oğlu Alı 6 y; qardaşı Abbas 15 y;

5 xalvar əkin yeri, 1 xalvar buğda, 1 xalvar arpa əkini, 5 baş iribuynuzlu mal-qarası var.

Kənddə kişi cinsindən cəmi 64 adam yaşayır.

Cəmi 107.5 xalvar əkin yeri, 16 xalvar buğda, 27,5 xalvar arpa əkini, 17 at, 189 baş iribuynuzlu, 450 baş xırdabuynuzlu mal-qara var.

***Qeyd:*** Kənd **əhalisini yoxlamağımızın nəticəsində burada 19 ailənin yaşadığı aşkar edildi, biz onlardan bir nəfər də olsa, gizlətmədik, əgər bu şəxslərdən başqa bir nəfər belə aşkar edilsə, bilmədiyimizi bəhanə gətirməyərək, Rusiya dövlətinin qanunlarının bütün ciddiliyi qarşısında məsuliyyət daşıyırıq.**

**İmzalar: Ağababa İbrahim oğlu, Aşır Yusif oğlu, Həsən Vəli oğlu, Məmmədalı Novruz oğlu, Qəmbər Mustafa oğlu, Səfər Əli oğlu və başqaları (ərəb əlifbası ilə imza ediblər).**

***Kollejski reqistrator: Aleksandr Korallov".***

**(Erm, Milli Arxivi, F.93, siy.1, sax.vah.79).**

Bu sənədin əvvəlkilərdən bir üstün cəhəti var: burada hər bir ailənin maddi vəziyyəti də öz əksini tapıb-onun nə qədər əkin yeri olduğu, hansı taxıldan nə qədər əkdiyi, nə qədər mal-qarası olduğu da göstərilir və biz həmin ailənin hansı imkanlara malik olduğunu görürük. 3 nömrəli ailənin başçısı 50 yaşlı Məmmədalı Novruz oğludur, o Səhnəbanının babasıdır və 7 oğul atasıdır, sakinlərlə müqayisə etdikdə ən varlı ailələrdən biridir. Bu ailənin Ağkilsə kəndindəki ən hörmətli və nüfuzlu ailələrdən biri olduğunu görmək çətin deyil.

14 nömrəli ailə Ələsgərin ailəsidir, daha doğrusu, onun əmisi Allahverdi Haxverdi oğlunun ailəsidir və Alməmməd siyahıda yoxdur. Amma 18 yaşında olan Alməmmədi başqa

yerdə axtarmağın anlamı yoxdur, aydındır ki, Allahverdinin yanında olacaqdı. Əgər ataları Haxverdinin 1835-ci ildən gec olmayaraq öldüyünü nəzərə alsaq, o vaxt Alməmməd 11 yaşında idi və ailənin yükünü daşımalı olan və daşıyan Allahverdi ona doğrudan da atalıq etmişdir. Buğda əkininin, atının və xırdabuynuzlu heyvanlarının olmaması Allahverdinin ailəsinin kasıb olduğunu göstərir. Göründüyü kimi, atası Haxverdinin də sağ olmaması səbəbindən siyahıda yer almaması bizi çox qiymətli informasiyadan məhrum edib-Haxverdinin atasının adını öyrənə bilmirik.

**Sənəddəki ən qiymətli məlumat bu əhalinin milli mənsubiyyətinin qarapapaq olmasıdır, yəni türklüyüdür,** çünki bəzən milli məsələ müxtəlif şəxslər tərəfindən ən müxtəlif variantlarda şərh olunur, bu əhalinin milli mənsubiyyətinin sənədlə təsdiq edilməsi isə sui-istifadə hallarına yer qoymur. Axı o vaxt Göyçədə qarapapaq türklərindən başqa ayrı tayfalar da yaşayırdı və sayca ikinci etnik qrup milli tayfasına mənsub olan kürdlər idi. **Kənd əhalisinin mənsub oldu**ğu **qarapapaqların bos/zçalı tayfası haqqında deməliyik ki, bu, borçalı tayfasıdır və əvvəlcə bozçalı adlanıb(Q.Namazov. "Ozan-Aşıq sənətinin tarixi". Bakı, 2013. Səh 32).**

Sənəddə bu əhalinin Başkənd kəndindən buraya gəldiyinin qeyd edilməsi qiymətli məlumat sayıla bilsə də, öz təsdiqini tapmadı. Çünki, araşdırmalar göstərdi ki, 1831-ci ildə Göyçə mahalının Başkənd kəndində Türkiyədən köçürülmüş 28 erməni ailəsi yaşayırdı və müsəlman qeydə alınmamışdı.

Haqqında söhbət gedən Başkəndin Göyçəyə deyil, başqa mahala aid olma ehtimalını da nəzərdən keçirdik. Məlum oldu ki, Qırxbulaq mahalında aşkar etdiyimiş Başkənd kəndində də 1831-ci ildə İrandan köçürülmüş 2 erməni ailəsi yaşayıb. Üçüncü Başkənd kəndini Dərələyəz

mahalında müəyyən etdim və məlum oldu ki, 1831-ci ildə orada da İrandan köçürülmüş 16 erməni ailəsi yaşayırmış. Deməli, 1831-ci ildə hələ insan yaşamayan Ağkilsə kəndinə gələn gələcək ağkilsəlilər kameral siyahını tərtib edən dövlət məmuru R.Ryazanovu aldatmışdılar. Və dillərindən iltizam alan Ryazanov da onlara çox etibar etməmiş və verdikləri məlumatların doğruluğuna görə, heç kimi siyahıdan gizlətmədiklərinə dair iltizam almışdır. Rusiyanın o vaxtkı qanunlarına görə, kiminsə qeydiyyatdan gizlədilməsi ağır nəticələrə səbəb ola bilərdi-kəndxudanı 100 rubl cərimə və fiziki cəza gözləyirdi. Çünki kiminsə gizlədilməsi vergi qaçaqçılığı demək idi.Buna isə dövlət məmurları xüsusi fikir verirdilər. Vergi sistemi belə idi:

**Baş pulu.** 15 yaşına çatmış bütün kişi cinsindən olanlardan ildə 1 rubl 20 qəpik (gümüş pulla). Qadınlardan və 15 yaşdan aşağı uşaqlara görə alınmırdı.

**Ev pulu.** Hər ailədən 2 rubl.

**Mal pulu:**

-camış 1 rubl

-madyan at 1 rubl

-ulaq -1 rubl 20 qəpik

-yük atı – 2 rubl. Minik atı vergidən azad idi.

**Qoyun pulu.**

-hər qoyundan və keçidən 20 qəpik və s.

**Taxıl vergisi.** Dövlət kəndliləri biçdikləri taxılın 35 faizini xəzinəyə ödəməli idi, 65 faizi özlərinə qalırdı. Mülkədar torpaqlarında da taxılın 65 faizi onu əkib-biçənə çatırdı, 15 faizi mülkədara, 20 faizi xəzinəyə ödənməli idi. Natural şəkildə ödənilən taxılın üçdə ikisi buğda, üçdə biri arpa ilə ödənməli idi. Pul şəklində alınan vergilər il ərzində 3 dəfəyə, taxıl isə biçindən sonra bütöv şəkildə ödənirdi. Vergi toplayanlar əldə edilən taxılı ölçməyincə, kəndlinin ondan istifadə etmək hüququ yox idi.

1 işlək dəyirmana görə 8 rubl vergi alınırdı.

O vaxt bir qoyunun 2-3 rubla satıldığını nəzərə alsaq, Şərqi Dərələyəz əhalisinin-qaraçorluların nə qədər imtiyaza sahib olduğunu təsəvvür etmək çətin deyil.

Əhalidən alınan vergilərin dəyəri haqqında oxucuda təsəvvür yaratmaq üçün həmin dövrdə mövcud olmuş qiymətlərin bəzilərini yazmaq maraqlı ola bilər:

Keyfiyyətindən asılı olaraq 1 xalvar (təxminən 0,5 ton) buğda 6-12 rubla, arpa 3,5-7 rubla, darı 3-6 rubla satılırdı.

Kəlin qiyməti 20-40 rubl, sağmal camışınkı 15-25 rubl, cins öküz 10-20 rubl, sağmal inək 6-12 rubl, at 15-40 rubl, ulaq 4-6 rubl idi.

Qoyunun qiyməti 2-3 rubl, keçininki onun yarısı qədər, quzunun qiyməti 75 qəpikdən 1 rubl 50 qəpiyə qədər idi.

1 batman yunun qiyməti 0,6-1,2 rubl, 1 batman pendirin qiyməti isə 30-40 qəpik idi.

1842-ci ilə aid sənəddə bir zəruri izahata ehtiyac vardır. Bu, **"xalvar"** termini ilə bağlıdır.

Yefron və Borkhauz Ensiklopediyasının, eləcə də bizə tanış olan Şopenin verdiyi məlumata görə, çəki vahidi olan **"xalvar"** sonradan Erməni Vilayətinə çevrilən Naxçıvan və İrəvan xanlıqlarının ərazisində işlənən ölçü vahidi idi, amma onların arasında fərq var idi-Naxçıvan xanlığında işlədilən xalvar 25 puda, İrəvan xanlığındakı xalvar isə 30 puda bərabər idi. Ona görə də Naxçıvan xanlığındakı xalvarın ayrı dəyər daşıdığını nəzərə çatdırmaq istəyən sənədləri tərtib edən məmurlar "Naxçıvan xalvarı" ifadəsini işlədirdilər. Bir pudun 16,38 kq olduğunu nəzərə alsaq, İrəvan xanlığında 1 xalvar 491,4 kq, Naxçıvan xanlığında isə 409,5 kq-a bərabər idi. Qeyd edək ki, "xalvar" əkinçilikdə ərazi vahidi kimi də işlədilirdi. 1 xalvar ərazi bir xalvar taxıl toxumunun səpildiyi əkin sahəsinə bərabər idi və müxtəlif taxıllar üçün fərqli rəqəmlər alındığından, ərazi vahidi olan xalvarı dəqiq

rəqəmlə ifadə etmək çətin olsa da, 1 xalvar əkin ərazisini təxminən 1,5 ha qəbul etmək olar.

Taxılın məhsuldarlığına gəldikdə isə, çar Rusiyasında "sam" terminindən istifadə edilirdi. Məsələn, "sam 5", "sam 7" və s. "sam 5" o demək idi ki, səpilən 1 xalvar toxum 5 xalvar məhsul vermişdir. Bu torpaqlar üçün orta məhsuldarlıq da payızlıq taxıl üçün təxminən 7-8 sam, yazlıq taxılda isə bundan az, təxminən 5 sam idi.

1842-ci ilə aid sənəd üzərində Ələsgərlə Səhnəbanının ailələrinin maddi imkanlarını müqayisə etdikdə, görürük ki, Qurbangilin 15 ha əkin yeri, 3 ha buğda, 3 ha arpa əkini vardı, məhsuldarlığı buğda üçün sam 5 götürsək, ildə 10 xalvar - 5 ton buğda, arpa üçün sam 6 götürsək, 6 ton arpa əldə edirdilər. Bundan başqa ailənin 2 atı, 15 baş iribuynuzlu malı (onların 5-6-nın öküz olduğunu təxmin etmək olar), 40 baş qoyun-keçisi vardı ki, bu əlamətlərinə görə həmin dövr üçün bu ailəni zəngin bir ailə hesab etmək olar.

Əldə edilən taxılın 10%-i vergi kimi kəndxudaya çatırdı.

Ələsgərin ailəsinə baxaq. 5 xalvar, yəni 7,5 ha əkin yeri var, onun cəmi 2 xalvarında, yəni 3 hektarında arpa əkilib, buğda əkini yoxdur(5 xalvar əkin yerinin niyə hamısında taxıl əkilməməsinin səbəbi növbəli əkindir. Adətən, 1 il əkindən sonra həmin ərazi 2 il dincə qoyulurdu. Bunun üçün də ümumi ərazinin ildə üçdə birində taxıl əkirdilər). Arpanın məhsuldarlığını sam 6 olduğuna görə, 12 xalvar, yəni 6 ton arpa biçilib. Əlbəttə, bu o demək deyil ki, bu ailə yalnız arpa çörəyi yeyib. Əlindəki arpanın bir hissəsini buğdaya dəyişmək çətin bir şey deyildi (amma ən yaxşı halda 3 pud arpaya 2 pud buğda verirdilər). Ailədə at və qoyun-keçi də yoxdur, cəmi 6 baş iribuynuzlu mal var ki, hesab edə bilərik ki, onun 2-si öküz, 2-i inək, 2-i də dana-buzovdur. Bir sözlə, Məmmədalı Novruz oğlunun ailəsi ilə müqayisədə çox kasıbdırlar və 14 yaşlı Ələsgərin Kərbəlayi Qurbana

nökərçiliyə verilməsi həyatın qaçılmazlığı idi**(İslam müəllim "Haqq aşığı Ələsgər" kitabında 4 illik xidmətinin əvəzində Ələsgərə bir inək verdiklərini, onun gözdağı olduğunu yazır. s**əh.**15).** Ələsgərin 1852-ci ildə doğulduğunu nəzərə alsaq, 1866-cı ildə Kərbəlayi Qurbanın evində nökərçiliyə başlaması göstərir ki, 1842-ci ildən keçən 24 il ərzində Allahverdi və Alməmməd qardaşlarının maddi vəziyyəti hələ də normal deyilmiş və kasıb yaşayırmışlar. Belə olan halda isə, deyildiyi kimi heç də varissiz olmayan, 7 zəngin qardaşdan biri olan Kərbəlayi Qurbanın yeganə qızı Səkinə Banunu öz nökərinə vermək fikri heç də ağlabatan görünmür. Ələsgərə isə sevməyi heç nə-nə Kərbəlayi Qurbanın zənginliyi, nə həyatın ədalətsizliyi, nə də başqa şeylər mane ola bilməzdi-bu sevgi macərasının o cür qurtarması isə o dövr üçün qaçılmaz reallıq idi. Elə indinin özündə də cəmiyyətin bu dərəcədə inkişafı, təhsil, başqa faktorlar fonunda da bu cür müxtəlif zümrələrə mənsub olan insanların öz sevgisinə qovuşmaq imkanı çətin görünür.

## Nağıllar

Bu sevgi macərasını xeyli pafosla qələmə alan xalq şairi O.Sarıvəlli vəcdə gələrək, Səhnəbanın anasına təmtəraqlı bir ad uydurmaq zövqündən də özünü məhrum etməyib: "Kərbəlayi Qurbanın özünə yetik varı-dövləti olsa da, övladdan kasıb idi. Gözünün ağı-qarası Səhnəbanı adlı bircə qızı vardı. Qurban kişi ilə **Saray xanımın** oğulları olmadığından, həmişə dərdləşir, xiffət çəkərmişlər... Ələsgər və Səhnəbanı bir-birlərini ürəkdən, təmiz bir eşqlə sevirdi. Cavanların bu mehribanlığından, Qurban kişinin ailəsi narazı deyildi. Lakin bu əhvalatdan narazı qalanlar vardı...

Köhnə dünyada iş, əmək adamlarının-çobanın, nökərin, muzdurun əlindən bircə sevmək, gizli sevməkdən qeyri qalan bütün haqqı, ixtiyarı alınmışdı. Yox, əslində onlara sevmək ixtiyarı da verilməmişdi" **(O.Sarıvəlli. Qüdrətli şair, ustad sənətkar. Bakı, 1971, səh.14).**

Bu Saray xanım əhvalatını uydurmaq Osman müəllimin ağlına haradan gəlib, başa düşmək çətindir. Aşıq Ələsgər haqqında yazılmış başqa kitablarda və məqalələrdə hər halda, mən bu ada(hətta uydurma olsa belə!) rast gəlməmişəm.

Ola bilsin ki, Sənhəbanı da Ələsgəri sevirmiş, necə deyərlər, "göz gördü, könül sevdi", amma onların qovuşması çətin görünür. Burada Məhərrəmin-"Pullu Məhərrəm" deyərək uzun illərdir ki, lənətlənən Məhərrəmin heç bir günahı yox idi, ən azı ona görə ki, **Mustafa Səhnəbanı ilə evlənməmişdən qabaq Məhərrəm ölmüşdü.**

Aşıq Ələsgərin nəvəsi və bioqrafı olan İ.Ələsgər, Allahverdini Alməmmədin atası hesab edir, Allahverdinin

atasının isə Talıbxan adlı şəxs olduğunu bildirir, həm də Talıbxanla bağlı rəvayət şəklində dövrümüzə qədər gəlib çatmış bir hadisəni-onun **"hal arvadını"** əsir tutub evə gətirməsini və bir neçə il onun xidmətindən istifadə etdiklərini bildirir. Əlbəttə, "hal arvadı" ilə bağlı xalq nağılına irad tutub ciddiyə almasaq da, Talıbxanın özünün şəxsiyyətini müəyyən etmək son dərəcə maraq doğuran məsələdir. Amma təəssüf ki, 1842-ci ilə aid sənəddə də Haxverdi qeydiyyata düşmədiyinə görə, onun doğum tarixini və atasının adını-yəni doğrudan da Talıbxanın oğlu olub-olmadığını öyrənə bilmirik. Təkcə haqqında söhbət gedən 1842-ci ilə aid sənəddə deyil, 1831-ci ilə aid Göyçə mahalının bütün kameral siyahısında da Talıbxanın adı yoxdur. Ola da bilməzdi, çünki 1831-ci ildə ağkilsəlilər hələ Göyçə mahalında yaşamırdılar.

## Ulaşıq

İslam Ələsgər bununla bağlı həm "Haqq aşığı Ələsgər" (Bakı, 1999), həm də **"Ələsgər ocağı ilə bağlı dastan-rəvayətlər haqqında"** (Bakı, 2007) kitablarında olduqca qiymətli məlumat verir: **ata-babalarından eşitdiyi məlumata görə, əcdadlarının "Arazın o tayından", yəni İrandan əvvəlcə Ula**şıq adlı kəndə, oradan da Ağkilsə kəndinə gəldiklərini yazır **(səh.9).** Bu məlumatdan istifadə edərək axtarışına çıxdığımız **Ulaşıq kəndini Dərəçiçək mahalında aşkar edə bildik.** Əhalinin siyahısı ilə tanış olduqda, doğrudan da 1842-ci ildə Ağkilsə kəndində yaşayan ailələrdən bir neçəsinin 1831-ci ildə Ulaşıq kəndində yaşadığının şahidi olduq. Əvvəlcə həmin sənədlə, haqqında geniş məlumat verdiyimiz İ. Şopenin rəhbərliyi ilə tərtib olunmuş sənədlə tanış olaq:

### "İRƏVAN ƏYALƏTİ, DƏRƏÇİÇƏK MAHALININ KAMERAL TƏSVİRİ. 1831-Cİ İL. №26.ULAŞIQ KƏNDİ.

**Qarapapaqlar.**

Bu kənd Misxana çayının şimal tərəfindəki axırıncı dərədə yerləşir və onu Pəmbək əyalətindən yalnız bir dağ silsiləsi ayırır. 8 xalvar suvarılan, o qədər də dəmyə torpağı var. Kəndin adını daşıyan balaca çaydan və başqa bir bulaqdan istifadə edirlər.

Meşəsi çoxdur, 2 xalvar biçənəyi var.

Buğda, arpa, darı və kətan əkirlər.

Heyvandarlıq: 23 öküz, 16 inək, 196 qoyun və keçi, 16 at, 1 ulaq.

2 yararsız dəyirman var.

1.Kəndxuda İbrahim Xəbər oğlu 45 y(onun iki arvadı və iki qardaşı qızı); dörd oğlu var: Zeynal 25 y(onun arvadı); Namaz 20 y; Qurban və Bayram (əkizlər) 15 y; iki qardaşı oğlu: Uğurlu Qəmbər oğlu 10 y; Vəli 8 y.

2. Şamo ağa Mustafa ağa oğlu 8 y(onun anası və bacısı).

3. Namazəli Tahirverdi oğlu 50 y(onun arvadı və qızı); qardaşı İsmayıl 30 y.

4. Qəmbər Mustafa oğlu 40 y(onun arvadı və iki qızı); iki əkiz oğlu var: Hüseyn və Həsən 15 y; Qəmbərin qardaşı Abdulla 25 y(onun arvadı).

5. İsmayılqulu Musa oğlu 30 y(onun bacısı); iki qardaşı var: Ağaməmməd 20 y; Məhərrəm 18 y.

6. Rəcəb Əhməd oğlu 45 y(onun arvadı və üç qızı); iki oğlu var: İsmayıl 10 y; Əhməd 6 y.

7. Vəli Bədəl oğlu 35 y(onun arvadı).

8. Allahverdi Baba oğlu 50 y(onun arvadı); üç oğlu var: Baba 15 y; Sübhan 10 y; Qurban 8 y.

9. Qoca Tağı oğlu 50 y(onun arvadı və iki qızı); oğlu Mustafa 10 y.

10.Novruz Babacan oğlu 30 y(onun arvadı, qızı, anası).

11.Xəbər Həsən oğlu 40 y(onun arvadı və anası); iki oğlu var: Həsən 10 y; Məhəmməd 5 y.

**12.Məmmədalı Novruz oğlu 48 y(onun arvadı və qızı); dörd oğlu var: Məhərrəm 20 y; Novruz 10 y; İbrahim 8 y; Qurban 6 y.**

Ulaşıq kəndində tatarların qarapapaq tayfasına mənsub olan 12 ailə, 36 kişi, 30 qadın, cəmi 66 adam yaşayır”.

**(Erm.Milli Arxivi. F.90, siy.1, saxl.vahidi 83).**

Siyahıları müqayisə edəndə görürük ki, 1831-ci ildə Ulaşıq kəndində yaşayan ailələrdən 4-ü 1842-ci ildə Ağkil-

sə kəndindədir. Ulaşıqdakı 4 nömrəli ailə Qəmbər Mustafa oğlu ikinci siyahıda 5-ci sırada, 7 nömrəli ailə Vəli Bədəl oğlu ikinci siyahıda 9-cu sırada, 11-ci sıradakı Xəbər Həsən oğlu ikinci siyahıda 7-ci sırada, 12-ci sıradakı Məmmədalı Novruz oğlunun ailəsi Ağkilsədə 4-cü yerdədir.

1831-ci ildə Ulaşıqda yaşayan ailələrdən 4-nün 1842-ci ildə Ağkilsə kəndində olması, doğrudan da yuxarıdakı mülahizələri təsdiq edir.

12-ci sıradakı Məmmədalı Novruz oğlunu və onun oğlanlarını yəqin ki, tanıdınız. Bu ailə Səhnəbanının ailəsidir. Onun əmisi və gələcək qayınatası Məhərrəm 20, atası Qurban isə 6 yaşındadır.

Çox təəssüf ki, Ələsgərin atası, əmisi, babası bilmədiyimiz hansısa səbəbdən bu siyahıda da yoxdur. Burada iki ehtimal irəli sürmək olar: siyahıya alma zamanı məmur səhlənkarlığı üzündən bu ailəni qeydiyyata almayıblar. İkinci ehtimala görə isə, ola bilsin ki, həmin vaxt ailə Ulaşıq kəndidə yaşamayıb və Ağkilsə kəndinə də Ulaşıqdan yox, başqa yerdən gəliblər. Amma haradan? İrəvan əyalətinə (keçmiş İrəvan xanlığına) daxil olan bütün 15 mahalın siyahılarını, eləcə də Göyçə ilə qonşu olan Dərələyəz mahalının 1831-ci ilə aid kameral siyahılarını araşdırsaq da, axtarışlarımız nəticəsiz qaldı.

Qeyd etmək lazımdır ki, ailənin ***“Arazın o tayından”*** gəlməsi versiyası İ.Şopenin verdiyi məlumatla uyğun gəlir. Kameral siyahını tərtib edən Arxip Rıjkov adlı qeydiyyatçı katib “Şah Abbasın dövründən boş qalmış Göyçə mahalını İrəvan Sərdarı 15 il qabaq (yəni 1816-cı ildə) qarapapaqlarla məskunlaşdırıb” yazsa da, İ.Şopen qarapapaqların Göyçə mahalına köçürülmə tarixini 1814-cü ilə aid edir(adı çəkilən əsəri, səh.446).

Bir təsərrüfatçı kimi Sərdar Hüseynqulu xan haqqında çox yüksək fikirlər söyləyən Şopen göstərir ki, əhalinin bu-

rada yerləşdirilməsi təkcə iqtisadi məsələ ilə bağlı deyildi, Sərdarın bu təşəbbüsündə başqa məqsəd də vardı. Rusiya İmperiyası 1804-cü və 1808-ci illərdə olduqca strateji əhəmiyyət daşıyan İrəvan xanlığını tutmaq üçün iki dəfə cəhd etmiş və hər dəfə uğursuzluğa düçar olmuşdu. Rusların öz məqsədindən asanlıqla əl çəkməyəcəyini bilən İran Qacarlar dövləti və onun görkəmli nümayəndələrindən olan İrəvan Sərdarı Hüseynqulu xan Qacar da müdafiə tədbirləri görürdü və bir sıra digər tədbirlər kimi, Göyçənin qarapapaqlarla məskunlaşdırılması da belə tədbirlərdən biri idi. Vergidən azad olunmalarının əvəzində, müharibə zamanı Göyçədə yerləşdirilən qarapapaqlar 1.000 nəfər süvari döyüşçü çıxartmalı, xanlığın sərhədlərini Rusiyanın ilhaq etdiyi Şəmşədil, Yelizavetpol və Qarabağ tərəfdən qorumalı idilər. Əhalisi yenə də qarapapaqlardan ibarət olan Dərəçiçək mahalının imkanları Göyçə mahalından az idi-onlar 600 nəfər süvari döyüşçü çıxarmağa mükəlləf idilər.

Tədqiqatçı yazır**:"İrəvan Sərdarı xanlğın Şürəgəllə sərhəddini Qars paşalığına qədər Qafar xanın rəhbərliyi ilə ayrımlı və taşanlı tayfaları ilə, Abaran mahalındakı sərhədləri İsmayıl xan Axsaxlının rəhbərliyindəki seyidli və axsaxlı tayfaları ilə, Pəmbək vilayəti və Qazax distansiyası ilə olan sərhədləri İsmayıl xanın və Mərdan xanın başçılığı altındakı qarapapaq tayfası ilə qoruyurdu. Nəhayət, Göyçə mahalının Şəmşədil distansiyası, Yelizavetpol dairəsi və Qarabağ vilayəti ilə sərhədləri isə Nağı xanın başçılığı altındakı qalan qarapapaqlarla qoruyurdu(yenə orada, səh.450).**

Xatırladaq ki, İsmayıl xanla onun oğlu Mərdan xanın idarəsi altındakı qarapapaqlar İrəvan xanlığının Dərəçiçək mahalında yaşayırdılar.Mərdan xanla atası İsmayıl ağa 1831-ci ildə tərtib edilmiş Kameral təsvirdə həmin mahalın Qaraqala kəndində qeydə alınmışlar. Bu isə o deməkdir ki,

İrəvan xanlığının 1827-ci ilin oktyabr ayının əvvəllərindəki süqutundan sonra xanlığın bir çox qəhrəman müdafiəçilərindən, döyüşçülərindən fərqli olaraq, onlar İrana getməmiş(yaxud getmiş və geri qayıtmışlar) və ruslarla əməkdaşlığa üstünlük vermişlər.

**"DƏRƏÇİÇƏK MAHALININ KAMERAL TƏSVİRİ.**
**1931-Cİ İL**
**№27.QARAQALA KƏNDİ.**

**Qarapapaqlar.**

**Bu kənd Ulaşıq kəndindən 6 verst yuxarıda, cənub-qərbdə yerləşir**

**1.Mərdan xan İsmayıl ağa oğlu 40 y(onun arvadı və dörd qızı); üç oğlu var: Araz 20 y; Cəfər 8 y; Düşmən 1 y; iki qardaşı: Məhəmməd 35 y(iki arvadı, qızı və oğlu Mədət 1 y); Əhməd 20 y; atası İsmayıl ağa Əli ağa oğlu 80 y(onun iki arvadı və qızı)".**

**(Erm.Milli Arxivi, F. 90, siy.1, saxl.vahidi 83).**

Göyçə qarapapaqlarının başçısı Nağı xanın ailəsini mahalın 1831-ci ilə aid Kameral siyahısında görürük:

**"GÖYÇƏ MAHALININ KAMERAL TƏSVİRİ.**
**1831-cİ İl**
**№3. RƏHMAN KƏNDİ.**

**Qarapapaq tayfası**

**Göyçə gölünün cənub sahilində Zeynal ağa kəndindən sonra üçüncü kənddir. Torpağı dəmyədir, gölün suyundan istifadə edirlər.**

**Buğda, arpa, darı, kətan və başqa şeylər əkirlər.**

**1.Praporşik Kazım ağa Nağı xan oğlu 22 y(onun arvadı və anası).**

**2. Kəndxuda Rəhman Hacı oğlu 60 y(onun arvadı); iki oğlu var: Hacı 30 y (onun arvadı); Əmrah 20 y".**

Sənəddə Nağı xanın adının olmaması çox güman ki, onun vəfatı ilə bağlıdır, əgər İrəvan Sərdarının tərəfdarı kimi qalıb İrana getmiş olsaydı, oğlu Kazım ağa və onun anası-Nağı xanın həyat yoldaşı Göyçədə qalmazdı. Kazım ağanın praporşik-çar ordusuna xas olan hərbi çinə malik olması isə onu göstərir ki, bu ailə çar ordusunun tərəfinə keçmiş və İrəvan şəhəri ətrafında həlledici döyüşlərin baş verdiyi 1827-ci ildə 18 yaşında olan Kazım ağa bu ordunun tərkibində fəqlənmiş və hərbi rütbə almışdır...

(Göründüyü kimi, kəndin adı kəndxuda Rəhman Hacı oğlunun adı ilə adlandırılmışdır).

İrana qayıdanlardan başqa, İrəvan əyalətində 840 qarapapaq ailəsi qalmışdı. Onlardan 577 ailə Göyçə mahalında, qalanların isə əksəriyyəti Dərəçiçək mahalında yaşayırdı (145 ailə).

Orta əsrlərdə baş verən dağıdıcı müharibələrin başqa bir tərəfi də vardı-qalib dövlət əraziləri öz əhalisi ilə məskunlaşdırır, məğlub tərəf isə həmin ərazidəki əhalini də özünə məxsus olmaqda davam edən ərazilərə köçürürdü. Bu isə dinc əhali üçün olmazın əzab-əziyyət, müsibətlər gətirirdi. Hüseyn xanın bu əraziləri məskunlaşdırarkən, gətirdiyi əhali bu səbəbdən də İran Qacarlar dövlətinin təbəələrindən olması təbii haldır və İrəvan xanlığına köçürülən qarapapaqlar və o cümlədən ağkilsəlilər də İrandan, deyilənə görə Maku xanlığından gəlmişdilər. Bu barədə 1831-ci iliə aid Göyçə mahalının Kameral təsvirindəki "izahat yazısına" müraciət edək:

# GÖYÇƏ MAHALI
# "GÖYÇƏ MAHALININ KAMERAL TƏSVİRİNƏ ÜMUMİ İZAHAT (1831)

**Yerləşdiyi yer və ərazisi:**

Göyçə mahalı Erməni Vilayətində ən böyük mahal olmaqla onun şimal-şərq hissəsini tutur.

Şah Abbasın zamanında dağıntılara məruz qalaraq boşalan bu mahal bir əsrdən artıq tamamilə boş qalmışdır. Belə ki, İrəvan Sərdarı 15 il əvvəl buraları qarapapaqlarla məskunlaşdırmağa cəhd edəndə, buradakı boş kəndlərin adını heç kim xatırlaya bilməmiş, yerli sakinlər tərəfindən yeni adlar qoyulmuşdur. Kəndlərin əvvəlki sərhədləri də unudulmuşdur.

Göyçə mahalı kifayət qədər böyük əraziləri əhatə edir. Onun ən qərbində yerləşən Bığlı Hüseyn kəndindən ən şərqindəki Ağyoxuş kəndinə qədər olan məsafə 150 verstdir. Göl də daxil olmaqla onun enini gözlə təyin etmək çətin olsa da, təxminən 100 verst qəbul etmək olar. Beləliklə, mahalın ümumi ərazisini təxminən 15 min kvadrat verst qəbul etmək olar. Göl onun yarıdan azını tutur.

**Sərhədləri:** Göyçə mahalı şimalda Yelizavetpol dairəsi, Qazax və Şəmşəddin distansiyaları, qərbdə Pəmbək əyaləti, Dərəçiçək mahalı və Qırxbulaq mahalının bir hissəsi ilə, cənubda Qırxbulaq, Gərnibasar və Vedibasar mahalları ilə, nəhayət, şərqdə Dərələyəz mahalı və Qarabağ vilayəti ilə həmsərhəddir.

**Meşə örtüyü:**

Mahalın yalnız Güneyində, yəni şimal dağlarında meşə örtüyü vardır, qalan ərazilər meşə örtüyündən tamamilə məhrumdur.

**Biçənəkləri:**

Deyə bilərik ki, bütün Göyçə mahalı əla çəmənli bütöv bir biçənəkdən ibarətdir.

**Suları:**

**a)Göllləri.**

Göyçə mahalında cəmi 5 göl var.

1)Başlıca göl Göyçə gölüdür. Ona görə belə adlandırılıb ki, suları göy-mavi rəngdədir. Onun uzunluğu ən azı 100 verst, Təzəkənd yaxınlığındakı ən enli yeri 30 verstə yaxın, Adatəpə yaxınlığındakı ən ensiz yeri isə 10 verstdir. Suları şirindir və yerli əhalinin dediyinə görə, qərb hissəsində şərqə görə daha sağlamdır. Küləkli havalarda dalğalar kifayət qədər yüksək olur.

2)Kiçik göl böyük gölün cənub-şərqində, Abul və Assar dağlarının qərbində yerləşir, perimetri 2 verst olmaqla Böyük gölə tökülür.

3) Böyük gölün şərqində yerləşən Zod gölünün ərazisi 6 verst olmaqla, onun suları da Böyük gölə tökülür.

4) və 5) Qarabağa tərəf dağlarda yerləşən iki kiçik göl. Onların mənbəyi yoxdur.

**b) Çayları**

Göyçə mahalı çaylarla o qədər zəngindir ki, onların hamısının haqqında məlumat vermək üçün ayrıca kameral təsvir lazım gələrdi, ona görə də əsas çaylar haqqında qısa şəkildə məlumat verirəm.

1)Kəvər çayı. Ördəkli kəndindən birinci çay olan bu çay öz mənbəyini Ağmanqal dağından aşağıdakı Dəliqardaş və digər kəndlərin yaxınlığındakı bulaqlardan götürür. O bir neçə qolu ilə Qışlaqdan yuxarıda birləşir və Noraduz kəndinin yaxınlığında gölə tökülür. Şimala döğru düz axır.

2) Mənbəyini eyni adlı dağdan götürən Altuntaxt çayı Eyranis kəndindən aşağıda gölə tökülür.

3)Ağdağ çayı haqqında da eyni sözləri demək mümkündür.

4)Mənbəyini Altuntaxt dağından götürən başqa bir çay olan Kiçik Altuntaxt Vəliağalı kəndindən aşağıda gölə tökülür.

5)Xramlı və ya Qurudərə çayı Təzəkəndin torpaqlarını qidalandıraraq orada da gölə tökülür.

6)Siçanlı çayı

7)Mahaldakı ən gursulu çaylardan biri olan Adıyaman çayı öz mənbəyini Vedibasar və Dərələyəz mahallarına söykənən dağlardan götürür. Onlardan bir çoxu gözəl Ağrıca vadisində birləşərək oranı qidalandırıb Abulhasar dağına çatır, burada dar və sərt məcraya girərək gurultu ilə gölə tökülür. Burada da Ağrıca adını dəyişərək Adıyaman çayı adını alır. Onun istiqaməti bir qədər qərbə dönərək şimala doğrudur.

8)Qaranlıq çayı. Bu çay daim dumanla örtüldüyünə görə Qaranlıq dərə adını daşıyan dağlardan mənbəyini götürür və şimal-qərbə doğru axır.

9)Tuxtulu çay. O da mənbəyini oradan götürür.

10)Gözəldərə çayı. Bu çay öz mənbəyini Qarabağ tərəfdəki ən yüksək dağ silsiləsindən götürərək qərbə doğru düz istiqamətdə axaraq gölə tökülür.

11) Alçalı çayı. Öz mənbəyini adı çəkilən dağ silsiləsində Gözəldərə və Daşpilləkən dağlarının arasından götürür.

12)Qızılqışlaq çayı öz mənbəyini Daşpilləkən dağının yaxınlığından götürür və Kiçik Zod gölünün yaxınlığında gölə tökülür. Bu çay kifayət qədər böyükdür.

13) Qızılbulaq çayı

14)Qırxbulaq çayı. Bu iki çay birləşib Zod çayına tökülür.

15) Qoşabulaq; 16) Keyti çayı; 17) Tatul çayı; 18) Zarzebil çayı. Bu çaylar cənub tərəfdən Zod çayına tökülür.

19)Zod çayı. Zod vadisini Qarabağdan ayıran dağlardan axan çoxlu bulaqlardan və kiçik çaylardan əmələ gələrək Zod və Məzrə kəndlərindən keçib vilayətin eni 20 verst, uzunluğu 30 verst olan ən gözəl vadisini qidalandırıb Kiçik gölə tökülür.

20) Ağyoxuş çayı şimal tərəfdən Zod çayına tökülür.

21)Göyçə və 22) Kəsəmən çayları Kiçik gölə tökülür.

23)Şişqaya çayı öz mənbəyini Yelizavetpol dairəsinə söykənən dağlardan götürüb cənub istiqamətində axaraq gölə tökülür.

24) Cil; 25) Ardanış və 26) Ağbulaq çayları da bu qəbildəndir.

27)Toxluca çayı Adatəpə yaxınlığında gölə tökülür.

Bu 27 çaydan başqa, Toxluca və Çubuqlu arasında gölə tökülən xeyli başqa çaylar da var. Göldən isə cəmi 1 çay-Zəngi çayı axır. Amma o qədər az suludur ki, tez-tez quruyur. Sanki təbiətin özü də bu gölün sahillərini bərkidərək onun mövcudluğunu qoruyur. Suyun sahilə gətirdiyi əhəng daşı qumla qarışaraq bərk örtük əmələ gətirir və o da Zəngi çayının yaxınlığında sahili örtür.

İrəvanın bir çox sakinləri bu fikirdədir ki, Göyçə gölünün suyu yerin altı ilə axıb Kür və Araz çaylarına tökülən bir çox çay əmələ gətirir.

**c)Turş suları:**

Ağrıca vadisində bir çox yerlərdə turş sular var.

**Dağları:**

Göyçə mahalı eyni adlı gölə tökülən çayların əhatəsindəki dağları özündə ehtiva edir. Başlıca dağları aşağıdakılardır:

1)Zirvəsi daim qarla örtülü olan Böyük Ağmanqal dağı Göyçə mahalını Qırxbulaq mahalından ayırır.

2)Altuntaxt dağı Ağmanqaldan şərqdə yerləşir.

3)Ağdağ. Altuntaxtdan şərqdə yerləşir. Bu iki dağ Göyçə mahalını Gərrnibasar mahalından ayırır.

4)Kiçik Ağmanqal Ağrıca vadisində yerləşir və onu Vedibasar mahalından ayırır.

5)Qaranlıq; 6)Gözəldərə və 7)Daşpilləkən dağları. Zirvəsi qarla örtülü olan bu 3 dağın əmələ gətirdiyi dağ silsiləsi Göyçə mahalını Qarabağ vilayətindən ayırır.

8)Ağmanqal dağı ilə gölün arasından cənub istiqamətdə alçaq dağ silsiləsi var və onun adı Üçtəpədir.

9)Gölün sahilində, Adıyaman çayı yaxınlığındakı Abulhasar dağı.

Göyçənin yeni sakinlərinə başqa dağların adı məlum deyil. Bu dağlar Dərəçiçək mahalından başlamaqla gölü öz qarlı zirvələri ilə əhatə edir. Böyük Ağmanqaldan Kiçik Ağmanqala təxminən 20 verst məsafə var. Ağrıca vadisi Kiçik Ağmanqalın yaxınlığından başlayır. Sonra bol suları olan və Göyçəni Qarabağdan ayıran dağ silsiləsi başlayır. Buradan Zod vadisinə qədər təxminən 20-30 verst məsafə var. Buradan başlayan dağ silsiləsi Göyçəni Toxluca vadisinə qədər Yelizavetpol dairəsindən ayırır. Toxlucadan sonra dağlar get-gedə gölə doğru daha çox yaxınlaşır və nəhayət Dərəçiçək mahalının Çubuqlu kəndində kəskin şəkildə ən yüksək nöqtəyə çatır. Bütün bu dağlar bol otlu sıx biçənəklərlə örtülmüş və olduqca gözəl mənzərələr yaratmışdır.

**İqlimi:**

Göyçədə gölün cənubundakı yüksəkliklərdə iqlim sərtdir və bu yerlərdə ildə 4 aydan artıq yaşamaq mümkün deyil. Gölün yaxınlığında iqlim mülayimdir. Şimal tərəfi isə müqayisəolunmaz dərəcədə istidir.

Ümumiyyətlə, Göyçə mahalının iqlimi mülayim və Rusiya quberniyalarında olduğu kimi sağlamdır.

**Məşğuliyyət:**

Bütün sərin iqlimli zolaqlarda olduğu kimi, burada da taxılçılıqla məşğul olurlar. Buğda, arpa, darı və kətan, bəzi bostan bitkiləri əkilir. Bağçılıq istisnasız olaraq Güney tərəfdədir. Buğdanı aprel ayının sonunda əkir, sentyabrın əvvəllərində, bəzən də sonunda biçirlər. Bir çox hallarda erkən düşən şaxtalar əkinçilərin əməyini zay edir.

**Balıqçılıq:**

Göyçə mahalında o qədər çox balıq var ki, tələbatı üstələyir. Buraya yollanan karvanlar nəzərdə tutulduğundan iki dəfə artıq balıq tutmağa nail olurlar. Əsas balıq ovu

Kəvər, Adıyaman, Qızılvənk, Zod, Toxluca, Çubuqlu çaylarındadır, amma bütün çaylar balıqla zəngindir. Yerli sakinlərin dediyinə görə hər çayda xüsusi balıq növü vardır. Ən yaxşı balıq işxan balığı sayılır. Onun uzunluğu 10 verşoka qədər olur (**Verşok** çar Rusiyasında işlədilən uzunluq vahidi idi. 1 verşok 4,45 sm-ə bərabərdir - **N.Ə**). Çox dadlıdır.

Göyçə balığı bütün Zaqafqaziyada çox məşhurdur. Gürcüstandan və başqa yerlərdən buraya 200-300 yük heyvanı olan karvanlarla gəlirlər. Balıq tutanda çayın axarını başqa istiqamətə yönəldir və çay yatağında qalan balıqları yığırlar. Lakin nadır hallarda onun hamısını toplamağa nail olurlar. Bir çox hallarda balığın yarıdan çoxu xarab olur və ətrafa üfunət yayılır, hər yeri dözülməz edir. Əgər balıq ovu düzgün təşkil edilsə, ətrafda yaşayan əhali əziyyət çəkməz, xəzinə isə daha çox qazanar.

**Heyvandarlıq:**

| Milli mənsubiyyəti | Camış | öküz | Inək | Buzov | Qoyun və keçi | At | ulaq |
|---|---|---|---|---|---|---|---|
| Ermənilərdə: yerli | 18 | 31 | 48 | 31 | 48 | 6 | 1 |
| gəlmə | 1.946 | 4.198 | 2.689 | 1.510 | 6.463 | 776 | 364 |
| Müsəlmanlarda: qaraqoyunlu | 2 | 23 | 23 | 23 | 260 | 12 | 1 |
| qarapapaq | 38 | 1.481 | 1.765 | 1.566 | 14.802 | 924 | 135 |
| Çaxırlı | 11 | 116 | 143 | 168 | 931 | 107 | 9 |
| kərkibaşı | 4 | 45 | 76 | 83 | 1074 | 26 | 2 |
| Ayrımlı | - | 125 | 213 | 204 | 1749 | 79 | 6 |
| dəmirçili | - | 4 | 3 | 3 | 17 | 2 | - |
| Milli | 34 | 598 | 833 | 892 | 7.352 | 530 | 26 |
| Qaraçorlu | 22 | 112 | 117 | 124 | 762 | 54 | 12 |
| əliqanlı | 7 | 124 | 137 | 150 | 1.651 | 88 | 1 |
| Biruki | - | 4 | 6 | 2 | 47 | 2 | - |
| Cəmi | 2.082 | 6.861 | 6.053 | 4.756 | 35.156 | 2.606 | 557 |

Bütün mal-qara: cəmi 58.071 baş.

**Müəssisələr:**

Işlək dəyirman: 24

Yararsız dəyirman: 213.

Yararsız bəzirxana: 95.

**Mülkiyyət:**

Davud xan Şahnəzərov Göyçə mahalındakı bir neçə ən yaxşı kəndin sahibi olduğunu iddia etsə də, onun təqdim etdiyi sənədlər şübhə doğurur. Lakin ölümündən qabaq bu hüququndan imtina etdiyinə görə bu hüquq dövlətə keçmişdir. Göyçə mahalı hal-hazırda istisnasız olaraq xəzinəyə məxsusdur.

**Dövlət mülkiyyəti:**

Göyçə mahalında əvvəlki sakinlərə məxsus olan bütün mülkiyyət indi xəzinəyə daxil olmalıdır. Məskunlaşdırılmış kəndlərdə 24 işlək və 213 yararsız dəyirman, eləcə də 95 yararsız bəzirxana vardır. Məskunlaşdırılmamış boş kəndlərdə onların sayı məlum deyil.

**Vergilər:**

İrəvan Sərdarının vaxtında buralarda məskunlaşdırılmış qarapapaqlara sərhədləri qorumaq həvalə edildiyinə görə, onlar Sərdara heç bir vergi ödəmirdilər. Qarapapaqlar 1.000 nəfər silahlı atlı və lazım olan qədər yük heyvanları çıxarmaqla kifayətlənirdilər. Öz kəndxudalarına isə əldə etdikləri taxılın onda birini verirdilər. Əvvəllər Gərnibasar mahalında məskunlaşan qaraçorlular, millilər və əliqanlılar hər binəçəyə görə 7,5 tümən, məhsulun 30 hissəsindən 7-sini, 6 toyuq, 12 yumurta və 3 yük odun ödəyirdilər.

**Göyçə mahalından əldə edilən başqa gəlirlər belə idi:**

1)Balıq ovlanması üçün icazəsi olan iltizamçılardan 100 tümən.

Onlara belə icazə verilirdi:

a)Yaz vaxtı İrəvan sakinlərindən hər yük balıq üçün 12 şahı, Rusiya təbəələrindən 60 qəpik gümüş pul.

b)Yayda ovlanan işxan və qara balıq üçün də eyni qaydada.

c)Payız vaxtı İrəvan sakinlərindən 40 qəpik gümüş pul, Rusiya təbəələrindən 1 rubl gümüş pul.

**Yolları:**

Göyçə mahalından çoxlu yollar keçir. İrəvandan başlayan qış yolu Dərəçiçək və Ördəklidən, yay yolu isə Ağmanqal dağından keçir. İrəvandan Kəvərə və ya Bəyazidə təxminən 100 verst məsafə var.

Naxçıvandan Yelizavetpola gedən əlverişli yol Dərələyəzdən və Toxlucadan keçir.

Bu əsas yollardan başqa əlverişli cığır yollar da var ki, köçəri xalqlar ondan istifadə edərək Qarabağa və Dərələyəzə, eləcə də Ağrıca vadisindən keçməklə Şərur, Vedibasar və Gərnibasar mahallarına gedib-gəlirlər.

**Qışlaqlar:** Bu yerlərdə yaşayan tatarlar qışı daim yaşadığı yerlərdə keçirir və taxıl əkib-biçirlər. Yayda isə hərəsi öz ərazisində heyvanları ilə dağlara qalxırlar.

**Köç yerləri:** Bütün Göyçə mahalı gözəl çəmənləri, qarlı dağların ətəyindəki sərin yerləri ilə köçəri xalqlar üçün olduqca əlverişli yerdir. Buralara köçənlər: Ağmanqal dağına 1) saraclılar; Ağrıca vadisinə 2)kərimbəylilər; 3) dəmirçilər; 4) qafarlı tayfası; 5) gədikli tayfası; oranın aşağı yerlərinə 6)cejimli tayfası; Ağrıcanın zirvəsinə, Gözəldərə və Qaranlıq dağına 7) biruki tayfası; Dərələyəz sərhədlərinə 8) cəlalilər; Göyçə gölünün ətrafına 9) qaraçorlular; 10) banukilər.

**Qədim abidələr:** Mahalda arxeoloqların diqqətini cəlb edən xeyli sayda qədim abidələrin qalıqları var.

**Səmərələşdirici təkliflər:**

1) Göyçə gölündə və ona tökülən çaylarda balıq ovunu düzgün təşkil etməli.

2) İmkan verdiyi dərəcədə dağ yüksəkliklərində meşə zolaqları salmaq.

3) Boş qalmış kəndləri məskunlaşdırmalı.

***Erməni Vilayəti üzrə İdarənin müşaviri İvan Şopen***
***Qeydiyyatçı katib Arxip Rıjkov".***

**Göyçə mahalı üzrə əhali:**

**Tatarlar: 999 ailə, 3.164 kişi, 2.443 qadın, cəmi 5.607 nəfər**

**Ermənilər:**

**Yerli : 15 ailə, 52 kişi, 38 qadın, cəmi 90 nəfər**

**Türkiyədən köçürülən:1.485 ailə, 4.457 kişi, 4.100 qadın, cəmi 8.557 nəfər**

**Göyçə mahalı üzrə ümumi əhali 14.252 nəfər.**

**Göyçə mahalında yaşayan tatar-müsəlmanların tayfalar üzrə təsnifatı**

| Tayfa mənsubiyyəti | Ailə sayı | Kişilərin sayı | Qadınların sayı | Cəmi |
|---|---|---|---|---|
| Qarapapaqlar | 577 | 1.844 | 1.299 | 3.143 |
| Qaraqoyunlu | 9 | 35 | 28 | 63 |
| Çakırlı | 37 | 120 | 96 | 216 |
| Kərkibaşı | 13 | 36 | 36 | 72 |
| Ayrımlı | 42 | 126 | 91 | 217 |
| Dəmirçili | 2 | 4 | 4 | 8 |
| Milli | 227 | 711 | 629 | 1.340 |
| Əliqanlı | 40 | 120 | 117 | 237 |
| Qaraçorlu | 49 | 157 | 137 | 294 |
| Biruki | 3 | 11 | 6 | 17 |
| Cəmi | 999 | 3.164 | 2.443 | 5.607 |

***Erməni Vilayəti üzrə İdarənin müşaviri İvan Şopen".***

1831-ci ilin Kameral təsvirində Göyçə mahalında yaşayış olan 59 kənd, yaşayış olmayan 67 boş kənd qeydiyyata alınmışdır. Həmin boş kəndlər bunlar idi:

## GÖYÇƏ MAHALININ BOŞ KƏNDLƏRİ

**1.BUĞDATƏPƏ KƏNDİ.** Ördəkli və Bığlı Hüseyn kəndlərinin arasında yerləşir.

**2.HACI MUMUXAN KƏNDİ, 3.ƏLVERDİ BƏY KƏNDİ, 4.ÜÇTƏPƏ KƏNDİ.** Bu üç kənd Üçtəpə dağının yaxınlığında, Göyçə gölünün qərb tərəfində yerləşir.

**5.ADI MƏLUM DEYİL.** Əyrivənk kəndinin yaxınlığında yerləşir.

**6.ADI BİLİNMİR, 7.KƏRİM KƏNDİ, 8.ADI BİLİNMİR.** Bu 3 kənd Gənzak kəndinin yaxınlığında yerləşir.

**ADI MƏLUM OLMAYAN 9, 10 və 11 NÖMRƏLİ KƏNDLƏR**. Bu 3 kənd Göyçə gölünün yaxınlığında, Noradus və Eyranis kəndlərinin arasında yerləşir.

**12.BÖYÜK ALTUNTAXT KƏNDİ. 13.KİÇİK ALTUNTAXT KƏNDİ**. Bu iki kənd Eyranis kəndindən yuxarıda, Altuntaxt dağında yerləşir.

**14.DƏMİRÇİ POĞOS KƏNDİ.** Eyranis kəndi ilə Təzəkənd arasında yerləşir.

**ADI BİLİNMƏYƏN 15, 16, 17, 18 və 19 nömrəli KƏNDLƏR.** Bu 5 kənd Təzəkəndin ətrafında yerləşir.

**20.AĞRICA KƏNDİ. 21. AT DAŞI KƏNDİ, 22.AXSAQ TOVUZ KƏNDİ, 23.KARVANSARA KƏNDİ, 24.ADI BİLİNMƏYƏN KƏND, 25.QASIM BAŞKƏNDİ, 26.MƏDİNƏ KƏNDİ, 27.ADI MƏLUM OLMAYAN KƏND.** Bu 8 səkkiz kənd Təzəkəndlə Abdulhasar dağının və Ağrıca irmağının yaxınlığında yerləşir.

**28.ADI MƏLUM OLMAYAN KƏND.** Yuxarı Qaranlıq çayının yaxınlığında yerləşir.

**29.ADI MƏLUM OLMAYAN KƏND.** Aşağı Qaranlıq çayının yaxınlığında yerləşir.

**ADLARI MƏLUM OLMAYAN 30 və 31 nömrəli KƏNDLƏR**. Bu 2 kənd Ağçırağın yaxınlığında yerləşir.

**32.ADI MƏLUM DEYİL**. Gözəldərə kəndinin yaxınlığında yerləşir.

**33.BAŞ GÖZƏLDƏRƏ KƏNDİ**. Gözəldərə dərəsinin yuxarı hissəsində yerləşir.

**34.XANCIĞAZ OĞLU KƏNDİ və ADI MƏLUM OLMAYAN 35, 36, 37 və 38 nömrəli KƏNDLƏR.** Bu 5 kənd Kolanıqırılan kəndinin yaxınlığında yerləşir.

**39.QIZILKİLSƏ KƏNDİ. ADLARI MƏLUM OLMAYAN 40, 41. 42, 43 və 44 nömrəli KƏNDLƏR.** Bu 5 kənd Qızılkilsə çayının yaxınlığında yerləşir.

**45.BÖYÜK AĞA KƏNDİ**. Qanlı Allahverdi kəndinin yaxınlığında yerləşir.

**ADLARI MƏLUM OLMAYAN 46 və 47 NÖMRƏLİ KƏNDLƏR**. Bu 2 kənd Qızılbulaq kəndinin yaxınlığında yerləşir.

**ADLARI MƏLUM OLMAYAN 48 və 49 nömrəli KƏNDLƏR**. Bu 2 kənd Qırxbulağın yaxınlığımda yerləşirş

**50.ADI MƏLUM DEYİL**. Daş Keyti kəndinin yaxınlığında yerləşir.

**ADLARI MƏLUM olmayan 51 və 52 nömrəli KƏNDLƏR**. Baş Keyti kəndinin yaxınlığında yerləşir.

**ADLARI MƏLUM OLMAYAN 53 və 54 nömrəli KƏNDLƏR.** Ellicə kəndinin yaxınlığında yerləşirlər.

**55.AĞKİLSƏ KƏNDİ. 56.ADI MƏLUM DEYİL**. Zarzebil kəndiniun yaxınlığında yerləşirlər.

**57.ADI MƏLUM DEYİL**. Zod kəndinin yaxınlığında yerləşir.

**58.GÖYÇƏ KƏNDİ, 59.SULTANƏLİ KƏNDİ, 60.SATANAĞAC KƏNDİ və 61.KARVANSARA KƏNDİ.** Bu kəndlər Böyük Məzrə və Şişqaya kəndlərinin arasında yerləşirlər.

**62.AĞRICA KƏNDİ. ADLARI BİLİNMƏYƏN 63 və 64 nömrəli KƏNDLƏR.** Bu 3 kənd Göyçə gölünün şimal tərəfində, Toxluca kəndinin yaxınlığında yerləşir.

**65.KƏRİMAĞA KƏNDİ, 66.DƏLİ ARUTYUN KƏNDİ, 67.KOMASER KƏNDİ**. Bu kəndlər də Toxluca kəndinin yaxınlığında yerləşirlər.

İrəvan Vilayəti üzrə İnzibati İdarənin müşaviri İvan Şopen.
***Qeydiyyatçı: Arxip Rıjkov".***

Göyçə mahalının yaşayış olan kəndlərində əhalinin milli mənsubiyyəti isə belə idi:

№1.Bığlı Hüseyn kəndi. 5 qarapapaq ailəsi.

№2.Zeynalağa kəndi. 10 qarapapaq ailəsi.

№3. Rəhman kəndi. 8 qarapapaq ailəsi.

№4.Ağqala kəndi. 7 qarapapaq ailəsi.

№5. Əyrivənk kəndi. 8 qarapapaq ailəsi.

№6. Qızılcıq və ya Abul kəndi. 19 qarapapaq ailəsi.

№7.Nərədüz kəndi.Türkiyədən köçürülən 105 erməni ailəsi.

№8.Qışlaq kəndi. Türkiyədən köçürülən 30 erməni ailəsi.

№9.Havar kəndi. Türkiyədən köçürülən 258 erməni ailəsi.

№10.Qul Əli kəndi. Türkiyədən köçürülən 140 erməni ailəsi.

№11.Kösə Məhəmməd və ya Gəndzək kəndi. Türkiyədən köçürülən 73 erməni ailəsi.

№12.Paşa kəndi. Türkiyədən köçürülən 81 erməni ailəsi.

№13.Dəliqardaş kəndi. Türkiyədən köçürülən 116 erməni ailəsi.

№14.Gözaçıq kəndi. Türkiyədən köçürülən 42 erməni ailəsi.

№15.Başkənd. Türkiyədən köçürülən 28 erməni ailəsi

№16.Əyranis kəndi. 13 yerli, Türkiyədən köçürülən 44 erməni ailəsi.

№17.Hətəmxan kəndi. Türkiyədən köçürülən 28 erməni ailəsi.

№18.Vəli ağalı kəndi. Türkiyədən köçürülən 56 erməni ailəsi.

№19.Təzəkənd. Türkiyədən köçürülən 12 erməni ailəsi.

№20.Dəlikdaş kəndi. Türkiyədən köçürülən 20 erməni ailəsi.

№21.Göl kəndi. Türkiyədən köçürülən 49 erməni ailəsi.

№22.Aşağı Adıyaman kəndi. Türkiyədən köçürülən 62 erməni ailəsi.

№23.Yuxarı Adıyaman kəndi. Türkiyədən köçürülən 16 erməni ailəsi.

№24.Abdulağalı kəndi. Türkiyədən köçürülən 15 erməni ailəsi.

№25.Gözəldərə kəndi. Türkiyədən köçürülən 97 erməni ailəsi.

№26.Ağqıraq kəndi. Türkiyədən köçürülən 30 erməni ailəsi.

№27.Yuxarı Qaranlıq kəndi. Türkiyədən köçürülən 54 erməni ailəsi.

№28.Aşağı Qaranlıq kəndi. Türkiyədən köçürülən 60 erməni ailəsi.

№29.Zolaxaç kəndi. Türkiyədən köçürülən 46 erməni ailəsi.

№30.Kolanıqırılan kəndi. Türkiyədən köçürülən 23 erməni ailəsi.

№31.Alçalı kəndi. 16 qaraçorlu ailəsi.

№32. Qarasaqqal qışlağı kəndi. 2 milli ailəsi.

№33. Yarpızlı kəndi. 19 milli ailəsi.

№34. Zağalı kəndi. 15 milli, 2 biruki ailəsi.

№35. Qızılbulaq kəndi. 36 çakırlı ailəsi.

№36. Qırxbulaq kəndi. 39 milli ailəsi.

№37. Qanlı Allahverdi kəndi. 16 milli ailəsi.

№38. Basarkeçər kəndi. 30 milli, 1 biruki ailəsi.

№39. Qoşabulaq kəndi. 16 milli ailəsi.

№40. Aşağı Keyti kəndi. 29 milli ailəsi.

№41. Baş Keyti kəndi. 14 ayrım, 1 çakırlı ailəsi.

№42. Ellicə kəndi. 34 qarapapaq, 37 milli ailəsi.

№43.Daşkənd kəndi. 33 qaraçorlu, qarapapaqların kərkibaşı tayfasına aid 13 ailə, 23 qarapapaq ailəsi.

№44.Daş Keyti kəndi. 25 qarapapaq ailəsi.

№45.Tatulqışlaq kəndi. 20 qarapapaq, 9 qarapapaqların qaraqoyunlu ailəsi.

№46. Zarzebil kəndi. 41 qarapapaq, 2 erməni ailəsi.

№47. Zod kəndi. 44 qarapapaq ailəsi.

№48. Ağyoxuş kəndi.36 qarapapaq ailəsi.

№49. Oğruca kəndi. 30 qarapapaq ailəsi.

№50. Böyük Məzrə kəndi. 40 əliqanlı, 9 milli ailəsi.

№51. Kiçik Məzrə kəndi. 39 qarapapaq ailəsi.

№52. Kəsəmən kəndi. 31 qarapapaq ailəsi.

№53. Şişqaya kəndi. 28 ayrım, 15 milli, 6 qarapapaq, 2 dəmirçili ailəsi.

№54. Cil kəndi. 45 qarapapaq ailəsi.

№55. Ardanış kəndi. 20 qarapapaq ailəsi.

№56. Adatəpə kəndi. 22 qarapapaq ailəsi.

№57. Şor Əli kəndi. 24 qarapapaq ailəsi.

№58. Ağbulaq kəndi. 26 qarapapaq ailəsi.

№59. Toxluca kəndi. 50 qarapapaq ailəsi.

## Gökçələr

Boş kəndlərin siyahısında bizim üçün xüsusi maraq doğuran iki kənd var. Onlardan birincisi Zarzebil kəndinin yaxınlığında yerləşdiyi yazılan 55 nömrəli Ağkilsə kəndidir. Bu siyahı 1831-ci ildə Ağkilsə kəndində heç kimin yaşamadığını sübut edir.

Marağımıza səbəb ola biləcək ikinci kənd isə Böyük Məzrə və Şişqaya kəndlərinin arasında yerləşən və 58 nömrəsi ilə qeyd olunan Göyçə kəndidir. Göyçə mahalında eyni adda kəndin mövcudluğu barədə indiyə qədər məlumat yox idi(1960-cı ildə Ermənistan hökuməti tərəfindən adı dəyişdirilən Göysu kəndi bəzi mülahizələrə görə həmin kənddir).

Göyçə mahalının inzibati-ərazi vahidi kimi nə vaxtdan mövcudluğuna gəlincə, onun adını hələ Zeynəddin bin-Həmdullah Qəzvininin "Tarixe-qozide" (Bakı 1992) əsərində çəkilir. Burada 1343-cü ildə Gökçə Dəniz deyilən ərazidə baş verən hadisələrdən bəhs edilir (səh.16; 18). Qaraqoyunlu hökmdarı Sultan Cahanşahın(1436-1467) fərmanında da Göyçə vilayəti qeyd olunur. Ərazi Göyçə mahalı adlandığı kimi, buradakı məlum göl də **"Göyçə dənizi"** adlanırdı. Müxtəlif tarixlər söylənsə də, bizim fikrimizcə ən geci XV əsrin ortalarında yazıya alınmış **"Kitabi Dədə Qorqud"** dastanlarında da "Gökçə" adına rast gəlinir. **"Qazan bəy oğlu Uruz bəyin dustaq edildiyi boy"**un Drezden nüsxəsinin 126-cı səhifəsində Qazan xanın dilindən deyilir**:** **"Mən bu oğlanı alayın, ava gedəyin. Yedi günlik azuğla çıqayın. Oxatdığum yerləri, qılıc çalıb baş kəsdiyim yerləri göstərəyim. Kafir sərhədinə, Cızığlara, Ağlağana,**

**Göycə dağa aluban çıqayın. Sonra oğlana gərək olur, a bəglər!,-dedi". "Uzun Qoca oğlu Səgrək boyu"**nda isə belə deyilir (Drezden nüsxəsi, 255-ci səhifə): **"Meyxanədə beş gün yemə-içmə oldı. Andan Şiröküz ucundan Gökcə dənizə dəkin el çarpdı".**

Araşdırmalarımız nəticəsində belə bir ehtimal irəli sürə bilərik ki, **bu toponimlər bir vaxt buralarda yaşamış gökcə/göyçə adlı türk tayfasının adından yaranmışdır.** Gökçə tayfasına mənsub olan boyların varislərinin yaşayış arealı hazırda Türkiyədə təsbit edilmişdir. Məsələn, Tokat vilayətinin Niksar ilçəsində Gökçəli adında qəsəbə, Afyon-karahisar vilayətinin Dinar ilçəsində, Amasiya vilayətinin Göynücək ilçəsində, Bayburt vilayətinin Mərkəz ilçəsində, Biləcik mahalının Bozüyük ilçəsində, Bingöl vilayətinin Adaklı ilçəsində, İğdır vilayətinin Qaaraqoyunlu ilçəsində, Sivas vilayətinin Yıldızeli ilçəsində **Gökçəli adlı kəndlər,** İstanbulun Çatalca ilçəsində,Qaziantepin Nizip ilçəsində,Qəhrəman Maraşın Andırın ilçəsində,Malatya vilayətinin Pötürge ilçəsində, Ordu vilayətinin Kumru ilçəsində, Samsun vilayətinin Çərşəmbə ilçəsində, Adana vilayətindəki Yürəyir ilçəsində **Gökçəli adında məhəllələr** vardır.

Bu yaxınlarda İraqın Mosul şəhərinin DAEŞ (İŞİD) terrorçularından təmizlənməsi zamanı burada **"Gökçəli"** məhəlləsinin varlığının da şahidi olduq. Həmin ərazilərin altı əsr Osmanlı İmperaturluğuna məxsus olduğunu nəzərə alsaq, bu fakt əlbəttə təəccüb doğurmamalıdır. Hazırda da gökçə tayfası Türkiyədən başqa, Mosul və Kərkük şəhərlərinin yaxınlığında yaşayır.

Türkiyəli tədqiqatçı Bürhanəttin Akbaş Bozox türkmənlərinin oymaqlarına aid etdiyi gökçəli oymaqlarının geniş siyahısını verir:

**17. Gökçəli obaları. Mersində Dəliçay, Mezitli dərəsi və Bolkar dağlarına qədər uzanan** ərazidə yaşayırlar:

1.Əlixanlı; 2.Arşınlı; 3.Arzular; 4.Əsri(yak); 5.Baltalı; 6.Boloxlu; 7.Çimirli; 8.Çaylaq; 9.Çoğköylü; 10.Döyünlü; 11.Əskimustafalı; 12.Hacıgöyçəli; 13.Həmzəbəyli; 14.Xurmacıqlı; 15.İğdır; 16.Kəlbürcü; 17.Qapmazlı; 18.Qarahəmzəli; 19.Kəsəroğlu; 20.Qocaoğlu; 21.Kiçikhacılı (Qarıncıq); 22.Mahmudfakifli; 23.Oğulbəyli; 24.Ordugöyçəli; 25.Sapandərəli; 26.Sarıbəyli; 27.Sarıcaorxanlı; 28.Savcılı; 29.Süleymanlı; 30.Useli; 32.Yaqublu obaları.

Türkiyədəki Amasiya vilayətinin Göynücək ilçəsində yerləşən Gökçəli kəndi ilə bağlı maraqlı məlumat var. Deyilənə görə, Gökçəli adı kənddəki qədim qalanın komandanının adı ilə bağlıdır. **Həmin komandanın adı Gökçə bəy imiş.**

Yuxarıdakı faktları nəzərə alaraq deməliyik ki, I Şah Abbas bu əraziləri Osmanlılardan azad edərkən buralarda yaşayan gökcə/göyçə tayfasını, yəni etnik türkləri osmanlı tərəfdarı olduqlarına görə sıxışdırıb çıxartmış, ya da onların özü Şah Abbasın qəzəbindən qorxaraq oraları tərk edib Osmanlı ərazilərinə getmişlər. Şopenin dediyi kimi uzun müddət boş qalmış Göyçə mahalını İrəvan Sərdarı Hüseyn xan İrandan köçürüb gətirdiyi qarapapaqlarla məskunlaşdırmışdır. **“Qarapapaq”** termini ilə sinonim olan tərəkəmələrin-köçəri türk tayfalarının bu məskunlaşdırmanı həvəslə qəbul etdiyini ehtimal etmək olar. Heç də təsadüfi deyil ki, **1842-ci ilin kameral siyahısında Ağkilsə kəndinin əhalisi “köçərilər” kimi qeyd edilmişdir.**

## Aşıq Ələsgərin savadı vardımı?

Aşıq Ələsgərin haqqındakı ziddiyətli fikirlərdən biri də onun savadsız olması, hərf, yazı-pozu tanımaması haqqındakı iddialardır. Bəzi müəlliflərin bunun əksini yazması aşığın nəvəsi və tədqiqatçısı İslam Ələsgərin qəzəbinə və tənqidinə səbəb olmuşdur. Bu məsələdə qərar verə bilmək üçün əlbəttə, ilk növbədə onun 1979-cu ildə haqqın rəhmətinə qovuşan oğlu Aşıq Talıb şahidlik edə bilərdi. Əgər rəsmi bioqrafiyasına inansaq, Aşıq Talıb 1877-ci ildə anadan olub və atası rəhmətə gedəndə onun 49 yaşı olub. 49 yaşındakı adam isə sözsüz ki, atasını və onun qabiliyyətini yaxşı yadında saxlamalıdır. Çox güman ki, babasının yazı-pozu bilməməsində israr edən İslam müəllim də bu məsələdə atasına istinad edir.

Aşıq Talıbın şahidliyini qəbul edib-etməmək də hər kəsin öz işidir, haqqıdır, amma əksini sübut etmək üçün ortaya ciddi arqumentlər qoymaq lazımdır. Bu arqumentləri isə birinci növbədə, aşığın və onun mühiti haqqındakı xəsis məlumatlar və onun öz zəngin və təkrarsız yaradıcılığı verir. Əvvəlcə yaradıcılığına müraciət edək.

"Bu dünyada üç şey başa bəladır" misraları ilə başlayan ustadnaməsi

Ələsgəri qılma məh*rumi-didar,*
*Tərəhhüm et mənə bir busə, ey yar.*
Üç hərflə ismin eylədim aşkar:
*Biri "kaf"dır, biri "lam" dır, biri "sad",-deyir.*

Kaf, lam, və sad bizim "k", "l" və "s" kimi tanıdığımız hərflərdir və filoloqlar bu sözü **"Gilas"** kimi oxuyurlar. Həmin 3 hərf "Gilas" sözündəki samit hərflərin adla-

rıdır. Məsələ burasındadır ki, Ələsgər nəinki ərəb əlifbası ilə sözləri oxuya bilir, hətta bu hərflərin qrammatik olaraq necə adlandırılmasını da gözəl bilirmiş. Başqa çox mühüm cəhət isə ondan ibarətdir ki, bizim "s" kimi oxuduğumuz hərf təkcə "sad" deyil, bu hərf ərəb əlifbası ilə 3 cür yazılır ki, onlardan biri də "sin", digəri isə "se"dir. **Məsələ burasındadır ki, tərkibində "s" hərfi olanda ərəb əlifbasındakı bu 3 hərfdən ürəyin istədiyini yaza bilməzsən, dəqiq bilməlisən ki, bu söz "se", "sin" və yaxud "sad" hərflərinin hansı ilə yazılır. Ələsgər isə Gilas sözündəki "s"nin başqa 2 variantdan biri ilə deyil, məhz "sad" la yazıldığını bilən savadlı adam imiş!**

Hərçənd mən Ələsgərin nəzərdə tutduğu qadın adının **"Gilas"** deyil, **"Külüs"** olduğu qənaətindəyəm. Əsasən Naxçıvanda rast gəlinən bu qadın adını folklorşünaslar bilmədiklərinə görə, Gilas süzünün üstündə durublar. Gilas sözündə isə Ələsgərin dediyi kimi 3 hərf kifayət etmir, "i" və "a" hərfləri də yazılmalıdır.

Başqa bir dodaqdəyməzində ustad deyir:

Ələsgərin xətti çıxdı, çal indi,
*"Hey"i "yey"ə, "dal"ı "rey"ə çal indi.*
*Hərcayının kəlləsindən çal indi,*
Çal çəngəlin, çək ciyərin çata-çat.

Buradakı "hey", "yey", "dal" və "rey" ərəb əlifbasındakı "h","y","d" və "r" hərflərinin adlarıdır və bu əlifbanın oxunuş qaydalarına uyğun olaraq "e" və "ə" səslərini də artıranda **"Heydər"** oxunur, mənası "şir" olan bu söz İmam Əlinin ləqəblərindən biridir və onun pəhləvanlığına, xüsusən Xeybər qalasının alınmasında göstərdiyi qeyri-adi şücaətlərinə görə ona verilən addır.

Ustad Ələsgər başqa bir məşhur qoşmasında deyir:

*Gözüm qaldı "əlif" "bey"də, yasində,*
*Yaradanım, kömək eylə ya sində.*

*Qaldım səməndərtək qəm dəryasında,*
*Yandı balü-pərim nara dəyməmiş.*

Burada işlənən "əlif" və "bey" sözləri bizim "a" və "b" kimi tanıdığımız hərflərin ərəb əlifbasındakı adlarıdır. Gözün "əlif" "bey"də, "yasin"də qalması ifadəsi isə, mütaliə ilə məşğul olmağa, daha çox isə Quran oxumağa, dindarlığa işarədir.

"Allahın adı ilə" adlı şeirində ərəb əlifbasına daxil olan bütün hərflər nəinki sadalanır, Ustadın variantında onların hər birinin anlamı verilir, nə ifadə etdikləri təqdim edilir:

## ALLAHIN ADI İLƏ

*İbtidada "əlif" – Allah,*
*"Be" – birliyə dəlalətdi.*
*"Te" – təkdi vahidi-yekta,*
*Arif bu elmə bələddi.*

*"Se" – sabitdi doğru yola,*
*"Cim" – ucadı, bax calala.*
*"He" – mehribandı halala,*
*Münkir ondan xəcalətdi.*

*"Xe" – birdi xaliqi-əkbər,*
*"Dal" – doğru doqquz fələklər,*
*"Zal" – zikr eylə dildə əzbər,*
*"Re" – rəsulumuz Əhməddi.*

*"Ze" – zəbanı aç xudaya,*
*"Sin" – salam et, getməz zaya,*
*"Şin" – şövq elə o mövlaya,*
*Qeyri söhbət məsiyətdi.*

*“Sad” – səbri şahi-heydərə,*
*“Zad” – zərbin vurdu Əntərə,*
*“Ta” – tərif çıxdı göylərə,*
*Ağam kani-şücaətdi.*

*“Za” – zülm edəcək düşmənə,*
*“Eyn” – həyati-çeşmanə,*
*“Ğeyn” – ğül-ğüli-dövranə,*
*“Fe” – fəna, “qaf” – qiyamətdi.*

*“Kaf” – “kun” ilə tutub qərar,*
*“Lam” – lal, necə hesab verər,*
*“Mim” – möminə yol göstərər,*
*Ismi-paki Məhəmməddi.*

*“Nun” – nida eylər hər zaman,*
*“He” – hamıya yetər fərman,*
*“Vav” – vay deyər, yatma, oyan,*
*Sanma səhni-zərafətdi.*

*“Lam – əlifla” – birdi Allah,*
*“Ye” – yekdi adil padişah.*
*Ələsgər, tutduğun günah*
*Bağışlansa, çox hörmətdi.*

Aşıq burada bizim “s”kimi tanıdığımız hərflə başlayan üç sözün adını çəkir: “sabit”, “salam” və “səbr”. Və bu sözlərdə hansı “s”-nin işlədildiyini də göstərir: “sabit”in “se” hərfi, “salam”ın “sin”, “səbr”in isə “sad”la yazıldığını bilməklə nəinki ərəb əlifbasını, hətta ərəb və fars dillərini mükəmməl bildiyini nümayiş etdirir!

Bütün bunlardan sonra, aşığın nəvəsi və tədqiqatçısı İslam Ələsgər yenə təkidlə israr edir ki, Ələsgər hərf ta-

nımırmış! Başa düşmək olmur ki, hərf tanımaq deyəndə İ.Ələsgər nəyi nəzərdə tutur. Babasının hərf tanımadığında israrçı olması misal gətirdiyim bütün bu şeir nümunələrinin müəllifinin Aşıq Ələsgər olmadığı anlamına gəlir.

Aşıq Ələsgərlə bağlı başqa bir rəvayətdə deyilir ki, Xəstə Qasımın o vaxta qədər heç kimin aça bilmədiyi bir bağlamasını ona göndərib sınamaq istəyirlər, amma bağlamanın müəllifi kimi yalandan Xəstə Həsən imzasını qoyurlar. Ələsgər nəinki bu mürəkkəb bağlamanı açır, həm də onun əsil müəllifinin Xəstə Həsən deyil, Xəstə Qasım olduğuna işarə olaraq:

**"Qasım" "qaf"ınandı, Həsən "hey"inən",-**misrasını işlədir. Buradakı "qaf" və "hey" ərəb əlifbsındakı "q" və "h" hərflərinin adıdır.

(Yeri gəlmişkən, görkəmli türk alimi F.Kırzıoğlu Xəstə Həsən adlı axalkələkli aşıq haqqında məlumatla yanaşı, onun bir şeirini də vermişdir. F.Kırzıoğluna görə on yeddinci əsrin sonu, on səkkizinci əsrin əvvəllərində yaşamış "Cavak tərəkəməsi (qaraqalpaq)" boyundan və Axalkələk sancağının Levis kəndindən olan Xəstə Həsənin şeirləri Diyarbəkirdəki cünglərdə yer almışdır. O, Xəstə Həsənin aşığın aşağıdakı şeirini nümunə kimi təqdim edir:

**Kimdə var?**

*Ey fələk, sənin əlindən bu sitarə kimdə var?*
*Mənim kimi sinədağlı, bəxti qarə kimdə var?*
*İki cahan sərvəri bir Mustafanın eşqinə,*
*Bulam, dolanam başına, dərdə çarə kimdə var?*

*Hər insanın bir dərdi var, mənimkindən beş-betər,*
*Bir canan su isidərkən, birisi tas-tas tökər.*
*Birisi ağlayıb, sızlar, birisi yanar, tütər,*
*Təbib gəlməz, məlhəm almaz, böyle yara kimdə var?*

*Xəstə Həsən deyər sözün, danışma namərdinən,*
*Çox çalış ki, dost olasan, bir əhli comərdinən.*
*Neçə aşiq yandı nara, illah Kərəm dərdiynən,*
*Böylə atəş, böylə yanğın, böylə çıraq kimdə var?*

**(Fahrettin Kırzıoğlu.”Ahıskalı 14 Halk Şairimizden Birer Parça”. Türk Kültürü Dergisi, 1966. S.47, s.1012).**

Tədqiqatçı alim, folklorşünas Ə.Şamilin də Axırkələkli Xəstə Həsən haqqında araşdırmaları vardır. O, Xəstə Həsənin Türkiyəli aşıq İslam Ərdənərdən və Qərbi Azərbaycanın Ağbaba mahalından olan Aşıq İsgəndərdən eşitdiyi bir neçə şeir nümunələrini təqdim edir. Onlardan biri **“Su ver”** rədifli şeirdir:

*Sallanıban bağdan gələn ay maralım, bir su ver.*
*Malım-mülküm sənin olsun, küllü varım, bir su ver.*
*Vücudumu atəş aldı,dumanım ərşə çıxar,*
*Qurudu dilim-dodağım, dil fəraqım, bir su ver.*

*Gözəllər xətri əzizdir, bir-birindən seçmərəm,*
*Versələr də dünya malın, sevdiyimdən keçmərəm.*
*Yad əlindən abi-həyat olursa da, içmərəm,*
*Özün doldur, öz əlinlə ey məlalım, bir su ver.*

*“Xəstə Həsən gəldi” deyə çağırarlar adımı,*
*Eşq ucundan yandı cismim, eşidin fəryadımı.*
*Neyləyirəm dünya malın, almasam muradımı?*
*Qaşı hilal, abı zülal, ləbi ballım, bir su ver”.*

Əzizə Şamil, Əli Şamil. “Aşıq İsgəndər Ağbabalı”. Bakı, 2012).

Başqa məşhur bir şeirində

*“Dərs alanlar Ələsgərdən dərs alsın,*
*Altı min altı yüz ayə məndədir”,* - deyir.

Burada Aşıq Quranı oxumaq bacarığından başqa, onu hətta əzbər bilməsindən söz açır. Elə İslam müəllimin qələmə aldığı bir hadisə də bunun sübutudur. O, **“Haqq aşığı Ələsgər” (Bakı,1999, səh.38)** kitabında yazır ki, bir məclisdə Aşıq Ələsgər mollaya irad tutur ki, Quranın filan yerini düzgün oxumadın. Molla etiraz edib Qurandan həmin yeri açıb göstərir ki, budur, belə yazılıb, düzgün oxumuşam. Onda Ələsgər deyir ki, mən dediyim Quranın Tehran nəşrindədir. Adam göndərib qonşu kənddən həmin nüsxəni gətirirlər və Ələsgərin haqlı olduğu üzə çıxır, molla üzr istəyir.

Bu fakt Ələsgərin nəinki Quran oxuya bildiyini, hətta onu əzbər bildiyini, hafiz olduğunu göstərir. Burada bir etiraz da görürəm: deyə bilərlər ki, Ələsgər Quranı oxuyaraq əzbərləməyib, yanında oxuyublar, o qədər güclü hafizəsi varmış ki, hamısını yaddaşına həkk edib. Yaxşı, bu qədər nadir və güclü yaddaşa malik olan insan üçün ərəb əlifbasını öyrənib yadda saxlamaq nə çətin işdir axı? Bu istedadla dahi sənətkarımız bu əlifbanı bircə günə öyrənə bilərdi və öyrənmişdi də!

**“Aşıq Ələsgərin Şınıq səfəri”** dastan-rəvayətində Aşıq Əsədullahla deyişməsi vardır. Əsədullahın oxuduğu bağlamaya cavab olaraq Ələsgər Qurani-Kərimi belə təsvir edir:

*Altı min altı yüz altmış altı gül!*
*Yüz on dörd surədir Quran, yəqin bil.*
*Altmış nisbi, otuz cüzi müttəsil,*
*Doxsan min kəlmədə tamamı vardır.*

*Elmi-ibadətdi əcayib Quran,*
*On yeddi rəkətdi, on səkkiz xoş han.*
*Əlli bir sünnətdi, yerbəyer qılan,*
*Məxrəci, səcdəsi, iqdamı vardır.*

Göründüyü kimi, Ələsgər Qurani Kərimin strukturunu, onun neçə ayə, neçə surə, neçə kəlmə, neçə cüz olduğunu təsvir edir.

Bir təcnisində Aşıq Ələsgər yazıb-oxumaq, əbcəd hesabını bildiyini belə ifadə edir:

*"Əlif"dən dərs aldım, əbcəd oxudum,*
*Huş verdim, öyrəndim yazıq "əmmə"ni.*
*Şirin canım müjganına toxudum,*
*Sən Allah, öldürmə, yazığam, məni!"*

Ərəb əlifbasındakı hərflərin hər biri bir rəqəmi ifadə edir. Bu əlifbanın 1-ci hərfi olan "əlif" 1-i, sonuncu hərfi olan "ğayn" isə 1.000 rəqəmini ifadə edir. Başqa sözlə, əlifbanın bütün 28 hərfinin bir kəmiyyət qarşılığı vardır və bu məsələ **"əbcəd hesabı"** adlanır. Savadlılıq tələb edən bu hesabdan aşıqlar da bağlama deyərkən istifadə etmişlər. Məsələn, **"Valeh və Zərnigar"** dastanında Aşıq Valehlə Zərnigarın uzun çəkən gərgin yarışması əbcəd hesabını bilməsinə görə Aşıq Valehin qələbəsi ilə başa çatır və bağlamasını da özü belə açır:

*"Valeh əbcəd hesabını yad eylər,*
*Köhnə mənaları tez savad eylər.*
*Bir "əlif", bir "ğayın" min bir ad eylər,*
*Ancaq ona demək olmaz ikidir".*

Burada “Allah” sözünün ərəb əlifbası ilə iki hərflə-“əlif” və “ğayn” hərfləri ilə yazılması, əbcəd hesabında bu hərflərin 1.001 rəqəmini ifadə etməsi, lakin Allahın tohidi-təkliyi nəzərdə tutulur. ““Əlif”dən dərs aldım, əbcəd oxudum”,-deyən Aşıq Ələsgər də əbcəd hesabını və təbii ki, ərəb əlifbasını bildiyinə işarə edir və bizim ona inanmamağa, şübhə etməyə heç bir ixtiyarımız yoxdur!

“Rənc ali-əba” adlı dini-fəlsəfi şeirində Ələsgərin Aşıq Valehdəki ifadələrə çox yaxın sözləri var:

*İbtida “əlif”dən dərsim almışam,*
*Ələst aləmində demişəm “bəli”.*
*Həqiqətdən iki gözəl sevmişəm,*
*Birisi Məhəmməd, birisi Əli.*

*Xaliqi-ləmyəzəl vahid əl-yektay,*
*Qüdrətindən kamal verib mana pay.*
*Oxu “əlif”, “ğayn”, eylə haqq-say,*
*Arif seçər əbcəd ilə cəm əli.*

*Günahım dəryadı, özüm qanmışam,*
*Tutduğum işlərə çox utanmışam,*
*Püşti-pənahına daldalanmışam,*
*Adım Ələsgərdi, əslim – göyçəli.*

Aşıq Ələsgər burada eynilə Valehin dediyi kimi, “Allah” sözünün ərəb əlifbasının “əlif” və “ğayn” hərfləri ilə yazıldığını, əbcəd hesabı ilə hansısa rəqəmi ifadə etdiyini, amma Allahın tək, şəriksiz, vahid olduğunu ifadə edir. Göründüyü kimi, Ələsgər nəinki yazı-pozunu, hətta əbcəd hesabını, ərəb və fars dillərini də mükəmməl bilirmiş və bu biliklərini 5 il yanında qaldığı, aşıqlıq sənətinin sirlərini, saz havalarını öyrəndiyi Aşıq Alıdan öyrənmişdir. Alının özü

isə ustadı Ağ Aşıq Allahverdinin yanında şəyirdlik etdiyi illər ərzində bu mükəmməl biliklərə yiyələnmişdi.

Oxucuların marağını nəzərə alaraq əbcəd hesabını təqdim etməyi gərəkli gördük:

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| Əlif ا | 1 | Ha ح | 8 | sin س | 60 | Tə ت | 400 |
| Bə ب | 2 | Ti ط | 9 | `ayn ع | 70 | Sə ث | 500 |
| Cim ج | 3 | Ya ي | 10 | fa ف | 80 | Hi خ | 600 |
| Dal د | 4 | Kəf ك | 20 | Sad ص | 90 | Zəl ذ | 700 |
| Hə ه | 5 | Ləm ل | 30 | kaf ق | 100 | Dad ض | 800 |
| Vav و | 6 | Mim م | 40 | ra ر | 200 | Zi ظ | 900 |
| Zə ز | 7 | Nun ن | 50 | şin ش | 300 | Ğayn غ | 1000 |

İ.Ələsgər yazır: "Yazı-pozu bilməyən qüdrətli el sənətkarının yaratdığı əsərlər onun sağlığında yazıya alınmadığına görə, böyük bir qismi unudulmuşdur"**("Aşıq Ələsgər. Əsərləri. Tərtib edəni, ön sözün və qeydlərin müəllifi İ.Ələsgər". Bakı, 2004, səh.12).**

Aşığın əsərlərinin bəzilərinin itib-batmasında onun yazı-pozu bilmədiyini səbəb göstərmək bəhanədən başqa bir şey deyil, hətta onun özü yazıb-oxumaq bilməsəydi belə, molla məktəbinə gedən və 1934-cü ilə qədər yaşayan oğlu Bəşir də, dərin elmi, təhsili olan qardaşı oğlu Növrəs İman da, eləcə də yəqin ki, təhsil götmüş başqa yaxın qohumları da bunu edə bilərdilər və etməliydilər də! Etməmələri bir yandan dərin təəssüf hissi yaradırsa, digər tərəfdən, laqeydliyin nümunəsidir.

Amma doğrudanmı İslam Ələsgərin dediyi kimi Ələsgərin əsərlərinin böyük bir qismi unudulmuşdur? Bu, məndə şübhə doğurur. Çünki, məşhur folklorçu alim Hümbət Əlizadə Aşıq Ələsgərin şeirlər kitabını hələ 1935-ci ildə,

onun ölümündən cəmi 9 il sonar nəşr etdirmişdi. Aydındır ki, H.Əlizadə aşığın şeirlərini onun şəyirdlərindən və qohumlarından toplamışdır.

Dağıstanın məşhur şairi R.Həmzətov **"Mənim Dağıstanım"** kitabında yazır ki, İmam Şamil Dağıstanda imamət, dövlət quranda burada şair əlindən tərpənmək olmurmuş. Şamil qəzəblənib fərman verir ki, bundan sonar kim şeir yazsa, buynu vurulacaq. Yaxın adamları deyr, bu fərman **Mahmuda** da aiddir, axı o başqalarından fərqli olaraq əsil şairdir?! Şamil deyir o əsil şairdirsə, hətt**a ölüm təhlükəsi də onu şeir yazmaqdan çəkindirə bilməyəcək, yalançı cızma-qaraçılar isə qoy aradan çıxsın. Sonra əmr verir ki, bu şairlərin şeirlərini yığıb Terek çayına atsınlar. Deyirlər Mahmudun şeirlərini də ataq, o ki əsil şairdir! Şeyx Şamil tarixə düşən ikinci bir aforizm də deyir: "əgər o doğrudan da əsil şairdirsə, yazdıqları xalqın dilində, ürəyində yaşayacaq".**

Mən düşünürəm ki, Ələsgərin şeirləri də ürəklərdə yaşamış və H.Əlizadə onları toplamışdır, əgər itən şeirləri varsa, deməli yaddaşlarda, ürəklərdə yaşayacaq qədər gözəl, təsirli olmayıblar. Sonradan "üzə çıxarılan" belə şeir nümunələri çox zaman zəif olur və kimsə sensasiya yaratmaq üçün guya nəyisə tapıbmış kimi qələmə verir. Belə şeirlərin Ələsgərə aid olduğu şübhə doğurur. Məsələn, **müəllifliyi Ələsgərə aid edilən mərsiyyənin onun olduğuna inanmıram.**

Qardaşı Şair Məhəmmədin "Bu dağlar mənim" və "Gördüm" rədifli iki qoşması vaxtilə səhvən Aşıq Ələsgərin adına getmiş, amma sonradan İ.Ələsgər düzgün olaraq onları Ələsgərin çap olunan kitablarına daxil etməmişdir.

Yəqin oxucular təsdiq edər ki, ailədə I sinfə gedən uşaq olduqda ondan balaca qardaşı və ya bacısı da onun məktəbdə keçdiklərinə, öyrəndiklərinə, Əlifba kitabına maraq

göstərir və onun özü I sinfə gedəndə xeyli hazırlıqlı olur. Qurana, dinə, elmə böyük məhəbbəti olan, Bəşiri təkidlə molla yanına göndərən Ələsgər doğrudanmı Bəşir evə qayıdanda onun nə örəndiyi ilə maraqlanmırdı? Halbuki, məntiqə görə, Ələsgər dərsini öyrənmək istəməyən Bəşiri həvəsləndirmək üçün onun keçdiklərini Bəşirlə birgə öyrənməli idi və yəqin ki, belə də edirdi. Axı ailədə bunu edəcək ayrı adam yox idi-bu işi nə yazı-pozu bilməyən həyat yoldaşı Anaxanım, nə də Bəşirin balaca qardaşları Əbdüləzimlə Talıb edəcəkdi.

Aşıq Ələsgərin əlifbanı bilməsi və yazıb-oxumasını güman etməyə başqa bir məntiqi dəlil də var. Ağ Aşığın-Aşıq Allahverdinin bioqrafları yazır ki, o bir neçə dil bilən çox elmli adam imiş. Onun şəyirdi olmuş Aşıq Alının da təhsil gördüyünü yazırlar. Məlum olduğu kimi, Ələsgər oxumağa o qədər də həvəsi olmayan böyük oğlu Bəşiri də təkidlə molla yanına göndərib ona Quran oxumağı öyrənməyə məcbur etmişdir. Necə alınır, Ağ Aşıq - Aşıq Alı - Aşıq Ələsgər-Bəşir ardıcıllığında bircə Ələsgər savadsız qalmışdı? 5 il Aşıq Alıya şəyirdlik edən Aşıq Ələsgərin doğrudanmı Qurani-Kərimin yazıldığı əlifbaya o qədər nifrəti olub ki, həmin 5 il ərzində bu əlifbanı öyrənməyib? Bəlkə onu öyrənməyə fərasəti çatmayıb? Əlbəttə bu ritorik sualların hər ikisinə mənfi cavab vermək lazım gəlir. Onda sual yaranır-bütün bu aydın-aşkar faktlar ortada ikən, onun yazı-pozu bilmədiyini niyə inadla iddia edirlər?

Burada ağıla gələn ilk fikir odur ki, Məhəmməd peyğəmbərin (s.ə.s.) əlifbanı, yazı-pozu bilmədiyi haqqındakı hədislər burada motiv rolunu oynamışdır, yəni Ustadın dahiliyini daha da qabartmaq üçün bu versiya inadla beyinlərə yeridilməyə çalışılmışdır. İslam müəllim hətta Ustad haqqında çox uzağa gedən sözlər söyləməkdən də çəkinmir: "Aşıq Ələsgərdə özünü göstərən bu kimi möcüzəli

xüsusiyyətlər onun xalq arasında müqəddəsləşdirlməsinə, fövqəlbəşər mövqe tutmasına səbəb olmuşdur. Bir çoxları onu peyğəmbər adlandırırdı" **(Haqq Aşığı Ələsgər. Bakı, 1999. səh.33).** Göründüyü kimi, İslam müəllim babasının "peyğəmbər" ünvanı ilə də kifayətlənməyib, "fövqəlbəşər" mərtəbəsinə qaldırır, yəni əstəğfürullah, Allahlaşdırır. Güman edək ki, "fövqəlbəşər" sözünün həmin mənanı verdiyini İslam müəllim sadəcə olaraq nəzərə almayıb.

İ.Ələsgərin Ələsgərin yazı-pozu bilməməsində israr etməsi başqa bir səbəblə də bağlıdır: o sübut etmək istəyir ki, Ələsgərin bütün yaradıcılığı bədahətən yaranıb. Əgər yazı-pozu bilsə, oturub qafiyə fikirləşib şeir yazsa, onun dahiliyinə kölgə düşər. O, yenə həmin kitabında Səməd Vurğundan sitat gətirir. S.Vurğun deyir ki, biz fikirləşib yazırıq, bəzən yazdığımız dörd misranın ikisini pozub dəyişdiririk, Ələsgər isə o qədər dahidir ki, bütün şeirlərini birnəfəsə, sinədən deyib və redaktə etməyib **(yenə orada, səh.26).** İ.Ələsgər fikirləşir ki, Ələsgərin yazı-pozu bildiyini desə,onun haqqındakı həmin təsəvvürlər dəyişər və Ələsgərin miqyası kiçilər.

Halbuki, buna heç bir ehtiyac yox idi. Adını çəkdiyim digər iki ustad kimi, qarabağlı Aşıq Valeh Abdalgülablının da, Şəmkirli Aşıq Söyünün də təhsil gördüyünü yazırlar və bu fakt bütün bu ustadlara ancaq və ancaq hörmət gətirir, onların şəxsiyyətini və yaradıcılığını daha da mötəbər edir. Elə götürək yazılı ədəbiyyatın nümayəndələri, "fikirləşib yazan, sonra yazdığını redaktə edən" böyük söz ustadları Nizamini, Füzulini, Hafizi, Nəsimini və yüzlərlə başqa mütəfəkkirləri. Bəyəm onlar Ələsgərdən kiçik şairdir?

Aşıq Ələsgər nəinki ərəb əlifbasını, zənnimcə ərəb və fars dillərini də yaxşı bilmiş, hətta klassik ədəbiyyatla da yaxşı tanış olmuşdur. Bir az əvvəl misal gətirdiyimiz "məndədir" rədifli təcnisində bunu özü deyir:

*Bir sazım var, nə pərdəsi, nə simi,*
*Onu çalıb kim tərpədər, nəsimi.*
*Firdovsi, Füzuli, Hafiz, Nəsimi,*
*Onların yazdığı ayə, məndədir.*

Bənddəki sonuncu, "Onların yazdığı, ayə məndədir" misrası ilə aşığın bu poeziya nəhənglərini əzbər bildiyinə işarə etdiyini irəli sürməsək də, hər halda, bu misra Ələsgərin onların yaradıcılığı ilə tanış olduğuna işarədir.

Aşığın əsərlərinin külliyatına gözəl və zövqlə yazılmış, dərin fəlsəfi və etik məzmunlu belə bir qəzəl də daxildir:

*Bilin, bu dəhri-dünyada hərə bir növ calal istər,*
*Kimi talibdi üqbaya, kimi dünyada mal istər.*

*Kimi sidq ilə könüldən tutub haqqın damənindən,*
*Kimi məddahi-mövladı, kimi göyçək camal istər.*

*Kimi mətləbinə yetmiş, edibdir kami-dil hasil,*
*Kimi həsrət qalıb yara, fələkdən bir macal istər.*

*Kimi qəvvas olub cummuş qəhərlə qəri-dəryaya,*
*Kimi səyyad olub çıxmış, uca dağdan qəzal istər.*

*Ona dağdan verir ruzi, buna ol qəri-dəryadan,*
*Bu mətləbi qanan kimsə haram gəzməz, halal istər.*

*Bu mətləbi qanan çoxdur, mütəlləq etiqad etməz,*
*Bu əmrə etiqad etmək dərin mərfət, kamal istər.*

*Bilirsən, dünyada, qafil, qalır bu dünyanın malı,*
*Beş arşın ağ geyən kimsə utanmaz, yaşıl, al istər.*

*Bilirsən, dünyada, zalım, Mələk əl-mövt alır canı,*
*Yuyar qəssal, qoyar qəbrə, gələr Nəkreyn sual istər.*

*Demə, zahid, mənəm alim, oxuram əntə-sübhanı,*
*Siratdan istəyən keçmək Xudadan pərü bal istər.*

*İyidlər olmasın məğrur, fəthi-nüsrət Xudadandı,*
*Bir Allah istəyən şəxsi sevər, külli-mahal istər.*

*Ələsgər zari-dil xəstə deyər: sərvi-xuramanım,*
*Mənim bu natəvan könlüm səni aşüftəhal istər.*

Şifahi ədəbiyyatın deyil, məhz yazılı ədəbiyyatın məhsulu olan qəzəl müəllifinin yazı-pozu bilməməsini irəli sürmək, ən yumşaq şəkildə desək, həqiqətə uyğun deyil.

Aşıq Ələsgərin yaradıcılığında yüzlərlə ərəb-fars tərkibli sözlərdən istifadə etməsi onun bu dilləri mükəmməl bildiyinin göstəricisidir. Məsələn, "Ola bilməz" rədifli gözəl qoşmasında ustad deyir:

*Sərraf yüz bəzəsə səngi-siyahı,*
*Üzdən mütəlladır, ləl ola bilməz.*
*Məkəs fəğan eylər zənbur sövtilə,*
*Kühnü yox, fəmində bal ola bilməz.*

Mübaliğəsiz deyə bilərəm ki, 21 sözdən ibarət olan("ola bilməz" rədifinin təkrar olduğunu da nəzərə alsaq, cəmi 19 söz qalır) bir bənddəki 11 ərəb və fars mənşəli sözün mənasını elmi dərəcəli bir çox filoloqlar hətta indinin özündə də lüğətsiz izah edə bilməz! Amma dediyim kimi, bu ərəb-fars sözləri onun yaradıcılığına xələl deyil, əlavə bir möhtəşəmlik verir!

Şair Nağıya cavab olaraq yazdığı “Danışma” rədifli başqa bir şeirində isə Aşıq Ələsgər deyir:

*“Himarın dümbündə lağəri məkəs,*
*Zənbur mənəm, deyib baldan danıma”.*

Savadı olmayan, ərəb-fars dillərini bilməyən adam bu cür mürəkkəb təkibli ifadəni işlədə bilərmi? Əlbəttə, yox!

Yuxarıdakı mülahizələrin yekunu olaraq deyə bilərik ki, Aşıq Ələsgərin yazı-pozu bilməməsi, savadsız olması haqqındakı iddia heç bir tənqidə dözmür və səhvdir.

## Başqa uydurmalar

Ustad sənətkarın həyatında həqiqətə uyğun olmayan kimi qiymətləndirdiyimiz bir məsələ də onun evlənməsi ilə bağlıdır. İstər "Ələsgərlə Səhnəbanı" dastanına, istərsə də rəsmi tərcümeyi-halına görə aşığın 41 yaşında evləndiyini irəli sürürlər. Bu yaşa qədər evlənməməsini onun nakam məhəbbətdən aldığı travma ilə izah edirlər. Əgər rəsmi bioqrafiyada olduğu kimi onun 1821-ci ildə doğulduğunu fərz etsək, deməli 1862-ci ildə evlənmiş və İslam müəllimin yazdığına görə böyük oğlu Bəşir bu evlilikdən 5 il sonra, yəni 1867-ci ildə, ortancıl oğlu Əbdüləzim 1873-cü ildə, kiçik oğlu Talıb isə 1877-ci ildə doğulmuşlar.

Yuxarıda təqdim etdiyimiz sənədlərlə Ələsgərin 1821-ci ildə deyil, 31 il sonra, yəni 1852-ci ildə doğulduğunu göstərdik. Əgər Aşığın 41 yaşında evlənməsi versiyasını qüvvədə saxlasaq, onda belə çıxır ki, o 1893-ci ildə(1852+41) evlənmiş və Bəşir 1898-ci ildə doğulmuşdur. Amma əvvəlcədən deyim ki, bu mülahizə özünü doğrultmur. Aşıq Ələsgərin xalası oğlu Molla Rəhimi 1908-ci ildə öldürməsi faktını nəzərə alsaq(əvvəlki versiyalarda İslam müəllim bu hadisənin 1910-1912-ci illərdə baş verdiyini yazsa da, son yazılarında 1908-ci ili göstərir), belə çıxır ki, Molla Rəhimi vurarkən Bəşirin 10 yaşı var imiş. Bu isə, əlbəttə, ağıla sığan, məntiqə uyan iş deyil.

İndi hadisələri düzgün məcrasına qaytarmağa çalışaq. Aşığın həyat və yaradıcılığının ilk tədqiqatçılarından olan Ə.Axundov 1946-cı ildə müdafiə etdiyi namizədlik dissertasiyasında onun 25 yaşında evlənməsini göstərsə də, bu mülahizə İslam müəllimin etirazına səbəb olmuş və Ələsgə-

rin məhz 41 yaşında evləndiyini bildirmişdir. Aşıq Ələsgər haqqındakı mübahisəli məsələlərdə İslam Ələsgərov tərəf müqabilləri ilə həmişə üstün mövqedə olmuşdur-məntiq belə düşünməyə gətirir: axı aşığın doğma nəvəsindən kim daha artıq onun haqqında məlumatlı ola bilər ki?

Amma Ə.Axundovun söylədiyi kimi, Ələsgərin doğrudan da 25 yaşında evləndiyi faktı ilə barışmaqdan başqa yolumuz qalmır. Əgər doğrudan da Bəşir onun evlənməsindən 5 il sonra, yəni  30 yaşı olanda doğulmuşdursa, deməli, o 1882-ci ildə anadan olub və Molla Rəhimi öldürəndə 26 yaşı varmış. Bu, ağlabatan və həqiqətə uyğun gələn mülahizədir. 1934-cü ildə Kəlbəcərdə rəhmətə gedən Bəşir, beləliklə 54 il yaşayıb.

Bəşirdən 10 yaş balaca olan Talıbın isə 1892-ci ildə doğulduğunu düşünməliyik. Amma belə olan halda, razılaşmalıyıq ki, o 102 il yox (1877-1979), cəmi 86 il yaşayıb (1892-1977). Amma qəzəbli etirazları bəri başdan görürəm: necə yəni, İslam müəllim də, Talıb kişinin özü də onun yaşını düzgün bilmirdi bəyəm? Amma fakt faktlığında qalır və Ələsgərin 1821-ci ildə deyil, 1852-ci ildə  doğulması vəziyyəti dəyişir!

Əgər Aşıq Talıbın 1892-ci ildə doğulduğu ilə razılaşsaq (razılamamağa səbəb yoxdur), böyük oğlu İslam müəllim 1925-cı ildə doğulanda Aşıq Talıbın 33, hazırda Daşkəsən rayonunun Bayan kəndində yaşayan kiçik oğlu Haxverdi müəllim 1930-cu ildə doğulanda isə 38 yaşı vardı. Əks halda, bu rəqəmləri müvafiq olaraq 49 və 53 götürməliyik ki, bu da onların dəqiqliyini şübhə altına alır.

Ələsgərin ortancıl oğlu Şair Əbdüləzimin 1873-1943-cü illərdə yaşadığı yazılıb, yəni rəsmi bioqrafiyaya görə Bəşirdən 6 yaş balacadır. Dəqiqləşdirilmə apararkən, 6 yaş fərqini qüvvədə saxlasaq, Əbdüləzim 1888-ci ildə doğulub.

Ələsgərin qardaşları və qardaşı uşaqları ilə məsələyə də aydınlıq gətirmək lazımdır. Alməmmədin ikinci oğlu Salah Ələsgərdən 3 yaş kiçikdir və rəsmi bioqrafiyaya görə onun 1824-cü ildə doğulduğunu hesab etməliyik(halbuki, 1824-cü il onların atası Alməmməd kişinin doğum tarixidir). Salahın 3 oğlu haqqında məlumatımız var: Ələsgərin kürəkəni və şəyirdi olan Aşıq Qurban, Növrəs İman və Aşıq Musa.

İslam müəllim yazır ki, Aşıq Qurban 1915-ci ildə cavan rəhmətə gedəndə bu hadisə Ələsgərə o qədər ağır təsir edir ki, ömrünün sonuna, 1926-cı ilə qədər bir daha sazını köynəyindən çıxarmır. Aşıq Qurbanın 1915-ci ildə vəfat etməsi və Aşıq Ələsgərin bu hadisədən sarsıldığını qəbul etsək də,Qurbanın doğum tarixi şübhə doğurur, belə çıxır ki, o 1870-ci ildə doğulanda 1855-ci ildə doğulmuş atası Salahın cəmi 15 yaşı varmış, başqa sözlə, Salah ən gec 14 yaşında evlənməliydi ki, bir ildən sonra Qurban doğulsun.

Salahın digər iki oğlunun doğum tarixlərinə baxaq. Növrəs İmanın 1903-cü, Aşıq Musanın 1909-cu ildə doğulduğunu yazırlar. Bu rəqəmləri düzgün qəbul etmək olar. Amma belə çıxır ki, böyük qardaşları Qurban Növrəs İmandan 33 il, Musadan isə 39 yaş böyük olub! Bu isə, təbii ki, inandırıcı deyil. Rəqəmlərə başqa yöndən baxsaq, yenə də onların səhv olduğu bir daha aşkar olur. Əgər rəsmi versiyadakı kimi Salahın 1824-cü ildə doğulduğunu qəbul etsək, onda belə çıxır ki, Qurban doğulanda Salahın 46, İman doğulanda 79(!), Musa doğulanda isə 85(!!) yaşı varmış. Əlbəttə, yanlışlıq göz qabağındadır və əlavə şərhə ehtiyac yoxdur. Əgər real rəqəmlərə qayıdıb Salahın 1855-ci ildə doğulduğunu nəzərə alsaq, İman doğulanda onun 48, Musa doğulanda 54 yaşı varmış və bu rəqəmlərin özü də nəsil artırmaq üçün o qədər az deyil. Qurbanın doğum tarixinə gəlincə, əgər onun həyatdan çox erkən köçdüyü faktını xatırlasaq, bu rəqəmin ehtimalla 25-30 yaş arası olduğunu dü-

şünməliyik ki, onda doğum tarixini də 1880-1885-ci illər hesab etməliyik. Həmin tarixdə Salah 25-30 yaş arasında olur və hər şey normal məcrasına düşür.

Bu nəslin digər məşhur nümayındələri üçün də dəqiqləşdirmələr aparmaq elə çətin iş deyil, lakin oxucunu darıxdırıcı rəqəmlərlə yormaq istəmirəm. Yalnız Alməmməd kişiyə bir daha qayıtmaq lazımdır. İ.Ələsgər onun 1800-cü ildə doğulduğu və 1868-ci ildə, yəni 68 yaşında öldüyünü yazır. Doğum tarixinin 1824-cü il olduğunu dəqiqləşdirdiyimizə görə, əgər 68 il yaşaması ilə razılaşsaq(razılaşmamaq üçün hələlik əlimizdə fakt yoxdur), deməli Alməmməd kişi 1868-ci ildə yox, 1892-ci ildə(Aşıq Talıbın doğulduğu il) dünyadan köçüb. 1873-cü ilə aid kameral siyahıda adının olması Alməmmədin 1868-ci ildə ölmədiyini sübut edən ən güclü arqumentdir.

Beləliklə, Aşıq Ələsgər 1852-ci ildə Göyçə mahalının Ağkilsə kəndində Alməmməd Haxverdi (Allahverdi yox!) oğlu ilə Pərizad Abbas qızının(Zarzebil kəndi) ailəsində doğulmuş, 1926-cı il mart ayının 7-də, Ağkilsə kəndində, 74 yaşında(105 yox!) vəfat etmişdir. Düzdür, opponentlər etiraz edə bilərlər ki, **aşıq "Qoca baxtım" adlı qoşmasında "Səksəni, doxsanı ötübdü yaşım",-deyir.** Amma onun sadə cavabı odur ki, bu, bədii yaradıcılıq üsullarından olan mübaliğədən başqa bir şey deyil. Belə mübaliğəyə, təzadlara Aşıq Ələsgərin yaradıcılığında yüzlərlə misal gətirmək olar və bunlar onun təkrarsız yaradıcılığının qiymətini daha da artırır!

## Polonski və Aşıq Ələsgər

Professor Q.Namazovun "Ozan-aşıq sənətinin tarixi" (Bakı, 2013) kitabında belə rəvayətlərdən biri də Aşıq Ələsgər haqqındadır və onun müəllifi Qara müəllimin özüdür. Professor yazır: "XIX əsrin görkəmli rus şairi və jurnalisti, "Kavkazskiy vestnik" jurnalının redaktoru Y.N.Polonski 1849-cu ilin yayında Tiflisin 40 kilometrliyində Dəmirçi Həsənli kəndində olmuşdur.(O, azərbaycanlı kəndinə nə üçün gəldiyi haqqında məlumat vermir).Şair alaçıqda dincəldiyi vaxt qonşuluqda musiqi səsi eşidir."Sakit-sakit şikayətlənib ürəkləri yaxan bir nəğmə" qeyri-iradi olaraq onu qaldırıb özünə cəlb edir.O, gənc bir azərbaycanlı aşığına özünün dediyi kimi qulaq asır və sənətinə çox yüksək qiymət verir. O, Trapavan gölünün sahilindəki azərbaycanlı kəndində Aşıq Ələsgəri ikinci dəfə gördüyünü də çox səmimi qeyd edir. "20-dən çox tatar Ələsgəri dövrəyə alıb yaşıl otun üstündə bardaş qurub əyləşmişdilər. Onlar Ələsgəri çox böyük təntənə və məftunluqla dinləyirdilər". Y.N.Polonski yazır ki, Ələsgər "Əsli və Kərəm" dastanını çox yanıqlı bir dillə danışdı. Dastan Polonskiyə böyük təsir etdiyindən, Kərəmin yandığı səhnəni və Ələsgərin onu dərin kədərlə danışmasını şair çox diqqətlə və həssaslıqla təsvir etmişdir"**(adı çəkilən əsəri, səh. 302-303).** Qara müəllim bu Ələsgərin göyçəli Aşıq Ələsgər olduğuna əmindir və Ələsgərin nəvəsi və tədqiqatçısı olan İ.Ələsgər də onun bu fikrini təkrarlayır və Qara müəllimin bu fikri hələ 1964-cü ildə **"Azərbaycan müəllimi"** qəzetində çap etdirdiyini qeyd edir. Düzdür, Qara müəllim Aşıq Ələsgərin 1821-ci ildə deyil, Polonskinin məlum səfərindən 3 il sonra doğul-

duğunu bilməyə bilərdi, amma heç bir mənbəyə, sübuta əsaslanmadan Polonskinin gördüyü aşığın Ustad Ələsgər olduğunu iddia etməməliydi. Nə çox dünyada adı Ələsgər olan aşıqlar! Xüsusilə söhbətin getdiyi Borçalı mahalı saz-söz sənətinin və Ələsgər adının ən geniş yayıldığı regiondur.

Mən, əlbəttə, mərhum professor, görkəmli alim Q.Namazovun yaradıcılığına kölgə salmaq fikrindən uzağam, dediyim odur ki, bu epizod Azərbaycan folklorşünaslığında(həm də təkcə folklorşünaslığında yox!) tipik hadisədir.

İndiyə qədərki mülahizələrimizi ümumiləşdirsək, təəssüflə qeyd etməliyik ki, Böyük Ustad Aşıq Ələsgərin doğumu, həyatı, savadı haqqındakı fakt, evlənmə tarixi və müəyyən mənada sevgi dastanı xeyli dəyişikliklərə, təhriflərə uğradılaraq gəlib bizə çatıb. Məntiqdə və riyaziyyatda bir faktı təsdiq və ya təkzib etmək üçün, adətən başqa köməkçi faktlardan istifadə edirlər. Biz də bu üsuldan istifadə etməli olsaq, onun müasirləri, ünsiyyətdə olduğu tarixi şəxslərə müraciət etməliyik. Və bir qədər irəli gedərək qeyd edim ki, ədəbiyyatşünaslığımız həmin tarixi şəxslər haqqında da bacarıqsız hesab edilməlidir. Bu kitabda mən həmin tarixi şəxslərdən bir neçəsini seçdim, onların hamısı Azərbaycan aşıq sənətinin azmanları, korifeyləridir. Bu şəxslər Ağ Aşıq-Aşıq Allahverdi, Aşıq Alı Qızılvənkli, Aşıq Hüseyn Şəmkirli, və başqalarıdır.

## Bəxtsiz dahi

Aşıq Ələsgəri digərlərindən fərqləndirən və uca edən nədir?

Birincisi, onun şeirlərində atalar sözü səviyyəsinə qalxmış onlarla, yüzlərlə ifadələr:

Məsələn,

*“Sərraf yaz bəzəsə səngi-siyahı,*
*Üzdən mütəlladır, ləl ola bilməz.*
*Məkəs fəğan eylər zənbur sövtilə,*
*Kühnü yox, fəmində bal ola bilməz”.*

*“Muşlar pələng olmaz, tülkülər aslan,*
*Danalar meydanda kəl ola bilməz”.*

*“Qabiliyyətsiz, mərifətsiz qızların*
*Yüzü bir dərdmənd qul ola bilməz”.*

*“Müxənnəsdə səxa, nakəsdə kərəm,*
*Namərdin cibində pul ola bilməz”-*

kimi ifadələr sanki Ələsgərə qədər yaranmış atalar sözü təsiri bağışlayır, amma aydındır ki, bu “atalar sözləri”nin müəllifi, yaradıcısı Ələsgərdir.

“Arasında” rədifli qoşmanın demək olar ki, hər sətri atalar sözü sayılmalıdır:

*Təzə aşnalıqla köhnə dostluğun*
*Fərqi var qış ilə yaz arasında.*

*Namərddə qaydadır, basdığın kəsər,*
*Hər kəs hesab çəksin öz arasında.*

*Qüdrətdən ucalan zülm ilə enməz,*
*Haqdan yanan çıraq bad ilə sönməz.*
*Dost dostdan inciyər, qəlbində dönməz,*
*Olar bir az ərki naz arasında.*

*Ələsgərəm, qəmü möhnətdi yüküm,*
*Fil çəkməz bu dərdi, mən necə çəkim?!*
*Haqq ilə nahaqqı axtaran hakim*
*Tapar qulaq ilə göz arasında.*

Yaxud:

*Bu dünyada üç şey başa bəladı;*
*Yaman oğul, yaman arvad, yaman at.*
*İstəyirsən qurtarasan əlindən,*
*Birin boşla, birin boşa, birin sat.*

*Ov keçdi bərədən, ata bilməzsən,*
*Uçdu getdi əldən, tuta bilməzsən,*
*Yerisən, yüyürsən, çata bilməzsən,*
*Görürsən ki, baxtın yatdı, sən də yat".*

Yaxud:

*"Günü-gündən işi düşər müşgülə,*
*Hər kəs namus, qeyrət, arı çəkmiyə".*
*"Mərd iyidə ölüm haqdı dünyada,*
*Yoxsul olub, ahü zarı çəkmiyə".*
*"Haqq-nahaqq seçilər haqq divanında".*

*Guşumda sırğadı, sinəmdə dağdı;*
*Ağıllı unutmaz, necə ki sağdı:*
*Dövlətdən qismətin beş arşın ağdı,*
*Çəkdiyin qovğadı, qaldı dünyada".*

*"“Can” deməklə candan can əskik olmaz,*
*Məhəbbət artırar, mehriban eylər.*
*“Çor” deyənin nəfi nədi dünyada,*
*Abad könlü yıxar, pərişan eylər.*

*Nakəs adam danışıqda saz olar,*
*Kərəmdən kəm, səxavətdən az olar.*
*Nütfədən qarışan şeyitbaz olar,*
*Mərd də sığışdırmaz, nahaq qan eylər.*

*Bir gün Mansır qalxar, gələr toxmaq-yay,*
*Dağları atmağa eylər haqq-say.*
*Seçilməz məhşərdə nə şah, nə gəday,*
*Xaliqi-ləmyəzəl haqq divan eylər".*

*“On səkkiz min aləm, yetmiş iki dil,*
*Ülfət qılar bir bazarın içində.*
*Kimi ətlaz geyər, tirmə qurşayar,*
*Kimi üryan gəzər qarın içində".*

*“Dedim, könül, içmə eşqin camını,*
*İçsən, dünya sana dar olacaqdı.*
*Ya dost olma, ya zəhmətdən incimə,*
*Dost yolunda boran, qar olacaqdı.*

*Aldanma dövlətə, uyma dünyaya,*
*Kəsb eylə özünə halaldan maya.*

*Zinakar, haramxor yetişməz baya,*
*Dosta xain baxan kor olacaqdı”.*

*“Bu dünyanı mən təcrübə elədim,*
*Nakəs körpüsündə heç bünyad olmaz.*
*Bir mərd ilə ağı yesən, şirindi,*
*Yüz namərdlə şəkər yesən, dad olmaz.*

*Yadın oğlu yağlı aşa mehmandı,*
*Dar günündə görərsən ki, usandı.*
*Düşman günü düşmanınla düşmandı,*
*Yüz il keçə, qohum sənlə yad olmaz.*

*Ələsgərin sözün yetir nisaba,*
*Sərf edənlər səbt eləsin kitaba.*
*Heç namərdin adı gəlməz hesaba,*
*Mərd bir olar, onda iki ad olmaz”.*

*“Aşiq olan eşqə düşər, dərd çəkər,*
*Mənim kimi dərdi yüz olmaz, olmaz.*
*Hər ağacdan sandal, hər yarpaqdan gül,*
*Hər torpağın tamı duz olmaz, olmaz.*

*Sözün yeri gəldi, qoy deyim barı,*
*Eşidənlər məni görməsin karı;*
*Aşığın nisyəsi, kürdün ilqarı,*
*Desələr, inanma, düz olmaz, olmaz.*

*Zikirsiz mömini şeytan aldadar,*
*Sayğısız iyidi düşman aldadar,*
*Ağılsız cahili kirşan aldadar,*
*Günü keçmiş qarı qız olmaz, olmaz.*

*Görməmişəm öküz yeriyə yorğa,*
*Gədadan bəy olmaz, dəlidən darğa,*
*Suda çimmək ilə sağsağan, qarğa,*
*Göldə silkələnib, qaz olmaz, olmaz.*

*Ələsgər, sərrafsan, gövhəri tanı,*
*Dosta qurban olsun düşmanın canı.*
*Comərdin kisəsi, mərdlərin nanı,*
*İnşallah, ölüncə az olmaz, olmaz".*

Yaxud:

*"Arif olan, gəlin sizə söyləyim,*
*İyid sözü mərd-mərdana yaxşıdı.*
*Kişi gərək dediyindən dönməsin,*
*Biilqardan bir zənana yaxşıdı.*

*Qəlbi düz olanın evi hac olu,*
*Qonşuya kəc baxan özü ac olu.*
*İkiarvadlılıq mardan acı olu,*
*Bez geydirsən bir canana yaxşıdı.*

*Ələsgər kövsərdən badə içəndə,*
*Gəşt eləyib, mərd iyidi seçəndə.*
*Güzəran xoş olub, gün xoş keçəndə,*
*Ağ otaqdan tövləxana yaxşıdı".*

*"İki könül bir-birini tutmasa,*
*Alan da yazıqdı, gələn də yazıq".*

***Nəsihətləri:***
*“Qafil dilim, bu nə yoldu tutubsan,*
*Sərf edirsən nə kamaldı dünyada.*
*Dövlətə güvənib, gül tək açılma,*
*Çox sənin tək güllər soldu dünyada”.*

*“Günahkardı nə ki yoldan azan var,*
*İki mələk – xeyir-şəri yazan var.*
*Nəkreyin var, Qıl körpü var, qazan var,*
*Rövşən yollarını tar eyləməynən!”*

*“Bir mərdi sevəydin, sirdaş olaydın,*
*Könlün istəyənə peşkaş olaydın.*
*Ya da quruyaydın, bir daş olaydın,*
*Bəzənib bu evə gələndə, yazıq!”*

## GƏDA

*(dodaqdəyməz)*
*Gizlin sirrin, nahaq yerə,*
*Gizlətdin xandan, gəda!*
*Ah çəkər, nalə eylərsən,*
*Can gedər candan, gəda!*
*Etiqadla, sidq-dillə*
*Çağır şahlar şahını;*
*Nahaq işdi, dilək dilər*
*İnsan insandan, gəda!*

*Al çətirin, çıx səhraya,*
*Sal sərinə saya, gəz;*
*Qədər sənlə gəzəcəkdi,*
*Istər gir dəryaya gəz.*
*Sakin əyləş sin içində,*
*Həqiqətdən ayə gəz;*

*Ağ eylə sinən aynasın*
*Şəri-şeytandan, gəda!*

*Ələsgərlə danışanda,*
*Al əlinə saz, danış.*
*Inci, səni istəyənlə*
*Eylə ərki-naz, danış.*
*Əyləşəndə, ağır əyləş,*
*Danışanda, az danış;*
*Eşidənlər "əhsən!" desin*
*Sana hər yandan, gəda!"*

## DÜŞƏRSƏN

*Məğrurluq eyləyib, "ustadam" demə,*
*Vaxt olar, bir yerdə dara düşərsən.*
*Daş tülək deyilsən, çolpa balasan,*
*Sərgərdan qalarsan, tora düşərsən.*

*Alçaqda dayan ki, çıxasan başa,*
*Tülküsən, aslanla girmə savaşa.*
*Əlin vurma gücün yetməyən daşa,*
*Götürə bilməzsən, zora düşərsən.*

*Satmaynan Nağıya ərkinazını,*
*Zimistana döndərərəm yazını;*
*Soyaram libasın, allam sazını,*
*Yal-quyruğu yoluq yola düşərsən.*

*Saxla dilin, özün üçün yağıdı,*
*Aşıq Ələsgərin odlu çağıdı,*
*Çalar qaynağına səni, dağıdı,*
*Göydən yerə parça-para düşərsən"s.*

## HAYIFSAN

*Danışdıq, barışdıq mərhəmət ilə,*
*Inciklik araya qatma, hayıfsan!*
*Sən tacir olmazsan bir manat ilə,*
*Namusu, qeyrəti atma, hayıfsan!*

*Mövlam məni nəzərindən salmayıb,*
*Huşum cəmdi, ağlım heç azalmayıb.*
*Fani dünya Süleymana qalmayıb,*
*Oyan bu qəflətdən, yatma, hayıfsan!*

*Siz təlaş eylərsiz iynə-biz ilə*
*Bizimki də gəlib-gedər söz ilə.*
*Əyri ol əyriylə, düz ol düz ilə,*
*Hər yetəni sən aldatma, hayıfsan!*

*Düşəndə məclisə, ağır yığnağa,*
*Bizə hörmət qoyur irəncbər, ağa...*
*Söz uzansa, həcv çıxar qurşağa,*
*Sözün dalın çox uzatma, hayıfsan*

*Qəsəm olsun xudkeşlərin sərinə,*
*Yalan söz iyidi salar dərinə.*
*Köhnə dağarcığı tumaş yerinə*
*Aşıq Ələsgərə satma, hayıfsan!*

Məktəblərin, nəqliyyatın, informasiya mənbələrinin, şəhərlərarası və dövlətlərarası əlaqələrin olmadığı dövrlərdə tacirlər, səyyahlar və aşıqlar mədəniyyətin daşıyıcıları, xalqların xarici aləmə açılan qapısı, görən gözü, eşidən qulağı, gördüklərini, eşiitdiklərinin təbliğatçıları olmuşlar. Amma bütün insanlarda olduğu, elə indinin özündə də

**"peşə etikası"** deyilən bir davranış norması, etik dəyərlər var. Bu amil təkcə həmin peşə sahiblərinin can güvənliyi üçün deyil, həm də ünsiyyət qurması üçün vasitə rolunu oynamış və oynamaqdadır. Savadsız, kütbeyin, özündən razı, kobud adam bu missiyanı necə yerinə yetirə bilər, hansı biliyi, mədəniyyət nümunəsini əxz edib öz elinə, obasına qazandıra bilər? Aşıq Ələsgər ən azı özünün mənsub olduğu aşıqlıq sənətinin mənəvi dəyərlərini, etik normalarını müəyyən etməyə haqqı çatan ustad sənətkar kimi bu sahəyə də möhürünü vurmuşdur:

## GƏRƏKDİ

*Aşıq olub, diyar-diyar gəzənin,*
*Əvvəl, başda pür kamalı gərəkdi.*
*Oturub-durmaqla ədəbin bilə,*
*Mərifət elmində dolu gərəkdi.*

*Xalqa həqiqətdən mətləb qandıra,*
*Şeytanı öldürə, nəfsin yandıra,*
*El içində pak otura, pak dura,*
*Dalısınca xoş sədalı gərəkdi.*

*Danışdığı sözün qiymətin bilə,*
*Kəlməsindən ləlü gövhər süzülə,*
*Məcazi danışa, məcazi gülə,*
*Tamam sözü müəmmalı gərəkdi.*

*Arif ola, eyham ilə söz qana,*
*Naməhrəmdən şərm eyləyə, utana,*
*Saat kimi meyli haqqa dolana,*
*Doğru qəlbi, doğru yolu gərəkdi.*

*Ələsgər haqq sözün isbatın verə,*
*Əməlin mələklər yaza dəftərə,*
*Hər yanı istəsə, baxanda görə,*
*Təriqətdə bu sevdalı gərəkdi.*

Bu davranış normalarına, peşə-etik qaydalarına özünün necə əməl etdiyini nümunə göstərir:

*Yaxşı hörmət ilə, təmiz ad ilə*
*Mən dolandım bu Qafqazın elini.*
*Pirə ata dedim, cavana – qardaş,*
*Ana-bacı bildim qızı, gəlini.*

*Hər kəs bu dünyanı fani bilməsə,*
*Həm savabı, həm üsyanı bilməsə,*
*Namusu gözləyib, nanı bilməsə,*
*Əli Zülfüqarı kəssin belini!*

Məktəb pedaqogikasının əsas prinsiplərindən biri və ən mühümü müəllim və tərbiyəçinin şəxsi nümunəsidir. Yuxarıdakı misralar Ələsgərin öz dövrünün bütün aşıqları üçün böyük hərflərlə yazıla biləcək Müəllim,Ustad adını daşımağa tamamilə haqqı çatdığını düşünməyə əsasımız vardır.

Aşıq Ələsgəri digər fərqləndirici, təkrarsızlıqları sırasında mahir rəssam, bədii sözün köməyi ilə təkcə gözəllərin surətini deyil, gözəl təbiət lövhələrinin yaradıcısı olan dahi rəssəm rolunda da görürük:

*Bahar fəsli, yaz ayları gələndə*
*Süsənli, sünbüllü, lalalı dağlar.*
*Yoxsulu, ərbabı, şahı, gədanı*
*Tutmaz bir-birindən aralı dağlar.*

*Xəstə üçün təpəsində qar olur,*
*Hər cür çiçək açır, laləzar olur,*
*Çeşməsindən abi-həyat car olur,*
*Dağıdır möhnəti, məlalı dağlar.*

*Yazın bir ayıdı çox yaxşı çağın;*
*Kəsilməz çeşməndən gözəl yığnağın.*
*Axtarma motalın, yağın, qaymağın...*
*Zənbur çiçəyindən bal alı dağlar!*

*Yayın əvvəlində dönərsən xana,*
*Son ayda bənzərsən yetkin bostana.*
*Payızın zəmhəri qoyur virana,*
*Dağıdır üstündən cəlalı, dağlar!*

*Gahdan çiskin tökər, gah duman eylər,*
*Gah gəlib-gedəni pərişan eylər,*
*Gahdan qeyzə gələr, nahaq qan eylər,*
*Dinşəməz haramı, halalı dağlar.*

*Ağ xalat bürünər, zərnişan geyməz,*
*Heç kəsi dindirib, xətrinə dəyməz.*
*Sərdara söz deməz, şaha baş əyməz,*
*Qüdrətdən səngərli, qalalı dağlar.*

*Köçər ellər, düşər səndən aralı,*
*Firqətindən gül-nərgizin saralı.*
*Ələsgər Məcnun tək yardan yaralı,*
*Gəzər səndə dərdli, nalalı, dağlar!*

Ağ xalat bürününməklə kifayətlənən, heç kəsin xətrinə dəyməyən, sərdara, şaha baş əyməyən dağların gahdan nahaqq qan tökməsi, haramı-halalı dinşəməməsi də var və

onun bu xasiyyəti aşıq tərəfindən nəvazişlə qınanır. Ələsgər dağların təkcə xarici görünüşünü deyil, həm də psixoloji portretini yaradır! Ağ xalat geyinməklə kifayətlənəcək qədər təvazökar, sərdara, şaha baş əyməyəcək qədər məğrur, yoxsulu, ərbabı, şahı, gədanı bir-birindən aralı tutmayacaq qədər ədalətli, xəstə üçün qarı, abi-kövsəri, arıların bal topladığı çiçəkləri olan şəfa qaynağı, bununla belə, bəzən nahaq qan axıdacaq qədər sayğısız dağlar!

Amma Ustadın bu tablosu dağların çiçəkləndiyi, ellərin şad-xürrəm yaşadığı, gənclərin sevib-sevilmə çağına aiddir. Xristan dindaşlarına arxalanan bədxah qonşularımızın vəhşiliyi ucbatından indi dağların halı başqadır, hər şey baş-ayaq olub, tale dönüb, artıq türfə gözəllər dağların köksündə seyr etmir, dərdməndlərin bağrını çatladacaq qədər acınacaqlı vəziyyət yaranıb, burada yaylayan türk ellərini görmədiyindən Aşığın gözündən sellər axır, çünki ətrafında baş verən ictimai-siyasi hadisələr dağları da pəjmürdə hal, qəmgin edib. Bunların hamısının səbəbi isə xaçpərəstlərin çıxardığı "inqilab" adlı iğtişaşlardır. Dağların, ellərin bu halı, əvvəlki növrağın pozulması Ələsgərə o qədər təsir edir ki, elsiz qalmış aşıq yaşamağı arsızlıq sayır!

*Hanı mən gördüyüm qurğu-büsatlar?!*
*Dərdməndlər görsə, tez bağrı çatlar;*
*Mələşmir sürülər, kişnəşmir atlar;*
*Niyə pərişandı halların, dağlar?!*

*Hanı bu yaylaqda yaylayan ellər?!*
*Görəndə gözümdən car oldu sellər.*
*Seyr etmir köysündə türfə gözəllər,*
*Sancılımır buxağa güllərin, dağlar!*

*Hanı mərd iyidlər, boş qalıb yurdu?!*
*Səxavətdə Eldar nurəlanurdu,*
*Erkək kəsib, ağır məclis qururdu,*
*Şülən çəkilirdi malların, dağlar!*

*Gözəllər çeşməndən götürmür abı,*
*Dad verə dahanda kövsər şərabı.*
*Xaçpərəstlə düşdü bund inqilabı,*
*Onunçün bağlandı yolların, dağlar!*

*Həsənnənə, Həsənbaba qoşadı,*
*Xaçbulaq yaylağı xoş tamaşadı.*
*Arsız aşıq elsiz niyə yaşadı?!*
*Ölsün Ələsgər tək qulların, dağlar!*

Aşıq dağlara təkcə kənardan baxıb onların halını təsvir etmir, onun gəzdiyi, dövran sürdüyü, məclislər qurduğu, hansısa gözəlin siyah tellərində gözü qaldığı yaylaq həm də onun qəmxarı, dərdini bölüşdüyü sirdaşı, sevincini paylaşdığı dostudur:

*Gözüm qaldı siyah teldə,*
*Bülbül öldü meyli güldə.*
*Bir kəsim yox qürbət eldə,*
*Sən mana qəmxar ol, yaylaq!*

*Mən səni görəndən bəri,*
*Sinəm olub qəm dəftəri.*
*Öldür yazıq Ələsgəri,*
*Özün günahkar ol, yaylaq!*

Ustad Ələsgərin vəsf elədiyi mənzərələr içərisində Şahdağın xüsusi yeri var. Onun əzəmətli gözəlliyini tablo kimi

canlandıran Ələsgər bu gözəlliyi qadın gözəlliyi ilə vəhdətdə daha da tamamlanacağı, dolğunlaşacağı qənaətindədir:

*Aləmdə dastan olub*
*Səddin, sorağın, Şah dağı!*
*Açılıb nərgiz, bənövşən,*
*Əcəbdi çağın, Şah dağı!*
*Abi-kövsər kimi axır*
*Çeşmən, bulağın, Şah dağı!*
*Heyif ola, bu çeşmədə*
*Yoxdu bir saqin, Şah dağı!*
*Müxənnət yaylar köysündə,*
*Pozar damağın, Şah dağı!*

*Haqq səni cənnət yaradıb,*
*Qanan yoxdu, qədrin bilə;*
*Sədrin badi-səfasından*
*Xəstə könlüm gəldi dilə;*
*Mürğ tək balü-pər açdım,*
*Oxudum döndüm bülbülə;*
*Bir gözəl keçdi qarşıdan*
*Gözlərindən gülə-gülə;*
*Dağıtdı ömrüm qəfləsin,*
*Nə çoxdu yağın, Şah dağı!*

*Süsən, sünbül, gül, ərğəvan*
*Köysündə laləzar verib;*
*Alan, satan gözəllərdi,*
*Nə rəvac bazar verib;*
*Damənin çəhar fəsildi,*
*Hər meyvə bitib, bar verib;*
*Xudam səni çox bəyənib,*
*Bir belə ixtiyar verib;*

*Dalın dənizə söykənib,*
*Kürdü ayağın, Şah dağı!*

Amma Aşıq hansı gözəldənsə, bəlkə hansı təkəbbürlü bəydənsə sayğısızlıq görüb, inciyib, bəlkə onun böyük dühasına lazımınca qiymət verilməyib, məclis qurdurub gözəllərin şəninə tərif dedirtməyiblər. Bəlkə bu səbəblərin hamısı baş verib, Ustad Şah dağı ilə belə vidalaşır:

*Özünə də məlum olsun,*
*Küsüb qonağın, Şah dağı!*

Hanı öz var dövləti ilə təkəbbürlülük göstərən, sayğısızlıq edən ağalar, bəylər, Şah dağında kimlərin yayladığını, kef məclisləri qurduğunu indi kim deyə bilər? Onlar unuduldular, tarixin arxivinə gömüldülər. Şah dağının Böyük Qonağı isə həm özü əbədiləşdi, həm onun qonağı olması ilə Şah dağını şərəfləndirdi! Qonağın küsməyinə gəlincə, bu da faciə deyil, Ustad özü demiş:

*Dost dostdan inciyər, qəlbində dönməz,*
*Olar bir az ərki-naz arasında.*

Qadın gözəlliyinin vəsfi isə Aşıq Ələsgər yaradıcılığında əsas və mərkəzi yer tutur, axı əslində Ələsgəri elə bu gözəllik əvvəl Aşiq, sonra Aşıq eləmişdi.

Aşıq Ələsgərin anlamında gözəllik kateqoriyası nədir, kiməsə gözəl demək üçün hansı şərtlər ödənilməlidir?

*Cilvələnib, nə qarşımda durubsan,*
*Anam sana qurban, ay sarı köynək!*
*Mələksən, çıxıbsan cənnət bağından,*
*Heç kim olmaz sana tay, sarı köynək!*

*Doymaq olmaz işvəsindən, nazından,*
*Fərə kəklik kimi xoş avazından.*
*Yel vurdu, rübəndi atdı üzündən,*
*Elə bildim doğdu Ay, sarı köynək!*

*Gözəlsən, tərifin düşüb mahala,*
*Zər kəmər yaraşır qaməti-dala.*
*Ləb qönçə, diş inci, yanağın lala,*
*Çəkilib qaşların yay, sarı köynək!*

*Gərdənə yaraşır qızıl hamayıl,*
*Görənin ağlını eyləyib zayıl.*
*Həsrətin çəkənlər olubdu sayıl,*
*Yığır qapılardan pay, sarı köynək!*

"Dolanır" qoşmasında gözəllik anlayışını daha da genişləndirir:

*Axşam-sabah, çeşmə, sənin başına*
*Bilirsənmi, necə canlar dolanır?!*
*Büllur buxaq, lalə yanaq, ay qabaq,*
*Şahmar zülfü pərişanlar dolanır.*

"Sarıköynək" qoşmasında gözəllik anlayışı gözəlin hərəkətsiz halına, xarici görünüşünə aiddir, məsələn, "ləb qönçə, diş inci, yanağın lalə", yaxud onun camalının aya bənzədilməsi kimi. Amma qadının yalnız xarici gözəlliyi Ələsgəri qane etmir, bununla yanaşı, gözəlin davranış etikası, oturuşu-duruşu, hərəkətləri bu xarici görünüşə bir dinamika, hərəkət gətirib onu tamamlamalıdır:

*Hər yetən gözələ "gözəl" demərəm,*
*Gözəldə gərəkdir işvə-naz ola.*

*Buxağından ətri-bənövşə gələ,*
*Qoynu gülşən ola, bahar, yaz ola.*

*Hər görəndə həsrət ilə sarışa,*
*Deyə, gülə şirin-şirin danışa.*
*Əl dəyəndə tez-tez küsə, barışa,*
*Ortalıqda söhbət ola, saz ola.*

Gözəlin davranışlarını “Dolanır” qoşmasında daha da dolğun və maraqlı təsəvvür edir:

*Gördüm gözəlliyin bizə bildirir,*
*Qaş oynadır, xəstə könlüm güldürür,*
*İşvəyü nazıyla adam öldürür,*
*Qəmzəsində nahaq qanlar dolanır.*

*Məni qoca gördü, ürbəndin açdı,*
*Ala gözlərinə gözüm sataşdı,*
*Huş başımdan getdi, xəyalım çaşdı,*
*Mürgi-ruhum asimanlar dolanır.*

Aşıq Ələsgərin anlamında gözəllik bax budur! Aşiqin (həm də gözəlliklərin aşiqi olan Aşığın!) gözləri onun ala gözlərinə ötəri olsa da sataşanda huşu başından getməli, xəyalı çaşmalı, ruhu quşa dönüb asimanı dolanmalıdır!

Aşığın alışıb-yanmasına, bütün səy və qabiliyyətini sərf etməsinə baxmayaraq, etinasızlıq, laqeydlik onun qəlbini qırır, ruhdan salır və hətta məzəmmət etməsinə səbəb olur:

*A bimürvət, axı səndən ötəri*
*Ah çəkməkdən bağrım qana dönübdü.*
*Qədd əyilib, gül irəngim saralıb,*
*Xəzan dəymiş gülüstana dönübdü.*

*Dindirirəm, danışmırsan, gülmürsən,*
*Xəbər alıb əhvalımı bilmirsən,*
*Endiribən məclisimə gəlmirsən,*
*Yoxsa, taxtın Süleymana dönübdü?!*

Aşıq Ələsgərin şeir kitablarını tərtib edənlər bu qoşmanın küsüb atası evinə gedən Anaxanıma söylənməsini irəli sürsələr də, fikrimcə, bu qoşmaya aşığın ahıl vaxtlarında Səhnəbanıya ünvanladığı, qurduğu məclislərə hətta Ələsgərin bütün mahalda məşhur olduğu vaxtlarda da gəlməməsindən doğan incikliyin ifadəsi kimi yanaşmaq lazımdır:

*Endiribən məclisimə gəlmirsən,*
*Yoxsa təxtin Süleymana dönübdür?*

Ələsgərlə Səhnəbanı arasında baş vermiş hadisədən sonra, Səhnəbanının təbii ki, Ələsgərin məclislərinə gəlməsi etik, ədəb-ərkan baxımından çətin bir iş idi. Amma möcüzə baş verir- Aşığın qınağı  müsbət sonluqla nəticələnir və o öz arzusuna çatır:

*Xəstə könül dərdü qəmdən ayıldı,*
*Bu gün məclisinə bir can gəlibdi.*
*Şöləsi aləmi edib münəvvər,*
*Zahir deyil, özü pünhan gəlibdi.*

*Onun bu gəlməyi, gör, nəyə bənzər,*
*Nə xana, sultana, nə bəyə bənzər,*
*Misirdən gəlmiş bir köynəyə bənzər,*
*Kənanda Yaquba dərman gəlibdi.*

*Ələsgər görcəyin candan usanıb,*
*Camalından  şəmsü  qəmər  utanıb.*

*Nə behiştdə belə qılman yaranıb,*
*Nə dünyaya belə insan gəlibdi.*

Ustad Ələsgərə görə, zahirən gözəl olmaqla, gözəlliyi tamamlayan hərəklərlə də iş bitmir, insan daxilən, mənəvi cəhətdən də gözəl olmalıdır, bu gözəllik bir-birini tamamlamalıdır. Ona görə də Ələsgər deyir ki:

*Can qurban eyləsən, layıqdı, layıq,*
*Bir yar ki, mətləbi tez qanan ola.*
*İşarətlə, qaş-göz ilə anlaya,*
*Nəinki deməklə söz qanan ola.*

*Canım qurban olsun o əhli-dilə,*
*Qaşların oynada, gözündən gülə,*
*Dilin tərpənməmiş dərdini bilə,*
*Qurbanam gözünə, göz qanan ola.*

*Belə yar yetirə baxtın kövkəbi,*
*Dəsti qana ürəkdəki mətləbi.*
*Nə lazım dil deyib, tərpətmək ləbi,*
*Nə keçsə könlündən düz qanan ola.*

*Ələsgər söyləyər söz müxtəsərin;*
*Ağlı kamil ola, kamalı dərin.*
*Eşidənlər deyə “əhsən”, “afərin”,*
*Əgər məclisində yüz qanan ola.*

Ələsgər gözəlin geyimini də unutmur:

*Ətlazdan qəbalı, belində şalı,*
*Gövhərdən bahalı üzündə xalı.*
*Geydi yaşıl-alı, yaxdı mahalı,*
*Əyri tellər ayna qabağa düşdü.*

*Yeriyirdi sana yaşılbaş, sona,*
*Yaraşır canana ağ nazik cuna,*
*Tellərində şana, əlində həna,*
*Yəmən, yaqut əhmər dodağa düşdü.*
(“Düşdü”, qoşayarpaq qoşma).

Yaxud,

*Gümüş kəmər xub yaraşır belinə*
*Yaxası qızıldan düyməlınibdi.*
(“Görürsənmi, oğrun baxan gözəli?”)

Beləliklə, qadın gözəlliyinə hər yöndən baxan Ələsgərin yaradıcılığında bu kateqoriya mükəmməl səviyyəyə qaldırılmış, qətiləşdirilmişdir. Gözəlliyi Ələsgərdən nə əvvəl, nə də sonra bu zirvəyə qaldıran ikinci bir sənətkar yoxdur. Bu cür mükəmməl xəlq olunmuş gözəl Ələsgərdə ruhi həyəcan yaradır və Ustad keçirdiyi hisslərini belə ifadə edir:

*Gözəl, sənə məlum olsun,*
*Alışmışam, yanıram mən.*
*Ala gözlər süzüləndə*
*Canımdan usanıram mən.*

*Hansı dağın maralısan,*
*Heyif, bizdən aralısan.*
*Sən də yardan yaralısan,*
*Duruşundan qanıram mən.*

*Mənim adım Ələsgərdi,*
*Dərdim dillərdə əzbərdi.*
*Xalların dürdü, gövhərdi,*
*Sərrafıyam, tanıram mən.*

"Keçdi" adlı başqa bir gəraylısında isə Aşıq sanki başına gəlmiş bir rəvayəti mükəmməl şəkildə, rəvan, axıcı və lakonik dillə rəvayət edir:

*Pəncərədən qəfil baxdım,*
*Qarşıdan bir sona keçdi.*
*Bir ox atdı, qaş oynatdı,*
*Müjganları qana keçdi.*

*Ala gözlərini gördüm,*
*Təzələndi köhnə dərdim.*
*Yolunda can qurban verdim,*
*Baxmadı qurbana, keçdi.*

*Sərv boylu mələkzadə,*
*Camalından içdim badə.*
*Ələsgəri salıb oda,*
*Qoydu yana-yana, keçdi.*

Biz burada aşıq yaradıcılığında az rast gəlinən süjetli şeirlə tanış oluruq. Aşıq-şairlər gözəllikdən, əxlaqdan, ən müxtəlif mövzulardakı əsərlərində əsasən təsvir edirlər, "Keçdi" gəraylısında isə Ələsgər başına gəlmiş kimi bizə təqdim etdiyi hadisəni sanki bir hekayə kimi danışır. Bu cür süjetli əsərlərinə başqa bir nümunə olan "Düşdü" rədifli qoşmasında bir eşq hekayəsi ifadə-təhkiyə tərzinə görə mükəmməl səviyyəyə qaldırılır:

*Çərşənbə günündə, çeşmə başında*
*Gözüm bir alagöz xanıma düşdü.*
*Atdı müjgan oxun, keçdi sinəmdən,*
*Cadu qəmzələri qanıma düşdü.*

*İşarət eylədim, dərdimi bildi,*
*Gördüm həm gözəldi, həm əhlidildi.*
*Qaşını oynatdı, gözündən güldü,*
*Güləndə qadası canıma düşdü.*

*Ələsgərəm, hər elmdən halıyam,*
*Gözəl, sən təbibsın, mən yaralıyam.*
*Dedi nişanlıyam, özgə malıyam,*
*Sındı qol-qanadım yanıma düşdü.*

Aşıq Ələsgər bir dastanın mövzusu ola biləcək nakam bir eşq hekayətini cəmi üç bəndlik bir qoşmada yığcam, təkrarolunmaz bədii təsvir vasitələrilə mükəmməl şəkildə təsvir edir. Buradakı unikallıq həm də odur ki, zaman da buraya daxil olub. Aşıq təkcə çeşmə başında başına gələnlərlə kifayətlənməyib, hadisənin çərşənbə günü baş verdiyini də göstərməklə, ona sanki bir inandırıcılıq əlavə etmiş olur. Qətiyyətlə demək olar ki, bu cür zaman ayarına başqa bir şairdə rast gəlinməyib.

Aşıq Ələsgərin yaradıcılığında onun özü, başına gələnlər, qəzavü-qədərin gərdişi ilə bağlı süjetli şeirlər, ustadnamələr, şikayətnamə adlandırılacaq şeirlər də xüsusi yer tutur. Nakam məhəbbətinin daşlara çırpıldığı zamanlarda dediyi "Gedibdi" adlı qoşmasını bu barədəki ilk şeir saymaq olar:

*Eşidin, məclisdə arif olanlar,*
*Sərrafam, gövhərim, kanım gedibdi.*
*Ah çəkibən yar yoluna baxmaqdan,*
*Yəqin bilin, yarı canım gedibdi.*

*Müddətdi, gözümdən olubdu iraq,*
*Əridib cismimi dərdü qəm, fəraq.*

*Büllur buxaq, lalə yanaq, ay qabaq,*
*Ala gözlü Səhnəbanım gedibdi.*

Burada gedənin qayıtmasına, onu geri qaytarmağa hələ ümid işartıları sezilir, amma "Yetmədi" qoşmasında artıq Aşığın Səhnəbanıdan əlini tamamilə üzməsi, taleyi ilə barışması aydınlaşır:

*Ömrüm ahı-vayla keçdi dünyada,*
*Həsrət qaldım, əlim yara yetmədi.*
*Neçə namə yazdım canan elinə,*
*Heç birisi o diyara yetmədi.*

*Nə doyunca nazlı yarı görmədim,*
*Nə dilimlə əhvalını sormadım.*
*Bağ bəslədim, qönçə gülün dərmədim,*
*Xəzan oldu, bağçam bara yetmədi.*

*Gözü yaşlı, ey füqəra Ələsgər,*
*İşi əysik, baxtı qara Ələsgər.*
*Olmadı dərdinə çara, Ələsgər,*
*Həsrət əlin o dildara yetmədi.*

*"Mən cahan mülkündə mütləq doğru halət görmədim,*
*Hər nə gördüm, əyri gördüm, özgə babət görmədim",-*

deyir Molla Pənah Vaqif, zəmanəsindən şikayətlənir, dövrün naqisliklərinə, haqsızlıqlarına etiraz səsini ucaldır. Aşıq Ələsgərin də "Görmədim" adlı qoşması var, amma əgər Vaqif dövrünün mənzərəsini yaradırsa, Ələsgər eyniadlı qoşmasında sanki öz həyatını nəqli edir:

*Bivəfanın, müxənnəsin, nakəsin*
*Doğru sözün, düz ilqarın görmədim.*
*Namərdin dünyada çox çəkdim bəhsin,*
*Namusun, qeyrətin, arın görmədim.*

*Namərdi özümə mən dost eylədim,*
*Yolunda canıma çox qəsd eylədim.*
*Söyüddən bağ saldım, peyvəst eylədim,*
*Almasın, heyvasın, narın görmədim.*

*Nəfs aldatdı, hər yetənə xan dedim,*
*Bihudə kollara gülüstan dedim.*
*Əbəs yerə bivəfaya "can" dedim,*
*Zəhmətin çox çəkdim, karın görmədim.*

*Huşum çaşdı, düşdüm olmaz oyuna,*
*Yetmədim gözəlin əsli-soyuna,*
*Aşıq oldum simasına, boyuna,*
*Hayıf ki, kamalda dərin görmədim.*

*Ələsgər, elmində olma nabələd,*
*Doğru söylə, sözün çıxmasın qələt.*
*Şahiddə iman yox, bəydə ədalət,*
*Qazıların düz bazarın görmədim.*

Yuxarıda sitat gətirdiyimiz ikinci "Dağlar" qoşmasında aşığın 1905-ci ilin bütün keşməkeşlərini yaşadığı, bu ərazilərdə baş verən "Bund inqilabının" cəmiyyətə sarsıdıcı təsirini də yaşamış və onu öz yaradıcılığına da daşımışdır. Məhz 1905-ci ildən sonra sanki təkcə onun yaşadığı Göyçə mahalında və ətrafında deyil, aşığın şəxsi həyatında da acı faciələr bir-birini əvəz edir. Oğlu Bəşir 1908-ci ildə Aşıq Ələsgərin 28 illik sürgündən qayıdan xalası oğlu Molla Rə-

himi güllə ilə vurub öldürür və Ələsgərin həyatını cəhənnəmə döndərir:

*Nagah badi-sərsər əsdi üzümə,*
*Ömür bostanımın tağı kəsildi.*
*Öz əlimdən xəta dəydi gözümə,*
*Bədəndən qolumun sağı kəsildi.*

*Qəza tutdu, qədər məni budadı,*
*Ağlatdı dostları, güldürdü yadı,*
*Zəhrimara döndü ağzımın dadı,*
*Əlimdə şərbətim ağı kəsildi.*

*Könlüm yasdan çıxmır, qəlbim qaradan,*
*Bu dərdü möhnətdən, bu macəradan.*
*Dövlət getdi, hörmət qalxdı aradan,*
*Qapımızdan dost ayağı kəsildi.*

*Müqərrərdi, qaçmaq olmaz ölümdən,*
*Fələyin qılıncı dəydi belimdən,*
*Bir tülək tərlanım getdi əlimdən,*
*Ürəyimin bəndi, bağı kəsildi.*

*Ələsgər, işlərin müşgüldü, müşgül,*
*Dərdini deməyə yoxdu əhli-dil.*
*Döy başına, fəğan eylə müttəsil,*
*Daha deyib-gülmək çağı kəsildi.*

Aşıq Ələsgər sanki fəhmlə gələcəkdən xəbər verərək, *"Daha deyib-gülmək çağı kəsildi",*-deyirdi. Doğrudan da belə oldu. 1915-ci ildə qardaşı Salahın oğlu, Ələsgərin şəyirdi və kürəkəni Aşıq Qurban gənc yaşlarında həyatdan getdi, elə həmin il Qafqazda ermənilərin daha bir iğtişa-

şı baş verdi, 1917-ci ildə Rusiyada baş verən inqilablardan sonra ölkədəki hakimiyyət boşluğundan istifadə edən quldur Andranik buralara soxulub əhalini qırdı, qalanları pərən-pərən düşüb diyarbədiyar oldu, Aşığın özü Kəlbəcərə pənah aparıb oralara sığındı, ilk məhəbbəti Səkinə Banu qarlı dağlardan keçərkən soyuqdan donub öldü. Doğrudan da, aşığın həyatında deyib-gülmək çağı kəsilmişdi. Deyilənə görə, Qurbanın ölümündən sonra Ələsgər sazını heç köynəkdən çıxartmırdı da. Bütün bu olub-bitənlərdən, təbəddülatlardan sonra özünün artıq yaşamasından sanki xəcalət çəkir, utanırdı:

*Nə sevda tapıbsan, nəyə talıbsan,*
*Hansı qəflətdəsən, gəl, qoca baxtım!*
*Ya məndən küsübsən, ya qocalıbsan,*
*Bu sınıq könlümü al, qoca baxtım!*

*Çəkilib pünhana, deyirsən: "sən döz".*
*Qiyamət odundan pisdi tənə söz.*
*Gümüşüm tunc oldu, zərü zibam bez,*
*Qəlp çıxır aldığım mal, qoca baxtım!*

*Özüm aşıq oldum, oğlum gülləçi,*
*Bildim ki, qalacaq dövlətin üçü.*
*Qırıldı mal-qoyun, qalmadı keçi,*
*İndi də yıxılıb kəl, qoca baxtım!*

*Mardan şirə çəkib, daşdan keçərdin,*
*Dəryalardan ləlü gövhər seçərdin,*
*Pərvazlanıb, Qafdan-Qafa uçardın,*
*Keçən günü yada sal, qoca baxtım!*

*Səksəni, doxsanı ötübdü yaşım,*
*Qovğaya düşübdü bəlalı başım.*
*Əzrayıl həmdəmim, məzar yoldaşım,*
*Daha köç təblini çal, qoca baxtım!*

*Ələsgər kəsilib səbrü aramdan,*
*Oxlayıbsan, qanlar axır yaramdan.*
*Sövdə qıl haqq ilə, əl çək haramdan,*
*Halaldan mətləbin al, qoca baxtım!*

Ömrün sonunu, qürubunu duyan Ustad, "köç təbilinin çalınma vaxtının" gəldiyini görüb, "haqq ilə sövdə qılmaqdan, haramdan əl çəkməkdən, halaldan mətləb almaqdan" başqa yolunun olmadığını etiraf edir.

İnsan həyatının, cəmiyyətin bütün sahələrini təsvir edən, qiymətləndirən Ustad özünə də qiymət verməyi unutmur, "Mənəm" adlı qoşmasında sanki tərcümeyi-halını danışır. Ələsgər bu təqdimatda olduqca təvazökardır, baxmayaraq ki, öz qiymətini, poeziyadakı rolunu da çox gözəl bilir və *"Hər sözü dillərdə bir dəftər mənəm",*-deyərək bunu heç gizlətmir də:

*Ağıldan kəm, huşdan çaşqın, dildən küt,*
*Naqabil, kəlməsi bisəmər mənəm.*
*Məcnun kimi viranələr küncündə*
*Sərgərdan, səhrayi-qələndər mənəm.*

*İbadət vaxtında müşgülhal oldum,*
*İblis əməlində pürkamal oldum,*
*Qəza vurdu, sin içində lal oldum,*
*Hər sözü dillərdə bir dəftər mənəm.*

*Sənətim məsiyət, yoxdu savabı,*
*Nəkreyinə dilim tutmaz cavabı.*
*Ədalət hakimin payi-turabı,*
*Kamil ustadlara qul kəmtər mənəm.*

*Dolandım bihudə, gəzdim əfsana,*
*Tabe oldum nəfsə, uydum şeytana.*
*Xeyr əməlim yoxdu mərdü mərdana,*
*Günahkar, günahkar, günahkar mənəm.*

*Dünyanın cifəsi aldatdı məni,*
*Unutdum üqbanı, tutdum dünyanı.*
*Bağışla təqsirim, ya kərəm kanı,*
*İrəhm eylə, yazıq Ələsgər mənəm!*

Beləliklə, şəxsi həyatını uğursuz məhəbbətlə başlayıb faciəli hadisələrlə başa vuran Aşığı xoşbəxt saymaq olmaz, amma onun xoşbəxt anları da vardı-gözəllərdən zövq aldığı anlar, məclislər qurub dövran sürdüyü, dinləyicilərini məftun etdiyi anlar, ölməz sənət nümunələri yaratdığı dəqiqələr onun xoşbəxt anları idi. Ələsgər şəxsi planda xoşbəxt olmasa da, onu yetirən xalqa xoşbəxtlik gətirdi. Aşıq Ələsgəri yetirən xalq doğrudan da xoşbəxtdir.

Dədə Qorquddan sonra "Dədə" ünvanına yüksələ bilən yeganı şəxs olaraq xoşbəxtdir Aşıq Ələsgər! Ölümündən sonra keçən 90 il ərzində hələ bu zirvəni fəth edən sənətkar olmayıb. Nə vaxt fəth olunacağı da məlum deyil.

Dahilik budur!

Aşıq Ələsgərin çoxcəhətli yaradıcılığında gözəl bildiyi və sidq ürəklə inandığı dinin və təsəvvüfün xüsusi yeri yeri vardır. Onun yazı-pozu bildiyinə sübut üçün misal çəkdiyimiz "Allahın adı ilə" şeirində ərəb əlifbasındakı bütün 28 hərfin hər birinin daşıdığı mənanı usta bir qələmlə təsvir

edir. "Peyğəmbərin meracı" şeirində şiə üləmalarının təfsirindən məlum olan hadisəni təsvir edir, peyğəmbərin dörd dəfə merac etdiyini deyir. Başqa bir yerdə şiə məzhəbinin cəfəri təriqətinə mənsub olduğunu bildirir, imamları tərif edir, onların dində tutduqları mühüm yeri qiymətləndirir.

Qeyd etmək yerinə düşərdi ki, Aşıq Ələsgərin doğum tarixinin, babasının, qardaşlarının, hətta oğlanlarının doğum illərinin təhrif edildiyini yazmışdıq, amma təəssüf ki, iş bununla da bitmir. Aşığın müxtəlif illərdə nəşr olunmuş kitablarında xeyli sayda uğursuz müdaxilələrə yol verilmişdir. Buna aid çoxlu misallar göstərmək olar. "Düşmüşəm" adlı öz həyatından bəhs edən qoşmadan başlayaq. Ələsgər deyir ki:

*Ələsgər keçibdir namus-arından,*
*Aləm yatmaz onun ahu-zarından.*
*Boşasam, qoruram oğlanlarından,*
*Boşaya bilmirəm, qana düşmüşəm.*

"redaktə" edilərək

*"Ələsgərəm, incimişəm yarımdam,*
*Aləm yatmaz mənim ahu-zarından.*
*Boşasam, qorxuram oğlanlarımdan,*
*Boşaya bilmirəm, qana düşmüşəm",-*

şəklində verilir. **(Aşıq Ələsgər. Əsərləri. Bakı, 2004.səh.45)**

Tərtibçi *"Ələsgər keçibdir namus-arından"* misrasını *"Ələsgərəm, incimişəm yarımdan"* şəklinə salaraq, vəziyyəti yumşaltmağa çalışmışdır, halbuki misranın düzgün variantı ələsgərsevərlərə yaxşı məlumdur. Digər dərəfdən, məlumdur ki, qoşma janrında yazılmış şeir 11 hecalı olmaqla, iki şəkildə mövcuddur: 6-5 bölgüsü və 4-4-3 böl-

güsü var(bəzən 5-6 bölgüsünün olduğunu da desələr də, bu bölgü ilə yazılmış nümunələr geniş yayılmamışdır). Orijinalda 6-5 bölgüsü olsa da, "Ələsgərəm, incimişəm yarımdan" misrası 4-4-3 bölgüsünə çevrilir, "Aləm yatmaz onun ahu-zarından" misrası və digər misralar 6-5 bölgüsündədir. Belə məlum olur ki, tərtibçi qoşmanın bu incəliyini, bölgünü nəzərə almır. Əks halda, dəyişdiyi misranı heç olmasa, 6-5 bölgüsündə saxlayardı.

"Bu dünyada üç şey başa bəladı" misrası ilə başlayan məşhur şeir

*"Ələsgəri qılma mərhumi-didar,*
*Tərəhhüm et mənə bir busə, ey yar.*
Üç hərflə ismin eylədim aşkar:
*Bir "kaf"dı, biri "lam"dı, bir "sad"*,-

bəndi ilə qurtarır (yenə orada, səh.32). Tərtibçi isə ikinci misranı dəyişərək *"Lütf eylə ləbindən bir busə, ey yar"* şəklinə salmış, belə hesab etmişdir ki, busə mütləq ləbdən, yəni dodaqdan olmalıdır, halbuki, klassiklərimiz məsələni belə naturallaşdırmaqdan həya edərək çox vaxt yanaqdan busə almaqdan bəhs edirdilər(M.P.Vaqifin çılpaq şeirlərini istisna edirəm). Ələsgərin öz variantında da bu məsələ üstü örtülü qalır və yarının ona yalnız busə verməsindən söz açılır. Amma busənin dodaqdanmı, yanaqdanmı, yarının sinəsindənmi umduğunu konkretləşdirmir, yəni abır-ismət gözləyir.

Tərtibçinin təqdimatında "Dolanır" (səh.40) qoşması belə qurtarır:

*Adım Ələsgərdir, Göyçə – mahalım,*
*Dolanım başına, mən dərdin alım,*
*Hüsnün şöləsinə xəstə xəyalım*
*Pərvanədi, şəmistanlar dolanır.*

*"Dolanım başına, mən dərdin alım"* misrası da zənnimcə təhrif edilmişdir. Əvvəla,Göyçə dialektində tez-tez "qadan alım" xitabı işlədilir, "dərdin alım" yox. Həm də "dərdin alım"ın deyilişi "qadan alım"dan daha ağır tələffüz olunur. Ikincisi isə "mən dərdin alım" cümləsi qrammatik quruluşuna görə düzgün olsa da, məlum olduğu kimi, şeirdə bu qayda çox vaxt gözlənilmir. Ona görə də düzgün variant *"Dolanım başına, qadan mən alım",*-olmalıdır.

"Görmədim" (səh.51) qoşmasına da yüngülcə, Iki yerdə "əl gəzdirilib". "Yetəni özümə mən dost eylədim" əvəzinə "Namərdi özümə mən dost eylədim", "Nəfs aldatdı, gədalara xan dedim" əvəzinə, "Nəfs aldatdı, hər yetənə xan dedim" olmalıdır.

"Kamil ovçu ölməyincə usanmaz" misrası ilə başlayan (səh.56) şeirinin

*Kamil ovçu ölməyincə usanmaz,*
*Əldən qoymaz belə sərxoş maralı.*
*Eşq oduna düşən aşkara yanmaz,*
*Pünhan-pünhan mənim kimi saralı"*-

bəndində *"Mənim kimi pünhan-pünhan saralı"* olmalıdır. Təqdim olunan variantın deyilişi ağırlaşmışdır.

İkinci bənddə

*Öldürsələr, qorxum yoxdu qanımdan,*
*Yolunda durmuşam başu canımnan.*
*Tərk oldum vətəndən, xanimanımdan,*
*İnsaf deyil, gəzmə məndən aralı.*

*"Yolunda durmuşam başu canımnan"* əvəzinə *"Yolunda keçmişəm başu-canımdan",* həmin şeirin sonuncu bəndində isə *"İkimiz də qalaq yaslı, yaralı"* əvəzinə, *"İkimiz də gəzək yaslı, yaralı"* olmalıdır.

“Qalmadı” (səh.60) şeirinin Ələsgərə aid olması məndə ciddi şübhə doğurur. Burada I dünya müharibəsinin iştirakçıları olan bir çox Avropa dövlətlərinin adı çəkilir:

*Yığılın danışaq, qəlyan çəkənlər,*
*Bostan becərənlər, şitil əkənlər.*
*Ananov kağıza tütün bükənlər,*
*Qurtardı tənbəki, saman qalmadı.*

*Necoldu Serbiya, Çornuqoriya?!*
*Əl-ayaq altında itdi Italya.*
*German bir bomb atdı, qan oldu dərya,*
*Qırıldı, dünyada insan qalmadı.*

*Bağlanıb zavodlar, kəsilib qəndlər,*
*Qaynamır samavar, artıbdı dərdlər.*
*Niyə ağlamasın yazıq övrətlər,*
*Söküldü döşəklər, yorğan qalmadı.*

Əvvəla şeir, xüsusilə onun birinci bəndi nəinki zəifdir, sadəcə olaraq, anlamsız söz yığınıdır, ikincisi, aşığın mənsub olduğu Göyçədə güman etmirəm ki, “övrət” sözü işlədilirdi, üçüncüsü isə, Serbiya, Çernoqoriya və Almaniyanın adının çəkilməsi bir yana, onun bomba atması, 1914-1918-ci illərdə onu atacaq təyyarəyə malik olması, nəhayət, qəzetin, radio-televiziyanın, mətbuatın olmadığı və məlum olduğu kimi 1918-ci ildəki iğtişaşlara görə Kəlbəcərin əl-dən-ayaqdan uzaq bir yerində sığınacaq tapan aşığın bu informasiyanı necə əldə etməsi mümkün görünmür. Ona görə də qətiyyətlə deyə bilərik ki, bu zəif şeirin müəllifi Aşıq Ələsgər deyil.

Məşhur "Ola bilməz" şeirində

*"Sərraf yüz bəzəsə səngi-siyahı,*
Əsli – mütəlladı, ləl ola bilməz.
*Məkəs fəğan eylər zənbur sövtilə,*
*Künhü yox, fəmində bal ola bilməz",*

- bəndindəki ikinci misra

*"Üzdən mütəlladı, ləl ola bilməz",*-olmalıdır. Bu ifadənin mənası budur ki, **sərraf qara daşı yüz dəfə bəzəsə də, o yalnız zahirən parlaqdır ("mütəlla" ərəbcə "parlaq", "parıldayan" deməkdir), ləl kimi qiymətli deyil.** Aydındır ki, burada *"Əsli-mütəlladır,ləl ola bilməz",* ifadəsi heç cür uyğun gəlmir.

"Olacaqdır" (səh.69) şeirindəki

*Ələsgər, axtarma qüdrətin sirrin,*
*Zülmətdə işıq var, acıda şirin.*
*Zikr eylə dilində mərdlərin pirin,*
*Qorxma, dar günündə yar olacaqdı"-*

bəndində *"Zülmətdə işıq var, acıda şirin"* kimi yazıb, sonra ona fəlsəfi izahatlar axtarmağa lüzum yoxdur, onun düzgün variantı *"Zülmətə işıq var, acıya şirin"* şəklindədir. Aşıq Ələsgərin həmin cümləsi bir növ "Yaman günün ömrü az olar" atalar sözünün başqa variantda, poetik dillə ifadəsidir. Ona oxşar bir bayatı da var:

*"Aşıq, naçar ağlama,*
*Gündü, keçər, ağlama.*
*Fələk bağlı qapını*
*Bir gün açar, ağlama".*
Səh.72. "Olmaz, olmaz":

*“Sözün yeri gəldi, qoy deyim barı,*
*Eşidənlər məni görməsin karı;*
*Aşığın nisyəsi, namərd ilqarı,*
*Desələr, inanma, düz olmaz, olmaz”.*

Digər nəşrlərdən məlumdur ki, Aşıq Ələsgərin bu məşhur şeirindən misal çəkdiyimiz bəndindəki ikinci misrada “namərd ilqarı” deyil, **“kürdün ilqarı”** olmalıdır. Guya kürd xalqından olanların xətrinə dəyər deyə, tərtibçi “kürd” sözünü dəyişmək qərarına gəlmiş, amma şeirə uğursuz müdaxilə etmişdir, axı təhrif bir yana, heca sayı 11-i aşmasın deyə, “namərdin ilqarı” əvəzinə “namərd ilqarı” kimi süni ikinci növ təyini söz birləşməsi yaratmışdır, məsələn, “məktəb direktoru”, “dost sözü”, “insan ağlı” və s. Amma bu misallardan fərqli olaraq, “namərd ilqarı” söz birləşməsi ayrılıqda işlədilə bilməyən ifadədir, nonsesdir və yaşamaq şansı yoxdur.

“Gəlibdi”(səh.49) belə gedib:

*“Xəstə könül dərdü qəmdən ayıldı,*
*Bu gün məclisimə bir can gəlibdi.*
Şöləsi aləmi e*dib münəvvər,*
*Zahir* d*eyil, özü pünhan gəlibdi”.*

İlk misra mübtədası, xəbəri olan cümlədir. Cümlənin mübtədası “könül”dür. Bu cümləni başqa cür belə də ifadə edə bilərdik: “Məclisinə bir can gəldiyinə görə xəstə könül (üçüncü şəxsin təki) dərdü-qəmdən ayıldı”. Ona görə də “məclisimə”(birinci şəxs) deyil, “məclisinə” daha düzgündür. Bu, əlbəttə üslub xətasıdır, amma hər halda yanlışdır.

“İçində” (səh.55) adlı gözəl nəsihətnamədə deyilir:

*On səkkiz min aləm, yetmiş iki dil,*
*Ülfət qılır bir bazarın içində.*
*Kimi ətlaz geyir, tirmə qurşayır,*
*Kimi üryan gəzir qarın içində.*

*Qafılsan, işindən tapmayıbsan baş,*
*Üz döndərər səndən qohum, yar, yoldaş.*
*Torpaq soyuq, bədən üryan, kəfən yaş,*
*Tək qalarsan dar məzarın içində.*

*Demək nə lazımdı, özün bilirsən,*
*Bir gün yaranırsan, bir gün ölürsən.*
*Arsız-qəmsiz nə gününə gülürsən?!*
*Yandırarlar səni narın içində.*

*Ələsgər söyləsin, sən mətləbi qan,*
*Belə qərar qoyub qadiri-sübhan:*
*Unutma ilqarı, itirmə iman,*
*İman durar düz ilqarın içində.*

Son üç bəndin son misrasında “qalarsan”, “yandırarlar”, “durar” olduğu halda, birinci bənddəki “ülfət qılır” və “üryan gəzir” şəklinə salınmışdır. Halbuki, birinci bənd belə olmalıdır:

*“On səkkiz min aləm, yetmiş iki din,*
*Ülfət qılar bir bazarın içində.*
*Kimi atlaz geyər, tirmə qurşayar,*
*Kimi üryan gəzər qarın içində”.*

Adı çəkilən kitabın 66-cı səhifəsində texniki baxımdan qüsurlu, mənəvi baxımdan şikəst olan və Aşıq Ələsgərin ruhu, ədəb-ərkanı ilə heç cür səsləşməyən bir “şeiri” də oxuyuruq:

## NƏ DAMAĞI VAR

*Göz gözə baxanda məhəbbət ilə,*
*Ciyər alışmağın nə damağı var!*
*Ortalıqda işvə, qəmzə, naz olar,*
*Küsüb-barışmağın nə damağı var!*

*Quşnarov tütünlə Ananov kağız,*
*Bükə paprosunu bir növrəstə qız,*
*Bir o ola, bir sən, bir otaq yalqız,*
*Deyib-danışmağın nə damağı var!*

*Dura qulluğunda canü baş ilə,*
*Nazü qəmzə ilə, gözü qaş ilə.*
*Gah yalvarmaq ilə, gah savaş ilə,*
*Köysünü açmağın nə damağı var!*

*Könül müştaq ola xətti xalına,*
*Məlakə şəklinə, mah camalına.*
*Alma kimi yanağınıın alına*
*Gözün sataşmağın nə damağı var!*

*Ələsgər, canını  qurban elə sən,*
*Görməyibsən, ləzzətini biləsən.*
*Danışasan, oynayasan, güləsən,*
*Öpüb sarmaşmağın nə damağı var!*

Olduqca məzmunsuz və hərcayı sözlərin yığınından ibarət olan bu cızmaqaranın

*“Quşnarov tütünlə Ananov kağız,*
*Bükə paprosunu bir növrəsiə qız,*

*Bir o ola, bir sən, bir otaq yalqız,*
*Deyib-danışmağın nə damağı var!”,-*

bəndi isə ötən əsrdə ABŞ-da çəkilən kovboy filmlərindəki səhnələri xatırladır. “Ananov” kağız bir yana dursun, “Quşnarov tütün” nə deməkdir? Güman edirəm ki, tütün çəkənlər o vaxtlar Göyçədə əkilə biləcək adi tütündən istifadə edirdilər. Son dərəcə dindar, mərifət, ədəb-ərkan sahibi olan, namaz qılan, oruc tutan el aşığının, el ağsaqqalının, altı qız atasını bu sözlərin müəllifi kimi təqdim etmək Böyük Ustadın ruhuna təhqirdir!

Düzdür. M.P.Vaqufdə də belə çılpaq səhnələr var:

*“Yaxasının bağu-bəndin üzəsən,*
*Cəngələyib ağ məməsin əzəsən.*
*Əl uzadıb baş bəzəyin pozasan,*
*Hər birin bir yana atasan dürüst.*

*Vaqif deyər gözəl sevmək arəstə,*
*Öpəsən, qucasan, düşəsən xəstə.*
*Başını qoyasan dizinin üstə,*
*Məst olub yanında yatasan dürüst”.*

Amma heç olmasa burada şeir texnikası, bədiilik var. Vaqif həm də yazılı ədəbiyyatın nümayəndəsidir, güman etmirəm ki, onun bu şeirini aşıqlar xalq arasında, qız-gəlin arasında oxuyurdular. Aşıq Ələsgərdə isə məsələ başqa cürdür. Nəvəsi İslam Ələsgər bildirir ki, Ələsgər öz şeirlərini müstəsna dərəcədə bədahətən, aşıq məclislərində söyləyib. Belə olan halda, el ağsaqqalının məclisdə, qız-gəlin yanında bu cür ədəb-ərkandan uzaq sözlər oxuması, üstəlik onları özünün qoşması hansı məntiqlə izah edilə bilər?

Uzağa getmək lazım deyil, adını çəkdiyimiz şeirdən sonra aşığın "Nişanəsi" rədifli gözəl bir şeiri gəlir (səh.67). Ustad həmin qoşmasında deyir:

*"Ələsgərəm, qərq olmuşam bu qəmə,*
*Hədyan sözlər dağ çəkibdi sinəmə.*
*Nakəs, müxənnətdən mətləb diləmə,*
*Yoxdu namus, qeyrət, ar nişanası".*

Hədyan sözlərin sinəsinə dağ çəkdiyindən gileylənən, etiraz edən qüdrətli el sənətkarının "Nə damagı var" kimi hədyan sözlərin müəllifi olmadığı açıq-aşkar görünür.

("Qüdrətli el sənətkarı" demişkən, "Aşıq Ələsgər. Əsərləri(Bakı, 2003) kitabına yazılmış "Ulu Ustad" adlı ön sözdə Aşıq Ələsgərin atası haqqında deyilir: "Əsas məşğuliyyəti əkinçilik olan Alməmməd kişinin əlimizdəki şeirləri onun həm də qüdrətli bir el şairi olmasından xəbər verir (səh.7)". Kitabın redaktoru şair Dilsuzun da üstündən sükutla keçdiyi bu ifadənin Alməmməd kişiyə heç cür aid edilə bilməyəcəyi göz qabağındadır. Deyəsən, müəllifin özü də mübaliğəyə yol verdiyini başa düşür və 2004-cü ildə nəşr olunan kitaba yazdığı ön sözdə ona əl gəzdirir: "Yaradıcılığından əldə olan nümunələr püxtə sənətkar qələminin məhsulu kimi diqqəti cəlb edir" (səh. 5).

Mübaliğəyə yol verilən məsələlərdən biri də Bəşirin Molla Rəhimi öldürməsi hadisəsi ilə bağlıdır. Müəllif yazır: "Təxminən 1908-ci ildə 28 illik Sibir sürgünündən vətənə təzəcə qayıtmış olan Molla Rəhimi (o, Ələsgərin xalası oğlu idi) Bəşirin bilmədən güllə ilə vurub öldürməsi də aşığın həyatında ən faciəli hadisələrdən biri olur. O, məşhur "Kəsildi" rədifli qoşmasını MollaRəhimin cənazəsi üzərində göz yaşları axıda-axıda söyləmişdir" (səh.11).

Əvvəla, qohum-əqrəbanın cənazə üstündəki vay-şivəni içərisində hətta Ələsgərin də şeir qoşması, onu uca səslə söyləməsi qəbahətli bir hadisə idi və Aşıq Ələsgər heç vaxt bunu etməzdi. İkincisi, oğlunun törətdiyi ağır cinayət, qəbahət qarşısında aşığın şeir qoşmağa ilhamı gəlməzdi. Üçüncüsü, ən əsası isə Aşıq Ələsgərin özü onu təkzib edir:

*"Çox qaçdım qəzadan, olmadı çara,*
*Bir vurmuşdu, bir də vurdu dübara,*
Çinovniklər istədilər qurtara,
*Dostlarım özümə yağı kəsildi".*

Şeirin məzmunundan belə məlum olur ki, hadisədən bir müddət keçib, məmurların kömək etmək cəhdlərinə baxmayaraq, çox güman ki, Molla Rəhimin başqa qohum-qardaşının etirazına görə, Bəşir hələ həbsdədir.

Səbəb aydındır. İ.Ələsgər ustad sənətkarın həyatını hər fürsətdə dastanlaşdırır, əfsanələşdirir. Amma dediyimiz bir fikrə yenidən qayıdaraq bir daha təkrar etməliyəm ki, dastan ayrı şeydir, kiminsə həyatı haqqında rəsmi məqalə ayrı şeydir. Bu cür üslub elmi məqalədə məqbul sayıla bilməz.

Keşməkeşli həyatında sanki yaşadığı bütün acıları nəzərdə tutan ustad "Telli" rədifli qoşmasında:

*"Ələsgərəm, şad olmadım dünyada",-deyir.*
*Özün şad olmasan da, ruhun şad olsun, Ustad!*

## Şəmkirli Aşıq Hüseyn

Aşıq Ələsgər haqqındakı dastan-rəvayətlərin birində deyilir ki, onun şöhrəti əvvəl Göyçəyə, sonra ətraf mahallara yayılandan sonra XIX asrin böyük aşıq-şairlərindən dərin bilik sahibi olan Aşıq Hüseyn Şəmkirli onu sınamaq üçün Ağkilsə kəndinə gəlib çıxır. Rəsmi bioqrafiyasına görə o, 1811-ci ildə indiki Şəmkir rayonunun Qapanlı kəndində anadan olmuş, gənc yaşlarında həmin mahalın Qaracaəmirli kəndinə köçmüş və 1891-ci ildə, 90 yaşında vəfat etmişdir **(Aşıq Hüseyn Şəmkirli. Bakı, 1991. Ön söz).**

Aşıq Ələsgərin qonşu mahallarda, vilayətlərdə də məşhurluq qazanması, Aşıq Hüseynin onunla qüvvəsini sınayacaq marağına səbəb olması üçün o vaxtın informasiya qıtlığını-qəzet, televiziya, radio, internetin olmadığını nəzərə alsaq, düşünməliyik ki, Göyçə mahalının sərhədlərini aşan bu məşhurluq ona ən tez 40-45 yaşlarında nəsib ola bilərdi. Onun 40 yaşına 1892-ci ildə çatdığını, Şəmkirli Hüseynin isə o vaxt artıq həyatda olmadığını nəzərə alsaq, məsələ dolaşır. Hətta sağ olsaydı belə, 91 yaşındakı bir adamın uzaq yol qət edib Ağkilsə kəndinə gələrək Ələsgərlə deyişmək həvəsinə düşməsi də qeyri-real söhbətdir. Hələ onu demirəm ki, əgər o doğrudan da 1811-ci ildə doğulmuşdursa, Ələsgərdən 41 yaş(!) böyük olmalı idi. Aralarında bu qədər yaş fərqi olan adamların rəqabətə girməsi də ağla batan deyil. Həm də dastan-rəvayətdən aydın olur ki, Aşıq Hüseyn Ağkilsəyə gələndə hələ canı sulu imiş və xoruz banlayana qədər Ələsgərlə çalıb-oxuyublar. Bütün bu ehtimallar bu sətirlərin müəllifində şübhə yaratdığına görə, onu arxiv sənədlərinədə axtarmaq qərarına gəldim və müsbət naticə əldə edə bildim.

Aşıq Hüseyn Şəmkirlinin haqqında məlumat əldə etdiyim sənəd Azərbaycan Mərkəzi Dövlət Tarix Arxivində aşağıdakı şifrə ilə saxlanır: **F.43, siy.2, sax. vahidi 7348. Sənədin adı belədir: "Yelizavetpol qəzasına daxil olan kəndlərin kameral təsviri. 1886-cı il".**

Adı Qapanlı kəndində siyahıya düşən aşığın haqqındakı məlumatlar belədir:

**"Müvəqqəti yaşayanlar**

**(91).3.Aşıq Söyün Kərbəlayi Qurban oğlu 48 yaşında; oğlu Çoban 15 yaşında(onun adı həm də Əsgərdir); qardaşı Əsgərin oğlu Məmmədalı 5 y; ailədə 3 qadın var; Bu ailə təxminən 10 il qabaq Yelizavetpol şəhərindən buraya köçüb".**

İndi bu sənədi təhlilinə başlayaq. Buradakı 91 rəqəmi Aşıq Söyünün Qapanlı kəndindəki ümumi siyahıya görə nömrəsi, 3 rəqəmi isə "**müvəqqəti yaşayanlar"** təsnifatı üzrə nömrəsidir.

1886-cı ildə tərtib edilən bu sənəddə 48 yaşında olması göstərir ki, o rəsmi bioqrafiyasında yazıldığı kimi 1811-ci ildə deyil, 1838-ci ildə doğulub. Xeyli yerlər gəzib dolaşdıqdan sonra yenidən anadan olduğu doğma kəndi Qapanlıya qayıdıb. Aşığın Əsgər adında cavan rəhmətə getmiş qardaşı olub və onun 5 yaşındakı yetim oğlu və çox güman ki, onun anası da aşığın ailəsindədir, çox istədiyi qardaşı rəhmətə gedəndən sonra onun xatirəsini yaşatmaq üçün indi öz oğlunu Əsgər adlandırıb. Professor Q.Namazov **"Ozan-aşıq sənətinin tarixi" (Bakı. 2013)** kitabında onun da atası kimi aşıqlıq etdiyini yazır(səh.280). Aşıq Söyünə gəlincə, professor yazır ki, Gədəbəyə gedərkən atı qar yağmış kalafaya düşür, orada xeyli müddət köməksiz qalan aşıq möhkəm soyuqlayır və çox keçmədən vəfat edir(yenə orada, səh.281). Deyilənə, görə, vaxtsız rəhmətə gedən Yəhya bəy Dilqəmin atası Böyük ağanın xahişi ilə Aşıq

Söyün **"Dilqəmi"** sağ havasını yaratmış və bədbəxt atanın müəyyən təsəlli tapmasına səbəb olmuşdur.

Aşıq Söyünü bəzi tədqiqatçılar Molla Pənah Vaqifin bacısı oğlu, bəziləri isə bacısı nəvəsi sayırlar. Onların arasında hansısa qohumluq əlaqəsini təsdiq və ya təkzib etməyə əlimizdə heç bir sübut-dəlil olmasa da, onun Vaqifin bacısı oğlu olduğunun mümkün olmadığını mütləq qeyd etməliyəm. Çünki tarixi xronologiya bunu istisna edir. Belə ki, müəyyən etdiyimiz kimi, Aşıq Söyün 1838-ci ildə, M.P. Vaqif isə rəsmi tarixə inansaq, 1717-ci ildə doğulmuşlar. Əgər Söyünü dünyaya gətirəndə onun anasının 31 yaşı vardısa, Vaqif öz bacısından 90 il(!),21 yaşı vardısa, 100 il(!!) böyük olmalı idi ki, bu da fantaziyadan başqa bir şey deyil. Həmin səbəbdən də Aşıq Söyünün Vaqifin bacısı nəvəsi olması da şübhəlidir. Olsa-olsa, bəlkə bacısı nəticəsi ola bilər. Bir şeyə təəcüb edirəm-tutaq ki, tədqiqatçı alimlər Aşıq Söyünün 1811-ci ildə doğulması haqqındakı rəsmi bioqrafiyasına inanıblar, yenə də böyük qohumundan 96 yaş kiçik olur və onun necə bacısı oğlu ola bilərdi? Beləliklə, aydın olur ki, əksər alimlərimiz, xüsusilə filologiya sahəsinin tədqiqatçıları hardansa eşitdikləri, sənədə-sübuta əsaslanmayan məlumatları məntiqi süzgəcdən keçirmədən (bəlkə bunu etmək heç ağıllarına da gəlmir) laqeydcəsinə istifadə edir və olduqca yanlış məlumatlar yayırlar ki, sonradan bu məlumatları dəqiqləşdirib dəyişmək də böyük problemlər doğurur, mübahisələrə səbəb olur.

Aşıq Söyün Şəmkirlinin şeirlərini toplayıb 1991-ci ildə, aşığın anadan olmasının 180 illiyi ilə bağlı tədbirlərdən biri kimi nəşr etdirən prof.Rüstəm Rüstəmzadə ön sözdə yazır(o da başqa müəlliflər kimi aşığın 1811-ci ildə doğulduğunu bildirir və adını da Hüseyn yazır): "Filologiya elmləri namizədi Əhliman Axundovun yazdığına görə, Hüseynin anası Zəhra xanım M.P.Vaqifin bacısıdır, özü də

əslən Qazax mahalının Dağ Kəsəmən kəndindəndir. Ailəsi Dağ Kəsəməndən gələrək əvvəlcə Şəmkirin Qapanlı, sonra Qaracaəmirli kəndində məskən salmışlar”**(“Aşıq Hüseyn Şəmkirli. Toplayanı, tərtib edəni, ön sözün müəllifi f.e.d., professor Rüstəm Rüstəmzadə”. Bakı, 1991, səh.3)**

Doğrudanmı bu elmi dərəcəli alimlər hələ 1-ci, 2-ci siniflərdə keçirilən toplama və çıxma əməllərini bilməyiblər? İnsan özündən 121 yaş böyük olan başqa birinin necə bacısı oğlu ola bilər? Bunun üçün bəşəriyyət Adəmin dövründəki kimi 900 ildən artıq yaşamalı idi! Əgər Tövrata inansaq, Nuhun tufanından sonra təəssüf ki, Allah insanların yuxarı yaş həddini 120 ilə endirib, tibbin XVIII-XIX əsrlərdəki səviyyəsinə görə isə inanmıram ki, bizim regiondakı adamların orta həyat müddəti 60-70 ildən yuxarı olaydı. Düzdür, istisna hallarda insanlar 100 yaşına da çatırdı, amma biz orta yaş həddindən danışırıq.

Professor Q.Namazov da həmkarlarının səhvini təkrar edir, həm də özünə əlavə bir problem yaradır: “Bəzi mənbələrə və ustadın qalan nəsillərinin dediklərinə görə, anası Zəhra xanım M.P.Vaqifin bacısı imiş”**(“Ozan-aşıq sənətinin tarixi” Bakı. 2013, səh.279).** Hansı mənbələrdir onlar? Tədqiqatçı alim bu cür cümlə işlədə bilməz, mənbələrə istinad edilirsə, hökmən həmin mənbə göstərilməlidir. Biz, əlbəttə, rəsmi tərcümeyi-halına görə Aşıq Söyünün vəfatından 12 il sonra dünyaya gələn Ə.Axundovu mənbə kimi qəbul edə bilmərik, amma professor R. Rüstəmzadə öz işini bir az ehtiyatlı tutaraq məsuliyyəti Ə.Axundovun üzərinə atmaq istəsə də onun işlətdiyi “filolologiya elmləri namizədi Ə.Axundovun yazdığına görə Hüseynin anası Zəhra xanım M.P.Vaqifin bacısıdır”,-ifadəsi ilə özünü sığortalaya bilməz. Əgər Ə.Axundova istinad edirsinizsə, heç olmasa, Ə.Axundovun bunu hansı əsərində yazdığını, əsərin nəşr tarixini və səhifəni göstər-

məlisiniz ki, oxucu sizin də, istinad etdiyiniz tədqiqatçının da fikrinin mötəbər, söykəndiyi mənbənin etibarlı olub-olmadısğını yoxlaya bilsin. Axı, bu elmdir, əgər bunu aşıqlar danışsa, şifahi xalq ədəbiyyatı, rəvayət kimi keçmək olar. Amma göründüyü kimi, bizim əksər folklorşünaslarımız da özlərini tədqiq etdilkəri aşıqların yerinə qoyub rəvayətlər uydurmaqla məşğul olurlar. ”Filologiya elmləri namizədi Ə.Axundovun yazdığına görə” ifadəsi son dərəcə qeyri-elmi ifadədir, heç olmasa, onun hansı əsərində bunu yazdığı göstərilməlidir ki, oxucu istəsə, Ə.Axundovun həmin əsərinə müraciət edib onun mülahizələri ilə tanış olsun. Ə.Axundovun bu qənaətə nəyin hesabına gəldiyini görsün. Yaxud, bəlkə R.Rüstəmzadə Ə.Axundova böhtan atır, Ə.Axundov heç belə məzmunda bir şey yazmayıb? Beləliklə, professor R.Rüstəmzadının həmin cümləsi elmi deyil,dedi-qodu söhbətini xatırladır.

Başqa bir folklorşünas alim, professor P.Əfəndiyev də professor həmkarları kimi hərəkət edib**.”Azərbaycan şifahi xalq ədəbiyyatı” (Bakı, 1992)** kitabının müəllifi olan P.Əfəndiyev yazır: “Ə.Axundov Aşıq Hüseynin anadan olma, vəfat etmə illərini dəqiqləşdirməyə çalışmışdır. O, yazır: “Aşıq Hüseyn təqribən 1811-ci ildə anadan olmuşdur. Deyildiyinə görə, şair Molla Pənahın bacısı oğludur”. **(səh. 283).** Prof. P.Əfəndiyev də professor R.Rüstəmzadə kimi sitatı haradan gətirdiyini göstərmir.

Professor S.Paşayev fantaziyasına görə həmkarlarını geridə qoyur, professorlar R.Rüstəmzadə və Q.Namazovun aşığın **Zəhra** kimi təqdim etdikləri anasını **Tükəzbana** döndərir: “Bir ehtimala görə, əsilləri Qazağın Dağ Kəsəmən kəndinin Sarılar nəslindəndir. Özü isə Molla Pənah Vaqifin bacısı Tükəzbanın oğludur”**(S,Paşayev. “XIX əsr Azərbaycan aşıq yaradıcılığı. Bakı. 1990, s**əh.40). S.Paşayev işini bir az ehtiyatlı tutaraq, “Ə.Axundovun yazdığına

görə" ifadəsini "bir ehtimala görə" ifadəsi ilə əvəz etsə də, bu ifadə onu məsuliyyətdən və səhvdən xilas edə bilməz.

Azərbaycanın tanınmış folklorşünas professorlarından gətirdiyim nümunələr vəziyyətin bu sahədə nə qədər ağır olduğunu göstərir.Ə.Axundovdan gətirdikləri sitatın mənbəyini göstərmədikləri bir yana, bu fərziyyənin düzgün olub-olmadığı ehtimalını yoxlamaq üçün doğrudanmı Vaqifin doğum tarixi ilə tutuşdurmaq ağıllarına gəlməyib? Məsələn, həmin "uğurla" iddia etmək olar ki, Məhəmməd Füzulu İmadəddin Nəsiminin bacısı oğlu, yaxud bacısı nəvəsidir!

Göründüyü kimi, Aşıq Söyünün yaşı nə az, nə çox, düz 27 il şişirdilib(Ələsgərinki 31 il şişirdilmişdi) və Aşıq Ələsgərdən 14 yaş böyükdür. Ələsgərlə görüşmə tarixini 1891-ci il hesab etsək, o vaxt 53 yaşı varmış.

Nəhayət, doğum tarixindən başqa, ciddi bir məsələyə də toxunmaq istəyirəm. Aşıq Söyünün mənsub olduğu bölgənin dil xüsusiyyətlərinə görə "Hüseyn" adını çox vaxt "Söyün" kimi tələffüz edirlər.Söyün adının Hüseyndən törədiyini bilsək də, guya düzgün yazılış şəklinə salırıq deyə, "Hüseyn" kimi yazmağa ixtiyarımız yoxdur, çünki rəsmi dövlət sənədində onun adı "Söyün" kimi yazılıb və belə də oxunmalıdır.

Sənəddəki adamın Şəmkirli Aşıq Söyün olduğuna isə şübhə ola bilməz, çünki, o "Söyün Kərbəlayi Qurban oğlu" kimi deyil, məhz **"Aşıq Söyün Kərbəlayi Qurban oğlu"** olaraq yazılıb və başqa variantlar istisna olunur. Digər tərəfdən, **"Aşıq"** sözünün qeyd edilməsi Ustad sənətkarın çar məmurları tərəfindən də nüfuzunun, böyüklüyünün etirafıdır.

Hələ uşaq vaxtlarımda yaşadığım Dərələyəz mahalının Gabud kəndinə Göyçədən və başqa yerlərdən aşıqlar gələr və məclis qurardılar. Lap kiçik yaşlarımdan saza, sözə bö-

yük məhəbbətim və istəyim olduğuna görə, mən də bu məclislərə gedərdim. Belə məclislərdən birində ustadın **"Yaxşıdır"** rədifli aşağıdakı şeiri çox xoşuma gəlmişdi:

*Bir adam ki, sənlə ülfət eyləsə,*
*Yəqin onun əsli-zatı yaxşıdır.*
*Namərd sənə quzu-plov yedirtsə,*
*Mərdin quru məhəbbəti yaxşıdır.*

*Dad-hazar çəkərəm pərgarsız sazdan,*
*Ver, qurtar əlindən nəzir-niyazdan.*
*Söylənən qarıdan, gəzəyən qızdan,*
*Güləyən gəlindən lotu yaxşıdır.*

*Aşıq olan sözün söyləyər başdan.*
*Sallabaş adamdan, ürəyi daşdan,*
*Bədnəzər qonşudan, bədcins yoldaşdan*
*Qədir bilənlərin iti yaxşıdır.*

*Aşıq Söyün söylər kəlməni teydən,*
*Dərsimi almışam "əlif"dən, "bey"dən.*
*Gözəlsiz otaqdan, çörəksiz evdən,*
*Çölün, biyabanın otu yaxşıdır.*

Buradakı **"dərsimi almışam "əlif"dən, "bey"dən**" ifadəsi sözsüz ki, onun təhsil gördüyünə işarə etməsi və bununla fəxr etməsinin əlaməti sayılmalıdir.

Aşıq Ələsgərlə Aşıq Söyünün arasındakı görüş və deyişmələr **"Aşıq Ələsgərlə Şəmkirli Aşıq Hüseynin görüşü"** adlı dastan-rəvayətdə nəql edilir. Maraqlıdır ki, dastan yaradıcıları Aşıq Ələsgərin Aşıq Söyünə "Söyün əmi" deyə müraciət etdiyini ifadə ediblər. Əgər rəsmi bioqrafiyalarını həqiqət qəbul etsək, Aşıq Söyün 1811-ci ildə, Aşıq Ələsgər

isə 1821-ci ildə doğulub. Amma 10 yaş böyüyə "əmi" deyə müraciət etmək şübhə doğurur, halbuki, Ələsgərin dostu kimi təqdim edilən Paşa ondan 13 yaş kiçik olduğu halda, ona "əmi" demir və dostdurlar. Dastanda Aşıq Ələsgərin kiçik qardaşı Məhəmmədi (Şair Məhəmməd kimi tanınmışdır) dağa, Aşıq Söyünün qonaq gəlməsi münasibətilə kəsmək üçün qoç gətirməyə göndərdiyindən bəhs edilir. Dağa gedən Məhəmmədin 20 yaşında ola biləcəyini və onun 1871-ci ildə doğulduğunu (sənədlərə görə), nəzərə alsaq, bu görüşün 1891-ci ildə baş verdiyi ilə razılaşa bilərik və Ələsgərin bu zaman 39 yaşı vardı. Əgər Aşıq Söyün doğrudan da 1891-ci ildə rəhmətə gedibsə, belə çıxır ki, o yay vaxtı Göyçəyə gəlib Ələsgərlə görüşmüş və həmin ilin son aylarında-qardan söhbət getdiyinə görə bu ayların ilin son ayları olduğunu düşünürəm, – vəfat etmişdir.

Bəzən Ələsgərlə deyişən adamın Aşıq Hüseyn Şəmkirli deyil, Aşıq Hüseyn Bozalqanlı olduğunu söyləyənlər də var. Görkəmli söz ustası olan H.Bozalqanlının deyişmə ehtimalını nəzərdən keçirərkən, ilk növbədə onun yaşına baxmalıyıq. Aşığın 1937-ci ildə yazdığı tərcümeyi-halından onun 1863-cü ildə doğulduğu aydın olur.

Bu baxımdan onun Aşıq Ələsgərdən 11 yaş balaca olduğu üzə çıxır. Ehtimal baxımından onların arasında deyişmə olduğunu inkar etmək olmaz, amma son dövrlərdə qəbul olunmuş ictimai fikrə görə Aşıq Ələsgərlə deyişən Şəmkirli Aşıq Söyün olmuşdur. Məsələnin etik tərəfi də həmin şəxsin Aşıq Söyün Şəmkirli olması ehtimalını qüvvətləndirir. Çünki Ələsgərdən yaşca böyük olduğuna görə, onu imtahan etməyə, onunla sınaşmağa haqqı çatırdı. Ələsgərdən 11 yaş kiçik olan Aşıq Hüseyn Bozalqanlı bunu etsəydi, ədəbsizlik və lovğalıq sayıla bilərdi.

## Yeni adlar-yeni tarixi şəxsiyyətlər

Aşıq Söyün Şəmkirli ilə bağlı arxiv sənədlərini araşdırarkən, gələcək tədqiqatçıların marağını cəlb edə biləcək bir sıra qiymətli məlumatlar əldə etdim.

**Azərbaican Mərkəzi Dövlət Tarix Arxivində saxlanan "Yelizavetpol quberniyası xəzinə kəndlilərinin Kameral siyahısı. 1842-ci il (F.29, siy.1, sax.vah.10)"** adlı sənəddə Qaraca Əmirli kəndində bir sıra maraqlı şəxsləri aşkar etdim. Onlardan birincisi 95 nömrəli ailə kimi qeyd olunan Aşıq Qaradır:

**"95.Aşıq Qara 50 yaşında;** oğlu Sadıq 7 y.

**Qeyd: 7 il əvvəl** İrəvan şəhərindən buraya köçüblər.

**Vəfat etməsi ilə əlaqədar olaraq 12 iyun 1853-cü ildə Palata Jurnalından çıxarılıb".**

Göründüyü kimi, atasının adı yazılmayan Qaranın adı "Aşıq Qara" kimi yazılıb ki, bu da onun öz dövründə məşhur aşıq olmasından xəbər verir. Aşıq Qara 1792-ci ildə anadan olub.

XIX əsr İrəvan ədəbi mühitini araşdıranlar üçün bu məlumatın yararlı ola biləcəyini düşünürəm.

Haqqında məlumat vermək istədiyim ikinci şəxs Şair Mustafadır:

**"128.Şair Mustafa Tağı oğlu 25 yaşında".**

1817-ci ildə anadan olan Mustafanın cəmi 25 yaşında olmasına baxmayaraq, artıq şair kimi qeyd olunması bu şəxsin istedadlı və tanınmış şair olmasından xəbər verir. Hesab etmək olar ki, bu məlumat tədqiqatçı filoloqlarımız üçün bir ipucu olacaqdır.

Üçüncü şəxs 1839-cu ildə Şəmşədil nahiyəsinin Xırxına kəndindən buraya köçən Aşıq Rüstəmdir:

**“133.Aşıq Rüstəm 40 y; oğlu Alı 10 y.**

**Qeyd: 3 il əvvəl Şəmşədil nahiyəsinin Xırxına kəndindən gəlib.**

**Vəfat etməsi ilə əlaqədar olaraq 12 iyun 1853-cü ildə Palata Jurnalından xaric edilib”.**

Aşıq Qara və Şair Mustafa haqqında dediklərimizi 1802-ci ildə doğulan Aşıq Rüstəmə də aid edə bilərik-hər üç tarixi şəxsiyyət-söz ustası öz tədqiqatçılarını gözləyir.

Aşıq Qara və Aşıq Rüstəm 1852-ci ilin Kameral siyahıya almasından qabaq ölüblər. Sənəddə onların vəfat tarixləri göstərilməyib.

Aşıq Söyün Şəmkirlinin Qapanlı kəndində doğulsa da, yeniyetmə yaşlarından Qaracaəmirli kəndinə köçüb orada yaşaması haqqındakı mülahizələri də nəzərə alsaq, istinadlar verdiyimiz bu arxiv sənədindən çıxara biləcəyimiz başqa bir mühüm nəticə ondan ibarətdir ki, Şəmkirbasan mahalında yerləşən və dövrünə görə böyük kənd olan **Qaracaəmirli kəndi müxtəlif yerlərdən tanınmış şair və yazıçıları özünə cəlb edəcək qədər mühüm mədəniyyət mərkəzlərindən biri olmuşdur.** Bu məsələ də öz tədqiqatçısını gözləyir.

## Ondan qalan qatar-qatar söz oldu

Aşıq Ələsgərdən danışarkən  onun ustadı Aşıq Alıdan söhbət açmamaq mümkün deyil. Ələsgərin dahilik mərtəbəsinə qalxmasında sözsüz ki, əməyi olan, onun nadir istededını cilalayıb almaz halına gətirən, ona həm aşıqlığı, həm ərəb və fars dillərini, yazmağı, oxumağı, elmi,  irfanı, Quranı, dini,aşıqlıq mərifətini öyrədən də, onunla deyişərək məğlub olub Ələsgərin parlaq dühası qarşısında ikinci rola çəkilən, hətta deyilənə görə, acı məğlubiyyətdən sonra el içinə çıxmaqdan utanıb əldən-ayaqdan uzaq Cavanşir mahalına, indiki Kəlbəcər rayonununa gedən Aşıq Alı!**(Aşıq Alının hal-hazırda yaşayan qohumları onların arasında deyişmə olmadığı fikrindədirlər)**. Pafos kimi alınmasın, onun Aşıq Ələsgərə yenilməsi həm də ustadı Alının Qələbəsi idi! Ələsgəri yetirən Ustada bərəkallah!

Aşıq Ələsgərin nəvəsi və tədqiqatçısı İslam Ələsgər onların arasında baş verən deyişmənin tarixini 1850-ci illər kimi göstərsə də, Aşıq Ələsgərin 25 yaşında evləndiyini və dastana inansaq, müstəqil şəkildə aşıqlıq edərkən Anaxanımı gördüyünü nəzərə alsaq, ustadla şəyirdin sınaq meydanına çıxmasını Ələsgərin 24-25 yaşında olduğu vaxtlarda baş verdiyini düşünməliyik. Bu hesabla həmin hadisə təxminən 1876-cı ildə baş vermişdir. Aşıq Ələsgərin **“Min iki yüz doxsan dörddə** Ələsgər **tapdı əsəri”** misrasında bəlkə də Alını məğlub etdiyi **“A yağa-yağa”** dodaqdəyməz təcnisinə işarə etdiyini qəbul etsək, miladi təqvimi ilə deyişmənin 1876-cı ildə baş verə biləcəyini düşünə bilərik. “Əsəri tapmaq” ifadəsinə gəlincə, adi adamlara, hətta Alı kimi nəhəngə müyəssər olmayan bu cür əsərin doğrudan

da Ələsgərə İlahi tərəfindən vəhy kimi gəldiyini mülahizə edə bilərik. Çox güman ki, ona qələbə gətirən həmin əsərin tapıntı, İlahi payı olduğunu Ələsgərin özü də qəbul edirmiş!

Aşıq Alının bir vaxtlar başabəla tədqiqatçılar tərəfindən səhvən Ələsgərə aid edilən gözəl bir gəraylısı var:

*Yar yanında günahkaram,*
*Doğru sözüm yalan oldu.*
*Yeriş etdi qəm ləşkəri,*
*Könlüm şəhri talan oldu.*

*Bax bu qaşa, bax bu gözə,*
*Yandı bağrım, döndü közə.*
*Keçən sözü çəkmə üzə,*
*Keçən keçdi, olan oldu.*

*Aşıq Alı sənə qurban,*
*Gəl eyləmə bağrımı qan.*
Əldən uçdu tülək tərlan,
*Sar da kəklik alan oldu.*

Bu gəraylı klassik aşıq şeirinin ən parlaq nümunələrindən sayılmalıdır. Xüsusən buradakı

"*Keçən sözü çəkmə üzə,*

*Keçən keçdi, olan oldu"*,-misraları inci, gövhər,ləl qiymətindədir.

*"Yeriş etdi qəm ləşkəri,*

*Könlüm şəhri talan oldu,*-misraları da onun kimi gəzəldir.

Ələsgərlə 1876-cı ildə deyişən vaxt Aşıq Alının neçə yaşı olub? Folklorşünaslığımızın israrla bizə təqdim etdiyi doğum tarixinə, 1801-ci ilə inansaq, həmin vaxt Alının 76 yaşı olmalı idi və bu yaşda olan qoca bir aşığın 24-25 yaşın-

dakı gənc və enerjili bir aşığa məğlub olması çox da böyük effekt yarada bilməzdi.

Aşıq Ələsgərin doğum tarixini 1852-ci ildən 1821-ci ilə çəkərək onun yaşını 31 il artırdıqlarından, ustadı Aşıq Alının rəsmi tərcümeyi-halında yazıldığı kimi 1801-ci ildə, hətta bəzi müəlliflərin (İ.Ələsgər) 1800-cü ildə doğulduğunu yazdığı tarixə inansaq, o Ələsgərdən 51-52 yaş böyük olardı ki, bu da həqiqətə uyğun görünə bilməzdi. Ona görə də Ustad Ələsgərin Ustadını arxivlərdən axtarmaq qərarına gəldim və əvvəlcə haqqındakı məlumatları topladım ki, onu axtarmaq asan olsun. Toplanmış materialları saf-çürük edərək, 3 kitabın və bir məqalənin üzərində dayandım. Onlar aşağıdakılardır:

1.”Aşıq Alı. Təcnislər”. Bakı, 1995.(Toplayanı, tərtib edəni və ön sözün müəllifi Əli Əbülhəsənoğlu);

2.”Aşıq Alı. Əsərləri”. Bakı. 2006. (Tərtib edəni və ön sözün müəllifi prof.H.İsmayılov);

3.”Aşıq Alı. Əsərləri”. Bakı, 2013.(Tərtib edən və redaktor Qabil Zimistanoğlu).

4.H.Mirzəyev.“Azərbaycan aşıq sənətinin bəzi ustadları haqqında”. Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. 40-cı kitab, Bakı, 2012.

Aşıq Alını özünün ana babasının doğma əmisi oğlu kimi təqdim edən Ə.Əbülhəsənoğlu **“Alının təcnis dünyası”** adlı ön sözündə yazır: “Fərman Kərimzadə **“Vedinin yanı dağlar”** əsərində Aşıq Alının 1801-ci ildə Gilanlar kəndində anadan olduğunu qeyd edir. Gilanlarla Qızılvənk arasındakı məsafə 1 saatlıq yoldur. Hər ikisi Azərbaycanın qədim Şərur qəzasına daxildir***(Bu kəndlər heç vaxt Şərur qəzasına daxil olmayıb-N.Ə)***. Həqiqətdə isə Aşıq Alının 12 evdən ibarət sülaləsi qan düşmənçiliyi ucbatından Vedinin Milli dərəsinin Gilanlar kəndindən Qızılvənkə köçmüşdür. Burada 4 ailəyə yer olmadığından, onlar Kəlbəcər rayonuna

gələrək Milli adlı kənd salmışlar. Alının babası Şıx Qərib övladları ilə birlikdə Qızılvənkdə qalmışdır. Bu köçhaköç vaxtı Alının 4 yaşı olmuşdur.

Aşıq Alı səkkiz yaşında Noraşen molla məktəbinə daxil olmuş, oranı yaxşı qiymətlərlə bitirmişdir.

O, dövrünün alim aşığı, mükəmməl təhsil almış, bütün elmlərdən hali olan Sulduzlu Aşıq Allahverdinin şəyirdi olur və on bir il onun yanında qalır. Alı onun yeganə şəyirdi olmuşdur"(səh.3).

"Allahverdi Sulduzlu Qara Osmanın oğludur, Qara Osman milliyətcə türkdür. O, vaxtilə Şah Abbas, Nadir şah dövründə İrana aparılan gürcülərin törəməsi Tamara adlı qızla evlənmişdir. Qara Osman Mədinədə, Kərbəlada təhsil almış axund idi".

"Alı ömrünün son on beş ilini kor olmuş, Kəlbəcər rayonunun Milli kəndində yaşamışdır. Şıx Alı ölümünün yaxınlaşdığını duyub atasının, anasının və Bəstinin qəbirlərini ziyarət edib qayıdarkən 1911-ci ildə Qızılvənkdə vəfat etmişdir"(səh.4).

"Aşıq Alı ilə Aşıq Ələsgər arasında son nəfəsə qədər ata-oğul münasibətləri olmuşdur.

Aşıq Alının Kəlbəcərin Milli kəndində on beş il kor yaşadığı vaxtlar Aşıq Ələsgər özü onu ata mindirib, atın qantarğasından özü tutmuş və "Mənə belə ləzzət edir" demişdir" (səh.6).

"Aşıq Alı mənim ana babamla doğma əmoğludur. Mən Azərbaycanın Naxçıvan, Dərələyəz bölgələrində Aşıq Alını arayıb axtardım, oba-oba, oymaq-oymaq gəzdim, hara üz tutdumsa, əliboş qayıtmadım".

Aşıq Alının yubileyi münasibətilə beş yüz qoşmanı, İrəvan və Türkiyə səfərləri haqqında iki dastanı yubiley komissiyasına təhvil verdim".(səh.7).

"Əksəri təcnislərdən ibarət olan dörd yüz qoşma "asan anlaşılmadığına" görə özümə qaytarıldı. ... Mən uzun illər bu təcnislərin araşdırılmasını davam etdirib çapa hazırladım və saxladım. Azərbaycan Elmlər Akademiyasının Ədəbiyyat İnstitutunun direktoru işləmiş rəhmətlik Mirzağa Quluzadə bu işdə mənə çox kömək edərdi. O, folklorçu Əhməd Şmidenin Türkiyədən gətirdiyi qoşmaların arasından Aşıq Alının xeyli qoşmasını seçib mənə vermişdi" (səh.8).

Əli Əbülhəsənoğlunun burada göstərilməyən soyadı Əmirovdur və zənnimcə, misal çəkdiyimiz sitatlar kifayətdir. Onun soyadını xatırlatmağımız isə səbəbsiz deyil və bu barədə bir qədər sonra oxucu məlumat alacaq.

İndi professor H.İsmayılova müraciət edək: "Aşıq Alı XIX əsrin başlanğıcında, təxminən, 1801-ci ildə Goycə mahalının Qızılvənk kəndində, sadə və yoxsul bir ailədə doğulmuşdur. Atası Mirzə kişi oğlunun dərrakəli və həssas bir uşaq olduğunu çox tez hiss etmiş və onu oxutmağı qərara almışdı. Alı mollaxanada təhsil aldığı muddətdə bir an belə sazı, aşıqların cövlan etdiyi məclisləri unuda bilməmiş, gizli oxuduğu aşıq mahnıları, gozəl və məlahətli səsi haqqında el-oba, qohum-əqrəba xəbər tutmuş və onların təşviqi ilə Mirzə kişi oğlunu Ağ Aşığa şəyird vermişdir. Hələ ilk günlərindən şəyirdinin fitri istedada malik olduğunu hiss edən Ağ Aşıq ona böyük həssaslıqla yanaşmış, az bir muddətdə Alıya butun saz havalarını öyrədərək ona sənət yollarında mustəqil addımlar atmağı məsləhət gormuşdur. Qudrətli saz ustasının yanında kecən illər səmərəsiz qalmamış, Alının sədası tezliklə Qızılvənkdən, Goycənin hududlarından cox-cox uzaqlara yayılmışdır. Aşıq Alının həyatı ilə bağlı əldə olan məlumatlar təxminən yuxarıdakıları təkrarlayır. Məsələn, folklorşunas alim M.Həkimov yazır. «Tədqiqatcılar bu boyuk saz-soz sərrafının 1800-1801-ci ildə Goycə mahalının Qızılvənk kəndində yoxsul kəndli Mirzə kişinin

kasıb komasında dunyaya goz acdığını, ailəyə səadət gətirdiyini söyləyirlər». Mursəl Həkimovun verdiyi bilgidən Aşıq Alının anasının adının Fatma, həyat yoldaşının adının Bəsti olduğu aydınlaşır(səh.5). V.Vəliyevin «Azərbaycan folkloru» kitabında qeyd etdiyinə gorə, Aşıq Alı Şəmkirli Aşıq Huseynin muasiri olmusdur. O, 1801-ci ildə anadan olmuş, 1911-ci ildə vəfat etrmşdir. Bundan başqa, Aşıq Alının 1894-cu ildən sonra kor yaşadığı gostərilir. (səh.6).

Goycənin ustad aşığı Aşıq Hacıdan yazıya alınmış «Aşıq Alının Turkiyə səfəri» dastanını folklor örtüyündən cıxarsaq, onda mətn informasiyasının qısa məzmunu aşağıdakı kimi olacaq: Aşıq Alı Goycə mahalının Qızılvənk kəndindən yoxsul Mirzə(Göycə dialektində «İmirzə») kişinin oğludur. Həmin mahalın Çamırlı (Goycə dialektində «Çamırrı») kəndindən Niftalı adlı varlı bir kişinin Bəsti adlı qızı ilə evlənmək istəyir. Lakin xeyir işin reallaşması üçün lazım olan «zəruri minimum» səviyyəsində maliyyə vəsaiti olmadığından məşğul olduğu sənətdən(aşıqlıqdan) istifadə etməklə pul qazanmaq məcburiyyətində qalır. Bundan ötru o, Naxcıvana və oradan da Turkiyəyə gedir(Burada bir məsələyə aydınlıq gətirmək məcburiyyətindəyik. Məsələ burasındadır ki, indi işlətdiyimiz "Türkiyə" ifadəsi 1923-cü ildə Türkiyə Respublikasının yaranmasından sonra dövriyyəyə girmişdir, 1923-cü ildən əvvəl isə həmin ərazilər Osmanlı İmperatorluğuna aid edi, dövlətin rəsmi adı "Babi-Ali" və ya "Dövləti-Osmani-Ali" adlanırdı, insanlar arasında işlənən ifadə isə "Dövləti-Osmani-Ali"nın qısaldılmış forması **"Alosman"** idi. Bəzi folklorçular sonuncu ifadəni səhvən El-Osman, yəni "Osmanlı eli" kimi başa düşürlər). Muxtəlif cətinliklərlə uzləşirsə də, nəhayət, tələb olunandan da artıq vəsait əldə etməyə nail olur, vətənə qayıdır və sevgilisinə qovuşur". **(səh.8, "Ön söz").**

Qabil Zimistanoğlu (**"Aşıq Ələsgərin heyrət və saygı ilə xatırladığı ustadı" adlı ön sözdən**): "Aşıq Alı qədim Göyçə mahalının Qızılvənk kəndində anadan olub. Aşıq Alının Məhəmməd, Abdulla, İsmayıl adında 3 oğlu, Sənəm, Mələk adında 2 qızı olub. Mələyin Gülnaz adlı qızı, onun isə Ələkbər və Əsgər adlı oğlanları olub.Oğlu İsmayıl isə çox erkən dünyasını dəyişib. Oğlunun vaxtsız dünyadan köçməsi sanki Aşıq Alının həyatını alt-üst edib:

*Fərhəngi şərəfim köçdü dünyadan,*
*Fələyin boynuma qəhri kəsildi.*
*Necə əl götürüm həmdü-sənadan?*
*Şəkər dəhanımda ağı kəsildi".* (səh.15).

"Aşıq Alının irsinin toplanması ilə sonralar milliyətcə kürd olan Şamil Əsgərov və Əli Əmirov məşğul olublar. Bir müddətdən sonra bəlli olub ki, Aşıq Alı irsinin tədqiqi ilə məşğul olmaları heç də xoş məramlarından irəli gəlməyib....onu kürd kimi qələmə vermək istəyiblər.

Həmçinin Aşıq Alının yazıçı Fərman Kərimzadənin **"Vedinin yanı dağlar"** kitabına istinadən Vedi dərəsinə-Gilanlar kəndinə aparıb çıxarmaq cəhdləri olub və bu da eyni məqsədə xidmət edib. Guya ki, Aşıq Alı Gilanlarda anadan olub və o Qızılvənkə köçüb gələndə 4 yaşı varmış.

...Aşıq Alının özü bir yana qalsın, Aşıq Alının 4-cü babası Məşədi Salehin Qızılvənkdə anadan olması barədə bu nəslin nümayəndələrində məlumat var. Məşədi Salehin Qızılvənkdə Məmməd, Elləz, Əvəz, Qurban adlı 4 oğlu dünyaya göz açıb. Elləzin oğlu Yəhya, Yəhyanın oğlu Haqverdi, Haqverdinin oğlu Mirzə, Mirzənin oğlu isə Aşıq Alı olub. Bunu Aşıq Alı nəslinin nümayəndəsi olan Əli Vəliyev rəsmi qaydada (notarial qaydada) təsdiqləyir. Əli Vəliyev Aşıq Alının qızı Mələyin qız nəvəsidir, yəni qızı Gülgəzin oğludur.

Bunu Aşıq Alı nəslinin digər nümayəndəsi Lətif Məmmədəliyev də təsdiqləyir. L.Məmmədəliyev isə Aşıq Alının oğlu Abdullanın nəvəsidir. Abdullanın yeganə övladı olan Yəhyanın oğludur"(səh.17).

Ə.Əbülhəsənoğlunun soyadını nəyə görə xatırlatmağım yəqin hörmətli oxucuya indi aydən oldi-Ş.Əsgərovla birgə adı çəkilən şəxs odur.

Professor H.Mirzəyev adı çəkilən məqaləsində yazır: "Aşıq Alının yubileyini keçirmək üşün... müxtəlif tədbirlər həyata keçirilir və Aşıq Alı haqqında məlumat toplanırdı (müəllif Aşıq Alının neçə illik yubeliyeninin keçirilməsini və yubiley tədbirinin keçirildiyi ili qeyd etmir, çox güman ki, söhbət Aşıq Alının 1981-ci ildə 180 illik yubileyinin keçirilməsindən gedir - **N.Ə.**).

O zaman mənim işlədiyim Azərbaycan Dövlət Pedaqoji İnstitutunda işləyən folklorşünas professor Mürsəl Həkimov Aşıq Alının həyat və yaradıcılığı haqqında məlumat toplamaq üçün 6 aylıq elmi məzuniyyətə göndərildi. O, bu 6 ay ərzində Vedi (həmçinin Qarabağlar), Dərələyəz, Şərur və Göyçəyə getdi, bu yerlərdə olan aşıqlar, ziyalılar, tarixçilər və yaşlı adamlarla, ağsaqqal və ağbirçəklərlə söhbətlər apardı və Alı haqqında xeyli məlumat topladı.Bakıya qayıtdıqdan sonra folklorşünüslarla, filoloq və tarixçilərlə bu məlumatlarla bağlı söhbətlər apardı. Mənim yuxarıda adı çəkilən bölgələri yaxşı tanıdığımı, şifahi xalq ədəbiyyatına, xüsusən aşıq yaradıcılığına yaxşı bələd olduğumu bildiyi üçün məni bu məsələlərlə bağlı sorğu-suala tuturdu.

Nəticədə, o Aşıq Alı haqqında topladığı məlumatları 72 makina səhifəsində ümumiləşdirdi. Mürsəl Həkimov Aşıq Alı haqqında yazdığı bu məqaləni 2 dəfə mənə oxudu...

Mürsəl Həkimovun gəldiyi nəticə bu idi ki, Aşıq Alı Vedibasarın Gilanlar kəndində doğulmuş, 8 yaşında Şərurun Başnoraşen (Cəlilkənd) kəndində molla məktəbinə

qoyulmuş, 12-14 yaşlarında saz çalıb oxumağa başlamış, Kosacanda Ağ Aşığa şəyirdlik etmiş və xeyli müddət Ağ Aşıqla birlikdə Şərur, Dərələyəz və Vedibasarda aşıqlıq etmişdir.

Yaşlı adamlar ona demişdi ki, Aşıq Alının tayfası ilə qonşu kənddəki bir bəyin arasında düşmənçilik düşür. Bəy bunların nişanlı qızını zorla qaçırır, qız da özünü atın üstündən uçuruma atıb öldürür. Sonra da qız sahibləri gəlib onlardan adam öldürür. Bəyin əlindən Alının tayfası Göyçəyə köçür.Bir hissəsi Qızılvənkdə məskunlaşır, bir hissəsi isə əvvəlcə Göyçənin Qırxbulaq kəndində məskunlaşmaq istəyir, lakin hansı səbəbdənsə, sonra Kəlbəcərə gedib orda məskunlaşırlar. Bundan sonra Alı Göyçənin Qızılvənk kəndində yaşayır.

Mürsəl Həkimov Aşıq Alı haqqında eşidib bildiklərini yubileyin hazırlanmasına kömək edən əziz şairimiz Hüseyn Arifə danışır.Hüseyn Arif deyir ki, yubileyə çox az qalır. Belə mübahisəli məsələləri yubileyə çıxarmaq olmaz. O yazdığını ver mənə, diqqətlə oxuyum.

Bundan bir neçə gün sonra Hüseyn Arif məşhur, Azərbaycanın fəxri olan akademik Həmid Araslıya müraciət edir və yubiley ərəfəsində mübahisələrə son qoymaq üçün onun rəyini istəyir. Akademik Həmid Araslı qəzetdə qısa, məlumat xarakterli fikrini bildirir ki, Aşıq Alı Göyçədə doğulmuşdur. Mənim fikrimcə, bu yazı yubileyi sakit keçirmək üçün atılan addım idi. Odur ki, yubileydə Mürsəl Həkimovun yazdıqlarına toxunulmadı"**(adı çəkilən əsəri, səh. 142-143)**.

Beləliklə, professor H.Mirzəyev professor həmkarı M.Həkimovun, M.Həkimov isə Ə.Əbülhəsənoğlu və yazıçı F.Kərimzadənin irəli sürdüykləri ehtimalı müdafiə edir.

İndi sitat gətirdiyim bu şəxslərdən Aşıq Alı haqqında əldə etdiyimiz bilgiləri ümumiləşdirib yığcam hala gətirək

və həmin məlumatların nə dərəcədə həqiqətə uyğun olduğunu yoxlayaq. Gətirdiyimiz sitatlara görə üzərində durulan iki versiya var. Prof.H.İsmayılov, Q.Zimistanoğlu və Aşıq Alının qohumlarının versiyası: "Hətta dördüncü babasının da Qızılvənkdə doğulduğu Aşıq Alı 1801-ci ildə orada doğulub, atasının adı Mirzə, Mirzənin atasınn adı Haxverdi, Alının oğlanları Məhəmməd, Abdulla, İsmayıl, həyat yoldaşının adı Bəstidir. Bəsti Göyçənin Çamurlu kəndindən olan Niftalı adlı adamın qızıdır".

Prof.H.Mirzəyev, prof. M.Həkimov, yazıçı F.Kərimzadə, Ş.Əsgərov, Ə.Əmirov və başqalarının "Gilanlar" versiyası.

Birinci versiyanın tərəfdarlar Aşıq Alını türk oğlu türk sayır, ikincinin tərəfdarları isə onu kürdlərin milli tayfasına bağlayırlar. Prof.H.Mirzəyevin spesifik mövqeyi belədir ki, milli tayfasını kürd deyil, türk sayır.

Beləliklə, sənədlərdə adlarını təsbit etmək üçün əlimizdə xeyli material və həll etməli olduğumuz ciddi problemlər var.

Bir qədər irəli gedərək bildirim ki, Aşıq Alının doğum yeri və doğum tarixi haqqında birincilərin də, ikincilərin də versiyası səhvdir, milli mənsubiyyətə gəldikdə isə, birincilər haqlıdır, Alı doğrudan da türkdür.

Müraciət edə biləcəyimiz ilk sənəd təbii ki, Göyçə mahalının 1831-ci ildə İ.Şopenin rəhbərliyi ilə tərtib edilmiş Kameral təsviri ola bilərdi. Tədqiqatçıların və bu sətirlərin müəllifinin təəsüfünə səbəb olacaq məsələ ondan ibarətdir ki, həmin siyahıda Qızılvənk kəndinin adı yoxdur, yəni o vaxt Göyçə mahalında əhali yaşayan 59 kənd vardı, Qizılvənk kəndi isə Ağkilsə kəndi kimi hələ məskunlaşdırılmamışdı, orada heç kim yaşamırdı və təbii ki, Kameral siyahıya düşməmişdir. Ona görə də Aşıq Alının nəinki 4-cü babası, hətta atası Mirzə kişi də, Aşıq Alının özü də Qızıl-

vənkdə doğulmayıblar. Çox təəssüf edirəm, amma əlimdən bir şey gəlmir...

İndi yazıçı F.Kərimzadənin, özünü Aşıq Alının qohumu kimi təqdim edən Əli Əbülhəsənoğlunun, prof. M.Həkimovla prof.H.Mirzəyevin xatırlatdıqları Gilanlar kəndinə müraciət edək. 1831-ci ilin sənədlərində Gilanlar kəndini tapmaq mümkün oldu, amma o nə Vedibasar, nə də Şərur mahallarında deyil, onlarla qonşu olan Gərnibasar mahalının ərazisindədir:

**"GƏRNİBASAR MAHALININ KAMERAL TƏSVİRİ. 1831-Cİ İL. №49. GİLANLAR KƏNDİ**

**Milli tayfası**

1.Kəndxuda Həsən Hüseynalı oğlu 60 y(onun arvadı və üç qızı); iki oğlu var: Məhərrəm 20 y; Abbas 1 y.

2.Ələkbər Həsən oğlu 30 y(onun arvadı).

3.Yediyar Qədim oğlu 60 y(onun arvadı və iki oğlu); üç oğlu var: Məhərrəm 30 y(onun arvadı); Alı 20 y; Qədim 15 y.

4.Hüseynxan Nəbi oğlu 40 y(onun arvadı və iki qızı); iki oğlu var: Nəbi 10 y; Eliyas 3 y.

5.İsmayıl Mustafa oğlu 50 y(onun arvadı və qızı); üç oğlu var: Salman 12 y; Mustafa 4 y; Hüseynalı 2 y.

6.Usub İbrahim oğlu 40 y(onun arvadı və qızı); oğlu İbrahim 1 y.

7.Bünyamalı Əhməd oğlu 60 y(onun arvadı və qızı); üç oğlu var: Həsən 20 y; İmaməli 17 y; Bayram 10 y.

8.Məhəmməd İsmayıl oğlu 60 y(onun arvadı); üç oğlu var: Alı 10 y; Şahəli 6 y; Məcnun 2 y.

9.Hüseyn Mail oğlu 40 y(onun arvadı); dörd oğlu var: Ələsgər 13 y; Mail 8 y; İsmayıl 6 y; Süleyman 2 y.

10.Alı İsmayıl oğlu 80 y(onun arvadı).

11.İmamqulu Mustafa oğlu 50 y(onun arvadı və iki qızı); üç oğlu var: Nağı 10 y; Tağı 6 y; Mustafa 2 y.

12.Həsən Mail oğlu 40 y(onun arvadı və qızı); oğlu Abdulla 3 y.

13.Nəbi Ədna oğlu 40 y(onun arvadı); oğlu Tarverdi 2 y.

14.Musa Rəsul oğlu 15 y(onun anası və iki bacısı; biri kordur).

15.Allahverdi Ədna oğlu 15 y(onun anası və iki bacısı).

16.Qəhrəman Köçəri oğlu 70 y(onun arvadı); oğlu Abbasəli 12 y.

17.İsmayıl Bünyadəli oğlu 35 y(onun arvadı); qardaşı Sail 25 y(onun arvadı); oğlu Əhməd 1 y.

18.Həsənalı Şahhüseyn oğlu 30 y(onun ar**vadı**, qızı, bacısı); oğlu Məmmədhəsən 4 y; qardaşı Qurbanəli 20 y.

19.Namaz İbrahim oğlu 25 y(onun arvadı); oğlu Tağı 3 y; qardaşı Həsən 20 y(onun arvadı).

20.Əhmədalı Məhəmməd oğlu 40 y(onun arvadı); dörd oğlu var: Ədna 9 y; Allahverdi 6 y; Tarverdi 3 y; Məhəmməd 1 y.

**Qaraçorlular:**

21.Qurban Dinməhəmməd oğlu 40 y(onun arvadı və qızı); iki oğlu var: Həsən 8 y; Məhəmməd 5 y.

22.Məhəmməd Molla Əli oğlu 60 y(onun arvadı və qızı); iki oğlu var: Qasım 25 y; Müslüm 12 y.

23.Seyd İman Seyid Allahverdi oğlu 40 y(onun arvadı və üç qızı); iki oğlu var: Allahverdi 12 y; Abbas 5 y.

24.Seyid Şahmurad Seyid Allahverdi oğlu 50 y(onun arvadı və iki qızı).

25.Seyid Xudu Seyid Allahverdi oğlu 30 y(onun arvadı və qızı); oğlu Məhərrəm 5 y.

**Qarapapaqlar:**

**26.Haxverdi Allahverdi oğlu 60 y(onun iki qızı); iki oğlu var: Tarverdi 20 y; Allahverdi 12 y.**

**Biruki kürdləri:**

1.Musa Mustafa oğlu 70 y(onun arvadı və qızı); oğlu Mustafa 15 y; qardaşı oğlu Nəsir Bəşər oğlu 30 y(onun arvadı).

**Radikanlı tayfası:**

2.Abdulla Molla Məhəmməd oğlu 60 y(onun arvadı və qızı); üç oğlu var: Məhəmməd 20 y(onun arvadı); Həsən 10 y; Mahmud 3 y.

Gilanlar kəndində 28 ailədə 79 kişi, 64 qadın, cəmi 143 adam yaşayır"

**(Erm.Milli Arxivi, 90, siy.1. sax.vah.95)**.

Göründüyü kimi, Aşıq Alının ailəsi 1831-ci ildə Gilanlar kəndində yaşamırdı, ən azı ona görə ki, burada nə Mirzə adında adam, nə də "filankəs Mirzə oğlu" şəxs yoxdur və ona görə də **Aşıq Alının ailəsinin bu kənddə olmadığı göz qabağındadır.** Biz bir qədər əvvəl 1831-ci ildə Qızılvənk kəndinin də məskunlaşdırılmadığı haqqında yazmışdıq. Beləliklə, məlum olur ki, Aşıq Alının ailləsini başqa yerdə axtarmaq lazımdır. Amma harada?

Qeyd etmək lazımdır ki, **buradakı 26 nömrəli ailə Aşıq Ələsgərin ailəsinə oxşayır.** Burada Haxverdi Allahverdi oğlunun Tarverdi və Allahverdi adlı iki oğlu var, amma 1824–cü ildə doğulduğunu artıq müəyyən etdiyimiz Alməmmədin 1831-ci ildə 7 yaşı vardı və əgər burada onun adına da rast gəlsəydik, əminliklə deyə bilərdik ki, bu məhz həmin ailədir. Ailənin milli mənsubiyyəti də bu ehtimalı gücləndirir, üstəlik qonşu mahalların 1831-ci ilə aid bütün siyahılarını araşdırsam da, Aşıq Ələsgərin ailəsini tapa bilməmişdim. Ehtimallar öz yerində, burada Alməmmədin adının olmaması bu ehtimalın üzərində israr etməyimizə

mane olur. Ola bilsin ki, Alməmmədin adını yazmayıblar, amma ehtimal başqa, qəti hökm vermək başqa.

Maraqlananlar üçün deyim ki, Gilanlarla qonşu olan kəndlərin əhalisi üzərində aparılan araşdırmalardan da bir nəticə alınmadı və bizi maraqlandıran şəxslərə rast gəlinmədi. Buradakı qonşu Bayburt kəndində 19 milli ailəsinin siyahısı təsbit edildi, başqa kəndlərdə qarapapaqlara və qaraçorlulara da rast gəlindi.

1831-ci ildə Qızılvənk kimi boş olan Ağkilsə kəndində 1842-ci ildə artıq yaşayışın olması bizi məcbur edir ki, 1842-ci ilin kameral siyahısında Qızılvənki axtaraq.

## "İRƏVAN QƏZASI, GÖYÇƏ NAHİYƏSİNİN KAMERAL TƏSVİRİ.1842-Cİ İL

### Əvvəlki Kameral təsvirin tərtib edilməsindən sonra Göyçə nahiyəsində bərpa edilən və yeni yaranan kəndlər

### №3. QIZILVƏNK KƏNDİ

İslam dininin şiə məzhəbinə mənsubdurlar. Köçəri həyat tərzi keçirirlər.

**Bu kənd qarapapaqlar və milli tayfasına mənsub olan kürdlərlə məskunlaşdırılıb**. O, kifayət qədər hündür yerdə yerləşib və ona görə də əkinləri tez-tez vaxtından əvvəl baş verən şaxtalar nəticəsində məhv olduğuna görə, buranın sakinləri daha çox heyvandarlığa meyl edirlər. Onu da deyək ki, köçəri sakinlər kifayət qədər yaxşı maddi vəziyyətdədirlər.

**I.Qarapapaqlar:**

1.Məhəmməd Sadıx oğlu 90 y; oğlanları: 1)İsmayıl 30 y(onun oğlanları: Bayram 9 y; Novruz 7 y); 2)Əmin 25 y(onun oğlu Qurban 5 y).

Bu ailənin 10 xalvar əkin yeri, 2 xalvar buğda, 2 xalvar arpa əkini, 2 atı, 15 iribuynuzlu, 25 xırdabuynuzlu mal-qarası var.

2.Abbas Sadıx oğlu 70 y; onun oğlanları: 1)Qərib 20 y; 2)Nağı 15 y; 3)Mehdi 12 y.

Ailənin 12 xalvar əkin yeri, 4 xalvar buğda, 1 xalvar arpa əkini, 2 atı, 12 iribuynuzlu, 25 xırdabuynuzlu mal-heyvanı var.

3.Məhəmməd Məhəmməd oğlu 15 y; qardaşı Əhməd 5 y.

Ailənin əkin yeri və əkini yoxdur, 1 atı və 2 baş iribuynuzlu malı var.

4.Sadıx Məhəmməd oğlu 50 y; oğlanları: 1)Ələsgər 15 y; 2)Ələkbər 10 y.

Ailənin 10 xalvar əkin yeri, 1 xalvar buğda, 3 xalvar arpa əkini, 2 atı, 15 iribuynuzlu və 20 baş xırdabuynuzlu heyvanı var.

5. Məhərrəm Alı oğlu 40 y; oğlu Alı 8 y.

Ailənin 2,33 xalvar əkin yeri, 1 xalvar arpa əkini, 1 atı və 7 baş malı var.

6. Süleyman Hümbət oğlu 30 y; oğlu Zülfüqar 12 y.

Ailənin 2,5 xalvar əkin yeri, 1 xalvar arpa əkini, 10 iribuynuzlu, 15 xırdabuynuzlu mal-qarası var.

7. Məmo Gözəl oğlu 40 y; oğlu Hüseyn 7 y.

Ailənin 2,5 xalvar əkin yeri, 1 xalvar arpa əkini, 1 atı, 9 baş iribuynuzlu, 12 baş xırdabuynuzlu mal-qarası var.

**Qeyd: Palata jurnalına edilmiş 27 mart 1845-ci il tarixli dəyişikliklə bu ailə Qızılvənk kəndinin siyahısından çıxarılmışdır.**

8. Vəli Qulu oğlu 60 y; oğlu Həsən 30 y.

Ailənin əkin yeri yoxdur, 2 baş iribuynuzlu malı var.

**II.Milli tayfasına mənsub olan kürdlər:**

1.Həsən Məhəmməd oğlu 20 y; qardaşı Hüseyn 15 y;

Ailənin 12 xalvar əkin yeri, 4 xalvar buğda, 1 xalvar arpa əkini, 20 atı, 25 baş iribuynuzlu, 150 baş xırdabuynuzlu mal-arası var.

2.Hüseyn Ramazan oğlu 30 y; oğlu Həsən 10 y; qardaşı Şahhüseyn 25 y;

10 xalvar əkin yeri, 1 xalvar buğda, 3 xalvar arpa əkini, 1 atı, 10 baş iribuynuzlu, 20 baş xırdabuynuzlu mal-qarası var.

3.Ələkbər Mahmud oğlu 60 y; oğlu Məhəmməd 20 y;

7,5 xalvar əkin yeri, 2 xalvar buğda, 1 xalvar arpa əkini, 1 atı, 10 iribuynuzlu, 25 baş xırdabuynuzlu mal-qarası var.

4. Məhərrəm Mirzə oğlu 20 y; qardaşı İrza 4 y;

7,5 xalvar əkin yeri, 1 xalvar buğda, 2 xalvar arpa əkini, 2 atı. 10 baş iribuynuzlu, 25 baş xırdabuynuzlu mal-qarası var.

**5. Niftalı Şahəli oğlu 50 y; oğlanları: Şahəli 20 y; Mehdi 8 y.**

10 xalvar əkin yeri, 1 xalvar buğda, 3 xalvar arpa əkini, 2 atı, 18 baş iribuynuzlu, 25 baş xırdabuynuzlu mal-qarası var.

6.Namaz İbrahim oğlu 30 y; oğlanları: Nağı 7 y; Bağır 3 y;

10 xalvar əkin yeri, 3 xalvar buğda, 1 xalvar arpa əkini, 10 baş malı var.

7. Məhəmməd Şahgəldi oğlu(yaşı göstərilməyib); oğlanları: Mutdin(Muhiddin?) 25 y; Məhəmməd 15 y; Mehdi 10 y; İmirza 6 y;

12 xalvar əkin yeri, 4 xalvar buğda, 1 xalvar arpa əkini, 1 atı, 20 baş iribuynuzlu malı var.

8. Qasım Xələf oğlu 50 y; oğlanları: 1)Bəndalı 30 y(onun oğlu Bayraməli 5 y); 2)Bünyadəli 20 y; 3)Xələf 7 y.

10 xalvar əkin yeri, 2 xalvar buğda, 2 xalvar arpa əkini, 3 atı, 15 baş iribuynuzlu, 20 baş xırdabuynuzlu mal-qarası var.

9.Musa Rəsul oğlu 30 y.

Əkin yeri və mal-qarası yoxdur.

10. Alı Ayvaz oğlu 50 y; oğlanları: 1)Adıgözəl 30 y; 2) İsmayıl; 3)Ayvaz; (yaşlarını tapıb yazmalı)!

5 xalvar əkin yeri, 1 xalvar buğda, 1 xalvar arpa əkini, 1 atı, 15 baş iribuynuzlu, 25 baş xırdabuynuzlu mal-qarası var.

11.Elləz Mahmud oğlu 30 y; oğlu İmamqulu 4 y.

5 xalvar əkin yeri, 2 xalvar arpa əkini, 1 atı və 8 baş iribuynuzlu malı var.

12. Şahgəldi İmamqulu oğlu 20 y.

Əkin yeri yoxdur, 4 baş iribuynuzlu malı var.

**13. Nağdəli Nağdəli oğlu 30 y.**

5 xalvar əkin yeri. 1 xalvar buğda, 1 xalvar arpa əkini, 2 atı və 6 baş iribuynuzlu mal-qarası var.

**14. Abbas Niftalı oğlu 20 y;**

2,5 xalvar əkin yeri, 1 xalvar arpa əkini, 4 baş iribuynuzlu, 15 baş xırdabuynuzlu mal-qarası var.

15. Məmmədvəli Şahhüseyn oğlu 40 y.

5 xalvar əkin yeri, 1 xalvar buğda. 1 xalvar arpa əkini, 7 atı, 15 baş iribuynuzlu mal-qarası var.

16. Kərbəlayi İsmayıl Hüseyn oğlu 35 y; qardaşları: 1) Səfalı 30 y; 2)Şıxəli 20 y; 3)Allahverdi 15 y.

10 xalvar əkin yeri, 2 xalvar buğda, 2 xalvar arpa əkini, 1 atı və 10 baş iribuynuzlu mal-qarası var.

Qızılvənk kəndində 24 ailə və 63 kişi var.

Kənddə cəmi 151 xalvar əkin yeri, 30 xalvar buğda, 31 xalvar arpa əkini, 51 at, 262 baş iribuynuzlu və 402 baş xırdabuynuzlu mal-qara var.

**Qeyd(kənd sakinlərinin dilindən şahidlik): kəndimizi yoxlayarkən burada 24 ailə aşkar edildi və biz heç kimi gizlətmədik. Əgər burada adı yazılmayan kimsə aşkar edilsə, Rusiya dövlətinin qanunları qarşısında bu qanunları bilmədiyimizi bəhanə gətirmədən cavab verməyə hazırıq.**

İmzalar:

**Kəndxuda Məhəmməd Sadıq oğlu; Sadıq Məhəmməd oğlu; Məhərrəm Alı oğlu; Həsən Məhəmməd oğlu; Hüseyn Ramazan oğlu və başqaları.**

***Kollejski qeydiyyatçı Aleksandr Korallov".***

**(Erm.Milli Arxivi, F.93, siy.1, sax.vah.79).**

Siyahıda təbii ki, axtardığımız Aşıq Alının və ailəsinin rast gəlinməməsinə baxmayaraq, bu sənəd bizə başqa qiymətli məlumatlar verir. Onlardan birincisi odur ki, Aşıq Alının milli mənsubiyyət haqqındakı mübahisələri bir kənara qoyaraq qeyd etməliyik ki, 1842-ci il ərəfəsində, 1831-ci ildən sonra məskunlaşan yeni kəndlərin sırasında 3 nömrəsi ilə sıralanan Qızılvənk kəndində 1842-ci ildə həm qarapapaq türkləri, həm də milli kürdləri yaşayırdı və türklər 8, kürdlər isə 16 ailə idilər. Ona görə də bu kəndin etnik mənsubiyyətini bilmədiyimiz hansısa sakininin kürd olma ehtimalı türk olmasından 2 dəfə çoxdur. Amma biz burada yalnız ehtimaldan danışırıq və hər bir ehtimalın mütləq gerçəklik olması zəruri deyildir.

Siyahıdan çıxaracağımız ikinci nəticə odur ki, 1831-ci ildə Gilanlar kəndində də yaşamayan Alının ailəsi bəs harada idi? Burada Əli Əbülhəsənoğlunun mülahizələri müəyyən dərəcədə həqiqətə yaxın görünməyə başlayır. O yazmışdı ki, Alının 4 yaşı olanda qan düşmənçiliyi səbəbindən 12 milli ailəsi Gilanlar kəndini tərk edib Qızılvənkə gəlmişdir. Əgər Alı 1801-ci ildə anadan olubsa, deməli həmin köç 1805-cı ildə baş verib və onun üstündən keçən 36 ildə artıq bu ailə Qızılvənkin köklü sakinlərindən olmalı idi, 41-42 yaşında olan Alı Mirzə oğlu və vardısa, başqa qardaşlarının ailələri də burada görünməli idi. Amma yoxdur. Milli tayfasının siyahısındakı 4 nömrəli ailə-Məhərrəm Mirzə oğlu və onun 4 yaşlı İrza adlı qardaşı atası Mirzəyə görə zahiri oxşarlığa malik olsa da, Məhərrəm və İrza Alının qardaşları deyillər.

Bu siyahını 1831-ci ilin Gilanlar kəndinin siyahısı ilə tutuşdurmazdan qabaq oxucuları intizardan qurtarıb qeyd edim ki, Milli tayfasının siyahısındakı 5 nömrəli ailənin başçısı Niftalı Şahəli oğlu Aşıq Alının qayınatası, Bəstinin atası Niftalıdır və professor H.İsmayılovun yazdığı kimi Çamurlu kəndinin deyil, Qızılvənk kəndinin sakinidir.Ən azı ona görə

ki, Çamurlu kəndi nə 1831-ci, nə də 1842-ci illərdə hələ məskunlaşdırılmamışdı. Bir az irəli gedərək qeyd edim ki, Qızılvənk kəndindən 14 ailə 1860-cı illərin əvvəllərində Çamurlu kəndinə köçmüş və oranı məskunlaşdırmışlar. Amma Niftalı Şahəli oğlu onların arasında yox idi, çünki rəhmətə getmişdi. Milli tayfasının siyahısındakı 14 nömrəli ailənin başçısı, 20 yaşlı Abbas Niftalı oğlu da çox güman ki, Niftalının oğlu və Bəstinin qardaşıdır. 13 nömrəli ailənin başçısı Nağdəli Nağdəli oğlu isə Niftalının qardaşı oğludur.

Niftalı Şahəli oğlunun 1831-ci ildə Göyçə mahalının Yarpızlı kəndində yaşadığını təsbit etdim və aydın oldu ki, yeni məskunlaşdırılan Qızılvənk kəndinə oradan gəlib. 1831-ci ilin Kameral siyahısında da həmin kəndin əhalisi milli göstərilib:

**“GÖYÇƏ MAHALININ KAMERAL TƏSVİRİ.**
**1831-Cİ İL.**
**№33.YARPIZLI KƏNDİ**

**Milli tayfası**

**Kənd Zağalı və Qızılqışlaq kəndləri arasında, xüsusi bulağın ətrafında yerləşir. Qızılqışlaq kəndindən çəkilmiş kanal da var.**

**Kənddə biri işlək və dövlətə məxsus 3 yararsız dəyirman, 52 öküz, 79 inək, 100 buzov, 542 qoyun və keçi, 32 at var.**

**1.Kəndxuda Kərbəlayi Hüseynalı Şahəli oğlu 60 y (onun arvadı və iki qızı); iki oğlu var: Həsən 8 y; Hüseyn 1 y; qardaşı Niftalı 40 y (onun iki arvadı, üç qızı); iki oğlu var: Şahəli 12 y; İsgəndər 1 y; qardaşı oğlu Nağdəli Nağdəli oğlu 15 y.**

**2. Kərbəlayi Həsənalı Şahəli o. 50 y (onun arvadı və iki qızı); iki oğlu var: Məhəmməd 8 y; Əli 4 y”.**

Siyahıdan görünür ki, Niftalıgil 4 qardaş olmaqla kifayət qədər nüfuzlu şəxslər olublar. Onunla bir evdə yaşayan böyük qardaşı Kərbəlayi Hüseynalı kəndin kəndxudasıdır, Kərbəlayi Həsənalı adında başqa bir qardaşları var. Nağdəli adında başqa bir qardaşları isə ölüb və onun 15 yaşlı oğlu Nağdəli də əmisi Kərbəlayi Hüseynalının ailəsindədir. Atasının adını daşıdığına görə düşünə bilərik ki, o hələ ana bətnində olarkən atası ölüb və yeni doğulan uşağa onun adını qoyublar.

Aşıq Alı hələlik siyahımızda tapılmasa da, əgər onun 1801-ci ildə, yaxud İ.Ələsgərin yazdığı kimi 1800-cü ildə anadan olduğu ilə razılaşsaq, Alı az qalır ki, qayınatası ilə yaşıd olsun. Niftalının 1842-ci ildə 50, Alının isə İ.Ələsgərə inansaq 42 yaşı vardı. Artıq bu fakt Alının 1842-ci ildə 41-42 yaşında olmasını ciddi şəkildə şübhə altına alır.

Ola bilərmi ki, Aşıq Alının ailəsi qan düşmənçiliyi səbəbindən 1842-ci ildə Qızılvənk kəndində gizli, yəni qeyri-leqal yaşayırdılar? Əgər doğrudan da onlar 1805-cı ildə Qızılvənkə gəlmişdilərsə(halbuki Qızılvənk kəndi əlimizdəki sənədlərə görə 1831-1842-ci illər arasında məskunlaşdırılmışdır), belə, 36 il qeyri-leqal şəkildə yaşamaq qeyri-mümkündür.

Bəlkə Ə.Əbülhəsənoğlunun yazdığı kimi 4 milli ailəsinə doğrudan da Qızılvənkdə yer olmayıb və onun yazdığı kimi Kəlbəcər rayonunda deyil (o vaxt Kəlbəcər nə rayon, nə də nahiyə deyildi, Cavanşir nahiyəsinin tərkibindəki kəndlərdən biri idi), Cavanşir mahalında yeni saldıqları Milli kəndində idilər? Amma ilk kameral siyahının tərtib edildiyi 1831-ci ildən 1886-cı ilə qədər olan bütün kameral siyahıları gözdən keçirməyimiz nəticəsiz qaldı-nəinki Cavanşir nahiyəsində, bütün Yelizavetpol quberniyasında Milli adlı kənd aşkar edilmədi.

İndi 1831-ci ildə Gilanlar kəndində yaşayanlarla 1842-ci ildə Qızılvənkdə yaşayanları müqayisə edək. Bəlkə 1842-ci ildə Qızılvənkdə yaşayanlar 1806-cı ildə olmasa da, 1831-1842-ci illər arasında doğrudan da Gilanlardan gəliblər?

**1842-ci ildə Qızılvənk kəndində yaşayanlardan yalnız iki ailənin 1831-ci ildə Gilanlar kəndində yaşadığını görürük. Bunlar Qızılvənk kəndindəki 6 nömrəli ailə Namaz İbrahim oğlu (Gilanlarda 19 nömrəli ailədir) və 9 nömrəli ailə Musa Rəsul oğludur(Gilanlarda 14 nömrəli ailədir).**

Düzdür, bu iki ailə axtardığımız adamlardan olmasa da, hər halda bizə qiymətli informasiya verir: məlum olur ki, Gilanlar kəndindən Qızılvənkə doğrudan da gedənlər olub. Qızılvənk kəndinin siyahısında bu adamların milli mənsubiyyəti göstərilsə də, təəssüf ki, onların haradan gəldiyi yazılmır. Əgər yazılsaydı belə, bu məlumata o qədər də etibar etmək olmazdı, necə ki, ağkilsəlilər dövlət qeydiyyatçısı Korallovu aldadaraq Başkənddən gəldiklərini söyləmişdilər.

Qızılvənk kəndində 1842-ci ildə yaşayan 16 milli ailəsinin qalan 14-nü nə qədər çətin olsa da, 1831-ci ilin Göyçə mahalının siyahısındakı milli tayfasına aid insanlar arasında, eləcə də qonşu mahallarda yaşayan milli kürdləri arasında axtarmalıyıq. Millilərin böyük bir qismi isə artıq Göyçə mahalında 1831-ci ildə siyahıya alınmışdılar. 1831-ci ildə Göyçədə yaşayan 999 müsəlman ailəsindən 227 ailə ilə milli tayfası sayca ikinci yerdə idi, ən çoxsaylı etnik qrup isə qarapapaq türkləri idi. Onlar 577 ailə idilər.

**Göyçə mahalında milli tayfası bu kəndlərdə yaşayırdı:**

Qarasaqqal Qışlağı 2 ailə, Yarpızlı 19 ailə, Qırxbulaq 39 ailə, Qanlı Allahverdi 16 ailə, Basarkeçər 30 ailə, Qoşabulaq 16 ailə, Aşağı Keyti 29 ailə, Ellicə 37 ailə, Böyük

Məzrə 9 ailə, Şişqaya 15 ailə, cəmi 227 ailə(Şişqaya kəndində 15 milli ailəsindən başqa 28 ayrımlı ailəsi, 6 qarapapq ailəsi və 2 dəmirçili ailəsi də yaşayırdı).

Qızılvənk kəndində 1842-ci ildə siyahıya alınan ailələrdən 4 nömrə ilə qeyd olunan Məhərrəm Mirzə oğlu 1831-ci ildə Basarkeçər kəndində 28 nömrə ilə, 8 nömrə ilə qeyd edilən Qasım Xələf oğlu 1831-ci ildə Qoşabulaq kəndində 13 nömrə ilə, 10 nömrə ilə siyahıya alınan Alı Ayvaz oğlu 1831-ci ilin Kameral siyahısında Yarpızlı kəndində 11 nömrəli ailə kimi, 11 nömrə ilə Qızılvənkdə siyahıya alınan Elləz Mahmud oğlu isə 1831-ci ildə Yarpızlı kəndində 14 nömrəli ailə kimi siyahıya düşmüşdür.

1842-ci ildə Qızılvənk kəndində yaşayan qarapapaq türklərindən 6 nömrəli ailə kimi qeydə alınan Süleyman Hümbət oğlunun 1831-ci ildə Göyçə mahalının Kəsəmən kəndində 16 nömrəli ailə kimi siyahıya alındığını da aşkar etdim.

Beləliklə, 1842-ci ildə Qızılvənkdə yaşayan 16 milli aləsindən 7-nin haradan gəldiyini müəyyənləşdirdik. Əsas tədqiqat obyektimiz Aşıq Alı olduğuna görə, onu axtarmaqda davam edək və 1842-ci ildən sonra tərtib edilən növbəti, yəni 1852-ci ilin kameral siyahısına baxaq:

**“NOVOBƏYAZİD QƏZASININ KAMERAL TƏSVİRİ.1852-Cİ İL**
**№35.QIZILVƏNK KƏNDİ**

**Xəzinə torpaqlarında yaşayan dövlət kəndliləri.**

1.1.İsmayıl Məhəmməd oğlu 40 y; oğlanları: Bayram 19 y; Novruz 17 y; qardaşı Əmin(adı həm də Ellazdır) 35 y; onun oğlu Qurban 5 y (ailədə 3 qadın var).

2.2. Qərib Abbas oğlu 30 y; oğlanları: Rəhim 9 y; İbrahim 5 y; qardaşları: Nağı 25 y; Mehdi 29 y; Rüstəm 30 y(əvvəlki siyahıda yaddan çıxıb); ailədə 4 qadın var.

3.4.Sadıq Məhəmməd oğlu 60 y; oğlu Ələsgər 25 y. Ailədə 3 qadın var.

4.5.Məhərrəm Alı oğlu 50 y; oğlanları: Alı 18 y; Hüseyn 7 y; İki qadın var.

5.6.Süleyman Hümbət oğlu 50 y; oğlanları: Zülfüqar 22 y; Ramazan 9 y; Hümbət 7 y; 3 qadın var.

6.9.Həsən Məhəmməd oğlu 30 y; oğlu Paşa 7 y; qardaşı Hüseyn 25 y; onun oğlu Şahhüseyn 35 y. İki qadın var.

7.10.Hüseyn Ramazan oğlu 40 y; oğlu Həsən 20 y; 1 qadın var.

8.10.Mahmud Ələkbər oğlu 30 y; oğlanları: Məhəmməd 7 y; Ələkbər 3 y. Dörd qadın var.

9.12.Məhərrəm Mirzə oğlu 30 y; oğlu Cəfər 4 y; qardaşı İrza 14 y; İki qadın var.

**10.13.Niftalı Şahəli oğlu 60 y; oğlanları: 1)Şahəli 30 y(onun oğlu Allahverdi 4 y); 2)Mehdi 18 y; Nağdəli 9 y;** üç qadın var.

11.14.Namaz İbrahim oğlu 40 y; oğlanları: Nağı 17 y; Bəbir 13 y; Tağı 9 y; Üç qadın var.

12.15.Məcid Əhməd oğlu 35 y; qardaşları: Məhəmməd 25 y; Mehdi 20 y; Mirzə 16 y; İki qadın var.

13.16.Qasım Xaləf oğlu 60 y; oğlanları: 1)Bəndalı 40 y(onun oğlu Bayraməli 15 y); 2)Bünyadəli 30 y(onun oğlanları: Nəsrulla 8 y; Məmmədhənifə 7 y); 3)Hənəf 17 y; 4) Allahverən 20 y; Altı qadın var.

**Qeyd: Qasım və Nəsrulla yeni siyahıyaalmadan qabaq ölüblər.**

14.18.Alı Ayvaz oğlu 60 y; oğlanları: 1)Adıgözəl 40 y(onun oğlu: Məhəmməd 7 y); 2)İsmayıl 30 y; Üç qadın var.

**Qeyd: Alı yeni siyahıyaalmadan qabaq ölüb.**

15.19.Elləz İmamqulu oğlu 40 y; oğlanları: İmamqulu 14 y; İsmayıl 9 y; Tarverdi 7 y; İki qadın var.

16.20.Şahgəldi İmamqulu oğlu 30 y; oğlu Məmmədalı 3 y; üç qadın var.

**17.22. Abbas Niftalı oğlu 30 y; İki qadın var.**

18.23. Məmmədvəli Şahhüseyn oğlu 50 y; oğlanları: İsmayıl 8 y; İbrahim 6 y; İki qadın var.

19.24.Kərbəlayi İsmayıl Hüseyn oğlu 45 y; oğlu İsgəndər 7 y; qardaşları: Seyfəli 40 y; Şahəli 30 y; Allahverdi 25 y; Üç qadın var.

**Xüsusi siyahı üzrə yazılanlar:**

20.1. Əsgər Vəli oğlu 50 y; oğlu Cəfər 14 y; Dörd qadın var.

21.2.Kərbəlayi İsmayıl Məhəmməd oğlu 50 y; oğlanları: Məhəmməd 20 y; Həsən 18 y; İki qadın var.

**Qeyd: bu ailə 1856-cı ildə Qazax nahiyəsinə** köçüb**.**

22.3. Hüseyn Vəli oğlu 25 y; qardaşları: Musa(adı hən də Şıxıdır) 18 y; Abbas 2 y; İki qadın var.

23.4. Məhərrəm Vəli oğlu 22 y; İki qadın var.

24.5. Qurban Alı oğlu 28 y; qardaşı Oruc 14 y; Üç qadın var.

25.7. Hüseyn Məhəmməd oğlu 40 y; oğlanları: İsmayıləli 27 y; Dünyamalı 23 y; İki qadın var.

**Qeyd: Hüseyn öz ailəsi ilə 1856-cı ildə Şuşa qəzasına köçüb.**

**Yetimlər haqqındakı xüsusi siyahı üzrə yazılanlar:**

26.1. Məhəmməd Davud oğlu 25 y; İki qadın var.

27.--Məhəmməd Mustafa oğlu 60 y; oğlanları: Həsən 35 y; Hüseyn 30 y; Abbasəli 25 y; Üç qadın var.

Qeyd: 1844-cü ildə Zəngibasar mahalının Göl kəndindən buraya köçüblər.

28.--Həzrətqulu Orduxan oğlu 70 y; oğlanları: 1)Kərim 40 y(onun oğlu Məhəmməd 10 y); 2)Orduxan 30 y; İsmayıl 25 y; Dörd qadın var.

**Qeyd:** Kərim yeni siyahıyaalmadan qabaq ölüb. Bu ailə 1841-ci ildə Şuşa qəzasından buraya köçüb, hansı kənddən gəldikləri bilinmir. Məhəmməd 1856-cı ildə Zəngibasar nahiyəsinə köçüb. Orduxan yeni siyahıyaalmadan qabaq ölüb.

Qızılvənk kəndində 28 tüstü, 96 kişi, 77 qadın, cəmi 173 adam var.

**Qeydlər:**

1.1842-ci ilin Kameral təsvirindəki 7, 16 və 20 nömrəli ailələr qırılıb. 6 nömrəli ailə Ellicə-Qaraqoyunlu kəndinə köçüb. Tarxanovun tərtib etdiyi xüsusi siyahıdakı 6 nömrəli ailə isə yoxdur və sakinlər bildirdilər ki, onların kəndlərində bu cür ailə heç vaxt yaşamayıb.

2.Bu kəndin sakinləri buğda və arpa əkirlər, lakin buğda əkini daha çoxdur və onun yarısı Qızılvənk çayından çəkilmiş arxın suyu ilə suvarılır, qalan yarısı isə təpəlik yerlərdə olduğu üçün suvarılmır.

3.Sakinlərin dolanışığı yaxşıdır. Onlar buğda və arpa satışından 100 rubldan 200 gümüş rubla qədər qazanc götürürlər.

4.Kənddə bir məscid var, zavod və fabrik yoxdur.

***Yoxlamanı quberniya katibi R.Ryazanov həyata keçirdi”***

**(Erm. Milli Arxivi,F.267,siy.1, sax.vah.7).**

Bu siyahının əvvəlkindən struktur fərqi var, yəni qarapapaqlar və millilər ayrı-ayrı siyahılar üzrə deyil, ümumi siyahı ilə yazılıblar. İkinci fərq odur ki, artıq milli mənsubiyyət o vaxt türklərə deyilən “tatar” şəklində yazılıb. **Və hər hansı adamın milli mənsubiyyətini bilmək üçün yalnız 1831-ci və 1842-ci illərin kameral siyahılarına baxmaq lazımdır.**

Daha bir fərq odur ki,ailənin əmlakı yazılmayıb, amma əvəzində başqa bir qiymətli informasiya var: ailədəki qadınların sayı göstərilib. Bu siyahıdakı 10.13 nömrəli ailə Niftalı Şahəli oğlunun ailəsidir. Ailədə 3 qadın var, çox

güman ki, bu qadınlardan biri Niftalının arvadı, biri gəlini, üçüncüsü isə Alının gələcək həyat yoldaşı Bəstidir.

1831-ci və 1842-ci illərin kameral təsvirlərindən fərqli olaraq 1852-ci ildən başlayaraq ailələr 2 rəqəmlə sıralanıb. Bu rəqəmlərdən birincisi, Niftali üçün desək, 10 rəqəmi onun hazırkı siyahıdakı nömrəsi, digəri, 13 rəqəmi isə əvvəlki siyahıdakı sıra nömrəsidir. Amma görəcəksiniz ki, Niftalının əvvəlki siyahıdakı nömrəsi 13 yox, 5-dir. Məsələ burasındadır ki, əvvəlki siyahıdakı qarapapaqlarla millilərin siyahısını bir-birindən ayırmadan, xəyalən birləşdiribլər, yəni qarapapaqların sonuncu, 8-ci ailəsindən sonra millilərin siyahısındakı 1-ci adam 9-ci, Niftalı isə 13-cü olub.

Siyahıda ən çox təəssüf doğuran cəhət isə odur ki, Aşıq Alının ailəsi və özü burada da yoxdur.

17.22. nömrəsi ilə siyahıya düşən Abbas Niftalı oğlunu da Niftalı Şahəli oğlunun oğlu saysaq, onun dörd oğlu var. Bu isə var-dövlət, arxa, fiziki güc deməkdir və Niftalı kişinin doğrudan da sayılıb-seçilən şəxs olduğunu hesab etməyə tamamilə haqqımız vardır. Əvvəlki siyahıda da onun Qızılvənk kəndinin ən varlı-karlı ailələrdən biri olduğu əmlak varlığından görünürdü.

Aşıq Alının ailəsini axtarmaqda davam edərək Qızılvənk kəndinin növbəti, 1859-cu ildə tərtib edilmiş Kameral siyahısına baxaq:

**“NOVOBƏYAZİD QƏZASININ KAMERAL TƏSVİRİ**

**1859-cu ildə tərtib edilmişdir.**

**“№97.QIZILVƏNK KƏNDİ**

**Xəzinə torpaqlarında yaşayan dövlət kəndliləri.**

**Müsəlman tatarlar.**

1.2.Rüstəm Abbas oğlu 40 y; oğlanları: 1)Məhəmməd 10 y; 2)Əhməd 5 y; 3)Abbas 3 y(üç qadın).

2.2. Nağı Abbas oğlu 40 y; oğlu Abdulla 5 y; qardaşı Mehdi 28 y; onun oğlanları: 1)Yusif 12 y; 2)Nəsib 6 y; 3) Məsim 3 y(7qadın).

**3.17.Abbas Niftalı oğlu 30 y; oğlu Niftalı 1 y(3 qadın).**

4.13.Bəndalı Qasım oğlu 50 y; oğlanları: 1)Bayraməli 20 y; 2)Məhəmməd 6 y; 3)Qasım 4 y; 4)Məsim 3 y; qardaşı Bünyad 40 y; oğlanları: 1)Məmmədhənifə 10 y; 2)İsmayıl 7 y(6 qadın).

**Qeyd: bu ailə 1863-cü ildən yeni yaranan Çamurlu kəndinə aid edilmişdir.**

5.23. Məhərrəm Vəli oğlu 30 y; oğlu Cəfər 1 y(üç qadın).

6.22.Hüseyn Vəli oğlu 40 y; oğlu Hüseyn 4 y; qardaşları: Şıxı 20 y; Abbas 9 y(1 qadın).

**7. – Mirzə Ovçu oğlu 50 y; oğlanları: 1)Almədət 25 y(onun oğlu Abdulla 1 y); 2)Abbas 15 y (4 qadın).**

**Qeyd: bu ailə əvvəlki siyahıyaalmada yaddan çıxıb.**

8.12. Məjlum Əhməd oğlu 40 y; qardaşları: 1)Mehdi 25 y(onun oğlu İrza 2 y); 2)Mirzə 20 y(5 qadın).

9.19. Kərbəlayi İsmayıl Hüseyn oğlu 50 y; oğlanları: 1) İsgəndər 16 y; Nəcəfalı 2 y. (3 qadın).

10.27. Məhəmməd Mustafa oğlu 90 y; oğlu Hüseyn 40 y(onun oğlanları: 1)Ələsgər 10 y(əvvəlki siyahıda yaddan çıxıb); 2)İbrahim 6 y(üç qadın).

**Qeyd: bu ailə 1863-cü ildən yeni yaranan Çamurlu kəndinə aid edilmişdir.**

11.27. Həsən Məhəmməd oğlu 45 y: oğlanları: Ələkbər 12 y(əvvəlki siyahıda yaddan çıxıb); 2)Vəli 6 y; qardaşı Abbasəli 30 y(onun oğlu Alı 2 y); (4 qadın).

**Qeyd: bu ailə 1863-cü ildən yeni yaranan Çamurlu kəndinə aid edilmişdir.**

12.—Məhəmməd Sadıq oğlu 101 y(əvvəlki siyahıda yaddan çıxıb); oğlanları: 1)Elləz 45 y(onun oğlanları: 1) Qurban 20 y; 2)Nağı 15 y; 3)Məhərrəm 8 y); 2)Ramazan 30 y(əvvəlki siyahıda yaddan çıxıb); (6 qadın).

13.19.Şahəli Hüseyn oğlu 45 y; oğlanları: 1)Bayram 11 y(əvvəlki siyahıda yaddan çıxıb); 2)Mirzə 7 y; qardaşı Seyfəli 40 y(üç qadın).

14.14.Adıgözəl Alı oğlu 50 y; oğlanları: 1)Məhəmməd 20 y; 2)Hümbət 15 y(əvvəlki siyahıda yaddan çıxıb); 3) Cəfərqulu 8 y(əvvəlki siyahıda yaddan çıxıb); 4)İrza 4 y(iki qadın).

**Qeyd: bu ailə 1863-cü ildən yeni yaranan Çamurlu kəndinə aid edilmişdir.**

15.1.Məşədi İsmayıl Məhəmməd oğlu 50 y; oğlanları: 1)Bayram 30 y; 2)Namaz 28 y(əvvəlki siyahıda yaddan çıxıb); (üç qadın).

16.3.Məşədi Sadıq Məhəmməd oğlu 50 y; oğlanları: 1) Əsgər 30 y; 2)Həsən 20 y(əvvəlki siyahıda yaddan çıxıb); (dörd qadın).

17.—Hümbət Bayram oğlu 30 y; oğlu Bayram 1 y(dörd qadın).

18.7.Hüseyn Ramazan oğlu 60 y; oğlanları: 1)Həsən 20 y; 2)Məhəmməd 10 y(əvvəlki siyahıda yaddan çıxıb). (üç qadın).

**Qeyd: bu ailə 1863-cü ildən yeni yaranan Çamurlu kəndinə aid edilmişdir.**

19.20.Əsgər Vəli oğlu 80 y; oğlu Cəfər 15 y(4 qadın).

20.14.İsmayıl Alı oğlu 40 y; oğlanları: 1)Əhməd 12 y(əvvəlki siyahıda yaddan çıxıb); 2)Xudamədət 8 y(əvvəlki siyahıda yaddan çıxıb); (3 qadın).

**Qeyd: bu ailə 1864-cü ildən yeni yaranan Çamurlu kəndinə aid edilmişdir.**

21.16.Şahgəldi Məmmədalı oğlu 50 y; oğlanları: 1) Məmmədalı 10 y; 2)Əmrah 5 y(iki qadın).

22.9. Məhərrəm Mirzə oğlu 50 y; oğlanları: 1)Cəfər 12 y; 2)İbrahim 3 y; qardaşları: 1)İrza 30 y; onun oğlanları: 1) Rəcəb 8 y(əvvəlki siyahıda yaddan çıxıb); 2)Nəcəf 6 y); 2) Şahirza 26 y(əvvəlki siyahıda yaddan çıxıb); oğlanları: 1) Mirzə 5 y; 2)Həsən 3 y); 3)Mustafa 15 y(əvvəlki siyahıda yaddan çıxıb). (4 qadın).

23.15.Elləz İmamqulu oğlu 60 y; oğlanları: 1)İmamqulu 20 y(onun oğlu Mədət 5 y); 2)İsmayıl 20 y; 3)Tarverdi 10 y(4 qadın).

24.11. Namaz İbrahim oğlu 80 y; oğlanları: 1)Bəbir 20 y; 2)Bayram 10 y(əvvəlki siyahıda yaddan çıxıb); (2 qadın).

25.5.Zülfüqar Süleyman oğlu 30 y; oğlanları: 1)Kazım 4 y; 2)Mustafa 3 y; qardaşları: 1)Ramazan 20 y; 2)Hümbət 15 y; 3)Məhəmməd 12 y(əvvəlki siyahıda yaddan çıxıb); Rüstəm 8 y(əvvəlki siyahıda yaddan çıxıb); (5 qadın).

26.26.Məhəmməd Davud oğlu 40 y; oğlanları: 1)Hümbət 8 y; 2)Cəfər 5 y; qardaşı Əhməd 25 y(əvvəlki siyahıda yaddan çıxıb). (3 qadın).

27.24.Qurban Alı oğlu 45 y; oğlanları: 1)Alı 8 y (əvvəlki siyahıda yaddan çıxıb); 2)Məhəmməd 3 y; qardaşı Oruc 40 y(1 qadın).

28.4.Məhərrəm Kərbəlayi Əlirza oğlu 55 y; oğlanları: 1)Alı 30 y(onun oğlu Abdulla 2 y); 2)Hüseyn 10 y; 3) Həsən (əvvəlki siyahıda yaddan çıxıb). (5 qadın).

29.18.Məmmədalı Şahhüseyn oğlu 50 y; oğlanları: 1) İsmayıl 16 y; 2)İbrahim 12 y; (5 qadın).

**Qeyd: bu ailə 1863-cü ildən yeni yaranan Çamurlu kəndinə aid edilmişdir.**

30.28. Həzrətqulu Orduxan oğlu 65 y; oğlanları: 1)İsmayıl 22 y(onun oğulluğu Məhəmməd 4 y); Oruc 8 y (əvvəlki siyahıda yaddan çıxıb). (3 qadın).

**Qeyd: bu ailə 1863-cü ildən yeni yaranan Çamurlu kəndinə aid edilmişdir.**

31.8.Mahmud Ələkbər oğlu 60 y; oğlanları: 1)Məhəmməd 20 y; 2)Ələkbər 12 y; 3)Mədət 10 y(əvvəlki siyahıyaalmada yaddan çıxıb); 4)Abbas 8 y(əvvəlki siyahıyaalmada yaddan çıxıb); 5)Rəcəb 4 y; (3 qadın).

**32.10.Kərbəlayi Şahəli Niftalı oğlu 40 y;oğlanları: 1) Allahverdi 11 y; 2)Xudaverdi 8 y(əvvəlki siyahıda yazılmayıb); 3)Abbas 1 y; (3 qadın).**

**Qeyd: bu ailə 1863-cü ildən yeni yaranan Çamurlu kəndinə aid edilmişdir.**

33.10. Kərbəlayi Nağdəli Nağı oğlu 50 y; oğlanları: 1) Şıxməmməd 12 y(əvvəlki siyahıda yaddan çıxıb)4 2)Hüseyn 10 y(əvvvəlki siyahıda yaddan çıxıb). (3 qadın).

**Qeyd: bu ailə 1863-cü ildən yeni yaranan Çamurlu kəndinə aid edilmişdir.**

34.—Ocaqqulu Bünyadəli oğlu 50 y(əvvəlki siyahıda yaddan çıxıb); oğlanları: 1)Rüstəm 10 y(əvvəlki siyahıda yaddan çıxıb); 2)Qafar 5 y(1 qadın).

35.—Cabbar Cabbar oğlu 50 y; oğlanları: 1)Allahverən 25 y; 2)Həşim 22 y; 3)Salman 15 y; 4)Nağı 12 y(1 qadın). (Bu ailə əvvəlki siyahıda yaddan çıxıb).

36.2. Qərib Abbas oğlu 35 y; oğlanları: 1)Rəhim 12 y; 2)İbrahim 10 y; 3)Xəlil 5 y; 4 Bayram 3 y. (3 qadın).

37.13. Allahverən Qasım oğlu 35 y; oğlu Həsən 5 y; qardaşları: 1)Xələf 30 y(onun oğlu Cəfər 4 y); 2)Zeynalabdin 20 y(əvvəlki siyahıda yaddan çıxıb); (10 qadın).

**Qeyd: bu ailə 1863-cü ildən yeni yaranan Çamurlu kəndinə aid edilmişdir.**

**38.—Nəbi Avçı oğlu 40 y; oğlanları: 1)Oruc 15 y; 2) Qərib 9 y; 3)İsmayıl 1 y(2 qadın). (Bu ailə əvvəlki siyahıda yaddan çıxıb).**

39.12. Məhəmməd Əhməd oğlu 30 y; oğlanları: 1)Pənah 6 y; 2)Hüseynqulu 4 y(2 qadın).

40.19. Allahverdi Hüseyn oğlu 35 y; oğlu Tarverdi 6 y(1 qadın).

41.1.Novruz Məşədi İsmayıl oğlu 26 y; oğlu Musa 5 y(1 qadın).

42.—Mazan Şahbaz oğlu 40 y(əvvəlki siyahıda yaddan çıxıb); oğlanları: 1)Allahverdi 7 y; Xudaverdi 3 y(1 qadın).

43.—Allahverdi Məhəmməd oğlu 25 y(əvvəlki siyahıda yaddan çıxıb); oğlanları: Tanrıverdi 7 y; Haxverdi 4 y; qardaşı İmamverdi 18 y(əvvəlki siyahıda yaddan çıxıb);(2 qadın).

**Qeyd: bu ailə 1863-cü ildən yeni yaranan Çamurlu kəndinə aid edilmişdir.**

44.—Şahhüseyn Şahhüseyn oğlu 23 y; oğlu Həsən 2 y(1 qadın). (Buraya həmin qəzanın Güllücə kəndindən köçüb).

**Qeyd: bu ailə 1864-cü ildən yeni yaranan Çamurlu kəndinə aid edilmişdir.**

45.—Yetim Qasım Hüseyn oğlu 12 y(əvvəlki siyahıda yaddan çıxıb); qardaşı Məsim 8 y.

46.—Bünyadəli İman oğlu 40 y; oğlanları: 1)Paşa 9 y; 2)Məmmədbağır 6 y(3 qadın).

***Qeyd: bu ailə 1859-cu ildə Zəngibasar qəzasının Göl kəndindən buraya gəlib.***

47.—Həsən Vəli oğlu 40 y(əvvəlki siyahıda yaddan çıxıb); oğlanları: Alı 10 y(əvvəlki siyahıda yaddan çıxıb); Məhəmməd 7 y.(2 qadın).

48.—Kərim İbrahim oğlu 22 y(əvvəlki siyahıda yaddan çıxıb); qardaşları: Qəmbər 18 y; Qurban 10 y(2 qadın).

**Qeyd: bu ailə 1863-cü ildən yeni yaranan Çamurlu kəndinə aid edilmişdir.**

Qızılvənk kəndində yaşayan 48 ailədə 188 kişi, 152 qadın, cəmi 440 adam var.

**Yoxlamanı həyata keçirdi və kameral təsviri tərtib etdi Aleksandropol qəza rəisi, kollejski assasör Pvarlivski.**

Bu siyahı tərtib edildikdən sonra həqiqi vəziyyətlə tutuşdurulandan sonra 1875-ci ildə bu ailə əlavə edildi:

49.—Molla Bağır Molla Həsən oğlu 45 y; oğlanları: 1) Məhəmməd 20 y; 2)Əhməd 3 y".

**(Erm.Milli Arxivi, F.267, siyahı 1, sax.vah.15).**

Bu siyahı bizə xeyli maraqlı məlumatlar verir. Onlardan birincisi, 4, 10, 11, 14, 18, 20, 29, 30, 32, 33,37,43,44 və 48 nömrəli ailələrin, cəmi 14 ailənin buradan yeni yaranan Çamurlu kəndinə köçməsidir. Sənəddəki qeyddə həmin ailələrin 1863-cü və 1864-cü illərdə oraya köçməsi deyil, Çamurlu kəndinə aid edilməsi yazılır, bu isə o deməkdir ki, həmin adamlar 1863-cü ildən qabaq, amma 1859-cu ildən sonra köçüblər. Bu kəndə ilk sakinin nə zaman köçdüyünü bilməsək də, bu hadisənin 1859-1863-cü illər arasında baş verdiyini deyə bilərik.

İkinci məlumat odur ki, Niftalı Şahəli oğlunun adı 1859-cu ilin Kameral siyahısında yoxdur, yəni 1852-ci ildən keçən 7 ilin hansındasa 67 yaşına çatmadan rəhmətə gedib və ömrünün sonuna qədər qızılvənkli olaraq qalıb. 3 nömrəli ailə kimi qeyd edilən oğlu Abbas Niftalı oğlu da 1859-cu ildə Qızılvənkdə yaşamaqda davam edir. 32.10 nömrəsi ilə sıralanan başqa bir oğlu, Kərbəlayi Şahəli Niftalı oğlu isə üç oğlu-Allahverdi, Xudaverdi və Abbasla Çamurlu kəndində yaşamağa üstünlük verib.

Nəhayət Alının ailəsini tapdıq – bu, siyahıdakı 7 nömrəli ailədir, buraya edilən qeyddə bu ailənin əvvəlki siyahıyaalmada yaddan çıxıb yazılmadığı göstərilir, bu o deməkdir ki, Alının ailəsi ən azı 1852-ci ildə də Qızılvənkdə yaşayırdı (xatırlayaq ki, onun gələcək şəyirdi, dahi Ələsgər həmin il dünyaya göz açmışdı).

1852-ci ildə yaddan çıxıb yazılmayan 7 nömrəli ailənin başçısı Mirzə Ovçu oğludur, onun 25 yaşlı Almədət və 15 yaşlı Abbas adında iki oğlu, Almədətin Abdulla adında 1 yaşında oğlu var. Ailədəki 4 qadından biri yəqin ki, Mirzənin arvadı, biri Bəsti, digər ikisi isə onların hansınınsa qızlarıdır, bəlkə də hərəsinin bir qızı olub.

**Təbii ki, Almədət adı oxucularda tərəddüd yarada bilər, bu ad haradan çıxdı belə, indiyə kimi biz məşhur aşığımızı Alı kimi tanımışıq. Amma buradakı şəxsin həm atasının, həm də oğlunun adı aşığın tədqiqatçısı Q.Zimistanoğlunun bizə təqdim etdiyi adlarla üst-üstə düşür. Başqa tərəfdən, bu şəxsin Alı olduğunu inkar etmək Alının ümumiyyətlə qızılvənkili olmadığını etiraf etməyə bərabər bir şeydir. Axı, sənədlərdən də göründüyü kimi başqa seçim də yoxdur.**

Bəs Mirzənin atası? O da Aşığın Dəliməmmədlidə yaşayan törəməsi Ə.Vliyevin notarial qaydada təsdiq etdiyi Haxverdi adıyla düz gəlmir. Bəs bu necə olsun? Bu barədə baş sındırmağa dəyməz, axı Alməmməd kişinin nəvəsi, 1979-cu ilə qədər yaşayan Aşıq Talıb da babası Alməmmədin atasının adını düz bilmirdi və indiyə qədərki rəsmi tərcümeyi-hallarda Haxverdinin əvəzinə, qardaşı Allahverdini Alməmmədin atası kimi tanıyırdılar.

Beləliklə, aydın oldu ki, Aşıq Alının da yaşı məşhur şəyirdi Ələsgər kimi şişirdilib. Bildiyimiz kimi, Ələsgərin yaşı 31 il artırılmışdı, Alınınkı isə ondan da çox-33 il(İ.Ələsgərovun variantında 34 il) artırılıb. Əgər Böyük Ustad Alı doğrudan da 1911-ci ildə dünyadan köçübsə, indiyə qədər deyildiyi kimi 110 il deyil, 77 il yaşayıb(1834-1911) və tibbin həmin dövrdəki vəziyyətinə, Aşığın həyatının son illərində səhhətində yaranmış problemlə müqayisədə xeyli böyük rəqəmdir.

1859-cu ildə 25 yaşında olan Alının 1 yaşında Abdulla adında oğlunun olduğunu nəzərə alsaq, güman edə bilərik

ki, Alı 1857-ci ildə evlənib. Alı ilə Bəsti evlənən vaxt Bəstinin atası Niftalının hələ həyatda olduğunu düşünməliyik. Beləliklə, Niftalının 1857-1859-cu illər arasında öldüyünü söyləyə bilərik.

Buradan həm də öyrənirik ki, 19-20 yaşı olan Ələsgəri təxminən 1871-1872-ci illərdə şəyirdliyə götürəndə Alının 38 yaşı, deyişmə vatı isə 42 yaşı vardı. Bu yaş da təbii ki, Alının ən enerjili, odlu-alovlu yaş dövrü idi. Onların qarşı-qarşıya gəldiyi deyişməni göründüyü kimi **"nəhənglər döyüşü"** adlandıra bilərik. **Aşıq Ələsgər 75 yaşında olan qoca bir aşı**ğı deyil, 40 yaşlarında olan Nəhəngi məğlub etmişdi!

İndi unudulmaz yazıçımız Fərman Kərimzadənin irəli sürdüyü, özünü Aşıq Alının qohumu kimi təqdim edən Əli Əbülhəsənoğlunun (Əmirovun) müdafiə etdiyi versiyaya, Alının 4 yaşında ikən Gilanlar kəndini tərk etməsi haqqındakı versiyaya baxaq. Bizim təqdim etdiyimiz sənəddən göründüyü kimi, onun atası Mirzə Ovçu oğlu 1809-cu ildə anadan olub(Halbuki, Alını atasından 8-9 il yaşlı eləmişdilər!), 1831-ci ildə 22 yaşı vardı və Gilanlar kəndinin Kameral siyahısına düşməli idi, amma təqdim etdiyimiz siyahıda Mirzə adında adam yoxdur.

Bu sənəddən Aşıq Alının etnik mənsubiyyətini öyrənə bilməsək də, Göyçə mahalının Kameral siyahısının izahat yazısında İ.Şopen belə yazır: "İrəvan Sərdarının vaxtında buralarda**(Göyçə mahalında-N.Ə)** məskunlaşdırılmış qarapapaqlara sərhədləri qorumaq həvalə edildiyinə görə, onlar Sərdara heç bir vergi ödəmirdilər. Qarapapaqlar 1.000 nəfər silahlı atlı və lazım olan qədər yük heyvanları çıxarmaqla kifayətlənirdilər. Öz kəndxudalarına isə əldə etdikləri taxılın onda birini verirdilər. Əvvəllər Gərnibasar mahalında məskunlaşan qaraçorlular, millilər və əliqanlılar isə hər **binəçəyə** görə 7,5 tümən pul vergisi və məhsulun 30 hissəsindən 7-sini ödəyirdilər".

(**“Binəçə”** maddi potensialına görə bir və ya bir neçə evdən ibarət olan təsərrüfat subyektinə deyirdilər, bir növ kooperativ idi. Əhalisi yoxsul yaşayan bütöv bir kənd bəzən 1 binəçə sayılırdı. Orta rəqəm isə 7-10 ev idi. “Binəçə” termininin özü isə “binə”, “binə salmaq” sözündən yaranmışdı).

**Beləliklə, əgər Alı milli tayfasına mənsubdursa, onun Gərnibasar mahalının Gilanlar və ya başqa kəndindən gəlməsi həqiqətə oxşayır.**

Qeyd edək ki, 1859-cu ilin kameral siyahısında Alının Nəbi adında əmisi də yer alıb. O, qardaşı Mirzə kimi 1852-ci ildə yaddan çıxaraq yazılmayan Nəbi Avçı oğludur. Onun 15 yaşında Oruc, 9 yaşında Qərib və 1 yaşında İsmayıl adında üç oğlu var. Mirzənin atasının adı Ovçu, Nəbininki isə Avçı yazılsa da, onların qardaş olduqları şübhə doğurmur. Əslində indinin özündə də Türkiyə ləhcəsində “av” və “avçı” sözləri işlədilir, elə mənim mənsub olduğum Dərələyəz mahalında da, əminəm ki, o vaxt və indinin özündə də Göyçədə də belə işlədilirdi. 1930-cu illərdə müasir Azərbaycan dilinin normalarını, orfoqrafiyasını yaradan görkəmli dilçilərimiz əsas kimi Bakı-Quba dialektini götürərək, “av” kimi “dev”i də “div” etmişlər. 50 yaşlı Mirzədən 10 yaş kiçik olan Nəbinin onun qardaşı olmasına heç bir şübhə ola bilməz.

Nəbinin ortancıl oğlu Qəribin adı bu iki qardaşın Qızılvənkə köçməsinin tarixini müəyyən etmək üçün açar rolunu oynaya bilər. 1959-cu ildə 9 yaşında olması Qəribin 1850-ci ildə doğulduğunu göstərir. Çox güman ki, qardaşlar 1850-ci ildən **bir qədər** əvvəl Qızılvənkə gəliblər və burada doğulan uşağa qəriblikdə doğulduğu üçün bu adı qoyublar.

Bəs Mirzə ilə Nəbi qardaşları 1850-ci il ərəfəsində Qızılvənkə haradan gəliblər?

Növbəti sənədi təqdim etməzdən qabaq bir texniki məsələyə toxunmaq istərdim. Əsasən, yaşla bağlı müəy-

yən yanlışlıqların olmasını oxucular təbii qəbul etməlidir, axı bu siyahıları tərtib edən rus məmurları tərcüməçilərin köməyi ilə yəqin ki, həmin məlumatları kəndin kəndxudasından, kənd ağsaqqallarından, nəhayət sakinlərin özlərindən alırdılar. Tərcümənin xətalı olmasını bir kənara qoysaq belə, bu cür şifahi sorğular vasitəsilə əldə edilən rəqəmlərdə fərqlərin meydana çıxmasına təbii baxmaq lazımdır. Bu sətirlərin müəllifinin fikrinə gəlincə, bu cür sənədlərlə müəyyən iş təcrübəmdən çıxış edərək deyə bilərəm ki, 1831-ci ilə aid Kameral siyahılardakı rəqəmləri ən etibarlı rəqəmlər sayıram.

Qızılvənk kəndi ilə bağlı olan məlumatları əlimizdə olan sonuncu, 1873-cü ilin Kameral siyahısı ilə bitirmək istəyirəm. Onu da deyim ki, bu sənədlərdən yalnız bizə lazım olan ailələr haqqındakı məlumatları deyil, sənədi bütövlükdə təqdim etməyimi haqqında söhbət açdığım korifeylərin həmkəndlilərinə mükafat olaraq nəzərdə tuturam. Qoy həmin kəndlərin indi yaşamaqda olan nəsilləri öz ulu keçmişləri, əcdadları ilə tanış olsunlar. Bu kəndlərdən çıxmış yazı-pozu adamlarının da yazacaqları kitablarda istinad edə biləcəkləri etibarlı mənbələri olsun.

## "İRƏVAN QUBERNİYASI, NOVOBƏYAZİD QƏZASI. 1873-CÜ İL QIZILVƏNK KƏNDİ

**Müsəlman tatarlar. Əkinçiliklə məşğul olurlar. Xəzinə torpaqlarında yaşayan vergi mükəlləfiyyətli kənd əhalisi.**

1.8.Məjlum Əhməd oğlu 54 y; oğlu Musa 6 y; qardaşları: 1)Mehdi 39 y(onun oğlanları: Həmzə 8 y; Nadir 5 y; Əhməd 3 y); 2)Mirzə 34 y(onun oğlanları: Misri 10 y; Xozrı 6 y; İsa 4 y(ailədə 11 kişi, 9 qadın var).

2.15.Məşədi İsmayıl Məhəmməd oğlu 64 y; oğlanları: 1)Bayram 44 y(onun oğlanları: Məhəmməd 8 y; Hümbət 4 y; İrza 11 y; Şahirza 8 y); qardaşı Tağınının oğlanları:1) Bayram 24 y(onun oğlu Şükür 2 y); 2)Mustafa 20 y(ailədə 9 kişi, 7 qadın var).

3.2. Kərbəlayi Nağı Abbas oğlu 54 y; oğlanları: Abdulla 19 y; Aslan 10 y; Nəbi 7 y; qardaşı Mehdi 42 y(onun oğlanları: Yusif 20 y; Nəsib 20 y; Məsim 19 y; Qurban 6 y; Qasım 11 y); (ailədə 10 kişi, 9 qadın var).

4.3. Abbas Lütvəli oğlu 44 y; oğlu Lütvəli 15 y; (ailədə 2 kişi, 5 qadın var).

5.5. Məhərrəm Vəli oğlu 44; oğlu Cəfər 15 y; (ailədə 2 kişi, 5 qadın var).

**6.7. Mirzə Ovçu oğlu 64 y; oğlanları: 1)Almədət 39 y(onun oğlanları: Abdulla 13 y; Məhəmməd 6 y; Hüseyn 3 y); 2)Abbas 29 y; (ailədə 6 kişi və 5 qadın var).**

7.9. İsgəndər Kərbəlayi İsmayıl oğlu 30 y; qardaşı Nəcəf 16 y; (ailədə 2 kişi və 4 qadın var).

8.13.Şıxəli Hüseyn oğlu 59 y; oğlanları: Bayram 25 y; Mirzə 21 y; İrzaqulu 11 y; Abdulla 4 y; Şıxəlinin qardaşı Seyfəli 54 y; (ailədə 6 kişi və 5 qadın var).

9.16.Əsgər Məşədi Sadıx oğlu 44 y; oğlanları: Alı 10 y; Nəbi 8 y; qardaşı Həsən 34 y; onun oğlu Heydər 5 y; (ailədə 5 kişi, 5 qadın var).

10.19.Cəfər Əsgər oğlu 29 y; (ailədə 1 kişi, 3 qadın var).

11.12.Ramazan Məhəmməd oğlu 44 y; oğlanları: Kazım 16 y; Salah 7 y; Alməmməd 3 y; qardaşı Eylasın oğlanları: Qurban 34 y; Nağı 29 y; Məhərrəm 22 y; Qurbanın oğlanları: Məhəmməd 11 y; Eylas 8 y; (ailədə 9 kişi, 11 qadın var).

12.22.Məhərrəm Mirzə oğlu 64 y; oğlanları: Cəfər 26 y; İbrahim 17 y; Abbas 11 y; Nəbi 8 y; Alı 4 y; (ailədə 6 kişi, 4 qadın var).

13.22.İrza Mirzə oğlu 44 y; oğlanları: Rəcəb 22 y; Nəcəf 20 y; Kazım 8 y; (ailədə 4 kişi,7 qadın var).

14.23.İmamqulu Elləz oğlu 44 y; oğlanları: Mədət 19 y; Hüseyn 10 y; Xudaverdi 4 y; (ailədə 4 kişi, 3 qadın var).

15.25.Məşədi Zülfüqar Süleyman oğlu 44 y; oğlanları: Kazım 18 y; Mustafa 17 y; paşa 11 y; Sadıx 9 y; Alı 4 y; qardaşları: 1)Hümbət 29 y(onun oğlanları: İsmayıl 4 y; Ələsgər 2 y); 2)Məhəmməd 26 y; 3)Rüstəm 22 y; qardaşı Ramazanın oğlanları: Süleyman 7 y; Hüseyn 4 y; (ailədə 13 kişi, 12 qadın var).

16.24.Namaz İbrahim oğlu 94 y; oğlanları: 1)Bəbir 34 y(onun oğlanları: Məhəmməd 8 y; Mustafa 5 y; Nəbi 5 y; Mehdi 3 y); 2)Bayram 24 y; (ailədə 7 kişi, 4 qadın var).

17.26.Məhəmməd Davud oğlu 54 y; oğlanları: Hümbət 22 y; Cəfər 19 y; Qulu 8 y; qardaşı Əhməd 39 y; onun oğlanları: Qədim 7 y; İbrahim 1 y; (ailədə 7 kişi, 4 qadın var).

18.27.Kərbəlayi Qurban Alı oğlu 59 y; oğlanları: Alı 22 y; Məhəmməd 17 y; Əbdüləli 11 y; Əbdülkərim 4 y; qardaşı Oruc 54 y(onun oğlu Əziz 3 y); (ailədə 7 kişi və 5 qadın var).

19.28.Kərbəlayi Məhərrəm Kərbəlayi Alqulu oğlu 69 y; oğlanları: 1) Alı 44 y(onun oğlanları: Abdulla 16 y; Abbas 11 y); 2)Hüseyn 24 y(onun oğlu Sübhanqulu 1 y); 3) Həsən 22 y; (ailədə 7 kişi, 5 qadın var).

20.34.Ocaqqulu Bünyadəli oğlu 64 y; oğlanları: Rüstəm 24 y; Qafar 19 y; Səfər 10 y; Bünyadəli 7 y; Bayram 4 y; (ailədə 6 kişi, 3 qadın var).

21.31.Məhəmməd Mahmud oğlu 34 y; qardaşları: Ələkbər 26 y; Abbas 22 y; Çələbi 18 y; (ailədə 4 kişi, 2 qadın var).

**22.38.Nəbi Ovçu oğlu 54 y; oğlanları: 1)Oruc 29 y (onun oğlanlar:** Hüseyn 4 y; Əhməd 2 y); **2)Qərib 23 y(o-**

**nun oğlu Məhəmməd 1 y); 3)Həsən 11 y; (ailədə 7 kişi,6 qadın var).**

23.39.Məhəmməd Əhməd oğlu 44 y; oğlanları: Pənah 20 y; Vəli 11 y; İbrahim 8 y; Süleyman 6 y; (ailədə 5 kişi, 1 qadın var).

24.36. Qərib Abbas oğlu 49 y; oğlanları: 1)Rəhim 26 y; 2)İbrahim 24 y(onun oğlu xamo 1 y); 3)Xəlil 19 y; 4) Bayram 17 y; 5)Cəlil 8 y.

25.6. Hüseyn Vəli oğlu 54 y; oğlanları: Həsən 18 y; İrza 12 y; Baxşəli 8 y; Məsuməli 2 y; qardaşı Şıxı 34 y(onun oğlu Məhəmməd 4 y); (ailədə 7 kişi, 5 qadın var).

26.45.Qasım Məmmədhüseyn oğlu 25 y; oğlu Allahverən 2 y; qardaşı Məsim 22 y; (ailədə 3 kişi, 2 qadın var).

27.35.Allahverən Seyid Cəbrayıl oğlu 39 y; oğlu Pirverdi 4 y; qardaşları: 1) Həşim 35 y(onun oğlu Kazım 7 y); 2)Salman 29 y(onun oğlanları: Süleyman 5 y; Mövlamverdi 3 y); 3)Nəbi 26 y(onun oğlu Musa 3 y); (ailədə 9 kişi, 9 qadın var).

***Qeyd: Salman Seyid Cabbar oğlu və onun oğlanları İrəvan qəzasının Damagirməz kəndində siyahıya düşdüklərinə görə, 1886-cı ildə bu kəndin siyahısından çıxarılmışlar.***

28.28.Məmmədalı Şahgəldi oğlu 24 y; oğlanları: Bayram 3 y; Cəfər 1 y; (ailədə 3 kişi, 5 qadın var).

29.17.Kərbəlayi Hümbət Bayram oğlu 44 y; oğlanları: Məhəmməd 12 y; Məmmədbağır 10 y; Abbasəli 8 y; Süleyman 4 y; (ailədə 5 kişi, 3 qadın var).

30.41.Kərbəlayi Novruz Məşədi İsmayıl oğlu 40 y; oğlanları: Musa 19 y; Həzrətqulu 10 y.

31.46.Bünyadəli İman oğlu 55 y; oğlanları: 1)Paşa 23 y; 2)Məmmədbağır 20 y(onun oğlu Məhəmməd 5 y); 3)Qədim 12 y; 4)Hümbət 7 y; (ailədə 6 kişi,4 qadın var).

***Qeyd: Bu ailə 1876-cı ildən İrəvan qəzasının Gölaysori kəndinə aid edilmişdir.***

32.1.Rüstəm Abbas oğlu 54 y; oğlanları: Məhəmməd 24 y; Əhməd 19 y; Abbas 17 y; Musa 8 y; Abdulla 3 y; (ailədə 6 kişi, 2 qadın var).

33.40.Allahverdi Hüseyn oğlu 49 y; oğlanları: Cəfər 4 y; Hüseyn 2 y; (ailədə 3 kişi, 4 qadın var).

34.47. Alı Həsən oğlu 24 y; oğlu Xıdır 1 y; (ailədə 2 kişi və 2 qadın var).

35.--Hüseyn Kərbəlayi Məhəmməd oğlu 60 y(əvvəlki siyahıyaalmada yaddan çıxıb); oğlanları: İmaməli 25 y; Hümbət 8 y; İrza 6 y; Şükür 2 y; (ailədə 5 kişi, 6 qadın var).

36.-- Kərbəlayi İsmayıl Kərbəlayi Məhəmməd oğlu 70 y(əvvəlki siyahıyaalmada yaddan çıxıb); oğlanları: 1)Həsso 30 y(onun oğlanları: Məhəmməd 7 y; Hüseyn 2 y); 2)Şirəli 25 y; 3)Pirməmməd 12 y; (ailədə 6 kişi, 3 qadın var).

37.—Məhəmməd Molla Bağır oğlu 25 y; qardaşları: Əhməd 7 y; Gülalı 3 y (Novobəyazid qəzasının Oğrunca kəndindən buraya köçüblər).

38.—Alqulu bəy Axund Molla Abdulla oğlu 45 y; oğlu Mirzə Məmmədalı 12 y; qardaşı Əliqulu Molla Mirzə Ələkbər oğlu 24 y(ailədə 3 kişi, 1 qadın var).

39.23.İsmayıl Ellaz oğlu 34 y(oğlanları: Yaqub 5 y; Cəfər 1 y); qardaşı Tarverdi 24 y. (ailədə 4 kişi, 3 qadın var).

40.22.Kərbəlayi Mustafa Mirzə oğlu 29 y; oğlanları: Nadir 5 y; Xıdır 3 y; Eylas 1 y; (ailədə 4 kişi. 1 qadın var).

41.22. Şahirza Mirzə oğlu 40 y; oğlanları: Mirzə 19 y; Həsən 17 y; Hüseyn 10 y; Məhəmməd 7 y; Əhməd 5 y; İsmayıl 1 y; (ailədə 7 kişi, 5 qadın var).

42.6. Abbas Vəli oğlu 23 y; oğlu Vəli 2 y; (ailədə 2 kişi, 2 qadın var).

Qızılvənk kəndində 234 kişi, 194 qadın, cəmi 429 adam yaşayır.

***Yoxlamanı həyata keçirdi və Kameral təsviri tərtib etdi: Novobəyazid qəzası rəisinin vəzifəsini icra edən Ostaşev".***

**(Erm.Milli Arxivi, F.267, siy.1, sax.vah.23).**

Siyahıda təbii ki, ilk növbədə Mirzə Ovçu oğlunu və onun oğlu Aşıq Alını axtarırıq və görürük ki, təzə siyahıda bu ailə 6-cı yerdədir, 6.7. rəqəmləri ilə işarələnib. Aradan keçən 14 il ərzində onların yaşlarındakı artım da uyğundur: indi Mirzənin 64, Almədətin 39 yaşı var, amma oğlu Abdullanın yaşı düzgün göstərilməyib. Əgər 1859-cu ildə 1 yaşı vardısa, indi 15 olmalı idi. Aşıq Alının iki oğlu da dünyaya gəlib, onlar 6 yaşlı Məhəmməd və 3 yaşlı Hüseyndir. Ailədə 5 qadın var. Almədətin 6 yaşlı Məhəmməd adında oğlunun siyahıda yer alması həmin şəxsin məhz Aşıq Alı olduğunu bir daha təsdiqləyir, çünki, aşığın Q.Zimistanoğlu tərəfindən təqdim olunan tərcümeyi-halında onun Abdulla, Məhəmməd və İsmayıl adında 3 oğlunun olduğunu oxumuşduq. Bizim təqdim etdiyimiz siyahıda yalnız İsmayılla Hüseynin adları üst-üstə düşmür. Burada iki variant ola bilər: ya Hüseyn kiçik yaşlarında ölmüş və İsmayıl da 1873-cü ildən sonra doğulmuşdur, ya da vaxtsız vəfat edən İsmayıl Alının əmisi Nəbinin 1859-cu ildə 1 yaşında siyahıya düşən oğlu İsmayıldır. Adının 1873-cü ildəki siyahıda olmaması Nəbinin oğlu İsmayılın 15 yaşına çatmadan vəfat etməsini göstərir. Yeri gəlmişkən, yeni siyahıda artıq Nəbinin də atasının adı "Ovçu" kimi yazılmışdır ki, bu fakt da onun Mirzənin qardaşı olması haqqındakı bütün şübhələri aradan qaldırır.

Mirzə Ovçu oğlunun ailəsindəki 5 qadından ikisi çox güman ki, Aşıq Alının adları bizə məlum olan qızları Sənəmlə Mələkdir. Təqdim etdiyimiz sənədlərdə qadınların adları yazılmadığına görə, nə bu qızların, nə də Alının anası Fatmanın(və ya Mənzərin) adlarını nə təsdiq, nə də təkzib edə bilmirik.

(Hesab edə bilərik ki, 1873-cü ildə 21 yaşında olan Ələsgər artıq 39 yaşlı Alının şəyirdi idi).

Əgər Əli Əbülhəsənoğlunun "Aşıq Alı mənim ana babamla doğma əmoğludur" sözlərinə inansaq, belə çıxır ki, o Nəbinin Oruc, Qərib və Həsən adındakı üç oğlundan birinin nəvəsidir. Bu sətirlərin müəllifi onların bu qohumluq əlaqəsini şübhə altına almaq istəməsə də, onun ***"Aşıq Alının Kəlbəcərin Milli kəndində on beş il kor yaşadığı vaxtlar Aşıq Ələsgər özü onu ata mindirib, atın qantarğasından özü tutmuş və "Mənə belə ləzzət edir" demişdir"*** (adı çəkilən əsər,səh.6) cümləsi ciddi şübhə və istehza doğurur. Biz əlbəttə, Ələsgərin öz böyük ustadına ehtiram göstərdiyinə zərrə qədər də şübhə etmirik, amma Ə.Əbülhəsənoğlunun dastanlara xas olan belə rəvayət uydurması acı təbəssüm və təəssüf döğurur.

Beləliklə, Aşıq Alının 1834-cü ildə doğulduğunu, 1911-ci ildə, 77 yaşında rəhmətə getdiyini müəyyənləşdirdik. Amma opponentlərimin aşığın "Nə qaldı?" qoşmasından sitat gətirərək etiraz edəcəklərini görürəm:

*"Bilmək olmaz təqdir yazan yazını,*
*Biri elmin arar, biri nazını.*
*Bilmirəm ömrümün çoxu, azını,*
*Doxsana yetmişəm, yüzə nə qaldı?"* -

bəndi ilə Aşıq artıq 90 yaşına çatdığını öz dili ilə söyləmirmi?

Onlara həmin gözəl qoşmanın birinci bəndi cavab verir:

*"Gəşt elədim, bu dünyanı dolandım,*
*Əllini aşırdım, yüzə nə qaldı?*
*Ayaq getdi, əl gətirdi, diş yedi,*
*Baxmaqdan savayı gözə nə qaldı?"*

Birinci bənddə **“Əllini aşırdım, yüzə nə qaldı?”** deyən ustad həmin şeirdə(!) yenidən **“Doxsana yetmişəm, yüzə nə qaldı?”**–kimi mənasız və zəif təkrara yol verərdimi? Heç olmasa, “Doxsana yetmişəm” sözlərini “yüzə nə qaldı?” ifadəsindən ayrı işlədərdi. Həm də “doxsana yetmişəm” deyirsə, “əllini aşırdım” ifadəsi öz əhəmiyyətini itirmiş olur. Şeirin məzmunundan məlum olur ki, bu qoşmanı Alı əlli yaşından sonra, altmış yaşına çatmadığı vaxtlarda deyib. Ona görə də hesab etmək olar ki, bu bəndi sonradan ya başqa adamlar artırıb, ya da həmin bəndin sonuncu misrasını təhrif edərək “Doxsana yetmişəm, yüzə nə qaldı?” şəklinə salıblar. Bu gözəl qoşma

*Ölüm haqdı,çıxmaq olmaz əmrdən,*
*İpək tora halqa salma dəmirdən.*
*Aydı,gündü, gəlib keçir ömürdən,*
*Tələsirik, görən yaza nə qaldı?*

*Eşiyə çıxıram, hava məğşuşdu,*
*Gəzdiyim oylaqlar yadıma düşdü.*
*Bir gün eşidərsiz Alı da köçdü,*
*Sındı telli sazı, təzanə qaldı,-*

bəndləri ilə bitir. Aşıq Alının başqa nəşrlərində(o cümlədən, Q.Zimistanoğlunun hazırladığı nəşrdə) həmin zəif bənd yoxdur və bu da onun başqaları tərəfindən əlavə edilməsi haqqındakı mülahizələrimizə haqq qazandırır.

Tədqiqatçılar Aşıq Alının **“İpək tora halqa salma dəmirdən”**,-misrasının mənası üzərində baş sındırıb müxtəlif mülahizələr irəli sürürlər. Məsələn. Prof.S.Paşayev bunu belə izah edir: “Çox zaman “İpək tora halqa salma dəmirdən” misrası ilə əlaqədar olaraq da mübahisələr olur. Aşıq demək istəyir ki, ipək tor zərifdir, incədir, ona dəmir

həlqə salma. Zəriflə kobudun yoldaşlığı tutmaz”**(S.Paşayev. “XIX əsr Azərbaycan aşıq yaradıcılığı”. Bakı, 1990. Səh 38).** Professor məsələnin mahiyyətinə yaxınlaşsa da, onu axıra qədər izah edə bilməyib. Aşıq Alı “ipək” deyəndə insan ömrünü, “dəmir halqa” dedikdə isə, pislikləri, vəfasızlığı, kobudluğu, namərdliyi, paxıllığı və s. kimi mənfi keyfiyyətləri nəzərdə tutur və demək istəyir ki, ey insan, Allahın bəxş etdiyi gözəl ömrünü bu cür naqisliklərlə korlama, onun incəliyini qoruyub saxla.

Aşıq Alının başqa bir təsirli qoşmasında onun həyatı ilə bağlı motivlər də öz əksini tapır:

*Ay həzarat, gəlin sizə söyləyim,*
*Axdı eynim yaşı, çay oldu getdi.*
*Nə ağa, nə nökər, nə bəy, nə gəda,*
*Hamsı bir-birinə tay oldu getdi.*

*Kimi ay qabağa cığa tel düzər,*
*Kimi qaş altından gözlərin süzər.*
*Kimi yeyib, içib, sallanıb gəzər,*
*Kiminin axırı vay oldu getdi.*

*Aşıq Alı, dərdi canda saxlaram,*
*Bağrım başın çalın-çarpaz dağlaram.*
*Gecə-gündüz nalə çəkib ağlaram,*
*Hayıf gözlərimə, zay oldu getdi.*

Ömrünün son 15 ilini dünya işığından məhrum yaşadığı deyilən Aşıq Alı “hayıf gözlərimə, zay oldu getdi”-misrası ilə bunu təsdiq edir.

Aşıq Alının ölməz şeirlərindən biri də bütün zamanlarda öz aktuallığını saxlayan “Dolandırır” qoşmasıdır:

*Ay ağalar, gəlin sizə söyləyim,*
*Yəqin bu dünyanı pul dolandırır.*
*Kəsilib məhəbbət, qalmayıb hörmət,*
*Dövlətli dalınca mal dolandırır.*

*O dünyanın şərbətindən içməyən,*
*Körpü salıb, üstdən karvan keçməyən.*
*Evdə arvadına sözü keçməyən,*
*Kənddə kovxa olub, el dolandırır.*

*Aşıq Alı, halın oldu pərişan,*
*Ağ üzündə xalları var hər nişan.*
*Binamus qohumdan namuslu düşman*
*Öldürsə, qəbrimdə gül dolandırır.*

Ələsgərə məğlub olduğuna görə Aşıq Alını kiçiltmək olmaz. Təkcə bircə faktı xatırlatmaq kifayətdir ki, Aşıq Ələsgərə heç bir saz havasının müəllifliyini aid etmədikləri halda, prof. M.Həkimov "Göyçəgülü", "Göyçə şərili", "Qəhrəmanı", "Gilənar", "Göyçə qaytağı", "El bayatısı" aşıq havalarının müəllifliyini Aşıq Alıya aid edir **(M.Həkimov. "Azərbaycan aşıq ədəbiyyatı". Bakı, 1983).** Bir tərəfdən hesab etmək olar ki, Ələsgərin müasiri olduğundan, Alı onun kölgəsində qalıb. Amma məsələyə başqa yöndən də baxmaq olar: Aşıq Ələsgər kimi dahini yetişdirən Ustadın özünü də ən xoşbəxt sənətkar adlandırmaq olar. Çünki Azərbaycan ədəbiyyatı, poeziyası, aşıq şeiri, Ələsgər yaşadıqca, Aşıq Alı da yaşayacaq.

Amma əminliklə demək olar ki, bəzi tərtibçiləri baxımından Alının da Ələsgər kimi bəxti gətirməyib. Hətta ötəri nəzər saldıqda belə, zəifliyinə, məzmunsuzluğuna, şeir texnikasına görə, ortabab aşıqların səviyyəsindən də aşağı olan xeyli "şeirləri" onun kitabına salıblar. Bütövlükdə görməyə

səbrimizin çatmadığı "İstərəm" adlı qoşmadan aşağıda nümunə gətirilən bir bənd də həmin acınacaqlı vəziyyəti görməyə kifayət edir:

*Gətir başlığına üççə min manat,*
*Üç qızıl bilərzik, bir qızıl saat.*
*Bircə "hə" sözünə bir cüt köhlən at,*
*İpək heybə, yəhər qaşın istərəm.*

**(Aşıq Alı. Əsərləri. Bakı, 2006, səh.49-50).**

Bu cür tərtibçiyə demək lazımdır ki, Göyçə mahalı İsveçrə deyil ki, XIX əsrdə burada qol saatı(üstəlik qızıldan!) olsun. Hətta XIX əsrdə İsveçrənin özündə də qızıldan qol saatının olub-olmadığını bilmirəm. İkincisi, həmin dövrdə 3 min manat astronomik məbləğ idi. Müqayisə üçün deyim ki, 102 kəndi olan Dərələyəz mahalının illik vergisi 2 min tümən və ya 8 min manat(rubl) idi. Həm də Aşıq Alının dövründə pul vahidi kimi manat ümumiyyətlə mövcud deyildi. O vaxt işlədilən pul vahidləri tümən, rubl, abbası, şahı, minaltun və s. vardı, billah ki, manat bilmərrə yox idi.

Aşıq Alını indiyə qədər Qızılvənk kəndində axtarırdıq. Amma Göyçə mahalının 1842-ci ilə aid Kameral siyahısını araşdırarkən, məlum oldu ki, o Şişqaya kəndində doğulub və bir müddət orada yaşayıb:

**"№49. ŞİŞQAYA KƏNDİ.1842-ci il.**
**Ayrımlı tayfası.**

Müsəlman dininin şiə məzhəbinə mənsubdurlar, köçəri həyat tərzi sürürlər.

1.Nuri Şahbəndə oğlu 56 y; oğlanları: 1)Alməmməd 31 y(onun oğlu Allahverdi 6 y); 2)Yarməmməd 29 y; 3)Məmmədvəli 26 y(onun oğlu Süleyman 1 y); 4)İmamqulu 23 y; 5)Əliqulu 21 y; 6)Əmirqulu 18 y.

30 xalvar əkin yeri, 8 xalvar buğda, 4 xalvar arpa, 0,5 xalvar kətan əkini, 10 atı, 50 baş iribuynuzlu, 200 baş xırdabuynuzlu mal-qarası var.

2.Bayram Oruc oğlu 56 y; oğlanları: 1)Mustafa 19 y; 2) İsgəndər 15 y; 3)Oruc 12 y.

5 xalvar əkin yeri, 1,5 xalvar buğda, 0,5 xalvar arpa əkini, 5 atı, 15 baş iribuynuzlu, 30 baş xırdabuynuzlu heyvanı var.

3.Alı Oruc oğlu 41 y; oğlanları: 1)Abdulla 13 y; 2) Məhərrəm 3 y.

5 xalvar əkin yeri, 1,5 xalvar buğda, 0,5 xalvar arpa əkini, 5 atı, 15 baş iribuynuzlu, 150 baş xırdabuynuzlu heyvanı var.

4.Vəli Oruc oğlu 56 y; oğlanları: 1)Məmmədhəsən 21 y; 2)İrza 15 y.

3 xalvar əkin yeri, 1,5 xalvar arpa əkini, 1 atı, 10 baş iribuynuzlu, 20 baş xırdabuynuzlu heyvanı var.

5.Hüseyn Yəqinəli oğlu 61 y; oğlu Ocaqqulu 31 y(onun oğlu şahhüseyn 3 y).

7,5 xalvar əkin yeri, 2 xalvar buğda, 1 xalvar arpa, 0,5 xalvar kətan əkini, 4 atı, 20 baş iribuynuzlu, 60 baş xırdabuynuzlu heyvanı var.

6.Gülməmməd Həsən oğlu 16 y.

Əkin yeri yoxdur, 1 atı, 6 baş iribuynuzlu, 20 baş xırdabuynuzlu heyvanı var.

7.Cəfər Molla Hüseyn oğlu 18 y; qardaşları: 1)Qafar 16 y; 2)Məmmədtağı 12 y.

5 xalvar əkin yeri, 1 xalvar buğda. 1 xalvar arpa əkini, 2 atı, 10 baş iribuynuzlu, 25 baş xırdabuynuzlu heyvanı var.

8.Musa Molla Rəfi oğlu 56 y; oğlanları: 1)Məhəmməd 21 y; 2)Əhməd 12 y.

5,5 xalvar əkin yeri, 1 xalvar buğda. 1,25 xalvar arpa əkini, 3 atı, 10 baş iribuynuzlu. 30 baş xırdabuynuzlu heyvanı var.

9.Mustafa Molla Rəfi oğlu 46 y; oğlanları: 1)Rəhim 16 y; 2)Məhərrəm 10 y.

5 xalvar əkin yeri, 1 xalvar buğda. 1 xalvar arpa əkini, 1 atı. 7 baş iribuynuzlu, 10 baş xırdabuynuzlu heyvanı var.

**10. Mirzə Ovçu oğlu 41 y; oğlu Almədət 7 y.**

Əkin yeri yoxdur, 1 atı və 3 baş iribuynuzlu heyvanı var.

11.Salman Xəlifəqulu oğlu 56 y; oğlanları: 1)Nəzəralı 21 y; 2)Mirzalı 19 y.

5 xalvar əkin yeri, 1 xalvar buğda, 1 xalvar arpa əkini, 2 atı, 10 baş iribuynuzlu, 25 baş xırdabuynuzlu heyvanı var.

12.Sadıq İsmayıl oğlu 56 y; oğlanları: 1)Novruz 26 y(onun oğlu Allahverdi 5 y); 2)Süleyman 23 y.

5 xalvar əkin yeri, 1 xalvar buğda, 1 xalvar arpa əkini, 2 atı, 12 baş iribuynuzlu, 50 baş xırdabuynuzlu heyvanı var.

13.Bayram Şahbəndə oğlu 41 y; oğlu Alı 4 y.

Əkin yeri yoxdur, 2 atı, 10 baş iribuynuzlu, 20 baş xırdabuynuzlu heyvanı var.

14.Hüseyn Şahbəndə oğlu 46 y; oğlu Həsən 10 y.

5 xalvar əkin yeri, 1 xalvar buğda. 1 xalvar arpa əkini, 1 atı, 10 baş iribuynuzlu, 20 baş xırdabuynuzlu heyvanı var.

15.Hacı Məhəmməd Cəfər oğlu 51 y; oğlanları: 1)Əmir 19 y; 2)Cəfər 12 y.

5 xalvar əkin yeri, 1 xalvar buğda. 1 xalvar arpa əkini, 3 atı, 20 baş iribuynuzlu, 50 baş xırdabuynuzlu heyvanı var.

16. İsmayıl Səfər oğlu 30 y; oğlu Abdulla 11 y.

2 xalvar əkin yeri, 1 xalvar arpa əkini, 2 atı, 5 baş iribuynuzlu, 20 baş xırdabuynuzlu heyvanı var.

17.Allahverdi Kərim oğlu 31 y; oğlanları: 1)Hüseynqulu 5 y; 2)Kərim 3 y.

3 xalvar əkin yeri, 1,5 xalvar buğda əkini, 1 atı, 10 baş iribuynuzlu, 10 baş xırdabuynuzlu heyvanı var.

18.Haxverdi Həsən oğlu 26 y.

Əkin yeri yoxdur, 1 atı, 5 baş iribuynuzlu. 10 baş xırdabuynuzlu heyvanı var.

19.Mustafa İsmayıl oğlu 51 y; oğlanları: 1)Haxverdi 31 y;2)Mövla 15 y.

5 xalvar əkin yeri, 1 xalvar buğda, 1 xalvar arpa əkini, 5 atı, 10 baş iribuynuzlu, 30 baş xırdabuynuzlu heyvanı var.

20.Məhəmməd Həsən oğlu 36 y; oğlanları: 1)Həsən 16 y; 2)Hüseyn 13 y; 3)Musa 12 y; 4)Alı 8 y; 5)İsa 2 y.

5 xalvar əkin yeri, 1 xalvar buğda. 1 xalvar arpa əkini, 2 atı, 10 iribuynuzlu, 50 xırdabuynuzlu heyvanı var.

**21.Hümbət Səfər oğlu 51 y; oğlanları: 1)Xudaverdi 23 y; 2)SƏfər 21 y; k**ürəkəni Nəbi Ovçu oğlu 31 y(onun oğlu Oruc 2 y).

5 xalvar əkin yeri, 1 xalvar buğda, 1 xalvar arpa əkini, 5 atı, 10 baş iribuynuzlu, 20 baş xırdabuynuzlu heyvanı var.

22.Mehdi Bayandur oğlu 51 y; oğlanları: 1)Bayandur 21 y; 2)Kazım 18 y; 3)Budaq 13 y.

6 xalvar əkin yeri, 1 xalvar buğda, 1,25 xalvar arpa, 0,5 xalvar kətan əkini, 5 atı, 15 baş iribuynuzlu, 50 baş xırdabuynuzlu heyvanı var.

**Qarapapaqlar:**

**Bosçalı icması.**

23.Rəhim Məmmədsalah oğlu 50 y; oğlanları: 1)İbrahim 15 y; 2)Səfər 13 y; 3)Namaz 8 y.

5 xalvar əkini, 1 xalvar buğda, 1 xalvar arpa əkini, 1 atı, 10 baş iribuynuzlu, 15 baş xırdabuynuzlu heyvanı var.

24.Hümbətalı Həsənalı oğlu 30 y; oğlu Kərim 8 y; qardaşları: 1)Qurban 20 y; 2)Nəcəf 15 y.

6 xalvar əkin yeri, 1 xalvar buğda, 1,25 xalvar arpa, 0,5 xalvar kətan, 2 atı, 25 iribuynuzlu, 100 xırdabuynuzlu heyvanı var.

25.Ayvazalı Qədim oğlu 80 y; oğlanları: 1)Bayraməli 30 y(onun oğlu Qəmbər 6 y); 2)Dünyamalı 25 y.

5 xalvar əkini, 1 xalvar buğda, 1 xalvar arpa. 0,25 xalvar kətan əkini, 2 atı, 10 iribuynuzlu, 10 baş xırdabuynuzlu heyvanı var.

26.Qəhrəman Zeynalabdin oğlu 40 y; oğlanları: 1)Əlmərdan 12 y; 2)Hənifə 8 y.

5 xalvar əkin yeri, 2 xalvar arpa əkini, 2 atı, 15 baş iribuynuzlu, 40 baş xırdabuynuzlu heyvanı var.

27.Mehdi Zeynalabdin oğlu 50 y; oğlu Ramazan 15 y.

3 xalvar əkin yeri, 1,5 xalvar arpa əkini, 10 baş iribuynuzlu heyvanı var.

28. Rüstəm Zeynalabdin oğlu 30 y; oğlu Alı 6 y.

Əkin yeri yoxdur, 2 atı, 10 baş iribuynuzlu heyvanı var.

29.Duraxan Məhəmməd oğlu 30 y; oğlu Məmmədalı 5 y; qardaşı Niyazəli 20 y.

3 xalvar əkin yeri, 1,25 xalvar arpa əkini, 1 atı, 20 baş iribuynuzlu, 30 baş xırdabuynuzlu heyvanı var.

30.Abdulla Abdulla oğlu 30 y; qardaşlıarı: 1)Əsəd 32 y; 2)Məhəmməd 15 y.

5 xalvar əkin yeri, 1 xalvar buğda. 1 xalvar arpa əkini, 1 atı, 4 baş iribuynuzlu, 30 baş xırdabuynuzlu heyvanı var.

31.Hüseyn Abdulla oğlu 30 y; oğlanları: 1)Sadıq 10 y; 2)Qəmbər 5 y.

3 xalvar əkini, 1,25 xalvar arpa əkini, 2 atı, 10 baş iribuynuzlu, 10 baş xırdabuynuzlu heyvanı var.

32.Mustafa Məhəmməd oğlu 60 y; oğlu Abdulla 15 y.

Əkin yeri yoxdur, 3 atı, 10 baş iribuynuzlu, 10 baş xırdabuynuzlu heyvanı var.

33.Həsən Abdulla oğlu 50 y; oğlu Abdulla 15 y.

Əkin yeri yoxdur, 3 atı, 10 baş iribuynuzlu. 10 baş xırdabuynuzlu heyvanı var.

34.Məmmədcəfər Hüseynalı oğlu 35 y; oğlu Məmmədsadıq 6 y; qardaşı Abbası 15 y.

5 xalvar əkin yeri, 1 xalvar buğda, 1 xalvar arpa, 0,5 xalvar kətan əkini, 2 atı, 10 baş iribuynuzlu. 40 baş xırdabuynuzlu heyvanı var.

35.Cəli Mirzalı oğlu 22 y; qardaşı Xəlil 15 y.

Əkin yeri yoxdur, 4 baş iribuynuzlu, 10 baş xırdabuynuzlu heyvanı var.

36.Alı Kələş oğlu 60 y; oğlanları: 1)Kələş 18 y; Bayramqulu 7 y.

6,5 xalvar əkin yeri, 1 xalvar buğda, 1,5 xalvar arpa əkini, 2 atı, 15 iribuynuzlu, 20 baş xırdabuynuzlu heyvanı var.

37.Tağı Yəhya oğlu 50 y; oğlanları: 1)Yəhya 20 y; 2) Abbas 18 y; 3)nağı 12 y.

3 xalvar əkin yeri, 1,5 xalvar arpa əkini, 1 atı, 10 iribuynuzlu, 30 baş xırdabuynuzlu heyvanı var.

38.Məşədi Əli Həsən oğlu 50 y; oğlanları: 1)İsa 15 y; 2)Qədim 10 y.

4 xalvar əkin yeri, 0,5 xalvar buğda. 1,25 xalvar arpa əkini, 2 atı, 15 baş iribuynuzlu, 50 baş xırdabuynuzlu heyvanı var.

39.Əbül Mustafa oğlu 20 y; qardaşı Hüseyn 15 y.

3,5 xalvar əkin yeri, 1,5 xalvar arpa əkini. 2 atı, 15 baş iribuynuzlu, 30 baş xırdabuynuzlu heyvanı var.

40.Yolçu Əhməd oğlu 60 y; oğlanları: 1)Əlləz 30 y; 2) Namaz 20 y.

3,5 xalvar əkin yeri, 1,75 xalvar arpa əkini. 2 atı, 10 baş iribuynuzlu, 50 baş xırdabuynuzlu heyvanı var.

41.Qurban Əyyub oğlu 50 y; oğlanları: 1)Mustafa 20 y; 2)Qoca 15 y.

5 xalvar əkin yeri, 1 xalvar buğda, 1 xalvar arpa əkini, 1 atı, 10 baş iribuynuzlu, 25 baş xırdabuynuzlu heyvanı var.

42. Rüstəm Molla Rəfi oğlu 30 y; oğlanları: 1)Allahverdi 10 y; 2)Xudaverdi 7 y; qardaşı Qasım 20 y.

5 xalvar əkin yeri, 2 xalvar arpa əkini, 1 atı, 10 baş iribuynuzlu, 25 baş xırdabuynuzlu heyvanı var.

43.Kərim Qurban oğlu 30 y.

1 xalvar əkin yeri, 0,5 xalvar arpa əkini, 1 atı, 3 baş iribuynuzlu heyvanı var.

44. İsmayıl Alı oğlu 20 y.

2,5 xalvar əkin yeri, 1 xalvar arpa əkini, 3 atı, 10 iribuynuzlu, 20 xırdabuynuzlu heyvanı var.

45.Həsən Bayandur oğlu 60 y; oğlanları: 1)Allahverdi 15 y; 2)Xudaverdi 10 y.

1 xalvar əkin yeri, 0,5 xalvar arpa əkini, 1 atı və 2 baş iribuynuzlu heyvanı var.

46. Həsən Ocaqqulu oğlu 30 y; oğlu Hüseyn 3 y.

1 xalvar əkin yeri, 0,5 xalvar arpa əkini, 2 atıxalvar arpa əkini, 2 atı, 3 baş iribuynuzlu, 40 baş xırdabuynuzlu heyvanı var.

47. Xasməmməd İsmayıl oğlu 20 y; oğlu İsmayıl 1 y; qardaşları: 1)Vəli 19 y; Məmməd 15 y.

1,5 xalvar əkin yeri, 1 atı, 5 baş iribuynuzlu, 15 baş xırdabuynuzlu heyvanı var.

Kənddə cəmi 189,5 xalvar əkin yeri, 35 xalvar buğda, 45.5 xalvar arpa əkini, 104 at, 329 baş iribuynuzlu, 1.510 baş xırdabuynuzlu heyvan var.

**Kənd əhalisinin siyahısı yoxlanarkən, burada 47 ailə aşkar edildi, bir nəfər də olsun gizlədilmədi, əgər kimsə siyahıdan gizlədilsə, bilmədiyimizi bəhanə gətirməyərək Rusiya qanunlarının qarşısında məsuliyyət daşımağa hazırıq.**

İmzalar:

***Kollejski reqistrator Aleksandr Korallov"***

**(Erm.Milli Arxivi, F.93, siy.1, sax.vah.79(2).**

Sənəddəki 10-cu ailə Aşıq Alının ailəsidir:

**10.Mirzə Ovçu oğlu 41 y; oğlu Almədət 7 y.**

Göründüyü kimi, 1842-ci ildə Şişqaya kəndində 47 ailə yaşayırdı, onlardan ilk 22-si ayrımlı, sonrakı 25 ailə isə Aşıq Ələsgər kimi qarapapaqların bosçalı tayfasına mənsub idi. Qarapapqlar kimi ayrımlı tayfası da ən safqanlı türklərdən sayılır. Beləliklə, Aşıq Alının milli mənsubiyyəti haqqındakı mübahisələrə son qoymuş olduq: **Aşıq Alı yeddi nəsil arxa dönəninə qədər təmiz türkdür!**

Gələcəyin Böyük Ustadı Aşıq Alı-Almədət adlı uşaq 1842-ci ildə hələlik 7 yaşındadır, yəni 1835-ci ildə doğulmuşdur. Əvvəlki sənədlərdəki 1834-cü ildə doğum tarix ilə müqayisədə 1835-ci ili həqiqətə daha yaxın saymalıyıq, çünki, 7 yaşındakı uşaqla 25 yaşlı gəncin yaşlarında səhv etmək ehtimalı 7 yaşında daha az sayılmalıdır.

Sənəddəki mal varlığından göründüyü kimi, Alının atası Mirzə kişi o qədər də imkanlı deyilmiş. Daha doğrusu, kasıb yaşayırmış. Bəs Mirzənin qardaşı Nəbi haradadır? Nəbi 21-ci ailədədir:

**21.Hümbət Səfər oğlu 51 y; oğlanları: 1)Xudaverdi 23 y; 2)Səfər 21 y;** ***kürəkəni Nəbi Ovçu oğlu 31 y(onun oğlu Oruc 2 y).(*****Kursiv mənimdir-N.Ə.)**

Göründüyü kimi, 2 yaşında Oruc adında oğlu olan Nəbi Ovçu oğlu qayınatası Hümbət Səfər oğlunun ailəsində, qayınları Xudaverdi və Səfərlə bir yerdə yaşayır. Aydındır ki, ayrıca evinin olmaması qardaşı kimi onun da yoxsulluğunun göstəricisidir.

Nəbinin qayınatası, 51 yaşlı Hümbət Səfər oğlu da Mirzə və Nəbi kimi ayrımlı tayfasına mənsubdur.

Əgər Nəbinin Mirzənin qardaşı olduğuna hələ kimsə şübhə edirsə, Göyçə mahalının 1831-ci ilə aid kameral siyahısı birdəfəlik bu məsələyə son qoyur:

**“№53. ŞİŞQAYA KƏNDİ(1831-ci il).**

**Ayrımlı tayfası**

Bu kənd Göyçə gölünün şimal tərəfində və eyni adlı çayın yaxınlığında yerləşir. 300 xalvar suvarılan torpağı var, biçənəkləri olduqca çoxdur.

1.Kəndxuda Şahbəndə Nurı oğlu 80 y (onun arvadı); oğlu Nurı 45 y (onun arvadı və qızı); yeddi oğlu var: Alməmməd 20 y; Yarməmməd 18 y; Məmmədəli 15 y; İmamqulu 12 y; Əliqulu 10 y; Əmirqulu 7 y; Allahyar 1 y.

2. Bayram Oruc oğlu 45 y(onun arvadı və iki qızı); üç oğlu var: Mustafa 8 y; İsgəndər 6 y; Oruc 1 y.

3. Əli Oruc oğlu 30 y (onun iki arvadı və iki qızı); oğlu Abdulla 2 y.

4.Vəli Oruc oğlu 45 y (onun zrvzdı); iki oğlu var: Məmmədhəsən 10 y; İrza 7 y.

5.Hüseyn Yağınəli oğlu 50 y (onun arvadı və qızı); iki oğlu var: Məmmədbağır 30 y (onun arvadı və qızı); Ocaqqulu 20 y.

6.Gülməmməd Həsən oğlu 5 y (onun anası və iki bacısı); qardaşı Abbas 3 y.

7.Molla Hüseyn Molla Məmməd oğlu 40 y (onun arvadı və qızı); üç oğlu var: Cəfər 7 y; Qafar 5 y; Məmmədtağı 1 y.

8.Musa Molla Rəfi oğlu 45 y (onun arvadı və qızı); iki oğlu var: Məmməd 10 y; Əhməd 1 y.

9.Mustafa Molla Rəfi oğlu 35 y (onun arvadı və üç qızı); oğlu Rəhim 5 y.

**10.Mirzə Ovçu oğlu 30 y (onun anası); qardaşı Nəbi 15 y.**

11.Novruz Məhəmməd oğlu 35 y (onun arvadı); oğlu Qasım 2 y; qardaşı Süleyman 25 y (onun arvadı).

12.Polad Muradxan oğlu 30 y (onun arvadı və qızı); oğlu Allahverdi 3 y.

13.Salman Xəlifəqulu oğlu 45 y (onun iki arvadı və iki qızı); üç oğlu var: Nəzərəli 10 y; Mirzə 8 y; Allahqulu 4 y.

14. Oruc Muradxan oğlu 50 y (onun arvadı).

15.Musa Yağınəli oğlu 40 y (onun qızı); oğlu Dilənçi 7 y.

16.Sadıq İsmayıl oğlu 45 y (onun arvadı və üç qızı); iki oğlu var: Novruz 15 y; Salman 12 y.

17.Bayram Şahbəndə oğlu 30 y (onun arvadı).

18.Hüseyn Şahbəndə oğlu 35 y (onun arvadı); oğlu Allahverdi 1 y.

19.Hacı Məhəmməd Cəfər oğlu 40 y (onun arvadı və qızı); dörd oğlu var: Əhməd 12 y; Ramazan 10 y; Əmirqulu 8 y; Şahqulu 1 y.

20.Əli Yaqub oğlu 50 y (onun arvadı); dörd oğlu var: Sadıq 20 y; Qəhrəman 12 y; Salman 8 y; Məhərrəm 3 y.

21.Hüseyn Məhəmməd oğlu 40 y (onun arvadı və qızı); oğlu Bədəl 10 y.

22.Həsən Mehdi oğlu 42 y (onun qızı); üç oğlu var: Mehdi 20 y; Hüseynalı 13 y; İbrahim 3 y.

23. Süleyman Hümbət oğlu 30 y (onun arvadı); oğlu Zülfüqar 1 y.

24.Göyüş Hümbət oğlu 35 y (onun arvadı və qızı); iki oğlu var: Məmmədhüseyn 6 y; Hümbət 1 y.

25.Vəli Babacan oğlu 35 y (onun arvadı və üç qızı); oğlu Usub 1 y.

26. Əmin İmamqulu oğlu 40 y (onun arvadı və qızı); üç oğlu var: Əli 5 y; Vəli 3 y; Qulu 1 y.

27. Mehdi Bayandur oğlu 40 y (onun arvadı və qızı); dörd oğlu var: Bayandur 10 y; Kazım 7 y; Əli 4 y; Budaq 2 y.

28.Rüstəm Molla Rəfi oğlu 35 y (onun arvadı); qardaşı Qasım 7 y.

**Milli tayfası:**

1.Kəndxuda Abbasəli Məmməd oğlu 36 y (onun arvadı); oğlu Məmməd 1 y; iki qardaşı var: Hüseynalı 20 y; İmamverdi 18 y.

2.Kəndxuda Baba Ağaqasım ağa oğlu 25 y (onun dörd bacısı); qardaşı Məmməd 15 y.

3.Salman Süleyman oğlu 40 y (onun arvadı); iki oğlu var: Şıxəli 8 y; Məmmədəli 3 y.

4.Əlizaman Hüseynxan oğlu 30 y (onun arvadı); oğlu Hüseynalı 1 y.

5. Haxverdi Əli oğlu 20 y (onun arvadı və iki bacısı).

6. Oruc Məmməd oğlu 45 y (iki arvadı və qızı).

7. Abdulla Məmi oğlu 20 y; qardaşı Allahverdi 15 y.

8.Həsən Süleyman oğlu 20 y; üç qardaşı var: Məmmədhəsən 15 y; Bayraməli 12 y; Kərim 10 y.

9.İmamverdi Kərbəlayi İsmayıl oğlu 50 y (onun arvadı və iki qızı); iki oğlu var: Tanrıverdi 20 y; İsmayıl 18 y.

10.Abbas İbrahim oğlu 40 y (onun arvadı və üç qızı); üç oğlu var: Allahverdi 12 y; Xudu 6 y; Davud 3 y.

11. İsmayıl Məmi oğlu 35 y (onun arvadı və qızı); iki oğlu var: Mustafa 25 y; Səfi 20 y.

12. Rəcəbəli Səfəralı oğlu 40 y (onun iki arvadı); iki oğlu var: Cəfər 20 y; Qafar 3 y.

13. İmamverdi Fərəməz oğlu 40 y (onun arvadı və qızı); iki oğlu var: Nütvəli 4 y; Məmmədalı 1 y.

14.Allahqulu Fərəməz oğlu 50 y (onun arvadı və qızı); oğlu Ələkbər 3 y.

15. Muradəli Ağa oğlu 20 y (onun anası və bacısı).

**Qarapapaqlar:**

1.Məşədi Sadıq Şamqulu oğlu 40 y (onun arvadı və üç qızı); qardaşı Bağır 30 y (onun arvadı); oğlu Əliməmməd 2 y.

2. Mustafa Babacan oğlu 50 y (onun arvadı); oğlu Qərib 20 y.

3. Hüseyn Babacan oğlu 40 y (onun arvadı və qızı); iki oğlu var: Budaq 7 y; İmamqulu 2 y.

4. Məmmədalı Əhmədalı oğlu 40 y (onun arvadı və qızı); üç oğlu var: Əkbər 30 y; Əsgər 8 y; İbrahim 5 y.

5. Məmmədhəsən Cəfərəli oğlu 30 y (onun arvadı və qızı).

6. Kərim Səfiqulu oğlu 20 y (onun anası); iki qardaşı var: Rəhim 10 y; Qasım 3 y.

**Dəmirçili tayfası:**

1.Baba Məmməd oğlu 20 y (onun arvadı); oğlu Abbas 1 y; qardaşı İsgəndər 12 y.

2. Usub Nəbi oğlu 35 y (onun arvadı və iki qızı).

Əhalisi müsəlman olan Şişqaya kəndində 28 ayrımlı, 15 milli, 6 qarapapaq və 2 dəmirçili ailəsi olmaqla cəmi 51 ailə, 141 kişi, 110 qadın, cəmi 251 adam yaşayır.

Kənddə 4 baxımsız bəzirxana, 5 camış, 129 öküz, 213 inək, 201 buzov, 1406 qoyun və keçi, 78 at və 7 ulaq var".

Sənəddən görünür ki, 1831-ci ildə Şişqaya kəndində 4 tayfa-ayrımlılar, qarapapaqlar, milli tayfası və dəmirçili tayfasına mənsub olan 51 ailə yaşayırdı. Ayrımlı tayfası onların içərisində ən çoxsaylı olan tayfa idi-28 ailə. Aşıq Alının atası Mirzə və əmisi Nəbi əvvəlki siyahıdakı kimi, ayrımlıların içərisində yenə də 10-cu yerdədir:

**10. Mirzə Ovçu oğlu 30 y (onun anası); qardaşı Nəbi 15 y.**

Sənəddən görünür ki, ataları Ovçu rəhmətə gedib, hər ikisi hələ subay olan qardaşlar anaları ilə birlikdə yaşayırlar. 1842-ci ilə aid sənəddə Mirzənin 41, Alının isə 7 yaşında olmasına görə, belə hesab etməliyik ki, Mirzə təxminən 32-33 yaşlarında evlənib.

1831-ci və 1842-ci illərə aid sənədləri müqayisə edəndə gəldiyimiz başqa mühüm bir nəticə odur ki, 1842-ci ildə artıq millilər və dəmirçililər Şişqaya kəndini tərk ediblər və Şişqayada yalnız türklər yaşayır. Bu ayrılmanın hansı səbəbdən baş verdiyini isə hələlik bilmirik.

Ayrımlı türklərin Şişqayadan başqa harada yaşadıqlarına baxmaq da maraqlı olardı.

1831-ci ildə keçmiş İrəvan xanlığının **Dərəkənd-Parçenis mahalında yaşayan müsəlman əhalinin hamısı ayrımlı türkləri idi. Göyçə mahalının özündə də Şişqaya kəndindəki 28 ayrımlı ailəsindən başqa 14 ayrımlı ailəsi də Baş Keyti kəndində yaşayırdı.**

**Dərəçiçək mahalının 1831-ci ilə aid kameral siyahısında da iki kənddə-Dəllər(33 ailə) və Gəbər Əli (5 ailə)** kənd**lərində 38 ayrımlı ailəsi qeydə alınmışdır**.

Dərəkənd-Parçenis mahalının 1831-ci ilə aid Kameral təsvirinə yazdığı "İzahat yazısı"nda İ.Şopen qeyd edir ki, bu mahalın əhalisi əvvəlcə İrəvan Sərdarına ildə 1.000 tümən vergi ödəyirdi. Sərdar 1826-cı ildə ayrımlıların ödədiyi vergiləri 200 tümən azaldaraq 800 tümənə salmışdı, amma əvəzində, müharibə vaxtı ayrımlar döyüşə 200 nəfər atlı döyüşçü çıxartmalı idilər.

Dərəkənd-Parçenis mahalının keçmiş İrəvan xanlığının ən cənub-qərbində yerləşdiyini və Türkiyə ilə həmsərhəd olduğunu yazan İ.Şopen ayrımlı tayfasının mənşəyi haqqında bildirir ki, Türkiyənin Asiya hissəsindən çıxan bu türk tayfası buraya oradan gəlmiş, onların əsas hissəsi isə İrana keçərək Şahsevən tayfasını yaratmışdır. **Seyidli-Axsaxlı, eləcə də taşanlı tayfaları da ayrımlılardan ayrılmışdır.** Şopen onların buraya XI-XII əsrdə gəldiyini bildirir.

Beləliklə, məlum olur ki, Dərəkənd-Parçenis mahalından başqa, İrəvan xanlığına daxil olan  Seyidli-Axsaxlı mahalının sakinləri də əslində ayrım türkləridir.

**Beləliklə, Aşıq Alının niyə Türkiyəyə səfər etməsinin səbəbi də bizə məlum olur-əslidə həmin mühit Aşıq Alıya doğma olduğuna görə, orada uğur qazanması və Aşıq Yığvalı, Aşıq Zəkini** məğlub etməsi təbii sayılmalıdır.

**İ.Şopen Dərəkənd-Parçenis mahalında Koroğlu dağlarının mövcudluğu barədə də məlumat verir.**

Ayrımlı türkləri haqqında son olaraq onu da əlavə etməliyik ki, Şah İsmayılın qoşununun zərbə qüvvəsini və hakimiyyətinin dayaqlarını təşkil edən 7 türk tayfasından biri olan rumlu tayfası elə ayrımlı türkləridir.

Aşıq Alının ustadı Ağ Aşıq-Aşıq Allahverdi  istedadlı yetirməsinin Türkiyə səfəri zamanı Aşıq Zəkini, Aşıq Yığvalı bağlamasından böyük qürur keçirərək

*"Mahalımın şah tavarı,*
*Alqış sənə, Aşıq Alı.*
*Saldın kəməndə YığvalI,*
*Alqış sənə, Aşıq Alı.*

*Ustadının üzü ağdı,*
*Zəkiyə çəkdiyin dağdı.*
*Oğul, müjdəm xub soraqdı,*
*Alqış sənə, Aşıq Alı.*

*Duraxan da gəldi dada,*
*Əsməri də saldı oda.*
*Ağ Aşığın bu dünyada*
*Şöhrətisən, Aşıq Alı,*
*Alqış sənə, Aşıq Alı"*-

deyərək onu öyürdü.

Q.Zimistanoğlunun tərtibi və redaktorluğu ilə nəşr olunan **"Aşıq Alı.Əsərləri".(Bakı, 2013)** kitabın-

da(səh.346-347) Aşıq Alının şəcərəsi də verilmişdir. Çox güman ki, həmin şəcərə Aşıq Alının qohumları tərəfindən hazırlanmışdır. Amma həmin şəcərədə ciddi yanlışlıqlar var. Bizim təqdim etdiyimiz arxiv sənədlərində Aşıq Alının babası Ovçudan başlayaraq, həmin nəslin şəcərəsini izləmək mümkündür.

Kameral siyahılardan görünür ki, Alının atası Mirzə kişi, əmisi Nəbi və onların adını bilmədiyimiz anası 1831-ci ildə Şişqaya kəndinin ilk sakinləri arasında yer almışlar. Burada Mirzənin 30, Nəbinin isə 15 yaşında olduğu göstərilir. İ.Şopenə görə bu əhali 1814-cı ildə Göyçə mahalına yerləşib və görünür, o vaxt Mirzənin atası Ovçu da sağ imiş, çünki o vaxt Mirzə 13yaşında idi, Nəbi isə hələ anadan olmamışdı. Görünür, Nəbi Şişqayada doğulub. Şəcərədə Mirzənin atasının adı Haqverdi, Nəbinin atası isə Ovçu Məlik kimi göstərilib. Halbuki, əlimizdə olan bütün sənədlərdə hər ikisi Ovçu oğlu kimi yazılıb. Məlik adının Ovçu ilə birlikdə nə səbəbdən yazıldığını, eləcə də Mirzənin atası kimi təqdim olunan Haqverdinin kimliyini bilmirəm. Bəlkə də Haqverdi Ovçunun atası olub. Amma 1831-ci ildə Ovçu sağ olmadığına və siyahıya düşmədiyinə görə, onun atasının kim olduğunu indi müəyyən etmək mümkün deyil.

1859-cu ilə aid sənəddə Mirzənin ailəsininin 1852-ci ildə yaddan çıxıb yazılmadığı göstərilir. Deməli, Mirzə və qaradşı Nəbi 1852-ci ildən qabaq Şişqayadan Qızılvənkə gəliblər. Bir qədər əvvəl Nəbinin 1850-ci ildə Qərib adında oğlunun adına görə Qızılvənkdə doğulduğunu ehtimal etdiyimizə görə, bu qardaşlar 1850-ci ildən qabaq Qızılvənkə köçüblər.

Şəcərənin ən qüsurlu tərəflərindən biri odur ki, Mirzənin 1873-cü ildə 29 yaşında olan oğlu Abbasın da adı yoxdur, görünür, Alının qardaşı Abbasın nəsli gəlib çatmayıb və onun adı unudulub.

Şəcərədə Mirzənin qardaşı Nəbinin ailəsi ilə bağlı daha ciddi qüsurlar var. 1859-cu ilin siyahısında onun Oruc, Qərib və İsmayıl adında 3 oğunun adı qeyd edilmişdir (Oruc da Alı kimi Şişqaya kəndində, 1840-cı ildə doğulmuşdur). Şəcərədə isə Qərib Nəbinin oğlu deyil, qardaşı kimi təqdim edilir..

1873-cü ilin siyahısında Nəbinin balaca oğlu İsmayılın adı yoxdur, görünür, 17 yaşına çatmadan cavan ölüb, amma həmin sənəddə Nəbinin 11 yaşlı Həsən adında başqa bir oğlunun adı var. Şəcərədə isə Nəbinin oğlanlarından yalnız Orucun adı var, qalan 3 oğlunun adı yoxdur.

Şəcərədə Alının oğlanlarından 1870-ci ildə anadan olan Hüseynin də adı yoxdur, onun əvəzində cavan rəhmətə getdiyi bildirilən İsmayılın adı var. Görünür, Hüseyn də Nəbinin oğlu İsmayıl kimi cavan ölüb və nəsli davam etməyib.

Şəcərədə Alının oğlanları Abdulla ilə Məhəmmədin yeri də səhv salınıb, böyük qardaş 1858-ci ildə doğulan Abdulladır. Məhəmməd 1866-cı ildə, Hüseyn isə 1870-ci ildə doğulmuşlar.

Şəcərənin qüsurlarını əlbəttə, tədqiqatçı jurnalist Q.Zimistanoğluna aid etmək olmaz. Onun tərtib etdiyi kitabı Aşıq Alının hələlik ən mükəmməl nəşri saya bilərik. Tapıb üzə çıxartdığı “Aşıq Alının Türkiyə səfəri” adlı dastan əvvəlkinə nisbətən daha mükəmməldir. Həmin dastanda yer alan personajların yuxarıda təqdim etdiyimiz Kameral siyahılarda izlərini axtarıb nə dərəcədə tarixi şəxsiyyətlər olduqlarını da yoxlamaq qərarına gəldim.

Dastanda Mirzə kişinin arvadının adı Mənzər, qızının adı isə Pəri kimi təqdim edilir. O vaxtın sənədlərində qadınların adı yazılmadığına görə bu məlumatın doğruluğunu yoxlaya bilmədim.

Bəstinin atası Niftalı Şahəli oğlu haqqında artıq məlumat vermişəm. Bir daha təkrar etməliyəm ki, Niftalı dastan-

da Çamurlu kəndinin sakini kimi təqdim edilsə də, Çamurlu kəndi 1859-cu ildən sonra, 1863-cü ildən qabaq məskunlaşıb, Niftalı kişi oraya köçən 14 ailə arasında yoxdur və 1859-cu ildən qabaq Qızılvənk kəndində rəhmətə gedib. Böyük oğlu Abdullanın 1858-ci ildə doğulduğunu və Alının Bəstiyə 1 il nişanlı qaldığını nəzərə alsaq, elçilik hadisəsi 1856-cı ildə olub. Bu vaxt Alının 21, Niftalının 64, onun böyük oğlu Abbasın 34 yaşı vardı. Alı ilə Bəstinin evləndikləri 1857-ci ildə Niftalının hələ həyatda olduğunu qəbul etsək, deməli, o 1857-1859-cu illər arasında vəfat edib.

Elçiliyə gedən Hacı Məcnun (Məjdun və ya Məjlum kimi tələffüz edirdilər) 1859-cu ilin kameral siyahısında Qızılvənk kəndində 8 nömrəli ailə kimi siyahıya düşüb:

**QIZILVƏNK KƏNDİ.1859-cu il.**

**8.12. Məjlum Əhməd oğlu 40 y; qardaşları: 1)Mehdi 25 y(onun oğlu İrza 2 y); 2)Mirzə 20 y(5 qadın).**

1859-cu ildə 40 yaşı olan Məjlum Əhməd oğlunun elçiliyə gedəndə 37 yaşı vardı. Onun doğrudan da varlı-karlı adam olduğunu düşünə bilərik, çünki 1873-cü ilin kameral siyahısında adı 1-ci yerdədir, çox güman ki, kəndin kəndxudasıdır:

**QIZILVƏNKKƏNDİ. 1873-cü il.**

**1.8. Məjlum Əhməd oğlu 54 y; oğlu Musa 6 y; qardaşları: 1)Mehdi 39 y(onun oğlanları: Həmzə 8 y; Nadir 5 y; Əhməd 3 y); 2)Mirzə 34 y(onun oğlanları: Misri 10 y; Xozrı 6 y; İsa 4 y(ailədə 11 kişi, 9 qadın var).**

İkinci elçi kimi təqdim edilən Seyid Əlini müəyyənləşdirmək mümkün olmadı. 1859-cu ilə aid sənəddə ümumiyyətlə seyid yoxdur, 1873-cü ilin kameral siyahısında isə 27-ci ailədə Allahverən Seyid Cəbrayıl oğlu adlı şəxsin das-

tandakı Seyid Əliyə nə dərəcədə aidiyyatı olub-olmadığını müəyyənləşdirmək çətindir.

Aşıq Alının təzə nişanlanan vaxtlarında Niftalı kişinin evində məclis qurmasından, Koroğlu dastanını rəvayət edərkən səsinin gücündən evdəki lampaların sönməsindən, məclisin ağsaqqalı kimi Hacı Nağı adlı bir şəxsdən bəhs edilir. 1859-cu ilin kameral siyahısında onun da adı var:

**QIZILVƏNK KƏNDİ.1859-cu il.**

**2.2. Nağı Abbas oğlu 40 y; oğlu Abdulla 5 y; qardaşı Mehdi 28 y; onun oğlanları: 1)Yusif 12 y; 2)Nəsib 6 y; 3) Məsim 3 y(7qadın).**

Kəndin siyahısında adının 2-ci yerdə olması onun doğrudan da nüfuzlu şəxs olduğunu göstərir.

Dastanda Aşıq Alının Çimənkəndli Bağır xanın məktubu ilə Aralıq Kolanı kəndinə Aşıq Duraxanın yanına getdiyi rəvayət olunur. Burada Əsəd adlı qalyanqorçu, xoşxasiyyət adamı da götürüb Osmanlı torpağına gedirlər. Şişqaya kəndinin 1842-ci ilə aid kameral siyahısında Duraxan və Əsəd adında iki nəfər doğrudan da var. Ola bilsin ki, Aralıq Kolanıya aid edilən şəxslər həmin Şişqaya sakinləridir, amma bu bir ehtimaldır:

**ŞİŞQAYA KƏNDİ.1842-ci il.**

**29.Duraxan Məhəmməd oğlu 30 y; oğlu Məmmədalı 5 y; qardaşı Niyazəli 20 y.**

**30.Abdulla Abdulla oğlu 30 y; qardaşlıarı: 1)Əsəd 32 y; 2)Məhəmməd 15 y.**

Maraqlanan oxucular əlbəttə, dastanda adı çəkilən digər personajları da axtara bilərlər.

Dastanda baş verən hadisələr 1856-1857-ci illərin hadisələridir. Dastanın qiymətli sayılacaq mühüm bir tərəfi isə həmin dövrdə Şərqi Anadoludakı mühit, sakinlərin məişəti

və həmin dövr üçün insanların dünyagörüşü haqqında maraqlı məlumatlar verməsidir.

Deyirlər ki, evindən-eşiyindən, doğma kəndindən uzun müddət ayrı düşən Aşıq Alı rast gəldiyi gözəl bir təbiət mənzərəsindən duyğulanmış və bədahətən bu şeiri demişdir:

**Bənzərsən**

*Süsənli, sünbüllü, tər bənövşəli,*
*Yaylaq, bizim yaylaqlara bənzərsən.*
*İçən ölməz abı kövsər suyundan,*
*Bulaq, bizim bulaqlara bənzərsən.*

*Əyricə, Verst dağı, Xankirt bulağı,*
*Ağ sürülər Sarıyaldan yuxarı.*
*Gözəllər seyr edər o oylaqları,*
*Oylaq, bizim oylaqlara bənzərsən.*

*Cənnət olur bizim yerin bu çağı,*
*Ağ lavaşı, kərə yağı, qaymağı.*
*Qızlar dəstələnib gəzər bulağı,*
*Çaylaq, bizim çaylaqlara bənzərsən.*

*Aşıq Alı deyər üç gözəl dərə,*
*Çiçəkli, Şaqaylı, xoş gözəl dərə.*
*Əyricə, Verst dağı, Baş Gözəldərə,*
*Üç dağ, bizim üçdağlara bənzərsən.*

Amma Ustad Alı öz parlaq istedadı, gözəl şeirləri ilə bənzərsizdir, təkrarolunmazdır!

Aşıq Alı öz keşməkeşli həyatını aşağıdakı qoşmasında belə rəvayət edir:

## SÖZ OLDU

*Fələk mənə cövr eylədi dünyada,*
*Yaxşı günüm yaman gündən az oldu.*
*Bəydən nəmər aldım, ağadan ənam,*
*Muxtəsəri, qazandığım bez oldu.*
*Mən xabi-qəflətdə yatıb qalmadım,*
*Nakəs adamlarla ülfət qılmadım.*
*Mülkə, vara, zərrə tamah salmadım,*
*Cox gördum zər-ziba bir gün toz oldu.*

*Cavanlığım qeybə cıxdı əlimdən,*
*Həlqə oldu gündən-günə belimdən.*
*Yaxın, uzaq incimədi dilimdən,*
*Şükür həqqə, əməllərim düz oldu.*

*Bir murğ tək leylü-nəhar hey uçdum,*
*Bilənlərdən bilmədiyim soruşdum.*
*Müxənnətlə, bimürvətlə vuruşdum,*
*Nakəslərin dərdi artıb yüz oldu.*

*Gəlib gedir yaxşılar da, yaman da,*
*Qu tükündə, saman üstə yatan da.*
*Aşıq Alı, nə qazandın cahanda?..*
*Səndən qalan qatar-qatar söz oldu.*

## Gəşt eylədim Bağdad, Bəsrə, Buxara

Aşıq Alının etnik mənsubiyyətini milli tayfasına bağlamağa çalışan, Ağ Aşığı isə türk sayan Əli Əbülhəsənoğlunun hər iki halda səhv etdiyi üzə çıxır.  Əvvəlcə onun Ağ Aşıq haqqında dediklərinə bir daha qayıdaq: **“Allahverdi Sulduzlu Qara Osmanın oğludur, Qara Osman milliyətcə türkdür. O, vaxtilə Şah Abbas, Nadir şah dövründə İrana aparlan gürcülərin törəməsi Tamara adlı qızla evlənmişdir. Qara Osman Mədinədə, Kərbəlada təhsil almış axund idi”.**

Ağ Aşığın milli mənsubiyyətinə toxunmazdan qabaq əvvəlcə onun haqqındakı rəsmi məlumatlara müraciət edək. **(Maraqlıdır ki, özünün dediyi kimi, Aşıq Ələsgərin əlinə saz almayan atası Alməmmədi müraciət etdiyimiz “Sazlı-sözlü Göyçə” (Bakı.2002) kitabına daxil edən** İ.Ələsgər bu kitaba Ağ Aşığı-Aşıq Allahverdini daxil etməmişdir).

İ.Ələsgər “Haqq aşığı Ələsgər” (Bakı, 1999) kitabında Alməmmədin atası (əslində qardaşı) Allahverdiyə aid etdiyi bir təcnis verir və hələ 1971-ci ildə yazdığı namizədlik dissertasiyasında da bu məsələdən bəhs etdiyini, sonradan bu şeirin səhv olaraq Hüseyn Hüseynzadə (H.Arif) tərəfindən Aşıq Alıya, “Ustad aşıqlar” kitabının tərtibçiləri P.Əfəndiyev, N.Məmmədova və M.Həkimov tərəfindən isə Aş Aşıq Allahverdiyə aid edilməsindən  narazılıqla söz açır:

*Bu gün seyraqubdan bir söz eşitdim,*
*Bu söz səndən deyil, ayə, məndəndi.*
*Dedim: nədi, sədrin üstdə bəslərsən?*
*Dedi ki, tifillər ay əməndədi.*

*Sevdiciyim geyinibdi bu xara,*
*Qönçə güllər layiqdirmi bu xara?!*
*Gəşt eylədim Bəsrə, Bağdad, Buxara,*
İndi də gəlişim a Yəməndəndi.

*Allahverdi qırxdan içdi nə camı?!*
*Nə axunddu, n*ə molladı, nə camı(?)
*Nə Firdovsi,nə Füzuli, nə Cami!*
*Təcnis sinədəftər,ayə məndəndir!*

Bağdad, Bəsrə və Buxara şəhərlərinin adını bilib-bilmədiyini bir kənara qoysaq belə, tutaq ki, İslam müəllimin qohumu Allahverdi Firdovsi və Füzulini də tanıyırdı (bunun belə olmadığını bilə-bilə bu ehtimala yer verirəm), amma onun indinin özündə də çox ali təhsilli adamlara məlum olmayan Əbdürrəhman Camini tanıması qeyri-mümkündür. Üstəlik, burada "Gəşt eylədim Bəsrə, Bağdad, Buxara" cümləsi şeir müəllifinin səyahətlərdə olduğunu göstərir. Allahverdi Haxverdi oğlunun isə oralara səfər etmədiyi hər kəsə gün kimi aydındır.

Bu şeiri Ağ Aşığa, yoxsa Aşıq Alıya saymalı?

Əgər Ə.Əbülhəsənoğluna inansaq, Ağ Aşığın atası Qara Osman Mədinədə və Kərbəlada təhsil almışdır. Güman etmək olar ki, oğlu Allahverdi də oxşar səyahətlərdə olmuşdur. Aşıq Alının da səyahətlərdə olduğu faktına gəlincə, onun Türkiyə səfəri haqqındakı dastandan məlum olur ki, Alı İndiki Türkiyə Respublikasının Şərqi Anadolu vilayətlərində olmuş və oradan o tərəfə keçməmiş, üstəlik Bəsrəyə, Buxaraya və Bağdada səfər etməmişdir. Ola bilər ki, bu təcnis nə Ağ Aşığa, nə də Aşıq Alıya deyil, ümumiyyətlə başqa bir aşığa aiddir. Aşıq Ələsgərin əmisi Allahverdi Haxverdi oğlunun isə bu şeirin müəllifi olmadığı şübhəsizdir. Çünki o nəinki səfərlər etməmiş, yuxarıda qeyd etdiyim kimi, Əb-

dürrəhman Camini tanıması qeyri-mümkündür. Onu ancaq dərin biliyi olan adam tanıya bilərdi və tanış olduğumuz tərcümeyi-halı Ağ Aşığın məhz bu cür şəxs olduğunu sübut edir.

Ağ Aşığın həyatı haqqında Azərbaycan folklorşünaslığının mövqeyini ifadə edən versiya kimi professor Q. Namazovun aşıq haqqında yazdıqlarına üstünlük verdim. Professor **"Ozan-aşıq sənətinin tarixi" (Bakı,2013)** adlı monoqrafiyasında yazır:"Rənginin ağlığına görə Ağ Aşıq kimi məşhur olan Aşıq Allahverdi təxminən 1750-ci illədə Göyçə mahalının Kərkibaş kəndində doğulub. Burada yüz ilə yaxın ömür sürüb, təxminən 1850-ci illərdə dünyasını dəyişmişdir.

Aşıq Allahverdinin yaşadığı dövr Azərbaycanda (Nadir şahın ölümündən sonra) xanlıqların müstəqilləşdiyi, eyni zamanda bir-biri ilə qanlı müharibələr apardığı, bir-birinin kəndlərini, torpaqlarını ələ keçirdiyi dövr idi. Göyçə də bu qanlı müharibələrin məngənəsində tez-tez əldən-ələ keçir, soyulub talan edilirdi. Aşıq Allahverdi bir el sənətkarı, el təəssübkeşi kimi İrəvan xanlığının zorakı hərəkətlərinə, yerli kəndxudaların özbaşınalığına qarşı çıxdığına görə təqib olunur, nəhayət, əlacsız qalıb Yaxın Şərqin müxtəlif şəhərlərinə səfərlər edirdi. Ömrünün çoxunu gəzərgi həyat keçirdiyindən, aşığın tərcümeyi-halı dolaşdırılmış, hətta Şəril mahalının Kosacan kəndindən olan eyniadlı Ağ Aşıq Allahverdi ilə qarışdırılmışdır. Doğrudan da, Göyçəli Aşıq Allahverdi bayatı və qoşmalarında dəfələrlə Göyçənin adını doğma eli-obası kimi xatırlamışdır:

*Əzizim, Göyçəyə mən,*
*Qurbanam Göyçəyə mən.*
*Viran qalsın Urumu,*
*Həsrətəm Göyçəyə mən.*

Yaxud:

*Əlqərəz, ruzumuz oldu üç batman,*
*Çatınca nobatım sındı dəyirman.*
*Yerdə qalanını apardı siçan,*
*Güldü Ağ Aşığa Göyçə mahalı.*

Doğma yurdunda aşığın həyatı çox ağır keçmiş, incidilmiş, təhqir edilmiş, digər tərəfdən, oğlu İsmayılın vaxtsız ölümü də aşığa ağır bir dərd olmuşdur. Bütün bunları aşıq "Çəkirlər" rədifli qoşmasında çox aydın ifadə etmişdir:

*Sığındım Göyçəyə, bu mahala mən,*
*Dərdim Sarı nərdən nərgiz, lala mən.*
*İtirmişəm İsmayıltək bala mən,*
*Sinəmə çal-çarpaz yara çəkirlər.*

*Allahverdi dərd əlindən dəlidi,*
*Kənddə koxa qanı soran zəlidi.*
*Gözüm yaşı Qığsoy çayın selidi,*
*Canımı atəşə, nara çəkirlər.*

Şeirlərindən bəlli olur ki, Aşıq var-dövlət üstündə incidilib, hətta yurdundan sürgün edilib. Araşdırmalardan aydın olur ki, Göyçə tabe olduğu İrəvan xanları tərəfindən talançılığa və ağır vergilərə məruz qalmışdır. Ağ Aşıq da bunlara etiraz etdiyinə görə incidilib, var-dövləti əlindən alınmışdır. Hətta "Ağ Aşıq və Sənubər" dastanından və şeirlərindən anlaşılır ki,(Sərdara ağ dərili adamın qanının müalicə üçün lazım olması dastan yaradanların uydurmasıdır) Aşığı cəzalandırmaq üçün Sərdarın sarayına aparmışlar. Sərdar Ağ Aşığın çox mahir bir sənətkar olduğunu görüb və bir neçə il öz yanında saxlamış, sonra azad eləmişdir. Aşıq kəndxuda-

ya və Sərdar Hüseynə (Sərdar Hüseyn çox güman ki, İrəvan Sərdarı(1807-1827) Hüseynqulu xandır) münasibətini çox aydın şəkildə bildirir.

Ağ Aşıq Allahverdi dövrünün çox nadir bir saz-söz ustası kimi tanındığından və başı çox bəlalar çəkdiyindən, dünyasını dəyişdikdən sonra həyatı əfsanələşmiş, onun gah Sulduz mahalından, gah Naxçıvanın Kosacan kəndindən, gah da Qazaxdan olması barədə müxtəlif ehtimallar, fərziyyələr yaranmışdır. Hətta milliyətcə erməni qələmə verənlər də olmuşdur. Ancaq Ağ Aşığın nadir bayatıları, gəraylıları, qoşmaları və təcnisləri onun qüdrətli bir el sənətkarı, həm də zamanının açıqgözlü, mübariz bir şəxsiyyət olduğunu göstərir”**(adı çəkilən əsəri, səh.270-272).**

Bu gətirilən sitatda Aşıq Allahverdinin görkəmli bir sənətkar olması barəsindəki fikirlərindən və bəzi mülahizələrindən başqa, professorun qalan fikirləri ilə heç cür razılaşmaq olmaz. Əvvəla, Aşıq Allahverdi siyasi xadim deyildi ki, təqiblərə məruz qalsın, ikincisi isə, əgər İrəvan Sərdarı onu bir neçə il öz yanında saxlamışdısa, hansı təqibdən söhbət gedə bilərdi?

Üçüncüsü isə, sovet tarixşünaslığında zəbt etdiyi ərazilərə görə Rusiya imperiyasına haqq qazandırmaq üçün yerli idarəçiləri qəddar, qaniçən kimi göstərib rus işğalını həmin ərazidə yaşayanların xilası kimi qələmə vermək dəb halını almış uydurma iddialar idi, halbuki həmin işğalı həyata keçirən çarizmin tarixçiləri daha vicdanlı idilər və bizə artıq tanış olan İ.Şopen də Sərdar Hüseyn xan haqqında çox yüksək fikirlər söyləmiş, onu mahir təsərrüfatçı adlandırmışdı. Professor göyçəlilərin agır vergilərlə talan edildiyindən bəhs etsə də, Şopenin şahidliyinə görə, Sərdar göyçəlilərdən ümumiyyətlə vergi almır və əslində “Şah Abbasın dövründən boş qalan Göyçəni” (**ifadə Şopenindir-N.Ə.)** İrəvan Sərdarı başqa ərazilərdən (çox güman ki, İrandan)

köçürüb gətirdiyi qarapapaqlar, milli kürdləri və başqa tayfalarla məskunlaşdırmış, onları vergilərdən azad edərək, sərhədlərin qorunmasında yardım etmələrini istəmişdi. Verilən güzəştlərin əvəzində Göyçəlilər müharibə zamanı döyüşə 1.000 nəfər süvari döyüşçü çıxartmalı idi. Şopen bu köçürmənin tarixini 1814-cü il olaraq göstərir (adı çəkilən əsəri, səh.446). Qacarlar sülaləsindən olan Hüseynqulu xanın idarə etdiyi İrəvan xanlığı mərkəzi Tehran hökumətinə tabe idi, amma əslində ona nəinki vergi ödəmirdi, əksinə, rus işğalından qorunması üçün mərkəzi hakimiyyət özü ona maliyyə yardımı edirdi. Ona görə də **nə Tehrandakı Qacarlar sülaləsinin (Fətəli şah), nə də İrəvan Sərdarının xalqı çapıb-talamasından danışmaq olmaz və bunun əksini iddia etmək həm tarixi bilməmək, həm də böyük ədalətsizlikdir.** Aşıq Allahverdinin hansısa yerli idarəçi ilə, tutaq ki, kəndxuda ilə münaqişəsinin olub-olmadığını bilməsək də, bunu Sərdar Hüseynqulu xanın adına çıxmaq düzgün deyil.

Tarixdən məlumdur ki, üç dəfə rusların hücumuna məruz qalan İrəvan xanlığı son imkanına qədər müqavimət göstərmiş, digər xanlar kimi satqınlıq etməmiş, yalnız qüvvələr nisbətinə görə işğaldan yaxa qurtara bilməmişdir. Bu xanlığın isə Rusiya imperiyası üçün o qədər önəmi vardı ki, 1808-ci ildə İİrəvanı tuta bilməyən ruslar Naxçıvanı da tərk edərək getmişdilər.

Xanlığı iqtisadi cəhətdən və bunun köməyi ilə müdafiə baxımından da gücləndirmək istəyən Sərdar Hüseynqulu xan xanlığın ərazisindəki digər boş əraziləri də əsasən qarapapaqlar və başqa türk tayfaları ilə məskunlaşdırırdı, bu ərazilərdən biri də onun adını daşıyan Sərdarabad mahalı və eyni adlı qala idi.

Azərbaycan ədəbiyyatşünaslığında Aş Aşıq haqqındakı, xüsusən, onun doğumu və ölümü haqqındakı məlumatlar da

prof. Q.Namazovun fikirlərinə yaxındır. Məsələn, **Vikipediyaya** görə Ağ Aşıq 1754-cü ildə Kərkibaş kəndində anadan olmuş və 1860-cı ildə, 106 yaşında orada da vəfat etmişdir. Yəni Aşıq Alı və Aşıq Ələsgər kimi onun da 100 ildən yuxarı yaşadığı qəbul edilmiş normaya çevrilmişdi. Bir qədər sonra görəcəyik ki, bu rəqəm də ciddi şəkildə şişirdilib və digər məşhur xələfləri kimi o da 100 ildən xeyli az yaşayıb.

Ağ Aşıq haqqında ədəbiyyatşünaslığımızdakı bu rəsmi mövqedən fərqli internetdə bir yazı diqqətimi çəkdi və əhəmiyyətini nəzərə alaraq oxucularla bölüşmək istədim. Onun müəllifi A.O.Kərimlidir. Həmin məqaləni ixtisar etmədən təqdim edirəm**(musigi-dunya.az. saytı):**

**A.O.Kərimli. "Göyçə aşıq məktəbi". Musiqi dünyası jurnalı,**
**"AĞ AŞIQ ALLAHVERDİ**

Yazıqlar olsun ki, Ağ Aşıq kimi tanınmış Aşıq Allahverdi haqqında bilgilər də biri-birinin əksidir. Miskin Abdal kimi onu da Arazın o tayına bağlamaq həvəsində olanlar var. Şəxsən buna qarşı olmasam da, araşdırıcı üçün arxiv bilgilərinin yoxluğu durumunda sənətkarın öz nəslindən, ən yaxın qohumlarından faydalanmağı daha üstün sayıram. Ağ Aşığın kötükcəsi, hazırda Bakıda yaşayan Əhmədov Əziz, nəzərimcə və hər halda daha etibarlı bilgi qaynağıdır. Və onun söylədiklərindən sonucda aydınlaşdırdıqlarımız aşağıdakılardır:

1. Ağ Aşığın - Allahverdinin babası Şeyx Osman sufi-dərviş təkkəsinin mürşüdü imiş və müridləri ilə quzeydən-çox güman, Qazax-Şəmşədil yaxud da həmin bölgəyə aid Qaraqoyunludan köçüb Şərurda, Arazın qırağındakı Kosacan kəndində yerləşibmiş. Doğrudan da, vurğulamalıyam ki, Arazın güneyində və Naxçıvanda - qatı fanatik şiə mühitində Osman adı mümkünsüz idi və indi də belədir.

2. Şeyx Osman və oğlu Qara Osmanoğlu, aşıq olmasalar da, gözəl saz çalıb oxuyurmuşlar. Yəni onların «... aşıqlığı...təkkə mərasimi çevrəsindən kənara çıxmayıbmış». Lakin Allahverdi «coşub-daşdığından», xalq yığnaqlarına can atdığından, dindar çərçivəyə sığmadığından təkkədən, atasından, babasından üz döndərir,- bir sözlə, onların üzünə ağ olur. Və anadangəlmə saçı-saqqalı, qaşı-kipriyi ağ Allahverdinin xalq arasında Ağ Aşıq adı ilə tanınmasını «böyüyün üzünə ağ olmağı» ilə bağlamaq daha düzgün olardı. Yeri gəlmişkən deməliyəm ki, Əziz Əhmədovla tanışlıqdan çox-çox öncə, Ağ Aşığın «ata-babasının üzünə ağ olmağını» mənə dünyalarını dəyişmiş Aşıq Əkbər və Mikayıl Azaflı söyləmişdilər) .

3. Atası Qaranın şairliyi yoxuymuş, lakin babası Şeyx Osmanın söz deməyi var imişsə də, heç bir nümunəsi bizlərə gəlib çatmayıb. Hər üçü gözəl təhsil görüblərmiş. Ağ Aşığın bacısı da saz-söz sənətinin bilicisiymiş və Kosacanda gəlin olduğuna baxmayaraq, ölənədək sazı yerə qoymayıb.

4. Ağ Aşığın iki oğlu olub: İsmayıl və Məhərrəm. Həyat yoldaşı Arazın o biri tayından, Telli Cəfərin qızı Süsənbər xanım imiş ki, «Süsənbəri» havasını onun adıyla bağlayırlar. Məhərrəm lap gənc ikən dünyadan köçür. İsmayılın (Əziz Əhmədovun anasının babası) oğlunun adını Allahverdi qoyurlar. Onun da iki oğlu 1914-cü ildə 13-14 yaşlarında dünyalarını dəyişirlər. Beləliklə, Allahverdinin qız nəvələrinin törəmələri 1988-ci ilədək Göyçənin Qanlı və Kərkibaş kəndlərində, hətta Tiflis şəhərində yaşayırmışlar. Bacılarının törəmələri isə Bala Məzrə, Sətənəxaç kəndlərində və İrəvanda məskən salıblarmış.

5. Aşıq Allahverdinin Göyçəyə köçməyinin iki səbəbi olub: 1) atasının ölümündən sonra üzərinə düşən ailə ağırlığı; 2) Qacarların İranda və Qafqazda tüğyan etməsi.

6. Allahverdiyə Allah vergisi verildiyindən, çalıb-çağırmağı xəstələri sağaldırmış. Həmin xəbər Şərqi Anadolu hakimlərindən Sərdar Hüseyn paşaya çatır. Yuxusuzluqdan əzab çəkən Sərdar Hüseyn paşa əmr edir ki, aşığı, nəyin bahasına olursa-olsun, tapıb gətirsinlər. Göndərilən silahlı dəstə onu Şərurda (Şərildə) çox axtarır, sonra Göyçəyə keçib tapır və Ruma aparırlar.

Ağ Aşıq 5 ilə yaxın Rumda qalır. Deyilənlərə görə, ilk çalıb-çağırmağı ilə Sərdar Hüseyn yuxuya gedibmiş. Yaxın adamları onu ölmüş bilib, Allahverdini öldürmək istəyirlər, lakin çağrılan həkim paşanın nəbzini yoxlayıb, yuxuya getdiyini bildirir. Sərdar Hüseyn 2 gün 2 gecə yatıb oyanır və həmin andan Ağ Aşığı yanından buraxmır; hara getsə, onu da özüynən aparırmış.

Günlərin birində Sərdar Hüseyn paşa böyük bir məclis yığır. Qonaqlar soruşurlar ki, "bu aşığı haradan tapmısan?" Sərdar Hüseyn deyir: "Mən onu Göyçə mahalından gətirtmişəm. Yuxum tamam çəkilmişdi, o isə sağaldıb. İndi 5 ilə yaxındır ki, yanımdadır". Qonaqlar deyirlər: "Yazıqdır, onun da ailəsi var. Burax getsin". Sərdar Hüseyn Allahverdiyə qızıl yəhər-yüyənli at və çoxlu pul bağışlayıb, yola salır. Ağ Aşıq Göyçəyə üz tutur. Onun yolda dediyi:

*"Durnam, gedər olsan bizim ellərə,*
*Qatıq söylə, qaymaq söylə, yağ söylə.*
*Əgər soruşsalar Ağ Aşığın halını,*
*Boynu armud saplaq, canın sağ söylə"*

- bəndi ilə başlanan şeiri bizlərə gəlib çatıb.

7. Əziz Əhmədov Kərkibaşda yaşı 100-ü haqlamış ağsaqqalları öz ulu babası haqqında çox-çox sorğu-suala tutub. Onların söylədiyinə görə, "Ağ Aşıq başdan ayağadək ağ tük rəngində idi. Papağı gözünün üstünə çəkərdi. Tük, sifət, barmaqlar, - hamısı ağappaq idi. Çuxa, buxara papaq və İran məsti ("əcəmi çarıq" da deyərdilər o zaman!) geyər-

di. Geydiyi çuxa həmişə şabalıdı rəngdəydi. Kim olursa-olsun, heç zaman hərcayı-hədyan sözlərə baş qoşmazdı. Çox ağır dolanan, "şair yolu gözləyən, usta yanında hərəkət eləyəndi". Ağzından bircə ağır söz belə qaçırmazdı. Heç kim və heç nə qarşısında əyilməzdi. Çox zilnən oxuyardı". Ağ Aşıq ömrünün son 15 ilini çalıb-oxumazmış, lakin söz qoşurmuş. Əziz Əhmədovun ata-babası onu beləcə görüb.

8. Yaşadığı illər haqqında əks fikirlər var. Məsələn, tanınmış filoloq-araşdırıcı Mürsəl Həkimov onun ömrünü 1754-1860 arası, Ziyəddin Məhərrəmov isə XVIII yüzilliyin sonu-XIX yüzilliyin əvvəli kimi göstərirlər. Mənim araşdırmama görə, Ağ Aşığın ömrünü 20 il öncəyə çəkiblər və bu sonuca onun kötükcəsinin verdiyi bilgilər əsasında gəlmişəm. Həmin bilgilərə üz tutaq:

a) Ağ Aşıq Alını 17 yaşında, özü də Türkiyədən qayıtdıqdan sonra şagirdliyə götürüb. Deməli, Aşıq Alının şagirdliyə başlaması, haradasa, 1818-ci ilə düşür. Digər tərəfdən, Ağ Aşıq doğma yurd-yuvasına 40-45 yaşlarında qayıdıb. Deməli, o, haradasa, 1770-1775-ci illərdə dünyaya göz açıb.

b) Əziz Əhmədovun 1977-ci ildə dünyadan köçmüş ata babası Babaşov Əhməd söyləyirmiş ki, "mən 1870-ci ildə dünyaya göz açmışam və öz gözümlə Ağ Aşığı görmüşəm. O, bir sinirli kişiydi, artıq saz çalmırdı. 10 yaşım olanda həmin kişi rəhmətə getdi".

c) Nəhayət, əldə olan bilgiyə görə, tanınmış Tovuz-Şəmşədil ustadı Öysüzlü Səməd 7 il Ağ Aşığa «qulluq» edibmiş. Əgər Aşıq Səmədin 1918-ci ildə 70, yaxud bir qədər artıq yaşında dünyadan köçdüyünü nəzərə alsaq, onun şagirdliyinin haradasa 1865-1870-ci illərə düşdüyü aşkarlanacaq. Lakin bircə çətinliyimiz ondadır ki, Ağ Aşıq son 10-15 ilini çalıb-çağırmırmış. Bəlkə də, ancaq öyrədirmiş?!

Hər halda Ağ Aşığın 1775-1880-ci illərdə yaşaması daha ağlabatandır.

9. Əziz Əhmədovun söylədiyinə görə, Keşişoğlu adlı üç aşıq yaxud şair Ağ Aşığın çağdaşı olub və hətta onunla deyişib: 1.Borçalıdakı Keşişoğlu; 2.Naxçıvanlı Keşişoğlu və 3.Bala Məzrəli Keşişoğlu. Deyişmələrdən ancaq biri bizlərə gəlib çatıb.

10.Ağ Aşığın gəzib-dolaşdığı, çalıb-çağırdığı coğrafi çevrə özündən sonrakılarla tutuşdurula bilməz. Misirdən Şərqi Türküstana kimi gəzib dolaşdığı güman olunur və bir təcnisində özü buna işarə edir. Lakin Məkkəni ziyarət etdiyi haqda heç bir bilgi yoxdur.

11.Əziz Əhmədovun söylədiyinə görə, Aşıq Alı da öz ustadı kimi, savadlı imiş və Ağ Aşığın qoşduğu bütün sözləri bir əlyazmaya toplayıbmış. Kəlbəcərə köçərkən həm öz sözləri, həm ustadı qoşduqları əlyazmaları yerli şagirdlərdən birinə bağışlayır. 1937-ci ildə əski ərəb əlifbası ilə yazılmış əlyazmalar (oxuya bilmirlərmiş!) cəzalanma qorxusu altında yandırılır.

12.Kötükcəsinin dediyinə görə, Babacanlı Aşıq Qədir (onun haqqında sonra söhbət açacağıq!) dünyasını dəyişənədək Ağ Aşıqdan bildiklərini M. Həkimova tam şəkildə verməyib və qalanları onun oğlanlarındadır. Aşıq Alının törəmələrində, məsələn, Gədəbəyin Slavyanka kəndində Qaytaran adlı iqtisadçıda və vaxtı ilə Kəsəmən kəndində yaşamış Molla Muxtarın oğlanlarında Ağ Aşığın şerləri və hekayətləri toplanıb. Kötükcəsinin özü də az-çox topladığını qoruyub saxlayır.

Ağ Aşıqdan əldə etdiyim bilgilərin çoxunu açıqlasam da, araşdırmanın ən başlıca məqsədinə yaxınlaşıram. Ulu Göyçə yüzilliklər boyu onlarla, yüzlərlə saz-söz sənətkarı yetişdirib ki, onların sayəsində öz ənənələrini XX yüzilliyin sonunadək, çox böyük çətinliklər və qurbanlar hesabına qoruyub saxlasa da, bütöv Azərbaycan çevrəsində ən tanınmış, ən öncül ustadın xalqımıza verdiyi ən ölçüyəgəlməz

faydaya, - onun ləyaqətli yetirmələrinə üz tuturuq. Çünki Ağ Aşıq nə dərəcədə Ağ olsa da və hətta bütün bəşəriyyətin üzünə ağ olsa da (əlbəttə, əfsanələrdə!) onun üzünü tariximiz və milli mədəniyyətimiz qarşısında daim ağardan yetişdirdiyi sənətkarlar olub. Burada «İman Əlisi» kimi tanınmış Zərzibilli Aşıq Əlinin dediklərini (maqnit lentə yazılıb!) olduğu kimi çatdırmağı özümə borc bilirəm:

«Sən bir Aşıq Allahverdinin böyüklüyünə bax ki, ustadlar Ustadı Ələsgər kimi nəhəngin Ustadı Aşıq Alını ərsəyə çatdırıb».

İxtisarsız təqdim etdiyim bu yazının müəllifi də əksər müəlliflərin səhvlərini təkrar edir, İrəvan Sərdarı haqqındakı səhv fikirlərə həmmüəlliflik edir, onu hətta türk paşası kimi təqdim edir, aşığın atasını və babasını dolaşıq salır. Müəllifin istinad etdiyi Əziz Əhmədov bilməsə də, məqalə yazıb ictimaiyyətin diqqətinə çıxaran adam bilməli idi ki, hər hansı Osmanlı paşası silahlı adam göndərib kimisə Göyçədən Osmanlı dövlətinə apara bilməzdi, çünki Göyçə mahalı sonuncu dəfə qısa bir müddətdə 1724-1735-ci illərdə Osmanlılar tərəfindən işğal edilmişdi, həmin dövrdə Aşıq Allahverdi, çox güman ki, onun atası da hələ doğulmamışdı. Göyçəni 1735-ci ildə Nadir şah Osmanlı işğalından azad etdi və 1828-ci ildə Rusiya tərəfindən işğal edilənə qədər İran Qacarlar dövlətinin ərazisi idi. Başqa bir dövlətin vətəndaşını isə Osmanlı paşası qol gücünə necə yanına apartdıra bilərdi? “Yuxusuzluqdan əziyyət çəkən paşanı yatırtması” isə ancaq dastanlara xas olan rəvayətlərə yarayır, elmi məqalədə belə cümlələr yazmaq sadəcə olaraq naşılıqdır.

Məşhur aşıqlar Aşıq Əkbərin və Mikayıl Azaflının “Ağ Aşıq” adının əmələ gəlməsinə verdikləri şərh isə gülməli uydurmadır. Valideynlərinə ağ olan şəxs xalq arasında necə hörmət, ad-san qazana bilər, üstəlik 11 məşhur aşığa ustad-

lıq edə bilər? Guya böyük bir iş görübmüş kimi Allahverdi də bunu da özünə təxəllüs götürüb! Əslində isə bu ad tüklərinin və dərisinin ağlığına görə başqaları tərəfindən ona ləqəb (məhz ləqəb, təxəllüs yox!) kimi verilib.

Tibbdə rast gəlinən bir termin var: **albinos.** Bu ifadə o canlılara deyilir ki, onların dərisində piqmentlər-rəng verən hüceyrələr olmur və dərisi də, tükləri də ağ olur. Bu cür qeyri-təbii hallara həm insanlar, həm də heyvanlar arasında rast gəlinir. Bu cür canlılar rəngləri də fərqləndirə bilmir. **"Millət"** qəzetinin redaksiyasının yerləşdiyi **"Azərbaycan"** nəşriyyatında işlədiyim vaxtlarda milliyətcə gürcü olan Givi Paçxataşvili adlı, Azərbaycanda doğulmuş və azərbaycanca yazıb-yaradan bir jurnalist vardı, yaxşı da şahmat həvəskarı idi, jurnalistlər arasında keçirilən şahmat yarışlarında çox həvəslə iştirak edirdi. Onu Azərbaycan jurnalistlərinin çoxu tanıyırdı. G.Paçxataşvili də albinos idi, çox zəif görürdü. Məhz saç-saqqalının və dərisinin bu cür ağlığına görə Aşıq Allahverdiyə Ağ Aşıq deyiblər, valideynlərinə ağ olduğuna görə yox.

Bu məqaləyə müraciət etməyimin əsas səbəbi odur ki, müəllif Əziz Əhmədovun söylədikləri əsasında Ağ Aşığın doğum tarixini dəqiqləşdirməyə çalışır və onun doğumunun 20 il qabağa çəkildiyi, yəni 1750-1754-cü illərdə deyil, 1775-1780-ci illərə aid olduğunu irəli sürür. Amma Ağ Aşığın 105 il yaşaması haqqındakı uydurmanı düzgün hesab edərək, 1775 rəqəminin üzərinə 105-i əlavə edir və onun 1880-ci ildə vəfat etdiyini güman edir.

Məqalənin 5-ci bəndində Ağ Aşığın Göyçə mahalına köçməsi haqqındakı"izahat" lap gülməlidir:

"***5. Aşıq Allahverdinin Göyçəyə köçməyinin iki səbəbi olub: 1) atasının ölümündən sonra üzərinə düşən ailə ağırlığı; 2) Qacarların İranda və Qafqazda tüğyan etməsi".***

Müəllif köçün birinci səbəbi kimi atasının ölümündən sonra onun üzərinə ailə yükünün ağırlığını göstərir. Buradan çıxan nəticə odur ki, Göyçə mahalı yaşayış üçün daha əlverişli olmalı idi ki, o burada həmin yükün ağırlığına tab gətirə bilsin. Amma ikinci bənddə özü özünü təkzib edir və həm də tarixdən xəbərsiz olduğu üzə çıxır. Onun məntiqinə görə, Ağ Aşıq Qacarların tüğyan etdiyi ərazidən gələrək Göyçəyə sığınmışdır. Belə çıxır ki, müəllif bir tərəfdən Göyçəni Qafqaza aid hesab etmir, digər tərəfdən də Göyçənin Qacarlar dövlətinin tərkibində olduğunu bilmir. Ağ Aşığın Qazax mahalından Göyçəyə gəldiyini iddia edən A.O. Kərimli məntiqi alt-üst edir: Ağ Aşığı Qacarlara tabe olmayan Qazax mahalından Qacarların "tüğyan etdiyi" əraziyə "gətirir".

Özünü Ağ Aşığın qohumu kimi qələmə verən Əziz Əhmədovun kobud səhvlərindən biri də Aşığın adını daşıyan nəvəsi Allahverdini İsmayılın oğlu adlandırmasıdır. Halbuki, sonradan təqdim edəcəyimiz sənədlərdən aydın olur ki, Allahverdi İsmayılın yox, Ağ Aşığın böyük oğlu Məhərrəmin oğludur. Təkcə bu fakt Əziz Əhmədovun Ağ Aşığın yaxın qohumu olduğunu şübhə altına alır.

Göründüyü kimi, bəzilərinin fantaziyası sərhəd tanımır!

Mərhum xalq şairi Hüseyn Arif **"Ədəbiyyat və incəsənət"** qəzetinin 28 iyun 1969-cu il nömrəsində yazır ki, XVIII əsrin axırında Göyçə mahalında doğulub 70 ilə yaxın ömür sürmüş Ağ Aşıq məşhur saz və söz ustadı Aşıq Alının müəllimi olmuşdur. Əsil adı Allahverdidir. Amma "Azərbaycan" jurnalının 1982-ci il 11-ci nömrəsində isə heç bir fakta, sənədə söykənmədən yazır ki, Ağ Aşıq əslən qazaxlıdır, sonra Naçıvana köçmüş, oradan da Göyçə mahalına gəlmişdir.

Əgər mərhum xalq şairinin Ağ Aşığı ciddi mənbə olmadan Qazax mahalına aid etməsi haqqındakı yanlış mülahizə-

sini çıxsaq, deyə bilərik ki, o öz tədqiqatlarında həqiqətə yaxın olmuşdur.

Ağ Aşığın haqqında diqqət çəkən yazılardan biri də tədqiqatçı folklorşünas Əli Şamilovun "Sovet Naxçıvanı" qəzetinin 27 aprel 1983-cü il tarixli, 98-ci nömrəsində dərc olunan **"Aşıq Alının ustadı kimdir?"** məqaləsidir. Tədqiqatçı Kosacan məsələsinə aydınlıq gətirərək göstərir ki, Kosacanda adı Allahverdi, təxəllüsü Ağ Aşıq olan başqa bir aşıq olub, onun atasının adı Babadır, təxminən XIX əsrin 20-40-cı illərində doğulub, 1919-1920-ci illərdə Arazın sağ sahilində yerləşən Ərəblər kəndində, 80-100 yaşlarında ölüb. Onun Abbas, Əli və Qiyas adında üç oğlu, Gülşən, Ərkinaz və Zülfünaz adında üç qızı olub. Əli müəllim məqaləsində verdiyi faktları aşığın qızı, məqalə yazıldığı vaxt 87 yaşında olan Zülfünaz nənədən aldığını yazır.

Ə.Şamilov göyçəli Ağ Aşıq haqqında da Göyçənin Şəfəq kənd sakini, orta məktəb müəllimi Zeynalabdin Cəfərova istinad edərək bir sıra məlumatlar verir. Z.Cəfərova görə, Allahverdinin atasının adı Qara Osman, anasının adı Hürü imiş. Həmin kəndin digər sakinlərinin də şahidliyinə görə, Allahverdi Süsənbər adlı qızla evlənmiş, onların Məhərrəm və İsmayıl adında iki oğlu olmuşdur. Lakin İsmayıl cavan ikən rəhmətə getmiş, Ağ Aşıq Allahverdinin nəsli Məhərrəmlə davam etmişdir.

Adı çəkilən məqalənin sonunda Ə.Şamilov bu nəticəyə gəlir ki, "XVIII yüzilliyin ikinci yarısında doğulmuş Ağ Aşıq təxəllüslü Allahverdi Göyçənin Kərkibaş kəndində yaşamış və orada da vəfat etmişdir".

Beləliklə, tədqiqatçı ümumən məqbul cümlələrlə düzgün olaraq qəti hökmdən qaçır. Bu cümlədən aydın olur ki, Əli müəllim birincisi, onun Göyçədə doğulduğunu demir, ikincisi, doğum və ölüm tarixləri haqqında konkret rəqəm göstərmir və onun XVIII əsrin ikinci yarısında doğulduğunu bildirir.

Ə.Şamilovun istinad etdiyi Zeynalabdin Cəfərovun A.O.Kərimlinin istinad etdiyi Əziz Əhmədovdan daha mötəbər mənbə olduğu üzə çıxır.

Beləliklə, biz Ağ Aşıq-Aşıq Allahverdi haqqında söylənilən bütün fikirləri cəmləşdirdik və sonradan məlum olacaq ki, bu fikirlərin hər birində müəyyən həqiqət payı var. Bizə isə bu həqiqətləri bir yerə cəmləşdirib səhv fikirlərdən təmizləmək qalır. Yekunlaşdırmağa keçməzdən əvvəl isə “Azərbaycan qadını” jurnalının 1981-ci il tarixli, 11-ci nömrəsində dərc etdirdiyi məqalədə N.Məmmədovanın Ağ Aşığı sulduzlu saydığı haqqındakı mülahizəsini də əlavə etməliyik. Ə.Əbülhəsənoğlu da onu sulduzlu adlandırmışdı.

Ağ Aşıq haqqında rəsmi dövlət sənədini təqdim etməzdən əvvəl, onun oğlu İsmayılın vaxtsız ölümü barədə fakta diqqəti çəkmək istəyirəm. Əgər xatırlayırsınızsa, Aşıq Alının tədqiqatçısı Q.Zimistanoğlu Alının İsmayıl adında oğlunun vaxtsız vəfatından yazmıdı. Bəlkə bu Ağ Aşığın oğlu İsmayıldır ki, bizə gəlib çatan məlumatlarda təhrif olunaraq Aşıq Alıya aid edilib? Bəlkə doğrudan da İsmayıl Alının oğludur? Bunu da aydınlaşdırmağa cəhd edəcəyik.

Professor Q.Namazovdan gətirdiyimiz sitatda onun Ağ Aşığa aid etdiyi şeirdə belə bir bənd var:

*“Sığındım Göyçəyə, bu mahala mən,*
*Dərdim Sarı nərdən nərgiz, lala mən.*
*İtirmişəm İsmayıltək bala mən,*
*Sinəmə çal-çarpaz yara çəkirlər”.*

Burada hər iki sualın cavabı var. **“Sığındım Göyçəyə, bu mahala mən”,**-misrası açıq-aşkar onun Göyçədə doğulmadığına, sonradan buraya köçməsinə, sığınmasına sübutdur. Üçüncü misra-“İtirmişəm İsmayıltək bala mən” isə İsmayılın kimin oğlu olduğunu göstərir. Burada doğa bilə-

cək mübahisə şeirin müəllifliyi haqqında ola bilər. Bu şeir doğrudanmı Ağ Aşığa aiddir?

Q.Zimistanoğlu tərtib etdiyi **"Aşıq Alı. Əsərləri". (Bakı,2013)** kitabına yazdığı ön sözdə Aşıq Alının ustadı Ağ Aşığa həsr etdiyi belə dir şeirini vermişdir:

*"Köçübdü sultanım, sərdarım, xanım,*
*Qəlbim qəm evində pərişan oldu.*
*Aparıb özüylə dinim, imanım,*
*Sədrim qəm oxuna bir nişan oldu.*

*Mədinə dərs verdi, Kərbəla şöhrət,*
*Dərsi dərs içində sanılı ibrət.*
*Təbibi kar oldu, sağaldı min dərd,*
*Yurd saldı, sənəti bir gülşən oldu.*

*Yerdən, göydən, Nuh nəbidən xəbərdar,*
*İzah eylər, cümlə neçə elm var.*
*Baş vurar dəryaya, gövhəri arar,*
*Neçə-neçə dildə danışan oldu.*

*Zəburdan, Tövratdan, Qurandan dərsi,*
*Eşq əhlini heyran qoydu həvəsi.*
*Əlindəydi fəzlin bəndi bərəsi*
*Alimlə, Xotkarla yarışan oldu.*

*Itirdim ümmanı, yoxdu damlası,*
*Tükənməz, ölüncə tutaram yası.*
*Sazımda qəmləndi hicran havası,*
*Tale təqdirində pərişan oldu.*

*Köç etdi sərində külli xəzinə,*
*Ünvansızdı, necə düşüm izinə?*

*Qiymət versə üləmalar sözünə,*
*Nəğmələr içində zərnişan oldu.*

*Qərib kimsənəydi, vətəni Sulduz,*
*Zülmət dünyasında şöləli ulduz.*
*Namərd qurğusuyla yaşadı yalqız,*
*Cismimə od saldı, alışan oldu.*

*Sanaram zülmətdə bir dağ aşığı,*
*Verdi kəlamıma yar-yaraşığı.*
*Alı, giryan yad et, sən Ağ Aşığı,*
*Kədərin hicranla barışan oldu".*

**Əslində** bu şeirdə Aşıq Alı ustadının demək olar ki, tərcümeyi-halını yaratmışdır. Şeirdən məlum olur ki, **Ağ Aşıq Mədinə və Kərbəla şəhərlərində dərin təhsil almış, bir neçə dili mükəmməl bilmiş, o vaxtın bütün elmlərinə yiyə**lənmişdir. Burada onun İranın Sulduz mahalından olduğu, **"namərd qurğusuyla" yurdundan didərgin düşərək yalqız yaşa**masından da bəhs edilir. Amma onun vaxtsız itirdiyi oğlu barədə heç nə deyilmir və buradan da Ağ Aşığa aid edilən **"İtirmişəm İsmayıltək bala mən"** misralarının ona aid olduğu öz təsdiqini tapmır. Əgər onun İsmayıl adında cavan oğlu ölsəydi, Aşıq Alı onun bu müsibətini mütləq həmin şeirdə qeyd edərdi. Biz Aşıq Alının yaratdığı bu həyat hekayəsinə əslində kiçik əlavələr artırmaqla bu tərcümeyi-halı tamamlamaq istəyirik. Bunun üçün Ağ Aşıın adı qeyd olunmuş ilk rəsmi sənədə baxaq:

## "GÖYÇƏ MAHALININ KAMERAL TƏSVİRİ. 1831-Cİ İL.

## №40.AŞAĞI KEYTİ KƏNDİ (BAŞQA ADI SALMAN KƏNDİDİR).

**Milli tayfası**

Aşağı Keyti kəndi Zod kəndinin cənub tərəfində yerləşir. 150 xalvara yaxın suvarılan torpaqları, 10 xalvar biçənəkləri var, Keyti çayının suyundan istifadə edirlər.

Kənddə dövlətə məxsus 3 yararsız dəyirman, sakinlərə məxsus 1 camış, 62 öküz, 111 inək, 117 dana və buzov, 1.254 qoyun və keçi, 97 at var.

1.Kəndxuda Şahhüseyn Barxudar oğlu 60 y(onun arvadı və qızı); iki oğlu var: Alı 25 y; Həsənalı 20 y; qardaşı oğlu Məmmədvəli 26 y (onun anası).

2.Məhəmməd Barxudar oğlu 50 y (onun arvadı və üç qızı); üç oğlu var: Babış 20 y; Həsən 8 y; Hüseyn 4 y.

3.Məhəmməd Məmməd oğlu 30 y (onun arvadı).

4.Nəsir Məhəmməd oğlu 40 y (onun arvadı və anası); iki oğlu var: İmamverdi 4 y; Xudaverdi 2 y.

5.İbrahim Hüseyn oğlu 45 y (onun arvadı və iki qızı); iki oğlu var: Hüseyn 16 y; İsmayıl 10 y.

6.Həsən Şahnəzər oğlu 45 y (onun arvadı və iki qızı); dörd oğlu var: Həsənalı 10 y; Bayraməli 8 y; İmaməli 6 y; Hüseynalı 3 y.

7.Şahməmməd Qara oğlu 35 y (onun arvadı və üç qızı);

8.İbrahim Allahverdi oğlu 30 y(onun arvadı); iki qardaşı var: Məmməd 25 y; Mirzə 18 y.

9.Bayram Qara oğlu 35 y (onun arvadı və qızı).

10.Molla Əli Süleyman oğlu 40 y (onun arvadı və qızı); oğlu Şaban 4 y.

11.Əlixan Qara oğlu 40 y (onun arvadı).

12.Məhəmməd Qara oğlu 60 y (onun arvadı və qızı).

13.Seyid Ağa Seyid Zaman oğlu 45 y (onun arvadı, iki qızı, anası və bacısı); dörd oğlu var: Seyid Zaman 12 y; Seyid Əli 10 y; Seyid Həsən 6 y; Seyid Hüseyn 4 y.

14.Hüseynalı Həsən oğlu 30 y (onun arvadı və qızı); iki oğlu var: Qurban 10 y; Şükürəli 8 y.

15.Hüseyn Bayram oğlu 50 y(onun arvadı); iki oğlu var: Bayraməli 12 y; Həsənalı 10 y.

**16.Aşıq Allahverdi Osman oğlu 40 y (onun arvadı və iki qızı); oğlu Məhərrəm 10 y.**

17.Süleyman Kəlbəli oğlu 10 y (onun anası və bacısı); qardaşı Şahgəldi 7 y.

18.Şahbəndə kəndxuda Süleyman oğlu 50 y (onun arvadı və qızı); dörd oğlu var: Süleyman 20 y; Salman 12 y; Qədim 8 y; Kərim 4 y; qardaşı Hüseyn 45 y (onun arvadı, dörd qızı və dörd oğlu : Məmməd 12 y; Qərib 8 y; Rüstəm 3 y; Hacı 1 y).

19.Kərbəlayi Cəfər Barxudar oğlu 45 y(onun arvadı, qızı və anası); iki oğlu var: Qafar 8 y; Məhəmməd 5 y; iki qardaşı var: Barxudar 20 y; Səfər 17 y.

20.Abdulla ağa Mansır Yüzbaşı oğlu 16 y (onun anası və üç bacısı).

21.Aman Şahnəzər oğlu 25 y (onun arvadı və anası).

22. Nəcəf Həsən oğlu 35 y (onun arvadı, anası və qızı); dörd oğlu var: Qurban 12 y; Məmmədalı 10 y; Xudaverdi 8 y; Həsən 8 y.

23.Məmmədhəsən Usub oğlu 45 y (onun arvadı və iki qızı); iki oğlu var: Cəlal 12 y; Camal 1 y.

24.Kəndxuda Salman, Yusif kəndxuda oğlu 25 y (onun arvadı və qızı); üç qardaşı var: Savalan 20 y (onun arvadı); Qəmbər 12 y; Qasım 10 y.

25.Həsənalı Məmməd oğlu 50 y(onun arvadı); oğlu Şahməmməd 25 y(onun arvadı və qızı); oğlu Məmməd 10 y.

26.İmamqulu Əli oğlu 45 y (onun arvadı və iki qızı); qardaşı Xıdır 25 y.

27.Bəbirxan Əli oğlu 50 y (arvadı və üç qızı); oğlu İsmayıl 5 y.

28.Rüstəm İmamverdi oğlu 60 y(onun arvadı və qızı); üç oğlu var: Qədim 12 y; Haxverdi 7 y; Allahverdi 4 y.

29.İsmayıl Həsən oğlu 30 y (onun arvadı).

Əhalisi müsəlmanların milli tayfasına mənsub olan Aşağı Keyti kəndində 29 ailə, 85 kişi, 79 qadın, cəmi 164 adam yaşayır".

**(Erm. Milli Arxivi, F.90. siy.1, saxlama vahidi 88).**

Yəqin tanıdınız-sənəddəki 16 nömrəli ailə Ağ Aşığın ailəsidir, 1831-ci ildə 40 yaşında olması o deməkdir ki, 1791-ci ildə doğulub, 10 yaşındakı oğlu Məhərrəmin isə 1821-ci ildə doğulduğu aydın olur. Beləliklə, rəsmi ədəbiyyatşünaslığımız onu 37-41 il qocaltmışdır!

Maraqlıdır ki, haqqında sənəd təqdim etdiyim 6 böyük aşıqdan Ağ Aşıq və Aşıq Söyün Şəmkirli sənədlərdə **"Aşıq"** epiteti ilə yazılıb.

Sənəddən həm də məlum olur ki, Ağ Aşıq Göyçə mahalının Kərkibaş kəndində və ümumiyyətlə Göyçə mahalında doğulmayıb.

İkincisi, Qara Osman kimi təqdim edilən şəxs onun babası yox, atasıdır.

Üçüncüsü, 1831-ci ildə Kərkibaş adlı kənd ümumiyyətlə yox idiı və əgər Aşıq doğrudan da nə vaxtsa orada yaşayıbsa, deməli sonradan oraya köçüb.

Dördüncüsü, 1831-ci ildə Göyçə mahalında kərkibaş tayfasına aid olan 13 ailə yaşayırdı və onlar Daşkənd kəndində məskunlaşmışdılar. Onların adı **"qarapapaqların kərkibaş tayfası"** yazılmışdır, yəni onlar türkdür. Məntiqlə düşünməliyik ki, Göyçə mahalında **Kərkibaş** kimi tanıdığımız kəndi bu ailələr sonradan yaratmışlar.

Əgər Ağ Aşıq da qarapapaqlarla eyni vaxtda Göyçəyə gəlmişdisə(1814), bu vaxt artıq 23 yaşı vardı. Amma bizə artıq yaxşı tanış olan İ.Şopenin dediyi bir fikrə yenidən qayıtmalıyıq. İ.Şopen yazır ki, millilər və qaraçorlular Göyçə mahalına qarapapaqlardan sonra, Gərnibasar mahalından gəlmişlər. Məlumat üçün deyim ki, Gərnibasar mahalı şərqdə Vedibasar, qərbdə Araz çayı, şimalda Göyçə, cənubda isə Şərur mahalları ilə həmsərhəd idi.

Aşıq Alının 17 yaşından Ağ Aşığın şəyirdi olduğu haqqındakı mülahizələrə inansaq, deməli bu tarix 1852-ci ilə düşür və Ağ Aşığın o vaxt 61 yaşı vardı. Allahverdinin neçə il ömür sürdüyünə gəlincə, professor Q.Namazovun dediyi 1850-ci ildə vəfat etməsi ilə ən azı ona görə razılaşa bilmərik ki,qeyd etdiyimiz kimi, 1852-ci ildə Alı onun yanında şəyirdliyə başlamışdır. **Mərhum xalq şairi H.Arif onun haqqında 1969-cu ildə yazdığı məqaləsində Ağ Aşığın 70 ilə yaxın ömür sürdüyünü yazanda həqiqətə yaxın olmuşdur.**

Aşıq Allahverdinin 1754-cü ildə doğulduğunu yazanlar onun 1860-cı ildə, 106 yaşında öldüyünü bildirirdilər. A.O.Kərimlinin diqqətimizi çəkən məqaləsində isə onun vəfat tarixi kimi 1880 rəqəmi göstərilir. Amma dediyim kimi, A.Kərimli 1880 rəqəmi üçün heç bir dəlil-sübuta söykənmədən, yalnız aşığın 105 il ömür sürməsi haqqındakı mülahizələrdən çıxış edərək bu rəqəmi irəli sürür. Əgər vəfat tarixi olaraq 1880 rəqəmini qəbul etsək belə, deməli Ağ Aşıq 90 yaşına çatmadan haqqın rəhmətinə qovuşub və böyük xələfləri kimi o da 100 yaşına çatmadan bu fani dünyanı tərk edib.

Beləliklə, haraya üz tuturuqsa, bizi cəmi-cümlətanı 200 il, ondan da az zamanın ayırdığı ədəbiyyat tariximizdəki bilgilərin bərbad olduğunun şahidi oluruq. Təbii olaraq belə bir sual meydana çıxır: Bizi Ələsgərin doğuluşundan cəmi

165 il ayırdığı halda bu qədər təhriflərə yol verilirsə, 500 il əvvəl yaşadığı iddia edilən Miskin Abdal və başqa şəxslər haqqına əminliklə necə doğum və ölüm tarixi yazmaq olar və biz bu tarixlərə necə inana bilərik?

**Təəssüflə qeyd etməliyəm ki, folklor araşdırması ilə məşğul olan adlı-sanlı aliml**ərimiz **bu folklorun, dastan yaradıcılığının təsiri altında vəcdə gələrək, ciddi münasibət tələb edən elmimizi dastanlaşdırıblar. Professor adını daşıyan almlərimiz, dastan danışan aşıqlar kimi ciddi dəlil-sübuta söykənmədən çox əminliklə doğum və ölüm rəqəmləri yazır, hətta "dəqiqləşdirmələr" apararaq bu rəqəmləri bir qədər ya kiçildir, ya böyüdür, "bu tapıntılarını" ciddi "elmi kəşf" kimi elmi ictimaiyyətə sırıyır və bundan həzz alırlar. Çox təəssüf...**

Çox təəssüf ki, Ağ Aşıq-Aşıq Allahverdinin irsi də toplanmamış və əksəriyyəti itib-batmış, çox güman ki, başqa aşıqların adına çıxılmışdır. **"Vikimənbə"** deyilən internet portalından ona aid edilən bir qoşmanı tapdım:

*"Dedim, könül, bacar yaxşılıq eylə,*
*Həmişə əlində ixtiyar olmaz.*
*Çox da bel bağlama dünya malına,*
*Nə mala, nə mülkə etibar olmaz.*

*Yaxşı olar mərd igidin təməli,*
*Namərd tutmaz heç kəsə imdad əli.*
*Hər qul Qəmbər olmaz, hər ağa Əli,*
*Hər qılınc kəsməklə Zülfüqar olmaz.*

*Ey nazənin, sən geydiyin nə aldır?*
*Yenə başındakı hansı xayaldır?*
*Birisi büdrəsə, qolundan qaldır,*
*Hər zaman dost dosta səbəbkar olmaz.*

*Aşıq oldun, hər ağrıya dözəsən,*
*Sinən üstə odlu közlər əzəsən.*
*Gündoğanla Günbatanı gəzəsən,*
*Allahverdi kimi xiridar olmaz".*

Ağ Aşığın sonrakı taleyini izləmək cəhdimiz maraqlı məsələlərə gətirib çıxartdı. Bu məqsədlə müraciət edəcəyimiz sənəd sözsüz ki, aşığın 1831-ci ildə siyahıya alındığı Aşağı Keyti kəndinin 1842-ci ildəki kameral siyahısına baxmaq idi. Heç gözləmədiyim halda, məlum oldu ki**, 1831-ci ildə Aşağı Keyti kəndində yaşayan milli kürdləri artıq buranı tərk edərək müxtəlif yerlərə səpələniblər və indi həmin kənddə əksəriyyəti 1831-ci ildə Ellicə kəndində yaşayan qarapapaq türkləri, qarapapaqların bos**çalı tayfasına mənsub adamlar məskunlaşıb, hətta kəndin adını da dəyişdirib **Hüseynquluağalı kəndi qoyublar**. Göründüyü kimi, bu kəndin də Aşağı Keyti kimi 2 adı var. Aşağı Keyti kəndinin ikinci adı "Salman kəndi" idi, həmin ad kəndin kəndxudası Salmanın adından götürülmüşdü, buradakı ikinci ad isə Ellicə kəndinin kəndxudası Hüseynqulu ağanın adından götürülüb.

Ağkilsə kəndinin 1842-ci ilə aid arxiv sənədlərini axtararkən, Şərur nahiyəsinə daxil olan Ağkilsə adlı kənd tapdım və xeyli sevindim, amma sevincim uzun sürmədi: burada siyahıya düşən 4 ailənin Göyçənin Gözəldərə kəndindən gəldiyi yazılmışdı. Amma dəqiqləşdirmə apardıqda məlum oldu ki, 1831-ci ildə Başkənddə olduğu kimi Gözəldərə kəndində də ermənilər yaşayırdı və deməli bu ailələr də Gözəldərədən gəlməmişdi. Məsələni aydınlaşdıra bildim-sən demə, həmin ailələrin 4-ü də 1831-ci ildə Aşağı Keyti kəndində yaşayırmışlar. Amma Ağ Aşıq, Aşıq Allahverdi onların arasında yox idi. Həmin ailələr bunlardır:

**"İrəvan qəzası, Şərur nahiyəsinə daxil olan kəndlərin Kameral təsviri.**

**Vedibasar mahalı. 1842-ci il.**

**№41.AĞKİLSƏ KƏNDİ**

***1834-cü ildə Göyçə nahiyəsinin Gözəldərə kəndindən buraya köçüblər.***

1.Molla Qasım Molla Yusif oğlu 25 y; qardaşı Salman 30 y; onun oğlu Yusif 7 y.

2. İmamqulu Alı oğlu 35 y.

3. Xıdır Alı oğlu 40 y; oğlu Cəfər 7 y.

4.Hüseynqulu Həsənalı oğlu 25 y; oğlu Alı 2 y".

**Azərbaycan Mərkəzi Dövlət Tarix Arxivi, F.25, siy.2, saxl. vah.5.**

Bu siyahını 1831-ci ilə aid Aşağı Keyti kəndinin siyahısı ilə tutuşdurduqda, asanlıqla görmək olur ki, Molla Qasım Molla Yusif oğlu əvvəlki siyahıda 24-cü yerdə, İmamqulu və Xıdır qardaşları əvvəlki suyahıda 26-cı yerdə, Hüseynalı Həsənalı oğlu isə 14-cü yerdədir. Kəndxuda isə 1831-ci ildə Salman olduğu halda, indi onun qardaşı Molla Qasımdır.

Bəs 1831-ci ildə Aşağı Keyti kəndində yaşayan millilərin qalan ailələri, ən mühümü isə Aşıq Allahverdi haraya köçüblər?

Yuxarıdakı sənədi diqqətlə gözdən keçirdikdə, məlum oldu ki, 1831-ci ildə Aşağı Keyti kəndində yaşayanlardan Kəndxuda Şahhüseyn Barxudar oğlu, 5 nömrəli ailənin başçısı İbrahim Hüseyn oğlu, 9 nömrəli ailə-Bayram Qara oğlu, 12 nömrəli ailə-Məhəmməd Qara oğlu, 13 nömrəli ailə-Seyid Ağa Seyid Zaman oğlu və 22 nömrəli ailə-Nəcəf Həsən oğlu **Vedibasar mahalının Haxıs kəndinə,** 17 nömrəli ailə-Süleyman Kəlbəli oğlu, 18 nömrəli ailə-Şahbəndə Kəndxuda Süleyman oğlu, 20 nömrəli ailə-Abdulla ağa Mansur Yüzbaşı oğlu **həmin mahalın Ketuz kəndinə köçmüşlər** və bütün bu 12 ailənin 1834-cü ildə Göyçə na-

hiyəsinin Gözəldərə kəndindən gəldiyi yazılıb. Qalan 17 ailəni və o cümlədən Aşıq Allahverdini bu mahalın digər kəndlərində də axtarsaq da, tapmaq mümkün olmadı, görünür onların qalanı və ya çoxu Göyçə mahalının digər kəndlərinə gediblər. O vaxtın ölçülərinə görə 29 ailənin yaşadığı böyük bir kəndin niyə öz yer-yurdlarını bu cür kütləvi şəkildə tərk etmələri müəmmalı və səbəbini bilmədiyimiz bir hadisədir. Həm də qeyd etməliyik ki, Dərəçiçək mahalının Ulaşıq kəndindən gələn bozçalı qarapapaqlar kimi, adını çəkdiyimiz kəndlərdə məskunlaşan keçmiş Aşağı Keytililər də çar məmurlarını aldadaraq, Gözəldərə kəndindən gəldiklərini bildirmişlər.

Müasir tədqiqatçıların hamısı Aşıq Allahverdinin Kərkibaş kəndində yaşadığını və orada da öldüyünü yazırlar. Ona görə də 1831-ci ildən sonrakı kameral siyahılarda onu məhz Kərkibaş kəndində axtarmağımız məntiqi cəhətdən daha doğru olardı.

1842-ci ildə Göyçə mahalının Kərkibaş kəndində kimlərin yaşadığına baxaq:

**“GÖYÇƏ NAHİYƏSİ**
**№5.KƏRKİBAŞ KƏNDİ. 1842-ci il.**

İslam dininin şiə məzhəbinə mənsubdurlar. Köçəri həyat tərzi sürürlər.

Buranın qarapapaq sakinlərinin buraya köçməsi 10 ildən çox deyil. Onlar əsasən heyvandarlıqla məşğul olurlar və dolanışıqları kifayət qədər yaxşıdır.

1.Kazım Hacı Əhməd oğlu 30 y; qardaşı İsmayıl 15 y; əmisi oğlu Hüseynalı Hacı oğlu 20 y.

10 xalvar əkin yeri, 3 xalvar buğda, 1 xalvar arpa, üçdə bir xalvar kətan əkini, 2 atı, 14 baş iribuynuzlu, 80 baş xırdabuynuzlu heyvanı var.

2.Şərif Əmir oğlu 40 y; qardaşı Daşdəmir 50 y(onun oğlu Kərim 10 y).

5 xalvar əkin yeri, 1 xalvar buğda, 1 xalvar arpa, 0,5 xalvar kətan əkini, 1 atı, 10 baş iribuynuzlu, 12 baş xırdabuynuzlu heyvanı var.

3.Haxverdi Mustafa oğlu 30 y; oğlu Ocaqqulu 4 y.

5 xalvar əkin yeri, 1 xalvar buğda, 1 xalvar arpa, üçdə bir xalvar kətan əkini, 2 atı, 20 baş iribuynuzlu, 30 baş xırdabuynuzlu heyvanı var.

4.Allahverdi Əhməd oğlu 40 y; onun oğlu Əhməd 4 y; qardaşı Məşədi Tahirverdi 50 y(onun oğlanları: 1)Haxverdi 15 y; 2)Şahverdi 6 y).

10 xalvar əkin yeri, 2 xalvar buğda. 2 xalvar arpa, 0,5 xalvar kətan əkini, 4 atı, 20 iribuynuzlu. 100 baş xırdabuynuzlu heyvanı var.

5.Haxverdi Mustafa oğlu 90 y; oğlu İsmayıl 15 .

2,5 xalvar əkin yeri, 1 xalvar arpa əkini, 6 baş iribuynuzlu, 10 baş xırdabuynuzlu heyvanı var.

6.Məmirza Mustafa oğlu 40 y; oğlu Qulu 3 y.

2,5 xalvar əkin yeri, 1 xalvar arpa əkini, 1 atı, 8 baş iribuynuzlu, 15 baş xırdabuynuzlu heyvanı var.

7. Məhəmməd Mustafa oğlu 60 y; oğlu Hüseyn 12 y.

5 xalvar əkin yeri, 1 xalvar buğda, 1 xalvar arpa, 0,5 xalvar kətan əkini, 2 atı, 10 baş iribuynuzlu, 75 baş xırdabuynuzlu heyvanı var.

Kərkibaş kəndində cəmi 40 xalvar əkin yeri, 8 xalvar buğda, 8 xalvar arpa, 1,5 xalvar kətan əkini, 12 at, 88 iribuynuzlu, 322 baş xırdabuynuzlu heyvan var".

**(Erm.Milli Arxivi, F.93, S.1, sax.vah.79).**

Göründüyü kimi, Aşıq Allahverdi Osman oğlu 1842-ci ilin Kərkibaş kəndinin siyahısında yoxdur və burada yaşayan sakinlər 1831-ci ildə Daşkənd kəndində yaşayan kərkibaşı tayfasının nümayəndələridir.

Ağ Aşıq Allahverdini hələlik burada qoyub tədqiqatçı jurnalist Ə.Şamilovun Kosacan kəndində müəyyənləşdirdiyi Aşıq Allahverdiyə, **II Ağ Aşığa** qayıdaq. Kosacan kəndində əlbəttə, Allahverdi adında aşıq ola bilərdi, amma onun da göyçəli Allahverdi kimi **Ağ Aşıq** təxəllüsü daşıması ehtimal baxımından heç inandırıcı deyil. Əli müəllimin kosacanlı "Ağ Aşıq" haqqında təqdim etdiyi məlumatları cəmləşdirib ondan istifadə edərək yola çıxdım. Həmin məlumatlar isə bundan ibarət idi ki, kosacanlı Allahverdi 1820-1840-cı illər arasında Şərur mahalının Kosacan kəndində anadan olub, atasının adı Babadır, Siyaqut kəndindən aldığı Zeynəb adlı qadından Abbas, Əli və Qiyas adında 3 oğlu, Dərələyəz mahalının Zirək kəndindən aldığı Pəri adlı qadından isə Gülşən, Ərkinaz və Zülfünaz adlı 3 qızı olub, 1919-1920-ci illərdə İrana gedərkən sərhədyanı Ərəblər kəndində 80-100 yaşlarında vəfat edib. Əli müəllim 1982-ci ildə yazdığı **"Aşıq Alının ustadı kimdir?"** məqaləsində aşığın o vaxt həyatda olan 87 yaşlı qızı Zülfünaz nənəyə istinad etdiyini yazmışdır.

**Müraciət etdiyim ilk sənəd** Şərur mahalının 1831-ci ilə aid kameral siyahısıdır (Erm.Milli Arxivi, F.90, S.1, s.v.90). Bu sənəddə Babanın adı var:

**"№24. KOSACAN KƏNDİ . 1831-ci il.**

**9.Həsən Niyaz oğlu 45 yaşında(onun arvadı və qızı); oğlu Baba 7 y; iki qardaşı: Rüstəm 35 y(onun arvadı, iki qızı və anası; oğlu Ələkbər 1 y); Məhəmməd 20 y".**

Azərbaycan Mərkəzi Dövlət Tarix Arxivində saxlanan 1842-ci, 1852-ci və 1859-cu illərə aid Kameral siyahılarda Baba Həsən oğlunun Allahverdi adında oğlunu aşkar etmək mümkün olmadı və bu qənaətə gəldik ki, Zülfünaz nənənin 1983-cü ildə tədqiatçı Əli Şamilova söylədikləri həqiqətə uyğun deyil. Tam ümidsizliyə qapılmaq üzrə ikən, üzərində Şərur-Dərələyəz qəzasına, içərisində isə Naxçıvan qəzasına

aid olduğu yazılan 1873-cü ilə aid Kameral siyahıda Allahverdi Baba oğlunu müəyyən etməyə nail olduq:

**"İrəvan quberniyası, Şərur-Dərələyəz qəzasının Kameral təsviri. 1873-cü il.**

**İrəvan quberniyası, Naxçıvan qəzası, Ələkli kənd icmasına daxil olan Kosacan kəndi. 1873-cü ildə tərtib olunmuşdur.**

**1895-ci ildən sonra əlavə olunanlar:**

**(Məlumat 1897-ci ilə aiddir):**

**2.Allahverdi Baba oğlu 40 y; oğlanları: Abbas 18 y; Əli 14 y; Mövlamverdi 1 y.**

**Ailədə 4 qadın var".**

**(Erm.Milli Arxivi, F.93, s.1, sax. vah.172).**

Nəhayət bu sənəddən məlum olur ki, Zülfünaz nənənin atası və aşıq olduğu deyilən Allahverdi Baba oğlu Əli müəllimin yazdığı kimi 1820-1840-cı illərdə deyil, 1857-ci ildə doğulmuş və yenə də həmin mənbəyə görə 1920-cı ildə vəfat etmişdirsə, ehtimal edildiyi kimi 80-100 il deyil, 63 il yaşamışdır. Zülfünaz nənənin dediyi kimi Allahverdi Baba oğlunun 3 oğlu olub, amma onun adını çəkdiyi qardaşlarından birinin adı düz gəlmir: Zülfünaz Allahverdi qızının Qiyas adlandırdığı qardaşını sənəddə Mövlamverdi kimi görürük. Abbas 1879-cu, Əli 1883-cü, Mövlamverdi isə 1896-cı ildə doğulublar. Zülfünaz qarının hər halda qardaşının adını düz bilməyəcəyini güman etmədiyimizdən, ehtimal etməliyik ki, Qiyas Mövlamverdidən sonra doğulub və Mövlamverdi uşaq ikən ölüb. Başqa bir variant da var-ola bilsin ki, Mölamverdi elə Qiyasdır və onun iki adı varmış-sənəddə Mövlamverdi yazılsa da, onu Qiyas çağırırmışlar.

Beləliklə, Allahverdi Baba oğlunu müəyyən etdik. Onun aşıqlıq etməsini də qəbul etmək olar, amma onun da Allahverdi Osman oğlu kimi albinos olması və "Ağ Aşıq"

adlandırılması inandırıcı deyil. Əli müəllimin tədqiqatına qədər geniş oxucu kütləsinə məlum olmaması da Aşıq Allahverdi Baba oğlunun ortabab bir ifaçı aşıq olduğunu, özünün yaradıcılığının olmadığını göstərir.

Ağ Aşıq Allahverdinin 1842-ci ildə Göyçə nahiyəsinin Kərkibaşı kəndində axtarmağımız nəticə verməsə də, belə hesab edək ki, o Göyçədə yaşamaqda davam edirdi. Axı bunun üçün məntiqi əsas da var: bütün tədqiqatçılar bildirir ki, Aşıq Alı 17 yaşından(yəni onun 17 yaşının tamam olduğu 1852-ci ildən) Allahverdinin yanında şəyirdliyə başlayıb.

Aşıq Allahverdi Osman oğlunun ailəsi 1852-ci ilin kameral siyahısında da yoxdur. Bu ailəni nəhayət ki, 1859-cu ilin Kameral siyahısında müəyən etmək mümkün oldu:

**"İrəvan əyaləti Novobəyazid qəzasının**
**Kameral təsviri. 1859-cu il.**

**KƏRKİBAŞ KƏNDİ**

**14.—Məhərrəm Allahverdi oğlu 45 yaşında; qardaşı** İsmayıl 20 y(ailədə 2 qadın var)";

**(Erm.Milli Arxivi, F.267, s.1, s.v.15).**

Siyahıdan gözə çarpan ilk nəticə odur ki, artıq ailənin başçısı, Aşıq Allahverdi Osman oğlu vəfat edib. İkincisi, Ağ Aşığın guya vaxtsız dünyadan köçmüş oğlu İsmayıl haqqındakı rəvayətlər uydurmadan başqa bir şey deyilmiş-Allahverdi oğlu İsmayıldan əvvəl vəfat edib. Üçüncüsü, Məhərrəmin yaşında uyğunsuzluq var. 1831-ci ilin kameral siyahısına görə 10 yaşında olan Məhərrəm 1859-cu ildə 38 yaşında olmalı idi.

14 rəqəmindən sonra ayrı bir rəqəmin olmaması həmin ailənin 1852-ci ilin siyahısında olmadığını göstərir.

Bu sənəddən çıxaracağımız mühüm nəticələrdən biri də 1859-cu ildən qabaq öldüyünə görə, Ağ Aşığın Aşıq Alıya 11 il ustadlıq etdiyi haqqındakı mülahizələrin də təs-

diqlənməməsidir. Əgər Alı 17 yaşında, yəni 1852-ci ildə şəyirdliyə başlayıbsa, ən çoxu 7 il onun şəyirdi ola bilərdi.

İndi bu ailənin 1873-cü ilin kameral siyahısındakı taleyinə baxaq:

**NOVOBƏYAZİD QƏZASI,**
**KƏRKİBAŞ KƏNDİ. 1873-CÜ İL**

**"16.14.İsmayıl Allahverdi oğlu 34 y; qardaşı Məhərrəmin oğlu Allahverdi 8 y(ailədə 4 qadın var)".**

**(Erm.Milli Arxivi, F.267, s.1, s.v.23).**

Sənəddən görünür ki: birincisi, 1821-ci ildə doğulan Məhərrəm 52 yaşına çatmadan vəfat edib; ikincisi, İsmayıl qardaşından da çox yaşayıb.

1886-cı ilin kameral siyahısında İsmayıl da yoxdur, aydındır ki, 47 yaşına çatmadan ölüb(1873-cü ilə aid sənəddə 34 yaşında qeydə alınmışdı). İsmayıldan sonra onun oğul varisi də qalmayıb və Ağ Aşığın nəsli onun nəvəsi və adaşı olan **Allahverdi Məhərrəm oğlu** ilə davam edib.

Ə.Şamilovun müəyyən etdiyi kimi Şərur mahalının Kosacan kəndində Allahverdi adında başqa bir aşığın yaşaması faktı Aşıq Allahverdi Osman oğlunun da Kosacan kəndində qısa bir müddətdə də olsa yaşadığını istisna etməsə də, bu ehtimalı azaldır. Belə bir ehtimal yaranır ki, onun həyatına aid edilən bu epizod Aşıq Allahverdi Baba oğlu ilə dəyişik salınıb.

İndi Ağ Aşıq haqqında deyilən bütün mülahizələri (H.Arifin, prof.Q.Namazovun, N.Məmmədovanın, prof. H.İsmayılovun, Əli Əbülhəsənoğlunun, Q.Zimistanoğlunun, A.Kərimlinin və Ə.Şamilovun ayrı-ayrılıqda söylədiklərini), şəyirdi Aşıq Alının və Ustadın öz şeirlərini, eləcə də bizim əldə etdiyimiz sənədləri cəmləşdirərək onun haqqında həqiqətə ən yaxın ola biləcək mənzərəni canlandıraq:

Dərisinin və tüklərinin ağ rənginə görə “Ağ Aşıq” ləqəbi verilən Aşıq Allahverdi Osman oğlu 1791-ci ildə İranın Sulduz mahalında Qara Osman deyilən ciddi təhsil görmüş bir adamın ailəsində anadan olmuşdur. Etnik baxımdan milli tayfasına mənsubdur. Allahverdi Osman oğlu təxminən 1810-1815-ci illərdə Sulduz vilayətindən İrəvan xanlığına köçmüş, həmin xanlığın ərazisində aşıqlıq edərək müxtəlif yerləri gəzib dolaşmış, hətta deyilənə görə bir müddət İrəvan Sərdarı Hüseyn xanın sarayında çalıb-oxumuş, 1820-ci illərdə Göyçə mahalının Aşağı Keyti kəndinə köçmüşdür. Süsənbər adlı qadınla evliliyindən 1821-ci ildə Məhərrəm, 1839-cu ildə isə İsmayıl adında üki oğlu olmuşdur. Ağ Aşıq 68 yaşına çatmadan, böyük oğlu Məhərrəm 52 yaşına çatmadan, kiçik oğlu İsmayıl isə 47 yaşına çatmadan vəfat etmişlər. Ağ Aşığın nəsli Məhərrəmin 1865-ci ildə doğulan və babasının adını daşıyan Allahverdi adlı oğlu ilə davam etmişdir.

Hələlik bilmədiyimiz səbəbdən Aşağı Keyti kəndinin əhalisi 1834-cü ildə kəndi tərk edərək müxtəlif yerlərə, o cümlədən, Vedibasar mahalına köçmüşdür. Aşıq Allahverdi ömrünün son illərini Göyçə mahalının Kərkibaş kəndində yaşayıb. 1852-ci ildən ömrünün sonuna kimi Qızılvənkli Aşıq Alıya ustadlıq etmişdir.

Aşıq Alının ustadı Aşıq Allahverdi dərin bilik sahibi olmuş, öz bildiklərini bütün şəyirdlərinə, o cümlədən ən istedadlı şəyirdi olan Aşıq Alıya öyrətmişdir. İstedadlı şəyirdi Alının bir çox səfərlərdə, o cümlədən Türkiyə (Şərqi Anadolu) səfərində qazandığı uğurlardan sevinmiş və ona **“Alqış sənə, Aşıq Adlı”** rədifli şeir həsr etmişdir.

Ağ Aşıq Göyçə mahalının Kərkibaş kəndində 68 yaşına çatmadan vəfat etmişdir.

Yuxarıda adı çəkilən A.O.Kərimlinin Şərur kimi qatı şiə mühitində Osman adında adama yer ola bilməyəcəyi

haqqındakı mülahizələri də özünü doğrultmur. Əvvəla ona görə ki, Kosacanda Osmanın deyil, Allahverdinin yaşamasından söhbət gedirdi. İkincisi, 1831-ci ilin kameral siyahısına görə, Aşağı Keyti kəndində yaşayan bütün 29 milli ailəsinin və o cümlədən Aşıq Allahverdinin müsəlman dininin şiə məzhəbinə mənsub olduğu qeyd olunur. Yəni Allahverdi də kosacanlılar kimi şiə idi. Üçüncüsü, 1842-ci ilin kameral siyahısında**(AMDTA, F.25, siy.2, sax.vah.5)** Şərur mahalının Əlimәmmәd qışlağı kəndində 70 yaşlı Osman Məho oğlu, 40 yaşlı Ömər Hüso oğlu, 20 yaşlı Osman Qasım oğlu və 50 yaşlı İsa Ömər oğlu adında adamlar qeydə alınmış və onların buraya İrandan gəldikləri göstərilmişdir. Buradan aydın olur ki, atasının adı Osman olan Aşıq Allahverdinin-Ağ Aşığın Kosacan kəndində yaşaya bilməyəcəyi mülahizəsi həqiqətə uyğun deyil.

A.O.Kərimlinin məqaləsində başqa ciddi yanlışlıqlar da var. Məsələn, özünü Ağ Aşığın Bakıda yaşayan kötükcəsi kimi təqdim edən Əziz Əhmədovdan bu cür sitat gətirir: “Əziz Əhmədovun 1977-ci ildə dünyadan köçmüş ata babası Babaşov Əhməd söyləyirmiş ki, «mən 1870-ci ildə dünyaya göz açmışam və öz gözümlə Ağ Aşığı görmüşəm. O, bir sinirli kişiydi, artıq saz çalmırdı. 10 yaşım olanda həmin kişi rəhmətə getdi”. Göründüyü kimi, Ə.Əhmədovun iddiasının həqiqətlə yaxından-uzaqdan əlaqəsi yoxdur, çünki Ağ Aşıq onun babası anadan olmamışdan ən azı 11 il qabaq ölmüşdü və Əhməd Babaşov onu görə bilməzdi. Bu iddianı mərhum Ə.Babaşovun, yoxsa Əziz Əhmədovun uydurduğunu isə indi aşkar etmək mümkün deyil.

A.O.Kərimlinin başqa bir uydurmasına da aydınlıq gətirməliyik. O, yazır: “...əldə olan bilgiyə görə, tanınmış Tovuz-Şəmşədil ustadı Öysüzlü Səməd 7 il Ağ Aşığa «qulluq» edibmiş. Əgər Aşıq Səmədin 1918-ci ildə 70, yaxud bir qədər artıq yaşında dünyadan köçdüyünü nəzərə alsaq, onun

şagirdliyinin haradasa 1865-1870-ci illərə düşdüyü aşkarlanacaq. Lakin bircə çətinliyimiz ondadır ki, Ağ Aşıq son 10-15 ilini çalıb-çağırmırmış. Bəlkə də, ancaq öyrədirmiş?!”

Yenə də xatırlatmalıyıq ki, Aşıq Səmədin şəyirdliyi üçün uydurulan 1865-1870-ci illərdə də Ağ Aşıq sağ deyildi. Beləliklə, Aşıq Səmədin onun şəyirdi olması da həqiqətə uyğun deyil, Aşıq Səmədi şöhrətləndirmək üçün uydurulub.

Son olaraq qeyd etməliyik ki, Göyçə mahalında XIX əsrdə yaşamış bu üç sənət ustadını müqayisə edəndə Ağ Aşıqdan Aşıq Ələsgərə doğru yüksəlişi görməmək mümkün deyil. Təbii ki, Ələsgər sənəti bu iki şair-aşığın, həm də təkcə onların deyil, özündən əvvəl yaşamış böyük ustadların-Qurbaninin, Abbas Tufarqanlının, Xəstə Qasımın və başqalarının yaratdıqları nadir sənət inciləri üzərində ucalan dağdır. Bu dağın zirvəsi Ələsgərdir. Nə Ələsgərin müasirləri, nə də ondan sonra gələnlər bu zirvəni onunla bölüşəcək qədər yüksəkliyə qalxa bilməyiblər.

## Yatıb, oyanmaz, oyanmaz

XIX əsr Göyçə aşıq məktəbinin görkəmli nümayəndələrindən biri də Şair Məmmədhüseyn sayılır. Folklorşünasların, tədqiqatçıların əksəriyyəti onun 1800-cü və ya 1801-ci ildə Göyçə mahalının Daşkənd kəndində doğulduğunu və elə orada da 1880-ci ildə vəfat etdiyini yazırlar. Professor Q.Namazov isə onun 1800-1884-cü illərdə yaşadığını göstərir**(“Ozan-aşıq** sənətinin tarixi”**. Bakı,2013. səh.282 ).**

Başqa bir professor S.Paşayev doğum tarixində həmkarı Q.Namazovla həmfikir olsa da, Məmmədhüseynin vəfat tarixi haqqında başqa fikirdədir:“Şair Məmmədhüseyn 1800-cü ildə Göyçənin Daşkənd kəndində anadan olmuş və 1880-ci ildə orada vəfat etmişdir.

Məmmədhüseyn təxminən altmış illik yaradıcılığı dövründə sazdan, sözdən ayrılmamış, Azərbaycan aşıq yaradıcılığını zənginləşdirən qiymətli gəraylılar, qoşmalar, divanilər yaratmışdır. Zil səsələ oxunan “Məmmədhüseyni” saz havası onun adı ilə bağlıdır” **(S.Paşayev. “XIX əsr Azərbaycan aşıq yaradıcılığı”. Bakı, 1990. səh.31).**

Şair Məmmədhüseynin yaradıcılığından söz açan bütün tədqiqatçılar onun **“Yatıb, oyanmaz, oyanmaz”** gəraylısını misal gətirirlər. Gəraylı doğrudan da gözəldir. Qeyd edə bilərik ki, aşıq yaradıcılığında hər bir aşığı yaddaşlarda yaşadan müəyyən bir şeir olur və bu şeir də sanki Məmmədhüseynin şəxsiyyət vəsiqəsi rolunu oynayır:

*Yönü bəri baxan dağlar,*
*Yarıb, oyanmaz, oyanmaz.*
*Üstündəki ağır ellər,*
*Yatıb oyanmaz, oyanmaz.*

*Qurbanam qələm qaşına,*
*Gör nələr gəldi başıma.*
*Səs verrəm dostun guşuna,*
*Yatıb, oyanmaz, oyanmaz.*

*Gəldim yarın xanəsınə,*
*Laçın qonmaz binəsinə.*
*Əlim qoydum sinəsinə,*
*Yatıb, oyanmaz, oyanmaz.*

*Yarım yaman yatmış idi,*
*Mişk-ənbərə batmış idi.*
*Rübəndini atmış idi.*
*Yatıb, oyanmaz, oyanmaz.*

*İyidin dönməsin əhdi,*
*Yana çevrilməsin təxti.*
*Məmmədhüseynin qara baxtı*
*Yatıb, oyanmaz, oyanmaz.*

Göyçəli Şair Məmmədhüseynin **"Xəbər al, deyim"** adlı qoşması da bu qəbildən olan spesifik, onu başqalarından fərqləndirən və yaddaşlarda yaşadan bir şeirdir. Bu şeir hər birinin əlamətlərinin təsvir olunduğu on iki imamın haqqındadır və dindarlar arasında geniş yayılmışdır:

*Qoç igidlər, ərəb atlar meydanı,*
*Müxənnət sərindən tökülən qanı*
*Birinci imamımız Şahi Mərdanı,*
*İkinci imamı xəbər al, deyim.*

*Atını minəndə yel kimi əsən,*
*Üç günlük yolları bir günə kəsən.*

*İkinci imamımız İmamı Həsən,*
*Üçüncü imamı xəbər al, deyim.*

*Kərbəla dəştindən gəlmişdir meyin,*
*Yezidlər boynuna götürdü yeyin.*
*Üçüncü imamımız İmam Hüseyn*
*Dördüncü imamı xəbər al, deyim.*

*Bahar olcaq dağlar geyər abı don,*
*Din içində din bəsləmiş Abidin*
*Dördüncü imamımız Zeynalabidin,*
*Beşinci imamı xəbər al, deyim.*

*Adları böyükdür, yolları ağır,*
*Bir dara düşəndə onları çağır.*
*Beşinci imamımız Məhəmməd Bağır,*
*Altıncı imamı xəbər al, deyim.*

*Dünyaya gəlmişdi bir belə sadıq,*
*Dünya malın yığdıq, yığdıq, budadıq.*
*Altıncı imamımız Cəfəri Sadiq,*
*Yeddinci imamı xəbər al, deyim.*

*Quranda oxurlar Əliyyül Əzim,*
*Dəftər-qələm gətir, dərdimi yazım.*
*Yeddinci imamımız Museyi Kazım,*
*Səkkizinci imamı xəbər al, deyim.*

*Tut orucu, meyl eylə namaza,*
*Qoyma qala qəza, verərlər cəza.*
*Səkkizinci imamımız İmam Rza,*
*Doqquzuncu imamı xəbər al, deyim.*

*Səkkizi cənnətdi, səkkiz də bağı,*
*Dolanıb gəşt eylər onlar bir bağı.*
*Doqquzuncu imamımız Məhəmməd Tağı,*
*Onuncu imamı xəbər al, deyim.*

*Bir neçə hümmətin Əlidir sağı,*
*Çəkə zülfüqarı, bölə budağı.*
*Onuncu imamımız Əliyyən Nağı,*
*On birinci imamı xəbər al, deyim.*

*Səhər-səhər, dan yelləri, əs bəri,*
*Münkir olan bəndələri kəs bəri.*
*On birinci imamımız Həsən Əsğəri,*
*On ikinci imamı xəbər al, deyim.*

*Məmmədhüseyn deyər, tamamdı, tamam,*
*Mömünlər könlünə salıbsan güman.*
*On ikinci imam Sahib əz-Zaman,*
*Bu dünyada Quran, axirətdə iman,*
*Onlardan vacibin xəbər al, deyim.*

Müraciət etdiyim **"Vikipediya"**da şair Məmmədhüseyn haqqındakı məlumatlar belədir:

"Novruzov Məmmədhüseyn Həsən oğlu 1800-cü ildə Göyçə mahalının Daşkənd kəndində anadan olmuşdur. O, heç bir təhsil almamışdır. Şairin böyük qardaşı Əli Ərdəbildə və İsfahanda 8 il ruhani təhsili almışdır. Məmmədhüseynin atası dülgər olsa da, bütün varlığı ilə aşıq sənətinə bağlanmışdır. Elə Məmmədhüseynin də şair olmasında atasının az təsiri olmamışdır.

Məmmədhüseyn bədahətən şeir deməyə qadir bir şair imiş. Daşkənddə yaşayan «Şairlilər» nəsli şairin adı ilə bağlıdır və onun nəsil şəcərəsinin üzvləridir. Şair Məmmədhü-

seynin Kərbəlayi Məhəmməd, Kərbəlayi Əsəd, Əbülfət, Əli və Xəlil adlı beş oğlu olmuşdur. Böyük sənətkar müqəddəs Kərbəlanı oğlu Məhəmmədlə birgə ziyarət etmişdir. Deyilənə görə ucaboylu, qədd-qamətli, iri gövdəli adam olub. Qalın çatma qaşları ona xüsusi yaraşıq verərmiş. Əkinçiliklə, maldarlıqla məşğul olub.

Şair Məmmədhüseyn 1880-ci ildə qabaqcadan özünə agah olmuş olan ilan çalması nəticəsində doğma Daşkənd kəndində vəfat etmiş və orada dəfn olunmuşdur".

Yuxarıdakı mətndə "Novruzov" soyadı qeyri-elmi olsa da, şairin atasının və qardaşlarının adının çəkilməsi onun kameral siyahılarda axtarılması üçün lazım olan məlumatları daşıması baxımından olduqca əhəmiyyətlidir. Bu məlumatda Məmmədhüseynin atasının adının Həsən, Əli adında qardaşının olduğu məlum olur. Əlimizdə olan bu bilgilərdən yola çıxıb onu Göyçə mahalının 1831-ci ilə aid kameral siyahısında axtardıq. Digər böyük aşıqlarımızda olduğu kimi, burada da gözlənilməz nəticələr alındı. Şair Məmmədhüseynin ailəsini Daşkənd kəndində deyil, adı həm də Abul kəndi olan Qızılcıq kəndində aşkar etdik:

**"Göyçə mahalının kameral təsviri. 1831-ci il.**
**№6. QIZILCIQ VƏ YA ABUL KƏNDİ.**
**Qarapapaq tayfası**

Göyçə gölünün cənub sahilində Dərəçiçək mahalından sonra gələn altıncı kənd. Geniş əraziləri və biçənəkləri var. Göyçə gölünün suyundan istifadə edirlər.

Buğda, arpa, darı, kətan və başqa bitkilər əkirlər.

1.Kəndxuda Hüseyn Abul oğlu 40 y(onun arvadı); iki oğlu var: Həsən 10 y; Səfər 5 y; qardaşı Musa 25 y.

...

**19.Həsən Əli oğlu 50 y (onun arvadı); dörd oğlu var: Əli 20 y; Məmmədhüseyn 15 y; Novruz 10 y; Qurban 7 y.**

Əhalisi türklərin qarapapaq tayfasına mənsub olan Qızılcıq kəndində 19 ailə, 68 kişi, 40 qadın, cəmi 108 adam yaşayır.

Kənddə 59 öküz, 61 inək, 60 buzov, 198 qoyun və keçi, 20 at və 5 ulaq var".

Sənədin izahına ondan başlayaq ki, kəndin ikinci, Abul adı kəndxuda Hüseynin atası Abulun adı ilə bağlıdır.

Bizi maraqlandıran şəxs 19-cu ailədə qeydə alınıb. Göründüyü kimi, atasının adı Həsəndir, özündən 5 yaş böyük olan qardaşı Əli və hətta ona səhvən soyad kimi düzəltdikləri qardaşı Novruz da buradadır. Bizi ən çox maraqlandıran 15 yaşında olan Məmmədhüseynin isə indiyə qədər deyildiyi kimi 1800-cü və ya 1801-ci ildə deyil, 1816-cı ildə doğulduğu aydın olur.

Bütün müəlliflər Şair Məmmədhüseyni daşkəndli kimi tanıtdıqlarına görə, düşünmək olardı ki, bu ailə sonradan Daşkəndə köçmüşdür. Amma Daşkəndin 1842-ci ilə aid kameral siyahısında da bu ailəni müəyyən etmək mümkün olmadı. Qızılcıq kəndinin özünə gəlincə, 1842-ci ilin kameral siyahısında **Hacı Muxan** (1831-ci ilin kameral siyahısında boş kəndlərin siyahısında **"Hacı Mumuxan"** kimi qeydə alınıb) adlı yeni məskunlaşdırıldığı yazılan bir kənd var və orada yaşayanların Qızlcıq (Abul) kəndindən gəldiyi qeyd olunur:

**"№9. HACI MUXAN KƏNDİ**

**Qarapapaqların bosçalı tayfası. Sakinlər buraya Qızılcıq və ya Abul kəndindən gəliblər. İslam dininin şiə məzhəbinə mənsub olmaqla köçəri həyat sürürlər".**

1842-ci ilin kameral siyahısında 1831-ci ildə Qızılcıq kəndində yaşayanlardan 6 ailəni Hacı Muxan, 2 ailəni Qanlı Allahverdi, 1 ailəni isə Sultanəli Qışlağı kəndlərində aşkar etsək də, nə kəndxuda Hüseyn Abul oğlunun, nə də Məmmədhüseynin ailəsi 1842-ci ilin kameral siyahısında Göyçə mahalının heç bir kəndində aşkar edilmədi. Məmmədhüseynin ailəsinin Göyçə mahalının sonrakı-1852-ci, 1859-cu,

1873-cü və 1886-cı illərin kameral siyahılarında axtarmaq sonrakı tədqiqatların mövzusu ola bilər. Əldə etdiyimiz ən qiymətli nəticə isə onun doğum tarixinin və doğulduğu kəndin müəyyənləşdirilməsi oldu. Onun sonralar Daşkənddə yaşadığını və orada ölməyini isə istisna etmirəm.

Şair Məmmədhüseyn haqqındakı qeydlərimi burada bitirmək istəsəm də, onun parlaq yaradıcılığından aşağıdakı iki divanini kitaba daxil etməkdən özümü saxlaya bilmədim(şeirlər tərtibçisi prof. Q.Namazov olan **"El çələngi(Xalq şeirindən seçmələr)" Bakı, 2004,** kitabından götürülmüşdür):

## NEYLƏRƏM?

*Ey cananım, səndən ayrı*
*Mən bu canı neylərəm?*
*Malü-mülkü, tacü-taxtı,*
*Süleymanı neylərəm?*
*Mən öləndə sən olarsan*
*Başım üstə ağlayan,*
*Şeyda bulbul fəğan eylər,*
*Gülüstanı neylərəm?*

*Bir vəfalı həmdəm ilə*
*Ülfət qıl,ilqar elə.*
*Dedim, könül, dost kuyinə*
*Sən də bir güzar elə.*
*Əl götürmə damənindən,*
*Can ona nisar elə.*
*Yar özü ziba gərəkdi,*
*Mən zibanı neylərəm?*
*Məmmədsöyün, qətlin üçün*
*Məclisə sağın gəlir.*
*Qaşları yay, kipriyi ox,*
*Gözləri yağın gəlir.*

*Bu gün ömür başa yetdi,*
*Ayrılıq çağın gəlir.*
*Bir beş arşın ağ lazımdır,*
*Badilanı neylərəm?*

**OLMASA**

*Bəzirganlar yük bağlamaz,*
*Gər xiridar olmasa.*
*Naməşhur qalmaz dünyada,*
*Zatında zar olmasa.*
*Səng ilə xanə yapasan*
*Bir biyaban səhrada,*
*Tapasan qəflət yuxusu,*
*Əgər şahmar olmasa.*

*İki mələk müqərrərdi,*
*Baxıb əməlin yaza.*
*Onlar əməlinə baxıb,*
*Sənə verərlər cəza.*
*O günündə nə eyləsin*
*Şahi-Mərdan, Mürtəza?*
*Məşhərə getmək çətindi*
*Əldə tutar olmasa.*

*Məmmədsöyün ölmək ilə*
*Bu dünya xali olmaz.*
*Dərdin demə dərdbilməzə,*
*Dərdinə hali olmaz.*
*Bu vergi haqq vergisidi,*
*Kimsəyə qalı olmaz.*
*Cəhd eyləmək bica şeydi,*
*Bəxtin bidar olmasa.*

## Göyçəli Aşıq Musa

Professor Sədnik Paşayevin "XIX əsr Azərbaycan aşıq yaradıcılığı" (Bakı, 1990) kitabında Göyçəli Aşıq Musa haqqında geniş və maraqlı məlumat verilb. Ondan uzun bir sitat gətirmək məcburiyyətindəyəm: "Göyçə aşıq mühitində ərsəyə çatmış istedadlı, tanınmış sənətkarlardan biri də Aşıq Musadır. Bəzi kitablarda, araşdırmalarda onun doğulduğu kənd və dövr haqqında dolaşıq, bir-birinə zidd olan məlumatlar verilmişdir.

Folklorçulardan H.Əlizadə "Aşıqlar" kitabında (1935) Aşıq Musanın Göyçə mahalının Daşkənd kəndindən olduğunu və təxminən 1849-cu illərdə 45 yaşında ikən vəfat etdiyini, Ə.Axundov isə **"Telli saz ustadları**" kitabında(1964) aşıq-şairin həmin mahalın Qaraqoyunlu kəndində dünyaya göz açdığını və XIX əsrin lap əvvəllərində 50 yaşında ikən öldüyünü göstərirlər. Deməliyik ki, aşıq-şairin olum-ölüm tarixi və yeri barədə verilən hər iki məlumat yanlışdır. Aşıq Musanın doğulduğu yer və öldüyü dövr həqiqətə az-çox yaxın məlumat **"Azərbaycan aşıqları və el şairləri"** kitabında (I cild, 1983) verilmişdir. Aşıq Musa Ağkilsə kəndindəndir. Şifahi məlumatlara görə, XX əsrin əvvəllərində vəfat etmişdir.

...Aşıq Musanın doğma kəndi Ağkilsə qəbristanlığındakı məzar daşı qiymətli bir maddeyi-tarixdir. Başdaşına Aşıq Musanın hicri tarixində 1331-ci ildə vəfat etdiyi qeyd olunmuşdur. Beləliklə, aydın olur ki, Aşıq Musa miladi tarixlə 1912-ci ildə vəfat etmişdir. Təxminən qızılvənkli Aşıq Alıdan 4 il sonra, Ələsgərdən isə on üç il qabaq dünyadan köçmüşdür.

Aşıq Musanın qız nəvəsi Musa Süleymanov uzun illərdir ki, bu istedadlı sənətkarın tərcümeyi-halı, həyat macə-

raları ilə əlaqədar məlumatları toplamaqla, şeirlərini yığıb üzə çıxarmaqla məşğuldur. Süleymanov qeyd edir ki, Aşıq Musanın babası Mustafa Qazax rayonunun Tatlı kəndindən Göyçəyə köçmüşdür. Göyçəyə təzə gələn vaxtı Mustafanın oğlanları-Cəfər və Səfər çox körpə olublar. Səfər böyüyüb evlənir, onun üç oğlu olur: Musa, Kərəm, Rəhim. Musa öz qardaşlarından uca, yaraşıqlı görkəmə, boy-buxuna malik olması, məlahətli səsi və gözəl saz çalması ilə seçilirmiş.

...M.Süleymanova görə, Aşıq Musa əvvəlcə Türkiyənin Qaraxan mahalının şair qızı Məl𝑘nisə ilə evlənir, onların İmamqulu adlı bir oğlu olur. O, cavan ölür, Musa Zər kənddən Qızbəslə evlənir və ondan 6 oğlu, 1 qızı olur. Oğlanları Əli, Vəli, Əliqulu, Həsən,Məhəmməd, Hüseyn, qızının adı Qaratel olur. Musa Süleymanov aşıq-şairin qızı Qaratelin oğludur. Musa Süleymanovun dediyinə görə, 1951-ci ildə vəfat edən Qaratel deyirmiş ki, atası Aşıq Musa Ağkilsə kəndində oxuyanda səsi qonşu Zod və Zər kəndlərində eşidilərmiş. O, 93 yaşına qədər oxumağından qalmamış, 1912-ci ildə 92-93 yaşlarında vəfat etmişdir. Beləliklə, onun 1819-1820-ci illlərdə anadan olduğunu söyləyə bilərik. Elə aşıqlar da, həmyerliləri də, Aşıq Musanın Ələsgərdən bir neçə yaş böyük olduğunu deyirlər"(səh.50-52).

Professorun yazdıqlarına münasibət bildirməzdən əvvəl başqa bir müəllifə-"Sazlı-sözlü Göyçə" (Bakı, 2002) kitabına da istinad etmək maraqlı olardı. Kitabın tərtibçisi İ.Ələsgər aşığın tərcümeyi-halında yazır: "Aşıq Musa Səfər oğlu Göyçə mahalının Ağkilsə kəndində, təxminən 1830-cu illərdə anadan olmuşdur. Deyilənlərə görə, onun atası Səfər və əmisi Cəfər XIX əsrin əvvəllərində Qazax mahalının Tatlı kəndindən köçüb, Göyçənin Zod kəndinə gəlmişlər. Bir qədərdən sonra Səfər Zod kəndinin bəyləri ilə yola getməmiş və qonşu Ağkilsə kəndinə köçmüş, ömrünün sonuna qədər orada yaşamışdır.

Aşıq Musa 1912-ci ildə Ağkilsə kəndində vəfat etmiş və kəndin şərqindəki qəbiristanlıqda dəfn olunmuşdur" (səh.41).

Beləliklə, cəmi iki müəllifdən gətirdiyim sitatlarda Aşıq Musanın doğum tarixi (və yeri) ilə bağlı xeyli fərqli variantlara rast gəlirik. Ağkilsə kəndinə aid ilk təqdim etdiyimiz 1873-cü ilin kameral siyahısında bu sualların hamısının cavabı vardır. Kənddəki 24 nömrəli ailə Aşıq Musanın ailəsidir:

**24.--Səfər Mustafa oğlu 70 y(Qazax qəzasının Tatlı kəndindən buraya köçüb); iki oğlu var: Kərim 30 y(onun oğlanları: Rəhim 4 y; Şərif 2 y; Namaz 1 y). Musa 20 y.**

Siyahıdan görünür ki, aşığın nəvəsi Musa Süleymanovun söylədiklərində müəyyən həqiqət var. Bu ailə doğrudan da Qazax mahalının Tatlı kəndindən gəlib, amma Səfərin üç deyil, iki oğlu var, adı çəkilən Rəhim Səfərin oğlu deyil, nəvəsidir, yəni böyük oğlu Kərimin oğludur və 1873-cü ildə 4 yaşı vardı. Musa Süleymanov Səfərin böyük oğlunun da adını səhv deyib, onun adı Kərəm deyil, Kərimdir. Ola bilsin ki, tədqiqatçılar onu dəyişik yazıblar. Həm də qardaşların doğulma ardıcıllığı Musa Süleymanovun dediyi kimi deyil, Musa kiçik qardaşdır.

1873-cü ildə 20 yaşında göstərilən Musa beləliklə, aydın olur ki, 1853-cü ildə anadan olub və İ.Ələsgər onu 23 il, professor S.Paşayev isə 33 l(!) böyüdüb və adını göstərmədiyi yalançı şahidlərdən özünə dayaq yaratmağı da unutmayıb.

Yumşaq desək, aşığın qızı, Musa Süleymanovun anası Qaratel də həm aşığın 93 il yaşamasında, həm də oxuyanda səsinin qonşu Zod və Zarzebil kəndlərində eşidildiyini deyəndə xeyli şişirtməyə yol verib.

Açığını deyim ki, bu yazılarda hər addımbaşı şişirtmələrə rast gəldiyimə görə, Aşıq Musanın heç olmasa, ölüm tarixinin miladi tarixə düzgün çevrilib-çevrilmədiyini yoxlamaq qərarına gəldim.

## Astronomiyaya qısa səyahət

Əvvəlcədən deyim ki, həmin hesablamanı apararkən, oxucuları bir qədər əyləndirmək üçün onları astronomiya ilə bağlı bəzi rəqəmlərlə tanış edib bu mübahisəli tarix və ədəbiyyat məsələlərindən ayırmaq qərarına gəldim.

Məlum olduğu kimi, Yer kürəsi Günəşin ətrafında fırlanır və onun Günəş ətrafında bir dövr etməsinə sərf olunan vaxta **"il"** deyilir, başqa sözlə, Yer kürəsi 1 il ərzində Günəş ətrafında tam bir dövrə vurur.

Yer kürəsi həmin 1 il ərzində nə qədər yol gedir və hansı sürətlə gedir, yəni Günəşin ətrafında dövr edir? Bunu hesablamaq elə də çətin iş deyil.

Astronomlar hesablayıb ki, sürəti saniyədə 300 min km olan işıq Günəşdən Yer kürəsinə təxminən 8 dəqiqəyə çatır. Yerdən Günəşə qədər olan məsafə 150 milyon kilometr olduğuna görə, çevrənin C=Pd (P-3,14-ə bərabər olan kəmiyyət, d-isə çevrənin diametridir, yəni radiusun 2 mislinə bərabərdir. Radius isə bizim misalımızda Yerdən Günəşə qədər olan məsafədir) düsturundan istifadə etməklə onu hesablaya bilərik. Beləliklə, Yer kürəsinin 1 il ərzində getdiyi yolu hesablamaq üçün 150 milyon km-i həm 2-yə, həm də 3,14-ə vurmalıyıq. Bu rəqəm 942 mln. km edir. Yəni Yer planeti 1 ildə bu qədər yol qət edir.

İndi Yerin hərəkət sürətini hesablayaq. Məlum olduğu kimi 1 astronomik il 365 gün 6 saata bərabərdir (həmin 6 saatı 3 il boyunca nəzərə almırıq, bu 6 saatlar toplanaraq 4-cü il 24 saat edəndə 1 günə bərabər olur və biz həmin il fevral ayını 29 gün hesablayırıq). Bir günün 24 saat olduğunu nəzərə alsaq, 1 il=365x24+6=8.766 saat. Beləliklə, tapdıq

ki, Yer kürəsi 1 ildə, yəni 8.766 saat ərzində 942 mln. km yol gedir. İndi onun sürətini hesablayaq. Bunun üçün 942 milyon km-i 8.766 saata bölərək tapırıq ki, Yerin saatda sürəti 942.000.000:8.766=107.460 km-dir(!!). Təsəvvür edirsinizmi, Yer kürəsinin saatda sürəti 107 min km-dən də çoxdur! Halbuki, magistral yolda 110 km/saat sürətini aşan kimi insafsız radarlar sizi qeyd edir və cərimə ödəməli olursunuz!

Yuxarıdakı rəqəmi 60-ə bölsək, tapırıq ki, Yer kürəsi 1 dəqiqədə (107.460:60=1.791) 1.791 km, 1 saniyədə isə (1.791:60=29,85) təxminən 30 km yol gedir!

Təsəvvür edirsinizmi, üzərində yaşadığımız, yaratdığımız, sənətdən zövq aldığımız Yer kürəsi saniyədə 30 km sürətlə hərəkət edir, biz isə bunu hiss etmədən öz işimizlə məşğul olur, həyat hadisələrindən zövq alaraq yaşayır, sevinir, kədərlənir, mübahisə edir, rəqs edir, nəğmə oxuyur, müharibələr aparır, kütləvi qırğın silahları hazırlayaraq öz sonumuzu yaxınlaşdırırıq!

Amma Yer kürəsi təkcə Günəşin deyil, həm də öz oxu ətrafında fırlanır və axşam-səhər, alatoranlıq, günortanın qızmarı, axşamın sərinliyi, gecə və gündüz bu fırlanmanın nəticəsində yaranır! Bəs Yer öz oxu ətrafında hansı sürətlə fırlanır? Bunun üçün bəzi rəqəmlərdən istifadə etməklə bunu asanlıqla hesablamaq olar! Birincisi odur ki, Yerin öz oxu ətrafında tam bir dövrə etməsi 1 gündür və insanlar onu 24 saata ayırıblar. İkincisi, Yerin 24 saat ərzində fırlanma nəticəsində qət etdiyi məsafə Yerin ekvatoru qədərdir, yəni 40 min kilometrdir. Beləliklə, 40 min km-i 24-ə bölməklə tapırıq ki, bu fırlanmanın sürəti (40.000:24==1.667) 1.667 km/saatdır. 1 dəqiqə üçün bu sürət təxminən 28 km, 1 saniyədə isə 463 metrdir. Yer öz oxu ətrafında saniyədə 463 metr, Günəş ətrafında isə 30 km sürətlə fırlanır!

Bir halda ki, bu söhbəti başladıq, onu tamamlamalıyıq. Bu da Yerin peyki olan və zaman etibarilə **“ay”** məfhumu-

nu yaradan səma cismi Aydır. Onun da Yer ətrafında hansı sürətlə fırlandığını hesablayaq.

Ayın Yer ətrafında tam bir dövrə vurmasına sərf olunan zamanı insanlar qədim zamanlardan **"1 ay"** kimi hesablayıblar və ərəblər də Ayın yer ətrafında 12 dəfə tam dövr etməsini indinin özündə də 1 il sayırlar.

Yuxarıda qeyd etdik ki, Yerin Günəş ətrafında tam bir dövr etməsinə sərf olunan zamana insanlar ən qədim zamanlardan "il", Ayın Yer ətrafında tam 1 dövrə vurmasına isə "ay" deyiblər.

Ayın Yer ətrafındakı hərəkət sürətini hesablamaq üçün Ayın Yer ətrafında tam 1 dövrə vurarkən qət etdiyi məsafəni ayın günlərinə və günün saatlarına bölməliyik. Bu hesablamanı aparmaq üçün Yerdən Aya qədər olan məsafənin 384.403 km olduğunu nəzərə alsaq, bu rəqəm 384.000 x2x 3,14= 2.414. 050 km-dir. Müasir astronomlar sübut edir ki, Ayın Yer ətrafında tam bir dövrə vurması 27,3 günə başa gəlir. Bu rəqəmi 24-ə vurmalıyıq: 24x27,3=655 saat. Yəni Ayın Yer ətrafında tam bir dövrə vurması 655 saata başa gəlir və bu vaxt ərzində Ay 2.414.050 km məsafə qət edir. Beləliklə, Ayın sürəti 2.414.050:655= 3.685km/saat-dır. Göründüyü kimi, bu rəqəm Yerin Günəş ətrafındakı sürətindən (107.000 km/saat) 29 dəfə azdır. Amma bununla belə, bu sürət dəqiqədə təxminən 61 km, saniyədə 1,02 km-dir.

Ayın cazibə qüvvəsi də Yerinkindən 6 dəfə azdır. Bu o deməkdir ki, çəkisi 90 kq olan adamı Ayda tərəziyə çıxartsan, cəmi 15 kilo gələcək!

Ayın və Yerin fırlanma sürətlərini müqayisə etdikdə bu nəticəni çıxara bilərik ki, səma cisminin kütləsi artdıqca, hərəkət sürəti də artır. Yəqin ki, Ay və Yer kimi Günəş də ətrafındakı planetlərlə birlikdə özündən böyük başqa bir səma cisminin ətrafında fırlanır. Kütləsi Yerin kütləsindən 333.000 dəfə artıq olan Günəşin sürəti Yer üçün mövcud olan 30 km/

saniyə sürətindən daha böyük olacaqdır. Və həmin səma cismi bu sürətdən daha böyük sürətlə başqa bir səma cisminin ətrafına fırlanır! Bu mülahizəni sonsuzluğa qədər davam etdirə bildiyimizdən, həmin sürətin və səma cismlərinin də sonsuzluğa qədər böyüyəcəyini düşünməliyik.

Astronomların on minlərlə işıq ili məsafəsində kəşf etdikləri səma cisimləri bütövlükdə Qalaktikanı, müxtəlif Qalaktikalar isə Metaqalaktikanı yaradır.

Bizim daxil olduğumuz Qalaktikanın**(türklər ona Samanyolu deyir)** diametri 100 min işıq ilinə bərabər sayılır. Hesab olunur ki, Qalaktika nüvədən və 4 spiralvari qoldan ibarətdir. Günəş sistemi Qalaktikanın mərkəzindən 28.000 işıq ili məsafədə yerləşir və Qalaktikanın mərkəzinin(nüvəsinin) ətrafına fırlanır. Onun bir dəfə bu mərkəz ətrafında dövr etməsi 230 milyon ilə başa gəlir. Bəs sürəti? Saniyədə 217 km!

1 işıq ilinə bərabər olan məsafənin hansı kəmiyyətə bərabər olduğunu hesablayaq: məlum olduğu kimi, işıq saniyədə 300.000 km məsafə qət edir. Bir saatda 3600 saniyə, bir ildə 8.766 saat olduğunu nəzərə alaraq bu kəmiyyətləri bir-birinə vurduqda 30 min milyard km məsafə alınır!! İndi həmin rəqəmi 28.000-ə vurmaqla Günəş sisteminin Qalaktikanın mərkəzindən hansı məsafədə yerləşdiyini, alınmış rəqəmi isə 2-yə və 3,14-ə vurmaqla Günəş sisteminin Qalaktikanın mərkəzi ətrafında 230 milyon ilə qət etdiyi məsafəni hesablayın! Doğrudan da yorucu və darıxdırıcı məşğuliyyətdir! Üstəlik, nəzərə alın ki, Metaqalaktikaya bizim Qalaktikamız, Samanyolu kimi saysız sayda qalaktikalar daxildir və hər bir qalaktika hansısa mərkəzin ətrafında hansısa sürətlə hərəkət edir! Aydındır ki, həmin sürət Günəş sisteminin hərəkət sürətindən müqayisəolunmaz dərəcədə böyük olacaqdır. Bu qayda ilə davam etsək(axı Kainat sonsuzdur!!) sürətin hansı həddə qədər böyüyəcəyi məlum de-

yil. Və aydındır ki, həmin sürət elə bir həddə gəlib çatacaqdır ki, artıq işıq sürətini keçməlidir. Amma elm qəbul edib ki, işıq sürətindən böyük sürət ola bilməz, çünki, cismin sürəti işıq sürətinə yaxınlaşdıqca onun kütləsi sonsuzluğa qədər artır və sürət ləngiməyə başlayır.(Bu nəticə XX əsrin dahi alimi Eynşteynin E=mc2 düsturundan alınır. Burada E-enerji, m-cismin kütləsi, c-işıq sürətidir).

Fizikadakı bu çıxılmazlığı necə izah etməli, çıxış yolunu harada axtarmalı? Bunu mən də bilmirəm! Bu sahə fiziklərin və astronomların işidir.

Yaxşı olar ki, Kainatın sonsuzluğu səbəbindən insanın əsəblərinə pis təsir edən bu astronomik əyləncəyə ayırdığımız söhbəti yekunlaşdırıb öz mövzumuza qayıdaq, daha sadə məsələlərlə məşğul olaq.

Amma qədim insanların bir zamanlar sitayiş obyekti olan Ay haqqında əlavə etməliyəm ki, 1969-cu il iyulun 21-də ilk dəfə oraya insan ayağı dəymişdir. Bu insanlar amerikalı astronavtlar Armstronq və Oldrin idi. ABŞ dövləti Aya insan göndərilməsini sonralar da davam etdirmişdir. Axırıncı dəfə bu səyahət 45 il əvvəl, 1972-ci ilin 11 dekabrında baş vermişdir. Ayda cəmi 12 ABŞ astronavtı olmuş və oradan 380 kq Ay süxuru gətirmişlər. Maraqlananlar üçün deyim ki, Ay süxurlarının tərkibindəki elementlər Yer kürəsindəki elementlərin eynidir.

Başqa bir ölkə Aya insan göndərməyib.

Hazırda bəşəriyyət Günəşin dördüncü planeti Marsa-antik dünyada Müharibə Allahı hesab olunan planetə insan göndərməyə hazırlaşır.Şərqlilər ona Mərrix ulduzu deyir və onlar da bu qırmızı planeti müharibələrin səbəbkarı sayırlar.

## Təqvimlər

Bizim istifadə etdiyimiz təqvim 1828-ci ilin Rus işğalından sonra tətbiq edilən miladi təqvimdir, yəni xristianların peyğəmbəri (və Allahı!) İsanın (İisius-Xristosun) doğumu, başqa sözlə **miladı** ilə hesablanır. İçərisində yaşadığımız 2017-ci il o deməkdir ki, İsanın doğulmasından 2017 il keçib.

Müsəlmanlar hicri təqvimindən istifadə edirlər. **"Hicri**" sözü "**hicrət"** sözündən götürülməklə, **"k**öç", "köçmək" deməkdir və bu söz islam dininin yaradıcısı, İslam peyğəmbəri Məhəmmədin (s.ə.s.) Məkkə şəhərindən Mədinəyə hicrət etməsindən, köç etməsindən yaranıb. Həmin hadisə miladi təqviminin 622-ci ilində baş vermişdir. Beləliklə, əgər biz 2017 rəqəmindən 622-ni çıxsaq, hicri tarixini göstərən rəqəmi almalıyıq və İranda tarix elə bu cürdür. 2017-622=1395. Yəni xristian təqvimi 2017-ci il olanda İranda 1395-ci il olur. Amma ərəblərdə, peyğəmbərin nəvələrində tarix bir az başqa cürdür.

İranda təzə il Novruz Bayramı ilə başlayır və 1 il bayaq göstərdiyimiz kimi, 365 gün 6 saatdır. Yəni burada da Yer kürəsinin Günəş ətrafında tam bir dövrə vurması üçün keçən zaman 1 il hesablanır. Burada hesab nöqtəsi Günəş olduğuna görə, onun fars dilindəki anlamı **"ş**əms" sözündən istifadə edən iranlılar buna **"hicri-şəmsi"** təqvimi deyirlər.

İranda və Əfqanıstanda istifadə olunan hicri-şəmsi təqvimi Şərqin böyük mütəffəkkiri və şairi Ömər Xəyyamın iştirakı ilə hazırlanmış və müasir dövrə qədər üzərində bəzi dəqiqləşdirmələr aparılmışdır.

İranda yeni ilin ilk günü bizim Novruz bayramı adlandırdığımız gün, yəni mart ayının 21-dir(bəzən 22-i). İranlılar həmin günü təsadüfən seçməmişlər, martın 22-də gecə ilə gündüz bərabərləşir, həmin gündən başlayaraq, gecə qısalır, gündüz isə uzanır və iyunun 22-i ən uzun gündüz olur, iyunun 22-dən başlayaraq gündüzlər qısalmağa, gecələr uzanmağa başlayır və sentyabrın 22-də gecə ilə gündüz yenidən bərabərləşir. Amma gündüzlər qısalmaqda, gecələr uzanmaqda davam edir, dekabrın 22-si ən qısa gündüz və ən uzun gecə olur. Dekabrın 22-dən iyunun 22-nə qədər yenidən gündüzlər uzanmağa, gecələr qısalmağa başlayır, və bu prosesdə gecə ilə gündüz martın 22-də bərabərləşir. Göründüyü kimi, martın 22-si Yer kürəsinin keyfiyyətcə yeni mərhələsi, yazın başlanması, təbiətin  oyanması prosesinin, yəni yeni həyat tsiklinin başlanğıcı olduğuna görə, doğrudan da onu yeni ilin başlanğıcı saymaq olar. İran təqvimində də 12 ay var-martın 22-si İranın yeni ilinin ilk ayı olan fərvərdin ayının 1-dir, sonra ordubehişt ayı gəlir, 9-cu ay bizim üçün maraqlı olan azər ayıdır. Miladi təqvimi ilə 1945-ci il dekabr ayının 12-də, hicri-şəmsi təqvimi ilə 1323-cü il azər ayının 21-də Seyid Cəfər Pişəvərinin rəhbərliyi ilə İran İnqilabı baş vermişdi. **(Pişəvəri inqilabını çox vaxt baş verdiyi tarixlə əlaqədar olaraq 21 Azər hərəkatı da adlandırırlar).**Bu aylardan ilk 6-sı 31 gündən, qalan 5-i 30 gün, sonuncu ay isə 3 il 29, dördüncü il isə 30 gündən ibarətdir. Beləliklə. İran təqviminə görə il 365 gün 6 saatdan ibarət olur və müasir hesablamalarla üst-üstə düşür.

18 may 1048-ci ildə Xorasanda doğulduğu və 1131-ci ildə, 83 yaşında Nişapurda öldüyü yazılan Ömər Xəyyamın və onun müasirlərinin 900 il bundan əvvəl bu cür dəqiq təqvim tərtib etmələri heyrət doğurur. Axı o vaxtlar nə idiki kimi teleskoplar və başqa cihazlar vardı, nə də Yerin Günəş ətrafında fırlandığını bilirdilər. Məlum olduğu kimi, bunu

XVI əsrdə yaşamış polyak alimi Koopernik kəşf etmişdi. **Onun həmin nəzəriyyəsi Heliosentrik nəzəriyyə adlanır** ("Helios" yunanca "Günəş" deməkdir). Koopernikə qədər insanlar düşünürdülər ki, Yer kürəsi öz yerində dayanıb(-bəzi dinlərdə onun bir öküzün, digərlərində balığın belində dayandığını iddia edirdilər), Günəş onun ətrafında fırlanır. Koopernik sübut elədi ki, Günəş deyil, Yer onun ətrafında fırlanır. Amma təbii ki, onun nəzəriyyəsi də qüsurlu idi-Koopernik düşünürdü ki, Günəş hərəkətsiz dayanıb.

Ərəblərdə ilin hesablanması başqa cürdür və onlar Yerin Günəş ətrafında fırlanması hadisəsindən deyil, Ayın Yer ətrafında fırlanması hadisəsindən istifadə edirlər. Məlum olduğu kimi, onlarda növbələşdirməklə ayların 6-sı 29, 6-sı isə 30 gündən hesablanır və 1 il (6x29+6x30=354) 354 günə bərabər olur. Şəmsi ilindən 11 gün qısa olan bu il "ay" sözünün farscaya tərcüməsi olan "qəmər" sözündən götürülərək, **"hicri-qəməri"** il adlanır.

Beləliklə, hər ikisinin 622-ci ildən başlamasına baxmayaraq, qəməri ilin 11 gün qısa olması, yəni tez başa çatması səbəbindən, bu tarixdəki illərin sayı daha çox olacaqdır. Bəs bunu necə müəyyən edək ki, məsələn, İranda 1395-ci il olanda Səudiyyə Ərəbistanında neçənci il olacaq? Deyildiyi kimi, qəməri il 11 gün qısa olduğuna görə, əvvəlcə tapırıq ki, neçə 11 gün toplandıqda 1 qəməri il edəcəkdir? 354:11=32,18. Beləliklə, tapdıq ki, şəmsi ilin hər 32,18 ilində qəməri ilin sayı 1 il artacaqdır. Əgər şəms ilində 1395-ci ildirsə, onun qəməri illə neçə olacağını tapmaq üçün 1395-i 32,18-ə bölüb 1395-in üstünə gəlməliyik: 1395:32,18+1395=1438. Beləliklə, tapdıq ki, hicri-şəmsi ilinin istifadə olunduğu İranda 1395-ci il olanda Səudiyyə Ərəbistanında 1438-ci il olacaqdır.

Qədim Ərəbistanda islamdan qabaqkı təqvim başqa cür olsa da, dəqiqliyinə görə o da insanı heyrətə gətirir. Lap qə-

dimdən ay təqvimindən istifadı edən ərəblərdə il bəzən indi olduğu kimi 12 aydan ibarət idi(354 gün), **bəzi illərdə 13-cü ayı da artırırdılar və buna "nəhs ay", y**əni artırılmış ay deyilirdi. Bir-birini müəyyən ildən bir əvəz edən illər bütövlükdə 24 illik tsikl əmələ gətirirdi. Bu illərin 15-də illər qısa-12 aylıq, 9-da isə uzun-13 aylıq olurdu. Maraq xatirinə gəlin belə bir hesablama aparaq: qısa illər dediyimiz kimi 354 gündür. 354-ü 15-ə vuraq. 5.310 gün edir. Uzun il 1 ay, yəni 30 gün çoxdur və 384 gündür. 384-ü də 9-a vuraq: 3.456 gün. İndi bu rəqəmləri toplayaq: 5310+3.456=8.766 gün. Yəqin başa düşdünüz bu rəqəm nə deməkdir: bu rəqəm 24 ildəki (15+9) günlərin sayıdır. İndi həmin rəqəmi 24-ə bölüb, riyaziyyatda "ədədi orta", məişət dilində isə "ortalama" dediyimiz rəqəmi tapaq: 8.766: 24=365,25!! İnsanı heyrətə gətirən rəqəm! Tam müasir rəqəmlə, həm də Ömər Xəyyamın rəqəmi ilə üst-üstə düşür. **Belə çıxır ki, qədim** ərəblər də **ilin 365 gün 6 saatdan ibarət olduğunu bilirdilər!** Müasir din təfsirçiləri isə bizə sübut etməyə çalışır ki, Ərəbistanda islamdan qabaqkı dövr **"cahiliyyə dövrü"** idi. Düzdür, Allaha şərik qoşduqlarına görə "müşrik" adlandırılan bu insanları dini baxımdan cahil adlandırmaq mümkün olsa da, elmin həmin dövrdəki vəziyyətinə görə, ərəblər başqa xalqlarla müqayisədə heç də cahil və avam olmayıblar!

İslam peyğəmbəri 13-cü, nəhs ayı ləğv edərək ili 354 gündən ibarət etmiş və dediyimiz kimi, hicri-qəməri adlanan bu təqvim ili normal ildən 11 gün az olmuş və ərəb təqvimindəki aylar hər il 11 gün "irəliləməyə" başlamışdır. Ərəb təqvimində ilin birinci ayı məhərrəm, ikinci ay isə səfər ayıdır. Tutaq ki, məhərrəm ayının 1-i də İran təqvimindəki kimi martın 21-nə düşüb. Növbəti ildə məhərrəmin 1-i martın 10-a düşəcəkdir.

İndiki ərəb təqviminin ən qüsurlu cəhəti təkcə ilin astronomik, elmi mahiyyətinin pozulması deyil. Burada hansı ayların hansı fəsilə aid olduğu barədə də aydındır ki, danışa bilmərik. Əgər müəyyən bir ildə Səfər ayı yaz fəslinə düşübsə, başqa bir ildə yaya, payıza, hətta qışa da düşəcəkdir!

İndi Aşıq Musanın vəfat etdiyi 1331-ci hicri-qəməri ilini miladi tarixə çevirək. Bunun üçün əvvəlcə 1331-i 32,18-ə bölüb bu tarixin hicri-şəmsi ilindən nə qədər qabağa getdiyini tapırıq: 1331:32,18=41,36(bu rəqəmin kəsr hissəsi olan 0,36-nı atırıq). Tapdıq ki, Musanın məzar daşında yazılmış hicri-qəməri 1331-ci il hicri-şəmsi tarixində (1331-41=1290) 1290-ci il olub. Bu tarixin üzərinə hicrət tarixi olan 622-ni gəlməklə tapırıq ki,(1290+622=1912) **Aşıq Musa doğrudan da miladi tarixlə 1912-ci ildə, yəni 59 yaşında vəfat edib**.Qızı Qaratel isə iddia edirdi ki, atası 93 il yaşayıb və ölənə qədər də Ağkilsədə oxuyanda, zodlular da, zarzebillilər də onun məlahətli və gur səsini eşidirdilər!! Ah, bu dastansevər xalqım!

Hicri tarixindən bəhs edərkən bunun şəmsi, yoxsa qəməri təqvimi olduğunu qeyd etməyən, çox güman ki, bunu bilməyən prof. Sədnik Paşayevin Aşıq Musanı Aşıq Ələsgərdən daha yaşlı etməsi haqqındakı mülahizəsi da səhv çıxdı! Ələsgər ondan 1 yaş böyük olub. Və gələcək aşıq-şairin saza-sözə olan marağını nəzərə alsaq, nəzəri olaraq düşünməliyik ki, **Ələsgər aşıq “nağıllarına” qulaq asmağa özündən 13 yaş balaca olan Paşa ilə yox, 1 yaş balaca olan Musa ilə gedirmiş!**

Aşıq Musanın **“Sazlı-sözlü Göyçə”** kitabına daxil edilmiş bir qoşması ilə onun haqqındakı söhbətimi tamamlamaq istəyirəm:

*Dəli könül, səndə nələr dolanır,*
*Biri qışdır, bir payız, biri yaz.*

*Üç əlamət gözəllərin nişanı:*
*Biri işvə, biri qəmzə, biri naz.*

*Coşqun çaylar kimi qaynadım, axdım,*
*Heyva tək saraldım, gül kimi soldum.*
*Gedər ikən üç gözələ tuş oldum:*
*Biri qarı, biri gəlin, biri qız.*

*Qürbət eldə kimdi halın soruşan?*
*Ağ üzündə qoşa xal verir nişan.*
*Üç şeydir ki, bu otağa yaraşan:*
*Bir Musa, biri söhbət, bir saz.*

Amma orasını mütləq qeyd etməliyəm ki, 4-4-3 bölgüsündə yazılmış bu şeirin bəzi misralarında bu bölgü pozularaq 6-5 şəklinə düşür(5-ci, 6-cı və 10cu misralar) ki, bu ya aşığın, ya da tərtibçinin ciddi qüsurudur.

## Son söz yerinə

Bu kitabda Azərbaycan ədəbiyyatşünaslığına aşağıdakı yeniliklər gətirilmişdir:

1.Aşıq Ələsgərin, atasının, əmisinin, əmisi oğlanlarının, qardaşlarının, oğlanlarının, müasirlərinin doğum tarixi müəyyən edildi. Alməmmədin qardaşı(atası yox!) Allahverdi 1814-cü ildə, Alməmməd 1824-cü ildə, Ələsgər 1852-ci ildə, Salah 1855-ci, Xəlil 1861-ci, Məhəmməd 1871-ci ildə, Ələsgərin oğlanları Bəşir 1882-ci(1867-ci ildə deyil), Əbdüləzim 1888-ci, Talıb 1892-ci(1877-ci ildə deyil) ildə doğulublar. İndiyə qədər yazıldığı kimi Alməmməd 1868-ci ildə ölməyib (1873-cü ilə aid arxiv sənədində 49 yaşında və sağ göstərilmişdir). Talıb 102 il deyil, təxminən 87 il yaşayıb.

2.Sübut edildi ki, indiyə qədər yazıldığı kimi Allahverdi Alməmmədin atası yox, ona atalıq etmiş qardaşıdır. Atalarının adı Haxverdidir. Allahverdi atasının adını böyük oğluna qoyub.

3.Ələsgərin həyatı haqqında yazılanlar ”Ələsgərlə Səhnəbanı” dastanındakı rəvayətlərdən götürülüb, bu rəvayətlərin isə əksəriyyəti uydurmadır. Mustafa Səhnəbanı ilə evlənəndə atası “Pullu Məhərrəm” həyatda yox idi.

4.Səhnəbanının Kərbəlayi Qurbanın yeganə övladı olması həqiqətə uyğun deyil. Ələsgər onun evində nökərçiliyə başlayanda Qurbanın Həsən adında 1 yaşında oğlu vardı.

5.Kərbəlayi Qurbangil 7 qardaş olmaqla kəndin ən zəngin ailəsi idi, Ələsgərin ailəsi isə çox yoxsul idi.

6.Alməmmədə və Allahverdiyə aid edilən şeirlərin müəllifi onlar deyil.

6.Səhnəbanının ailəsi Ağkilsəyə Dərəçiçək mahalının Ulaşıq kəndindən gəlib, Ələsgərin ailəsinin haradan gəldiyi məlum deyil. 1831-ci ildə Gərnibasar mahalının Gilanlar kəndində qeydiyyata alınmış bir qarapapaq ailəsi bu ailəyə oxşayır, amma dəqiq olmaya da bilər.

7.1831-ci ildə Ağkilsə kəndi boş idi, hələ məskunlaşdırılmamışdı və orada heç kim yaşamırdı.

8.Ələsgər 41 yaşında deyil, 25 yaşında evlənib.

9.Ələsgərin Paşa adlı həmkəndlisi ilə uşaqlıq dostu olması həqiqətə uyğun deyil, çünki Paşa ondan 13 yaş balacadır. Paşa iddia edildiyi kimi 120 il deyil, cəmi 75 il yaşayıb (1865-1940).

10.Aşıq Ələsgərlə Aşıq Alı 1876-ci ildə deyişib. Bu vaxt Ələsgərin 24, Alının 41 yaşı vardı.

11.Ələsgər indiyə qədər iddia edildiyi kimi 105 il deyil, cəmi 74 il yaşayıb (1852-1926).

12.Ələsgər qarapapaq tayfasının bosçalı tayfasına mənsubdur. Hesab edilir ki, "bosçalı" sözü sonradan "borçalı" şəklini alıb.

13.Məşhur şair-jurnalist, "Qafqaz" qəzetinin redaktoru Polonskinin Aşıq Ələsgəri görməsi və bu haqda məqalə yazması uydurmadır. Polonnski həmin məqaləni yazan vaxt(1850-ci il) Aşıq Ələsgər hələ anadan olmamışdı.

14.Ələsgərin sevdiyi Səhnəbanının əsil adı Səkinəbanudur.

15.Müəyyən olundu ki, Kərbəlayi Qurbanın arvadının adı xalq şairi O.Sarıvəllinin yazdığı kimi Saray deyil, Yetərdir.

16.Ələsgər Almәmmədin böyük oğlu deyil. Onun böyük oğlu Ələsgərdən 3 yaş böyük Məhəmməd olub. 1849-cu ildə doğulan Məhəmməd cavan rəhmətə gedib və Alməmməd 1871-ci ildə anadan olan sonuncu oğluna onun adını qoyub. Sonradan o Şair Məhəmməd kimi tanınıb.

17. Ələsgərin yazı-pozu bilməməsi doğru deyil. O, dərin bilikli və yazı-pozu bilən savadlı adam olub, Quran oxuyurmuş. Həmin biliyini isə 5 il yanında təhsil aldığı, şəyirdlik etdiyi Aşıq Alıdan alıb.

18.Aşıq Alı indiyə qədər yazıldığı kimi 1801-ci ildə Qızılvənk kəndində deyil, 1835-ci ildə Göyçə mahalının Şişqaya kəndində anadan olub.

19.1831-ci ildə Qızılvənk kəndi hələ məskunlaşdırılmamışdı və orada heç kim yaşamırdı.

20.Bəzi tədqiqatçıların iddia etdiyi kmi (Ə.Əbülhəsənoğlu) Aşıq Alı milli mənsubiyyəti baxımından milli kürdü deyil, ayrımlı türküdür.

21.Aşıq Alının həyat yoldaşı Bəstinin atası Niftalı Şahəli oğlu milli tayfasına mənsubdur.

22.1911-ci ildə vəfat edən Aşıq Alı indiyə qədər iddia edildiyi kimi 110 il deyil, cəmi 76 il yaşayıb.

23. Aşıq Alının əsil adı Almədətdir.

24.Aşıq Alının atası Mirzənin atasının adı Haxverdi deyil, Ovçudur.

25.Mirzənin Nəbi adında bir qardaşı olub.

26.Mirzə və Nəbi qardaşları 1848-1850-ci illərdə Şişqaya kəndindən Qızılvənk kəndinə köçüblər.

27.Aşıq Alının Abbas adında qardaşı olub.

28.Alının oğlanları doğuluş ardıcıllığına görə belədir: Abdulla, Məhəmməd və Hüseyn. Hüseyn cavan rəhmətə gedib və sonradan onu ya Nəbinin oğlu, ya da Ağ Aşığın oğlu İsmayılla səhv salıblar.

29. Alının qayınatası Niftalı Şahəli oğlu Çamurlu kəndinin deyil, Qızılvənk kəndinin sakini olub, burada da 1857-1859-cu illər arasında vəfat edib. Qızılvənk kəndinə isə Göyçə mahalının Yarpızlı kəndindən gəlib.

30.Təxminən həmin tarixdə məskunlaşan Çamıurlu kəndinə Qızılvənk kəndindən 14 ailə gedib və Niftalı yox, oğlu Şahəli də onların arasında olub.

31.Alı ilə Bəsti 1856-cı ildə nişanlanıb, 1857-ci ildə evlənib və onların böyük oğlu Abdulla 1858-ci ildə doğulub.

32.”Aşıq Alının Türkiyə səfəri” dastanındakı Hacı Məjlum, Hacı Nağı tarixi şəxsiyyətlərdir və adları arxiv sənədlərində təsbit olundu.

33.Aşıq Alının ustadı Ağ Aşıq indiyə qədər yazıldığı kimi 1750 və ya 1754-cü ildə deyil, 1791-ci ildə doğulub.

34.Qara Osman onun babas deyil, atasıdır.

35.Milliyəti milli tayfasına mənsubdur.

36.Aşıq Allahverdi Osman oğlu 1831-ci ilin kameral siyahısında Göyçə mahalının əhalisi milli olan Aşağı Keyti kəndində 16 nömrəli ailə kimi qeydə alınıb.

37.Ağ Aşıq Göyçənin Kərkibaş kəndində deyil, İranın Sulduz mahalında doğulub.

38.1831-ci ildə Kərkibaşı kəndi də Ağkilsə və Qızılvənk kəndləri kimi hələ boş idi və məskunlaşdırılmamışdı.

39.Göyçə mahalında 1831-ci ildə qeydə alınmış 227 milli ailəsinin əksəriyyəti hansısa səbəbdən 1842-ci ildən qabaq Göyçə mahalından köçüblər, amma Aşıq Allahverdi Göyçədə qalıb və yeni yaranan Kərkibaş kəndinə köçüb.

40.İndiyə kimi iddia edildiyi kimi Ağ Aşıq-Aşıq Allahverdi 105 il deyil, 68 ilə yaxın yaşayıb.

41.Şərur mahalının Kosacan kəndində 1820-1840-cı illərdə doğulduğu və 1920-ci ildə Arazın sağ sahilində yerləşən Ərəblər kəndində 80-100 yaşlarında öldüyü haqqında mülahizə yürüdülən Aşıq Allahverdi Baba oğlu Şərur-Dərələyəz qəzasının Kosacan kəndinə aid olan Kameral siyahıda aşkar edildi. Məlum oldu ki, Allahverdi Baba oğlu 1857-ci ildə doğulub.

42.Ağ Aşığın İrəvan Sərdarı Hüseynqulu xan tərəfindən təqib olunduğu, incidildiyi haqqındakı mülahizələr həqiqətə uyğun deyil.

43.”Ağ Aşıq” ləqəbi bəzilərinn uydurduğu kimi ona ata-anasının üzünə ağ olmasına görə yox(belə bir hadisə ümumiyyətlə olmayıb), piqment olmadığına görə dərisinin və tüklərinin ağlığına görə verilib. Belə canlılar rəngləri də seçmir, zəif görür və “albinos” adlanırlar.

44.Ağ Aşığın böyük oğlu Məhərrəm 1821-ci ildə doğulub və 52 yaşına çatmadan ölüb. Aşığın digər oğlu İsmayıl isə 1839-cu ildə doğulub və indiyə qədər deyildiyu kimi cavan vəfat etməyib. 1873-cü ilin kameral siyahısına görə 34 yaşında hələ yaşayırdı, həmin vaxt onun atası Aşıq Allahverdi də, böyük qardaşı Məhərrəm də ölmüşdü və Məhərrəmin Allahverdi adında 8 yaşlı oğlu İsmayıl əmisinin ailəsində yaşayırdı.İsmayıl 47 yaşına çatmadan ölüb və Ağ Aşığın nəsli Məhərrəmin oğlu Allahverdi ilə davam edib.

45.Aşıq Hüseyn Şəmkirli kimi tanınan məşhur sənətkarın əsil adı “Hüseyn” yox, “Söyün”dür. “Söyün” sözü “Hüseyn” sözünün dialekt şəkili olsa da, onu Hüseyn kimi yazmaq düzgün deyil.

46.Aşıq Söyün Şəmkirli indiyə qədər deyildiyi kimi 1811-ci ildə deyil, 1838-ci ildə doğulub. Əsgər adlı qardaşı, Çoban adında oğlu olub. Qardaşı cavan rəhmətə getdiyinə görə, oğlunun adını dəyişdirib Əsgər qoyub.

47. İddia edildiyi kimi Aşıq Söyün Şəmkirli Molla Pənah Vaqifin bacısı oğlu və ya bacısı nəvəsi deyil, çünki 1717-ci ildə doğulduğu yazılan Vaqif 1838-ci ildə doğulan Aşıq Söyündən 121 yaş böyükdür və bu cür qohumluq istisna olunur.

48.1842-ci ildə Yelizavetpol quberniyasının Qaracaəmirli kəndində (indi Şəmkir rayonunda yerləşir) Aşıq Qara, Aşıq Rüstəm və Şair Mustafa adında üç yeni sənətkar üzə

çıxarılıb ədəbi ictimaiyyətə təqdim edildi. Qaracaəmirli kəndinin XIX əsrdə mühüm mədəniyyət mərkəzi olduğu göstərildi.

49.1800-cü və ya 1801-ci illərdə Göyçə mahalının Daşkənd kəndində doğulduğu iddia edilən Şair Məmmədhüseynin 1816-cı ildə Göyçə mahalının Qızılcıq(başqa adı Abul) kəndində doğulduğu müəyyən edildi.

50.Ağkilsə kəndində doğulan Göyçəli Aşıq Musanın bəzi tədqiqatçıların yazdığı kimi 1816-cı və ya 1830-cu illərdə deyil, 1853-cü ildə doğulduğu müəyyən edildi.

51.Aşıq Musa qızı Qaratelin dediyi kimi 92-93 il deyil, cəmi 59 il yaşayıb.

52.Hicri-qəməri təqvimlə verilən bir sıra tarixlər dəqiqləşdirildi. Müəyyən edildi ki, Aşıq Ələsgərlə Aşıq Alının deyişdiyi hicri-qəməri 1294-cü il miladi tarixlə 1875 deyil, 1876-cı ildir.

## Kitabın içindəkilər

Elmi redaktordan ............................................................... 3
Aşıqlarımızın ömür yoluna aydınlıq gətirməyin yeni mərhələsi başladı ............................................................... 7
Müəllifdən ............................................................... 21
Adım Ələsgərdir, Göyçə mahalım ............................................................... 28
Ələsgərlə Səkinəbanu ............................................................... 37
Zöhrə və Paşa ............................................................... 46
Sənədlər nə deyir? ............................................................... 48
Nağıllar ............................................................... 62
Ulaşıq ............................................................... 64
Gökçələr ............................................................... 84
Aşıq Ələsgərin savadı vardımı? ............................................................... 87
Başqa uydurmalar ............................................................... 103
Polonski və Aşıq Ələsgər ............................................................... 107
Bəxtsiz dahi ............................................................... 109
Şəmkirli Aşıq Hüseyn ............................................................... 148
Yeni adlar-yeni tarixi şəxsiyyətlər ............................................................... 156
Ondan qalan qatar-qatar söz oldu ............................................................... 158
Gəşt eylədim Bağdad, Bəsrə, Buxara ............................................................... 223
Yatıb, oyanmaz, oyanmaz ............................................................... 257
Göyçəli Aşıq Musa ............................................................... 265
Astronomiyaya qısa səyahət ............................................................... 268
Təqvimlər ............................................................... 273
Son söz yerinə ............................................................... 279

# QEYD ÜÇÜN

# QEYD ÜÇÜN

**NAZİR SURXAY OĞLU**
**ƏHMƏDLİ**

# HAQQ-NAHAQQ SEÇİLƏR HAQQ DİVANINDA

Yığılmağa verilmişdir: 10.05.2017. Çapa imzalanmışdır: 22.05.2017.
Ölçü: 84x108 1/16. Çap vərəqi: 18,0. Sifariş: 108/17. Say: 500 ədəd.

NURLAR
Nəşriyyat-Poliqrafiya
Mərkəzi

Bakı, Az1122, H.Zərdabi pr. 78
Tel: 4977021 / Faks: 4971295
E-poçtu: office@nurlar.az

9 789952 507201



*Nazir Surxay oğlu Əhmədli 1961-ci ildə Dərələyəz mahalının Gabud kəndində doğulub. Atatürk Mərkəzində şöbə müdiridir.*

*"Milli Məclisdən etüdlər", "Biz sözü seçdik", "Mustafa Kamal Atatürk" və b. kitabların müəllifidir.*

*"Haqq nahaq seçilər Haqq divanında" müəllifin sayca doqquzuncu kitabıdır.*